
MÜASİR İPƏK YOLU ÜZƏRİNDƏ TÜRK DÖVLƏTLƏRİNİN SOSİAL-MƏDƏNİ İNTEQRASİYA PROSESLƏRİ: ÇAĞIRIŞLAR VƏ PERSPEKTİVLƏR

SOCIO-CULTURAL INTEGRATION PROCESSES TURKIC STATES ON THE MODERN SILK ROAD: CHALLENGES AND PERSPECTIVES



AZƏRBAYCAN MEMARLIQ VƏ İNŞAAT ÜNİVERSİTETİ
Azerbaijan University of Architecture and Construction

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ
FƏLSƏFƏ VƏ SOSİOLOGİYA İNSTİTUTU

INGLA INTERNATİONAL EDUCATİON TRAİNİNG CENTER

ƏRZURUM ATATÜRK ÜNİVERSİTETİ (TÜRKİYƏ)
Erzurum Atatürk University (Turkey)

KOKAND ÜNİVERSİTETİ ÖZBEKİSTAN

MÜASİR İPƏK YOLU ÜZƏRİNDƏ TÜRK DÖVLƏTLƏRİNİN SOSİAL-MƏDƏNİ İNTEQRASİYA PROSESLƏRİ: ÇAĞIRIŞLAR VƏ PERSPEKTİVLƏR

BEYNƏLXALQ ELMİ KONFRANSIN MATERİALLARI
Proceedings of the International Scientific Conference

Baki, 20–21 noyabr 2025
Baku – 20–21 November 2025

KONFRANSIN ELMI KOMITƏSI

- Akademik İsa Həbibbəyli – Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) prezidenti.
- Professor Gülçöhrə Məmmədova – Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru.
- Akademik Şahin Mustafayev - Beynəlxalq Türk Akademiyasının prezidenti.
- Professor İlham Məmmədazadə – AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun direktoru.
- Akademik Kamal Abdulla – Azərbaycan Dillər Universitetinin rektoru.
- Akademik Nizami Cəfərov – Atatürk Mərkəzinin direktoru (Azərbaycan).
- Professor Hamlet İsaxanlı – Xəzər Universiteti, Direktorlar və Qəyyumlar Şurasının sədri.
- Professor Kerem Karabulut – Erzurum Atatürk Universitetinin dekanı (Türkiyə).
- Professor Nagima Baitenova – Fərabi adına Qazax Milli Universiteti, Almatı (Qazaxıstan).
- Professor Zebo Qobilova Bakirovna - Elmi işlər və innovasiyalar üzrə prorektor, filologiya elmləri doktoru
- Akademik Mircea Dimitru – Rumıniya Elmlər Akademiyasının vitse-prezidenti (Rumıniya).

SCIENTIFIC COMMITTEE OF THE CONFERENCE

- Academician Isa Habibbayli – President of the Azerbaijan National Academy of Sciences (ANAS).
- Professor Gulchohra Mammadova – Rector of the Azerbaijan University of Architecture and Construction
- Academician Shahin Mustafayev – President of the International Turkic Academy.
- Professor Ilham Mammadazade – Director of the Institute of Philosophy and Sociology of ANAS.
- Academician
- Kamal Abdulla – Rector of Azerbaijan University of Languages.
- Academician Nizami Jafarov – Director of the Ataturk Center (Azerbaijan).
- Professor Hamlet Isaxanli – Chairman of the Board of Directors and Trustees, Khazar University.
- Professor Kerem Karabulut – Dean, Atatürk University of Erzurum (Türkiye).
- Professor Nagima Baitenova – Al-Farabi Kazakh National University, Almaty (Kazakhstan).
- Professor Zebo Qobilova Bakirovna – Vice-Rector for Science and Innovation, Doctor of Philological Sciences.
- Academician Mircea Dimitru – Vice-President of the Romanian Academy of Sciences (Romania).

Təşkilat komitəsi:

- Dos. Dr. Rauf Məmmədov (Azərbaycan Memarliq və İnşaat Universiteti)
- Dos. Dr. Könül Əliyeva (Azərbaycan Memarliq və İnşaat Universiteti)
- Dos. Dr. Reyhan Əkbərli (Azərbaycan Memarliq və İnşaat Universiteti)
- Dos. Dr. Lalə Nəsibova (Ingla International Education Training Center)
- Dos. Dr. Qabil Camalov (AMEA Fəlsəfə və Sosiologiya İnstitutu)
- Dos. Dr. Həbib Hüseynov (AMEA Fəlsəfə və Sosiologiya İnstitutu)

MÜNDƏRİCAT

GİRİŞ		8
FƏSİL I. TÜRK XALQLARI ARASINDA MƏDƏNİ VƏ MƏNƏVİ İNTEQRASİYA		
Prof. Dr. Gulusoy I. E.	Türk Dünyasında Ortak Ders Kitabı Arayışı: Azerbaycan Türkçesi ve Türkiye Türkçesi Örneğinde	16
Prof. Dr. Dilaver Gürer	Türk-İslâm dünyasının birlik ve beraberliğinde Ehl-i Beyt, tasavvuf, Ahmed Yesevî ve Mevlâna Celaleddin-i Rumî	21
Prof. Dr. İshakov M. M.	Avestanın "yasna" bölümündeki 53. ilahi: türk ve iran halklarında nikâh ve aile mukaddesliği fikrinin kadim kökleri	30
Dos. Dr. Umurzakova K.X.	İntegration processes of Turkic States on the modern Silk Road	35
Dos. Dr. Mardonova L. U.	Turkiy davlatlar o'rtasidagi madaniy va ma'naviy integratsiya: Ipak yo'li merosi va zamonaviy tajriba	40
Dos. Dr. Ələkbərli F. I.	Türkoloji Qurultayın İdeoloji-Fəlsəfi Aspektləri və Çağdaş Türk Dünyası	42
Dos. Dr. İsmayılzadə S.C.	Türk Mədəni Kimliyi və Onun İnteqrasiyadakı Rolu: Dil, Din və Tarixi Yaddaş Kontekstində	53
Dos. Dr. Jumanova Ş. İ.	Yoşlar o'rtasida umumiy alifboni ommalaştirişniñ samarali usullari	59
Dos. Dr. Həsənov A. Ş.	Türk dövlətlərinin inteqrasiyası tarixi zərurət kimi	65
Dos. Dr. Kərimi M. R.	Ortaq Türk dili	71
Dos. Dr. Əhmədova V. Ş.	Ortaq türk dilinin zəruriliyi	80
Dos. Dr. Əsgərova Z. Q.	Türk adət-ənənələri mənəvi dəyərlər kimi	85
Turanboyev B. Q.	Prospects for the Development of Cultural Tourism and the Formation of Common Turkic Tourist Routes in the Turkic World	92
Yormonqulova N.İ.	Strengthening Regional Solidarity through Cultural Integration	96
İsmayılzadə İ.M.	İpək Yolundan Türk Dövlətləri Təşkilatına: Türk Birliyi İdeyasının Tarixi Təkamülü	100
İsmayılova T. Ə.	Türk Dövlətləri Arasında Ortaq Əlifbanın və Milli Mədəni Dəyərlərin Qorunması	107
Maxkamov S.S.	Türk devletleri arasında kültürel ilişkilerin güclendirilmesi ve kültürel entegrasyonun temel ilkeleri	112
Мнажатдинова Ж.Ж.	Влияние Международного Спортивного Сотрудничества на Социальное Единство Тюркских Народов	119
Quliyeva Z.R.	Türk dövlətləri birliyinə ortaq əlifbanın təsiri	125
Yokubjonova D.S.	Cultural integration: principles and challenges in the Turkic world	128
Ismoilov B.M.	Zamonaviy "Buyuk ipak yo'li"da turkiy davlatlarniñ ijtimoiy-madaniy integratsiya jarayonlari	131
Muratov A.A.	Language unity and cultural cohesion in the turkic world: challenges and prospects	134
Kuchkarova G.	Cultural Exchange Programs and Cooperation Opportunities among Turkic States	138
Abdullajonov D., Abdullajonova G.	Analytical Perspectives on the Cultural Integration of Turkic States along the Modern Silk Road.	145
FƏSİL II. MƏDƏNİ TURİZM VƏ İPƏK YOLU İRSİ ƏSASINDA İNTEQRASİYA		
Prof. Dr. Ağayeva Z.	Böyük İpək Yolu sosial-mədəni inkişaf konsepsiyası kimi	152

Prof. Dr. Asadov M. H.	Zamonaviy ipak yo‘li bo‘ylab ma’naviy yuksaliş va Xorazm ma’rifati	156
Prof. Dr. Aydıngün İ.	Türk kültür dünyası’na radikal islam’ın etkisi	162
Dos. Dr. Ələkbərov Ə.	Beynəlxalq Münasibətlərdə Ticarət Yollarının Rolu və Onların Türk Xalqları Tarixində Yeri	166
Dos. Dr. Akbarova-G. Ben Tzvi., Dos. Dr. Dilbazi G. Dilbaz	The history of origin and selection of the Azerbaijani horse breed	182
Dos. Dr. Rustamova D. D.	Processes of socio-cultural integration among Turkic States along the Great Silk Road	187
Dos. Dr. Aliyeva Z.	The Intellectual, Cultural, and Economic Integration Mechanisms for Turkic States along the Modern Silk Road	189
Dos. Dr. Şabanov Z., Sadıxova F.	Türk dünyasının gələcəyinə mədəni-fəlsəfi baxış	192
Mexmonaliyev U.E.	Turkiy Davlatlarda Buyuk Ipak Yo‘li Merosiga Asoslangan Madaniy Turizm Klasterlarini Rivojlantirişniñ Innovatsion Mexanizmlari	196
Əzimova L.F.	Mədəni inteqrasiyanın mərkəzi kimi Şuşa: rekreasiya və kurort potensialı	199
Mardonova L. U.	Turkiy davlatlar o‘rtasidagi madaniy va ma’naviy integratsiya: Ipak yo‘li merosi va zamonaviy tajriba	206
Maxkamov S.S., Qurbonova Ş. A.	Kültürel Turizmin Geliştirilmesi ve Türk Dünyasında Ortak Kültürel Turizm Rotalarının Oluşturulması	209
Əsgərova X.İ.	Böyük İpək Yolunun Azərbaycan Tarixində Yeri və Rolu	216
Umarov O. M.	Turkiy Davlatlarda Buyuk Ipak Yo‘li Merosiga Asoslangan Madaniy Turizm Brendini Şakllantiriş Mexanizmlari	220
Hajıýeva A.B., Orazmamedova A. O.	Gurbangulı Berdimuhamedovıň “Türkmenistan – Beýik Ýüpek Ýolunıň Ýüregi” Kitabında Toponimler	224
Jo‘rayev U. Ş.	Zamonaviy Ipak yo‘liniñ iqtisodiy va siyosiy ahamiyati: Turkiy davlatlar nuqtai nazaridan	235
Solixo‘jayev S.A.	Turkiy davlatlar o‘rtasida raqamli hamkorli” va “Onlayn Ipak Yo‘li” va boşqa turli loyihalarini taşkil etiş	238
Baghirova S. M.	From the Silk Road to the Belt and Road Initiative in the context of the Non-Aligned Movement (NAM): a cultural-historical perspective	247
Bünyatova Ş. Ə.	Türk Dili və Mədəni Diplomatiya: Türk mədəni kimliyinin formalaşmasında türk dilinin rolu	251
Sobirova N. M.	Common Language, Alphabet, and Educational Integration in Central Asia: Challenges and Prospects	259
FƏSİL III. RƏQƏMSAL TRANSFORMASİYA VƏ TEXNOLOJİ İNNOVASİYALAR		
Проф. Др. Мирзаев И. К.	Цифровая грамотность как катализатор интеграции тюркских языков и культур в глобальное информационное пространство	264
Prof. Dr. Qobilova Z. B.	Turkiy xalqlar şoiralari antologiyasi va veb saytini yaratiş orqali adabiy-madaniy aloqalarni mustahkamlaş	269
Mammadov E.R.	Digital Culture and the New Silk Road: Innovative Integration Models in the Information Policies of Turkic States	274
Puraəli Y.	Rəqəmsal dövrdə Türk dilinin standartlaşdırılması: Türk dünyasında identiklik, texnologiya və geokultura tələbləri	285
İbrahimova G.B.	Türk mədəniyyətinin rəqəmsal mühitdə təbliği üçün ortaq platformaların yaradılması	288
Turanova D.	Digital Integration among Turkic States: Unified Payment Systems and Technological Platforms	292

Səfixanov E.	Müasir İpək Yolu və Türk Dünyasının Geoiqtisadi Transformasiyası: Rəqəmsal Marşrutların Əhəmiyyəti	296
Gulomqodirova M. S.	Integration of Human Resource Management Strategies in the Enterprises of Turkic States: Experience and Prospects	304
Pulatov Ş. O.	Opportunities and Challenges in the Process of Digital Integration of the Culture of Turkic States on the Modern Silk Road	309
FƏSİL IV. İQTİSADİ ƏMƏKDAŞLIQ, MALİYYƏ VƏ İNVESTİSİYA İNTEQRASİYASI		
Prof. Dr. Məmmədov M.	Müasir "İpək yolu" üzərində türk dövlətlərinin sosial-iqtisadi inteqrasiyası	315
Prof. Dr. Karabulut K.	21. yy'da Türkiye ve Azerbaycan: sosyo-ekonomik değerlendirmeler	322
Dos. Dr. Mammadova K.M.	Cultural Branding and Economic Competitiveness along the Silk Road	329
Dos. Dr. Tojiyeva M. M.	Comparative Analysis of Statistical Performance across Turkic Countries	342
Dos. Dr. Murtazova S. B., Mamatkulov B. Ş.	The Trans-caspian international transport corridor (titc) and the role of the organization of Turkic States in the global geo-economic system	347
Dos. Dr. Musayev E. A.	Türk dövlətləri və qlobal enerji bazarları: İpək Yolu infrastrukturunun rolu	351
Polatoğlu M. G., Polatoğlu B.	Türkiye İle Azerbaycan arasındaki ilişkilere petrokimya sektörü açısından genel bir bakış	356
Akhmadjonov O. X.	Impact of Foreign Islamic Investment on Entrepreneurship and Small Business in the Republic of Uzbekistan	366
Abdullayev A.A.	O'zbekistonniñ Jahon Savdo Taşkilotiga Qo'şilişi Jarayoniniñ Iqtisodiy O'siş Dinamikasiga Ta'siri: Turkiy Davlatlar va Xitoy Tajribasi Tahlili	373
Ashiralieva Sh. G.	Utilizing the same performance analysis method for bank evaluation within Turkish countries	394
Mominova K.	On the prospects for developing small business exports among turkic countries based on national brands and cultural heritage	400
Qazax N. A.	Türk dövlətləri arasında əmək bazarının inteqrasiyası və ali təhsilli gənclərin məşğulluq imkanlarının genişləndirilməsi	405
FƏSİL V. ELM, TƏHSİL VƏ DİPLOMATİK ƏMƏKDAŞLIQ		
Prof. Dr. Aydıngün A.	Türklük, Türk Kültür Dünyası ve Müzelerde Tarih Yazımı: Ankara'daki 'Türk Tarih Müzesi ve Parkı' Örneği	412
Проф. Др. Кодирова Б.И., Проф. Др. Мирзаева Д.Ф.	Безграмотность – существенный барьер на пути к интеграции тюркских народов.	416
Dos. Dr. Alieva K. R.	Post-Pandemic Educational Diplomacy: Scientific Synergy and the Common Knowledge Space among Turkic Universities	422
Dr. Neil Watson	Science and Philosophy as a Bridge for the Integration of Turkic States along the Modern Silk Road	433
Доц. Др. Алимова Р. Р.	Некоторые соображения по созданию учебника общей истории тюркского мира	436
Dos. Dr. Kazımi P. F.	Türk Dövlətlərində Elmi İnformasiya Mübadiləsi Problemləri: Elmi İnformasiya Sahəsində Əməkdaşlığın Formalaşma Modelləri	442
Dos. Dr. İsmayilova J. M.	Ortaq türk tarixi konsepsiyasinin formalaşdırılması: milli kimlik, tarixi yaddaş və vahid mədəni məkanın yaradılması	444
Dos. Dr. İradə Zərqan	Diplomatik Əlaqələrin Formalaşmasında Tarix, Şəxsiyyət və Mədəniyyətin Rolu	452

Umarov T.M.	Turkiy Davlatlarda Ta'lim Tizimlarini Uyg'unlaştiriş va O'qituvçilar Tayyorlaşda İntegratsion Yondaşuvlar	461
Мелибаева Г. Н.	Создание Общих Учебников для Тюркского Мира: Инициативы, Вызовы и Перспективы Интеграции в Сфере Образования	468
Илмуродова Ф. Ш.	Членство в организации тюркских государств: инициативы и перспективы	473
Yulbarsova G.	Cultural integration in education: principles, challenges, and practices in Uzbekistan	481
FƏSİL VI. SOSİAL SİYASƏT, CƏMİYYƏT VƏ GENDER MƏSƏLƏLƏRİ		
Проф. Др. Аббасов А. Ф.	Новый шелковый путь в контексте интеграционных процессов в тюркском мире и формирования глобального миропорядка	486
Проф. Др. Габитов Т.Х., Зейнуллин Р.Б.	Тюркский Мир как Ареал Дискурса Цивилизаций и Духовная Ситуация Современности	495
Проф. Др. Захибуллозода (Шарипова) М.З.	Развитие тюркских языков в Северном Таджикистане	509
Prof. Dr. Mirzazade R.	Soverign Azerbaijan and China in political-cultural relations: the belt and road iniative as a framework for geostrategic and geoeconomic-trade cooperation	514
Dos. Dr. Qaraqoyunlu Y.	Türk dünyası diasporunun vizyonu: Türk Dövlətlər Təşkilatından Türk Birləşik Dövlətlərinə keçiş	516
Доц. Др. Ахмадходжаева М. М., Мирмухамедов Б. Б.	Медицинская Профилактика как Отражение Философии Гармонии Человека и Общества в Тюркской Традиции	527
Dos. Dr. Əhmədova S.A., Dos. Dr. Qafarlı A.A.	Türk dövlətlərində gender bərabərliyi məsələləri	533
Dos. Dr. Yusupov R. K.	Ro'yxatdan o'tkaziş tadbirlariniñ O'zbekistondagi samarali vositasi	539
Dos. Dr. Nazarova Ş. İ.	Turkistonda Adabiy Siyosat	544
Dos. Dr. Mammadov R. T.	Reconstructing the Value Architecture in the Turkic World: Cultural Identity under Global Challenges	550
Dos. Dr. Sukhanberdina B., Kurmanova G., Urazova B.	Sociocultural Constraints and Transformation of Managerial Culture: Institutional Practices of Women's Participation in Public Administration in Turkic Countries of Central Asia	561
Mammadova F. R.	Cultural Economy and Tourism Diplomacy: Soft Power Strategies of the Turkic States	573
Rasulov X. Y.	Protecting Intangible Cultural Heritage within the Turkic Integration Framework	580
Rakhmonova N. A.	Turkiy Davlatlarda Brendlaş Amaliyotlari	586
Cavadova Ü.Y., Ağalarova V.	Türk dövlətlərində gender bərabərliyi və qadın hüquqlarının təminatı	589
Джумадылова Н. Дж.	Интеграционная дипломатия тюркских государств на современном Шёлковом пути: укрепление политической безопасности и регионального сотрудничества	594
Ilmurodova F. Sh.	Phenomenological aspects of scientific and intellectual activity criteria in islamic philosophy	600
Рахмонов Ж. А.	Модернизация как социальный процесс в Центральной Азии: теория и практика	603
Vəliyeva S.İ.	Türk–Müsəlman memarlığında ənənəvilik prinsipi: arxitektonik genealogiya, ontoloji simvolizm və metafizik davamlılıq	608

GİRİŞ

İpək Yolu tarixi baxımdan yalnız ticarət marşrutu deyil, müxtəlif sivilizasiyaların öz mədəni kimliklərini məkan üzərində ifadə etdikləri çoxqatlı bir sistem olmuşdur. Memarlıq elmi üçün bu yol, ilk növbədə, fərqli mədəniyyətlərin qarşılıqlı təsirinin fiziki mühitdə necə təcəssüm etdiyini göstərən nadir fenomen kimi dəyərləndirilir. Qədim dövrlərdən etibarən İpək Yolu üzərində formalaşan şəhərlər, yalnız iqtisadi mübadilə mərkəzləri deyil, həm də ideyaların, estetik dəyərlərin və sosial münasibətlərin ötürüldüyü məkanlar olmuşdur. Bu baxımdan İpək Yolu, memarlıq baxımından oxunduqda, xətti marşrutdan daha çox, bir-biri ilə əlaqəli urbanistik düyünlər sistemidir.

Müasir dövrdə "İpək Yolu" anlayışı yenidən gündəmə gətirilərkən, onun yalnız nəqliyyat və logistika aspektləri üzərində qurulması bu tarixi-mədəni dərinliyi kölgədə qoymaq riskini yaradır. Halbuki memarlıq elmi göstərir ki, hər bir böyük sivilizasiya layihəsi yalnız fiziki infrastrukturla deyil, həmin infrastrukturun yerləşdiyi məkanın mədəni mənalandırılması ilə davamlılıq qazanır. Müasir Orta Dəhliz də bu baxımdan tarixi İpək Yolunun sadəcə texnoloji davamı deyil, onun sosial-mədəni və urbanistik kodlarının yenidən oxunuşunu tələb edən prosesdir.

Məkan fəlsəfəsi baxımından şəhərlər "neytral konteynerlər" deyil, kollektiv yaddaşı, tarixi təcrübəni və mədəni kimliyi daşıyan canlı strukturlardır. İpək Yolu şəhərlərində bu yaddaş xüsusilə güclü olmuşdur. Karvansarayların, meydanların, bazarların və dini komplekslərin planlaşdırılması, sosial qarşılıqlı təsiri təşviq edən açıq məkan strukturlarının formalaşmasına səbəb olmuşdur. Müasir dövrdə türk dövlətləri arasında sosial-mədəni inteqrasiyanın memarlıq müstəvisində baş tutması məhz bu açıq məkan fəlsəfəsinin yenidən aktual hala gətirilməsini zəruri edir.

Türk dövlətlərinin yerləşdiyi geniş coğrafiya müxtəlif iqlim və coğrafi şəraitə malik olsa da, memarlıq və şəhərsalma baxımından ortaq mədəni kodların mövcudluğu aydın şəkildə müşahidə olunur. Bu kodlar yalnız ornamentika və formal oxşarlıqlarla məhdudlaşmır; onlar məkanın ictimai funksiyası, şəhərin sosial strukturu və mədəni həyatın təşkili prinsiplərində də özünü göstərir. Bakı, Səmərqənd, Buxara, İstanbul kimi şəhərlərin tarixi mərkəzlərinə nəzər saldıqda, meydan anlayışının, ictimai toplanma məkanlarının və mədəni fəaliyyətlərin memarlıqla necə inteqrasiya olunduğu aydın görünür.

Bu şəhərlərdə memarlıq, fərdin deyil, icmanın mərkəzə alındığı məkan modelinə əsaslanır. Karvansaray həyətləri, mədrəsə kompleksləri, bazar ətrafında formalaşan yaşayış strukturları sosial ünsiyyətin fasiləsizliyini təmin edən planlaşdırma həlləridir. Bu baxımdan türk şəhər mədəniyyəti, sosial-mədəni inteqrasiyanı təşviq edən memarlıq modelinin tarixi nümunəsini təqdim edir. Müasir inteqrasiya proseslərində bu modelin nəzərə alınmaması, şəhərlərin yalnız texniki obyektlər kimi inkişaf etdirilməsinə gətirib çıxara bilər ki, bu da mədəni davamlılığı zəiflədir.

Memarlıq elmi üçün mühüm məqamlardan biri də odur ki, bu ortaq mədəni kodlar tarix boyu siyasi sərhədlərdən daha davamlı olmuşdur. İmperiyalar dəyişmiş, dövlət strukturları transformasiya olunmuş, lakin şəhərlərin mədəni strukturu və məkan yaddaşı nisbətən sabit qalmışdır. Bu fakt müasir dövrdə türk dövlətləri arasında sosial-mədəni inteqrasiyanın ideoloji çağırışlardan daha çox, şəhər və memarlıq üzərindən həyata keçirilə biləcəyini göstərir.

Azərbaycanın paytaxtı Bakı memarlıq baxımından Şərq və Qərbin kəsişdiyi nadir urbanistik laboratoriyalardan biridir. İçərişəhər kimi minillik tarixi olan məkanla müasir şəhər strukturlarının eyni urbanistik sistem daxilində mövcudluğu Bakını sosial-mədəni inteqrasiya proseslərinin məkan üzərində sınaqdan keçirildiyi unikal mərkəzə çevirir. Bu xüsusiyyət Bakının yalnız milli paytaxt deyil, regionlararası mədəni dialoq məkanı kimi də dəyərləndirilməsinə imkan verir.

Bakının memarlıq inkişafında diqqət çəkən əsas cəhət tarixi məkanların tam izolə edilməməsi, əksinə, müasir urbanistik proseslərlə dialoq şəraitində saxlanılmasıdır. Bu yanaşma mədəniyyətin statik deyil, dinamik proses olduğunu göstərir. Məhz bu dinamizm türk dövlətləri arasında sosial-mədəni inteqrasiyanın əsas fəlsəfi dayaqlarından biri kimi çıxış edə bilər. Bakı

nümunəsi göstərir ki, tarixi irs müasirliklə qarşıdurmada deyil, sintez halında inkişaf etdirildikdə, şəhər daha güclü mədəni cazibə mərkəzinə çevrilir.

Müasir dövrdə türk dövlətləri arasında sosial-mədəni inteqrasiyanın qarşısında duran əsas problemlərdən biri qloballaşmanın məkan üzərində yaratdığı homogenləşdirici təsirdir. Qloballaşma prosesi, xüsusilə neoliberal iqtisadi modelin şəhərsalma və memarlıq praktikasına nüfuzu nəticəsində, şəhərləri universal funksional sxemlərə tabe edən, mədəni konteksti isə ikincil faktora çevirən struktur transformasiyalara səbəb olur. Bu transformasiyalar nəticəsində şəhər məkanı tədricən tarixi, sosial və simvolik yüklərindən ayrılaraq, texniki səmərəlilik və iqtisadi rentabellik prinsipləri əsasında formalaşan neytral platformaya çevrilir. Belə bir şəraitdə sosial-mədəni inteqrasiya ideyası öz məkan əsasını itirmə təhlükəsi ilə üz-üzə qalır.

Memarlıq nəzəriyyəsində məkan uzun müddətdir ki, yalnız fiziki obyekt kimi deyil, sosial münasibətlərin istehsal olunduğu və yenidən qurulduğu mürəkkəb sistem kimi dərk edilir. Henri Lefebvrenin "məkanın istehsalı" konsepsiyası bu baxımdan xüsusilə əhəmiyyətlidir; çünki o, məkanı passiv konteyner deyil, cəmiyyətin ideoloji, iqtisadi və mədəni strukturlarının qarşılıqlı təsiri nəticəsində formalaşan dinamik proses kimi izah edir. Qloballaşma kontekstində istehsal olunan məkanlar isə çox zaman lokal mədəni münasibətləri deyil, qlobal bazar mexanizmlərini əks etdirir. Bu isə, şəhər məkanlarının mədəni oxunaqlığını zəiflədir və onları sosial-mədəni inteqrasiyanın daşıyıcısı olmaqdan uzaqlaşdırır.

Türk dövlətləri məkanında bu problem daha mürəkkəb xarakter daşıyır, çünki sözügedən coğrafiya tarixi olaraq mədəni müxtəlifliyin və sivilizasiya qarşılıqlı təsirinin əsas arteriyalarından biri olmuşdur. İpək Yolu üzərində formalaşmış şəhərlər, sadəcə ticarət mərkəzləri deyil, eyni zamanda mədəni biliklərin, dini-fəlsəfi ideyaların və estetik formaların ötürüldüyü məkansal düyünlər kimi çıxış etmişdir. Bu şəhərlərin memarlıq strukturlarında müşahidə olunan çoxqatlılıq, fərqli təsirlərin assimilyasiya olunaraq vahid mədəni sistemə çevrilməsinin nəticəsidir. Qloballaşmanın təklif etdiyi standartlaşdırılmış memarlıq dilləri isə, bu tarixi çoxqatlılığı aradan qaldıraraq şəhərləri semantik baxımdan "səssiz" məkana çevirir.

Standartlaşdırılmış şəhərsalma modellərinin elmi tənqidində əsas vurğu onların kontekstsizliyinə yönəlir. Bu modellər iqlim, sosial davranış formaları, ictimai münasibətlərin məkan üzərində qurulma üsulları və tarixi yaddaş kimi amilləri nəzərə almadan tətbiq edilir. Nəticədə formalaşan şəhər mühitləri sosial qarşılıqlı təsiri təşviq etmək əvəzinə, fərdləri izolyasiya edən və ictimai həyatı fragmentləşdirən strukturlar yaradır. Manuel Castellsin "axınlar məkanı" anlayışı bu prosesi izah etmək üçün mühüm nəzəri çərçivə təqdim edir: qlobal iqtisadi və informasiya axınları şəhərləri lokal identiklikdən ayıraraq, onları transmilli şəbəkələrin funksional nöqtələrinə çevirir. Bu isə, sosial-mədəni inteqrasiyanı zəiflədən əsas struktur faktorlarından birinə çevrilir.

Türk şəhər mədəniyyəti isə, tarixən "axınlar məkanı"ndan daha çox "məna məkanı" kimi formalaşmışdır. İpək Yolu şəhərlərində ictimai məkanlar – meydanlar, bazarlar, karvansaraylar, dini və təhsil kompleksləri – yalnız iqtisadi fəaliyyət üçün deyil, mədəni ünsiyyət və sosial qarşılıqlı təsir üçün dizayn edilmişdir. Bu məkanlar fərqli etnik, dini və mədəni qrupların birgə mövcudluğunu təmin edən açıq strukturlar idi. Qloballaşmanın homogenləşdirici memarlıq modelləri isə, bu açıq strukturları ya sıradan çıxarır, ya da onları kommersiya məkanlarına transformasiya edərək sosial funksiyasını zəiflədir.

Bu kontekstdə İpək Yolu üzərində yerləşən şəhərlər üçün ortaq mədəni irsə söykənən memarlıq strategiyalarının hazırlanması yalnız estetik və ya tarixi məsələ deyil, eyni zamanda sosial-mədəni davamlılıq problemi kimi çıxış edir. Belə strategiyalar, Norberg-Schulzun "genius loci" anlayışı prizmasından baxıldıqda, məkanın ruhunun qorunmasını və müasir şərhini hədəfləməlidir. Şəhər yalnız fiziki strukturlar toplusu deyil, müəyyən mədəni mənalarla yüklənmiş varlıqdır və bu mənaların itirilməsi sosial inteqrasiyanın zəifləməsi ilə nəticələnir.

Ortaq mədəni irsə əsaslanan memarlıq strategiyalarının elmi əsaslandırılması həm də regional miqyasda identiklik siyasətinin formalaşmasına töhfə verə bilər. Bu strategiyalar milli memarlıq dillərini təcrid etmədən, əksinə, onların ortaq sivilizasiya kontekstində oxunuşunu təmin

etməlidir. Belə yanaşma türk dövlətləri arasında sosial-mədəni inteqrasiyanı simvolik bəyanatlar səviyyəsindən çıxararaq, gündəlik məkan təcrübəsinə daxil edə bilər.

Eyni zamanda qeyd etmək lazımdır ki, tarixi irsə əsaslanan memarlıq strategiyaları nostalji və ya stilizasiya xarakteri daşımamalıdır. Tarixi formaların mexaniki təkrarı müasir şəhər həyatının mürəkkəb tələblərinə cavab vermir və mədəni inteqrasiyanı səthiləşdirir. Əksinə, əsas məqsəd tarixi məkan məntiqinin – açıq ictimai məkanların, sosial qarşılıqlı təsiri təşviq edən strukturların, insan miqyasına uyğun planlaşdırmanın – müasir urbanistik sistemlərə inteqrasiyası olmalıdır. Bu, sosial-mədəni inteqrasiyanı memarlıq vasitəsilə real və hiss edilən prosesə çevirə bilər.

Qloballaşma fonunda məkanların identikliyinin qorunması türk dövlətləri arasında sosial-mədəni inteqrasiyanın mərkəzi problemlərindən biridir. Standartlaşdırılmış şəhərsalma modelləri və universallaşmış memarlıq dilləri bu inteqrasiyanın məkansal əsaslarını zəiflədir. İpək Yolu üzərində yerləşən şəhərlərin ortaq mədəni irsə söykənən memarlıq strategiyalarının hazırlanması isə, bu risklərə qarşı elmi əsaslandırılmış cavab kimi çıxış edir. Memarlıq elmi bu prosesdə yalnız müşahidəçi deyil, inteqrasiyanı formalaşdıran əsas intellektual alətlərdən biri kimi çıxış edərək, türk dövlətləri arasında sosial-mədəni inteqrasiyanın davamlı və dərin əsaslar üzərində qurulmasına imkan yaradır.

Müasir dövrdə türk dövlətləri arasında sosial-mədəni inteqrasiyanın qarşısında duran əsas çağırış qloballaşmanın homogenləşdirici təsirləri ilə mədəni identikliyin qorunması arasında tarazlığın tapılmasıdır. Memarlıq elmi bu tarazlığın təmin olunmasında həlledici rol oynayır. Standartlaşdırılmış şəhərsalma modellərinin yaratdığı risklər fonunda İpək Yolu üzərində yerləşən şəhərlərin ortaq mədəni irsə söykənən memarlıq strategiyalarının hazırlanması sosial-mədəni inteqrasiyanın davamlı və dərin əsaslar üzərində qurulmasına imkan verir. Bu strategiyalar türk dövlətləri arasında inteqrasiyanı ideoloji çağırış səviyyəsindən çıxararaq, məkan üzərində formalaşan real və hiss edilən mədəni təcrübəyə çevirə bilər.

Memarlıq perspektivindən sosial-mədəni inteqrasiya yalnız tarixi abidələrin qorunması ilə məhdudlaşmamalıdır. Yeni ictimai məkanların, mədəni mərkəzlərin və urbanistik layihələrin dizaynında ortaq mədəni kodların müasir şərhi əsas prinsipə çevrilməlidir. Bu yanaşma həm mədəni diplomatiyanın güclənməsinə, həm də cəmiyyətlər arasında qarşılıqlı anlaşmanın dərinləşməsinə xidmət edəcəkdir.

Nəticə etibarilə, "Müasir İpək Yolu üzərində Türk Dövlətlərinin Sosial-Mədəni İnteqrasiya Prosesləri: Çağırışlar və Perspektivlər" mövzusu gələcək məkan modellərinin konseptual əsaslarının formalaşdırılması baxımından fundamental əhəmiyyət daşıyan multidissiplinar problematikadır. Müasir dövrdə memarlıq artıq yalnız fiziki strukturların layihələndirilməsi deyil, sosial münasibətlərin təşkili, mədəni yaddaşın qorunması və sivilizasion davamlılığın məkan üzərindən ifadəsi kimi başa düşülür. Bu baxımdan, İpək Yolu xətti üzərində formalaşan inteqrasiya prosesləri memarlıq elmi üçün məkan–cəmiyyət–mədəniyyət münasibətlərini yenidən düşünmək üçün unikal nəzəri platforma təqdim edir.

Məqalələr göstərir ki, inteqrasiya yalnız siyasi razılaşmalar və iqtisadi layihələr vasitəsilə deyil, şəhərsalma strategiyaları, ictimai məkanların semantik quruluşu, memarlıq irsinin yenidən funksionallaşdırılması və müasir məkan estetikası vasitəsilə davamlı xarakter alır. Beləliklə, memarlıq inteqrasiyanın maddi ifadə forması olmaqla yanaşı, ortaq dəyərlərin, kollektiv kimliyin və sivilizasion üfüqlərin vizual və funksional daşıyıcısına çevrilir.

Bu konfrans toplusu sosial-mədəni inteqrasiyanın təsadüfi və epizodik proses deyil, məkan üzərində qurulan, tarixi yaddaşla gələcək vizyonu birləşdirən davamlı sistem olduğunu elmi əsaslarla nümayiş etdirir. Türk dövlətləri arasında ortaq mədəni gələcəyin formalaşdırılması bu gələcəyin həm simvolik, həm də praktik əsaslarını qurmaq missiyasını daşıyır. Nəticə olaraq, təqdim olunan tədqiqatlar bir çox elmlərin sosial-mədəni inteqrasiya diskursunda strateji rolunu gücləndirərək, türk dünyası üçün vahid, inklüziv və davamlı mədəni-məkan modelinin elmi əsaslarının yaradılmasına mühüm töhfə verir.

***

Müasir inteqrasiya prosesləri və diskursları çox vaxt texnokratik çərçivədə sadəcə iqtisadi və siyasi fayda prizmasından izah olunur. Dövlətlərarası əlaqələr iqtisadi təhlükəsizlik, logistika

və institusional uyğunlaşma üzərində qurulsa da bu, yanaşma inteqrasiyanın ontoloji təməlini – yəni birgə var olma ehtiyacını – nəzərə almır.

İbn Xəldunun "Ümran" anlayışı cəmiyyəti sadəcə fərdlərin mexaniki cəmi kimi görmür; eyni zamanda onu mənəvi və tarixi birlik forması olaraq təqdim edir. Bu baxımdan türk dövlətlərinin sosial-mədəni inteqrasiyası sadəcə siyasi, iqtisadi və logistic koordinasiya deyil, tarixi varlıq şüurunun dərk etməsi və yenidən təşkilidir. Əsas məsələ yeni bir birlik yaratmaq deyil; mövcud olan mədəni-ontoloji birliyin şüurlu şəkildə qəbul edilməsidir.

Hegel tarix fəlsəfəsində insanlığın azadlıq şüuruna doğru irəliləməsini vurğulayır. Türk dünyasının inteqrasiya yolunu seçməsi bu kontekstdə tarixi ruhun regional özünü-dərki kimi başa düşülür. Müasir İpək Yolu sadəcə iqtisadi və nəqliyyat marşrutu deyil; o, tarixi mənanın hərəkət trayektoriyasıdır və bu trayektoriya ontoloji baxımdan seçim deyil, zərurətdir. Seçim yalnız bu zərurətin hansı etik-məənvi çərçivədə həyata keçiriləcəyinə aiddir.

Müasir beynəlxalq münasibətlər sistemi güc realpolitik üzərində qurulmuşdur. Burada əməkdaşlıq maraqların toqquşmayan nöqtəsində mümkün olur. Lakin türk dünyasının inteqrasiya modeli daha fundamental bir etik baza üzərində dayanır. Emmanuel Levinasın "başqasına qarşı sonsuz məsuliyyət" prinsipi dövlətlərarası münasibətlərə tətbiq edildikdə inteqrasiya artıq üstünlük qurmaq vasitəsi deyil, qarşılıqlı mənəvi cavabdehlik aktına çevirilir. Prezident İlham Əliyevin çıxışlarında tez-tez vurğulanan "bərabərlik", "qarşılıqlı hörmət" və "milli kimliyə sadiqlik" prinsipləri isə inteqrasiyanın etik təməlini formalaşdırır. Bu yanaşma assimilyasiya deyil; fərqlilik qorunur və mənalandırılır.

Toynbinin "challenge–response" (çağırış–cavab) yanaşması göstərir ki, sivilizasiyalar böhranlara verdikləri cavabla dəyər qazanırlar. S.Hantinqtonun "Sivilizasiyalar toqquşması" ideyası sanki, gücə və dominantlığa çağırır. Qlobal mədəni homogenləşmə çağırışına türk dünyasının cavabı isə etik inteqrasiya modelidir – nə izolyasiya, nə də əримə deyil, yalnız qarşılıqlı məsuliyyət və mənəvi koherensiya. S. Huntingtonun tezisi uzun müddət qlobal diskursu formalaşdırsa da bu yanaşma sivilizasiyalarda qarşılıqlı mənəvi məsuliyyət ehtimalını inkar edir. Türk dünyasının inteqrasiya modeli isə sivilizasion dialoq və əməkdaşlıq alternativi təqdim edir.

İnteqrasiya anlayışı, əgər yalnız dövlətlərarası razılaşmalar və iqtisadi koordinasiya səviyyəsində saxlanılarsa, cəmiyyətin dərin qatlarına nüfuz edə bilməz. Sosial ədalət olmadan qurulan istənilən inteqrasiya modeli, mahiyyət etibarı ilə elit layihəyə çevirilir və uzunmüddətli legitimliyini itirir. Con Roylz (John Rawls) "ədalət ədalətli prosedurların nəticəsidir" tezisi bu kontekstdə xüsusi əhəmiyyət kəsb edir. Türk dünyasının gələcəyə yönəlik inteqrasiya modeli yalnız nəticələrin bölüşdürülməsini deyil, ədalətin istehsal mexanizmlərini də normativ şəkildə müəyyən etməlidir. Burada əsas məsələ "kim qazandı?" deyil, "kim kənarda qaldı?" sualının mərkəzə çəkilməsidir.

Prezident İlham Əliyevin siyasi fəaliyyət diskursunda tez-tez rast gəlinən "məsuliyyətli siyasət tarixi", "ədalətli" anlayışları məhz bu və belə münasibətlərin modelinin ifadəsidir. Burada inkişaf yalnız ÜDM artımı ilə deyil, dövlət münasibətlərinin tarixi ədalətin bərpasıdır.

Türk dünyası üçün inteqrasiya, tarixi ədalət baxımından həm daxili, həm də regional məsuliyyət yaradır. Regional bərabərsizliklərin aradan qaldırılması yalnız iqtisadi investisiyalarla mümkün deyil; bu proses təhsil, mədəniyyət və sosial inkişaf sahələrində koordinasiyalı siyasət tələb edir. Amartya Senin "İmkanlar yanaşması" bu baxımdan əhəmiyyətlidir: cəmiyyətin səviyyəsi insanların hansı imkanlara malik olması ilə ölçülür. Türk dövlətləri arasında inteqrasiya yalnız bazarların deyil, imkanların inteqrasiyası kimi başa düşülməlidir. Təhsilə çıxış, mədəni kapital, akademik dövriyyə və sosial hərəkətlilik bu modelin əsas sütunlarındandır.

İnteqrasiya institusional səviyyədə də konkret mexanizmlər tələb edir. Əgər institutlar yalnız hüquqi prosedurlarla işləyirsə onlar texniki qurumlara çevirilir. Lakin, etik və tarixi ədalət çərçivə institutları mənəvi məsuliyyət daşıyıcısına çevirir. Türk dünyasında yaradılan birgə akademik platformalar, humanitar fondlar və mədəni əməkdaşlıq mexanizmləri sadəcə koordinasiya strukturları deyil; onlar mənəvi normativlərin praktik ifadəsidir. Bu institutlar vasitəsi ilə inteqrasiya ideyası abstrakt diskursdan çıxaraq gündəlik təcrübəyə çevirilir.

Müasir qloballaşma prosesləri sosial ədaləti çox vaxt ikinci plana keçirir. Transmilli kapitalın sərbəst hərəkəti bərabər imkanlar yaratmaq əvəzinə, bəzən yeni asimmetriyalar formalaşdırır. Bu şəraitdə türk dünyasının inteqrasiya modeli alternativ etik mövqe ortaya qoyur: iqtisadi artım sosial məsuliyyətlə balanslaşdırılmalıdır. Karl Polanyinin qeyd etdiyi kimi, bazar cəmiyyəti öz-özünə sosial nizam yarada bilməz; o, etik və institusional çərçivəyə ehtiyac duyur. Türk dünyasının inteqrasiya layihəsi bazarı inkar etmir, lakin onu milli və mədəni nəzarət altına alır. Sabah həm də nəsillərarası məsuliyyət anlayışını gündəmə gətirir. İnkişaf yalnız indiki nəsil üçün rifah yaratmaq deyil, gələcək nəsillərin həyat imkanlarını qorumaq deməkdir. Ekoloji balans, mədəni irsin qorunması və dil müxtəlifliyinin yaşadılması bu məsuliyyətin əsas elementləridir. Türk dünyasının inteqrasiya modeli bu baxımdan utilitar deyil; o, uzunmüddətli sivilizasion davamlılıq üzərində qurulmuşdur. Burada inkişaf qısa müddətli deyil, tarixi ədalət və davamlılıq kriteriyası ilə ölçülür.

Bu dövlətlərarası prinsipləri olmadan inteqrasiya mexaniki xarakter daşıyır. Türk dünyasının gələcəyə yönəlmiş baxışları isə mexaniki deyil, mənəvi cəhətdən əsaslandırılmış birlik yaradır. Bu birlik hüquqi sənədlərlə məhdudlaşmır; o, cəmiyyətin dəyərlər sisteminə daxil olur və bu səbəbdən dayanıqlı xarakter qazanır.

Müasir beynəlxalq sistem dərin etik böhran mərhələsindən keçir. Qlobal siyasət getdikcə normativ prinsiplərdən uzaqlaşaraq güc, utilitar maraq və qısamüddətli təhlükəsizlik hesablamaları üzərində formalaşır. Hans Morgenthaunun klassik realizmi bu vəziyyəti "milli maraqların qaçılmazlığı" kimi izah etsə də, XXI əsrin mürəkkəb reallıqları göstərir ki, maraqlar etik çərçivədən çıxarıldıqda sistem öz-özünü dağıdan xarakter alır. Bu kontekstdə inteqrasiya artıq yalnız regional əməkdaşlıq deyil, sivilizasion məsuliyyət aktı kimi aktuallaşır.

Türk dünyasının inteqrasiya modeli məhz bu qlobal mənəvi boşluğa cavab vermək potensialına malikdir. Bu model özünü alternativ "hegemon layihə" kimi deyil, normativ balans mexanizmi kimi təqdim edir. Qlobal böhran türk dünyası üçün bir çağırışdır və inteqrasiya bu çağırışa verilən kollektiv cavab kimi çıxış edir. Bu cavab nə ekspansionist, nə də izolyasionistdir; o, məsuliyyətə əsaslanan açıq tarixi vəhdətə əsaslanan sivilizasion mövqedir.

Məsuliyyət anlayışı inteqrasiyanı sadəcə siyasi və iqtisadi prosesdən çıxararaq mənəvi tarix kontekstinə yerləşdirir. Türk dünyasının tarixi yalnız dövlətlərin ardıcıllığı deyil, eyni zamanda ədalət, nizam və mənəvi legitimlik əməkdaşlığın nümunəsi və tarixidir. Bu mənada İbn Xəldunun "Ümran" konsepsiyası xüsusi əhəmiyyət daşıyır: dövlətin möhkəmliyi yalnız zor və iqtisadi resurslarla deyil, həmrəylik və etik bağlılıqla təmin olunur. Belə müasir inteqrasiya modeli klassik ideal reallıqlara uyğun şəkildə yenidən aktual edir.

Qloballaşmanın mədəni homogenləşmə tendensiyası yaradır. Bu deməkdir ki, fərqli sivilizasiya kodlarını zəiflədir və identikliklər istehlak obyektinə çevirir. Türk dünyasının inteqrasiya yanaşması isə homogenləşməyə qarşı mənəvi-mədəni-etik çoxluq prinsipini irəli sürür. Burada mədəniyyətlər bir-birini əvəz etmir, qarşılıqlı şəkildə bir-birini dərinləşdirir və zəngişlədirir. Bizim fikrimizcə Levinasın bu modeli başqasını assimilyasiya etmək yox, onu tanımaq və qəbul etmək inteqrasiyanın mənəvi şərtidir.

Bu sivilizasion yanaşma beynəlxalq münasibətlərdə "dialoq" anlayışını yeni mərhələyə aparır. Əgər klassik dialoq modelləri daha çox diplomatik ritorika səviyyəsində qalırdısa, türk dünyasının inteqrasiya modeli dialoqu institusional və mənəvi-mədəni-etik praktikaya çevirir. Birgə humanitar missiyalar, təhsil mübadiləsi və mədəni layihələr etik dəyərlərin konkret davranış formalarına çevirilməsini təmin edir. Bu baxımdan inteqrasiya ideyası normativ iddia deyil, yaşanan sosial reallıq kimi formalaşır.

Qlobal sistemdə artan etimadsızlıq böhranı inteqrasiyanın mənəvi-mədəni-etik ölçüsünü daha da aktuallaşdırır. Dövlətlərarası münasibətlərdə etimad yalnız hüquqi müqavilələrlə təmin oluna bilməz; o, uzunmüddətli mənəvi ardıcıllıq tələb edir. Prezident İlham Əliyevin çıxışlarında vurğulanan "etibarlı tərəfdaşlıq" anlayışı bu ardıcıllığın siyasi ifadəsidir. Etibar burada taktiki üstünlük deyil, strateji dəyər kimi qəbul olunur. Bu yanaşma türk dünyasının beynəlxalq sistemdə proqnozlaşdırıla bilən və məsuliyyətli aktor kimi formalaşmasına imkan yaradır.

Sivilizasion məsuliyyət həm də zorakılığın normallaşmasına qarşı etik mövqe deməkdir. Müasir dünyada güc çox vaxt legitimliklə eyniləşdirilir. Türk inteqrasiya modeli isə, legitimliyi gücdən deyil, ədalət və razılaşmadan çıxarır. Bu baxımdan inteqrasiya münaqişələrin idarə olunması üçün alternativ etik mexanizm təqdim edir. O, qarşıdurmanı qaçılmaz taleyə çevirmir, dialoq və normativ razılaşma üçün açıq imkan yaradır.

Beləliklə, türk dünyasının inteqrasiya layihəsi qlobal böhrana lokal cavab deyil; o, beynəlxalq sistem üçün normativ alternativ təqdim edir. Bu alternativ gücə qarşı güc yox, məsuliyyətə əsaslanan birlik modelidir. İnkişaf burada üstünlük əldə etmək deyil, sivilizasion yükü paylaşmaq anlamına gəlir. Bu isə inteqrasiyanı tarixi prosesdən konkret siyasi layihəyə çevirir.

İnteqrasiyanın son və ən dərin mərhələsi onun gələcəyə yönəlmiş siyasi -etik mənasının formalaşdırılmasıdır. Gələcək burada xronoloji zaman deyil, normativ üfüq kimi anlaşılmalıdır. İ. Kantın ifadə etdiyi kimi, insan və cəmiyyət yalnız "olan"a görə deyil, "olmalı olan"a görə dəyərləndirilir. Müasir "İpək Yolu" üzərində türk dövlətlərinin sosial-mədəni inteqrasiyası da bu mənada proyeksiyadan empirik təcrübəyə gedən yoldur.

Bizim baxışda belə birlik yalnız faydaya əsaslanarsa, o, keçicidir; əgər mənəvi qanuna söykənərsə, davamlıdır. Türk dünyasının inteqrasiya modeli məhz bu ikinci xətti izləyir. Burada dövlətlər bir-birini həmməqsəd kimi tanıyır. Bu isə beynəlxalq münasibətlərdə nadir hallarda rast gəlinən yeni siyasi-etik münasibət formasıdır. Suverenlik izolyasiya anlamı deyil, əksinə, məsuliyyətli azadlığa əsaslanan əməkdaşlıq kimi yenidən şərh olunur.

Bu kontekstdə türk mentalitetinin fəlsəfi mahiyyəti xüsusi əhəmiyyət kəsb edir. Türk siyasi-mədəni düşüncəsində dövlət yalnız idarəetmə aparatı deyil, həmçinin ədalət daşıyıcısıdır. "El üçün dövlət" prinsipi utilitar deyil, məzmunludur. Dövlətin legitimliyi gücdən yox, ədaləti təmin etmə qabiliyyətindən qaynaqlanır. Bu anlayış müasir türk dövlətləri inteqrasiya diskursunda da öz əksini tapır: birgəlik məcburiyyət yox, mənəvi məsuliyyət nəticəsində yaranır.

Müasir dünyada böyük narrativlərin süqutu tez-tez normativ boşluq yaradır. Lakin türk dünyasının inteqrasiya ideyası "böyük hegemon narrativ" yaratmaq cəhdi deyil. O, mənəvi məna istehsal edən açıq sivilizasion çərçivədir. Burada müxtəliflik təhlükə deyil, etik zənginlik mənbəyidir. Bu baxımdan belə inteqrasiya, parçalanmaya qarşı qlobal ideologiya yox, siyasi-mənəvi koordinasiya mexanizmi kimi çıxış edir.

Gələcək perspektivdə türk dünyasının inteqrasiyası qlobal sistemdə yeni tip aktorluq forması yarada bilər. Bu aktorluq nə klassik Qərb universalizminin, nə də qapalı mədəni partikulyarizmin davamıdır. O, yeni regionalizm modelidir. Regional olmaq qapanmaq deyil, məsuliyyətin konkret məkanda reallaşmasıdır. Bu baxımdan türk dünyası qlobal etik problemlərə — sosial ədalətsizlik, mədəni aşınma, identiklik böhranı — öz sivilizasion kodları əsasında cavab vermək potensialına malikdir.

İnteqrasiyanın etik gələcəyi təhsildə, gənclik siyasətində və intellektual mübadilədə daha aydın görünür. Birgə akademik diskurslar, ortaq humanitar dəyərlər və etik düşüncə məktəbləri inteqrasiyanı strukturdan mədəniyyətə, mədəniyyətdən isə düşüncə tərzinə çevirir. Bu mərhələdə inteqrasiya artıq layihə deyil, kollektiv şüur forması kimi mövcud olur.

Bu baxımdan Prezident İlham Əliyevin inteqrasiya diskursu xüsusi əhəmiyyət daşıyır. Başqa türk dövlətləri ilə dəstəklənir. Onun siyasi ritorikasında gələcək həmişə məsuliyyət anlayışı ilə birlikdə təqdim olunur. İnkişaf burada texniki göstəricilərlə deyil, sosial ədalətin dərinləşməsi və mədəni harmoniyanın qorunması ilə ölçülür. Bu yanaşma türk dünyasının inteqrasiyasını yalnız regional uğur deyil, liderlik modeli kimi formalaşdırır.

Nəticə etibarı ilə, müasir "İpək Yolu" üzərində türk dövlətlərinin sosial-mədəni inteqrasiyası tarixi nostalji və ya texnokratik layihə deyil. O, gələcəyin şüurlu şəkildə qurulması cəhdidir. Bu inteqrasiya insan ləyaqətini mərkəzə alan, mədəni davamlılığı qoruyan və social-mədəni inkişafa aparan və kollektiv layihədir.

Bu mənada təqdim olunan konfrans toplusu yalnız elmi məqalələr toplusu deyil; o, türk dünyasının öz gələcəyini məsuliyyət prizmasından düşünmək iradəsinin intellektual ifadəsidir. Burada inteqrasiya tək strategiya deyil, həm də mədəni xətt kimi dərk olunur.

İnteqrasiya yalnız ideya və diskurs səviyyəsində qaldıqda, o, tarixi jest olaraq qalır; institusional formaya çevirildikdə isə sivilizasion reallıq qazanır. Bu baxımdan türk dünyasının sosial-mədəni inteqrasiyasının qarşısında duran əsas çağırış etik dəyərlərin və əlaqələrin institutlaşmasıdır. Burada institut anlayışı mexaniki bürokratik struktur deyil, normativ davranışın kollektiv yaddaşda sabitləşməsi kimi anlaşılmalıdır.

Türk inteqrasiya modelində bu, dövlətlərarası münasibətlərdə etibarın hüquqi mexanizmlərdən öncə etik refleks kimi formalaşması deməkdir. Mədəniyyət, təhsil və humanitar əməkdaşlıq sahəsində yaradılan platformalar bu refleksi kollektiv şüura transfer edən vasitələrdir.

Bu kontekstdə mədəni inteqrasiya folklorun və ya simvolik irsin sadə paylaşımı deyil, etik kodların ötürülməsi prosesidir. Dil, tarix və yaddaş burada kommunikativ alət olmaqla yanaşı, normativ məzmun daşıyıcısına çevrilir. Beləliklə, inteqrasiya "birlikdə yaşamaq" ideyasından "birlikdə məsuliyyət daşımaq" mərhələsinə keçir.

Müasir qlobal sistemdə inteqrasiya məsələsi təkcə siyasi və iqtisadi təhlükəsizliklə məhdudlaşmır; daha dərin səviyyədə ontoloji təhlükəsizlik problemi ortaya çıxır. Qloballıq dövründə bu sabitlik tez-tez identiklik böhranı ilə əvəz olunur.

Türk dünyasının sosial-mədəni inteqrasiyası bu böhrana qarşı kollektiv ontoloji müdafiə mexanizmi kimi çıxış edir. Burada kimlik ideoloji sərhəd yox, özünüdərk formasıdır. Türk mentalitetində kimlik "başqasına qarşı" deyil, "başqası ilə birlikdə" mövcud olur. Bu xüsusiyyət inteqrasiyanı eksklüziv deyil, inklüziv edir.

Ontoloji təhlükəsizlik yalnız keçmişə bağlanmaqla təmin edilmir. Əksinə, tarixi təcrübənin etik interpretasiyası gələcəyə inam yaradır. Türk inteqrasiya modeli bu baxımdan statik kimlik qorunması deyil, dinamik mədəni davamlılıq təklif edir. Burada dəyişmə təhlükə deyil, nəzarət altında olan transformasiya kimi dərk olunur.

Müasir beynəlxalq münasibətlərdə güc anlayışı tədricən hərbi və iqtisadi ölçülərdən normativ təsir sahəsinə keçir. Cozef Nyenin (Joseph Nye) "yumşaq güc" konsepsiyasından fərqli olaraq burada söhbət sadəcə cazibədarlıqdan deyil, etik əməkdaşlıq nümunə yaratmaq qabiliyyətindən gedir. Türk dünyasının inteqrasiya modeli bu mənada normativ güc potensialına malikdir.

Normativ güc başqalarına hökm etmək yox, doğru olanı mümkün etmək bacarığıdır. Sosial ədalətə, mədəni plüralizmə və suverenliyin etik tanınmasına əsaslanan inteqrasiya modeli qlobal miqyasda alternativ sivilizasion davranış nümunəsi yaradır. Bu model nə, Qərb mərkəzli universalizmə kor-koranə tabe olur, nə də qapalı mədəni özünəqapanmaya sürüklənir.

Türk dünyasının mövqeyi dialoq üzərində qurulur. Bu dialoq mədəni qarşılıqlı normativ tanınma prosesidir. Beləliklə, inteqrasiya regional çərçivəni aşaraq qlobal məsuliyyət daşıyan sivilizasion aktorluq səviyyəsinə yüksəlir. Burada etik davranış geosiyasi strategiyanın əlavəsi deyil, onun təməl prinsipinə çevrilir.

Nəticə etibarı ilə deyə bilərik ki, müasir "İpək Yolu" üzərində türk dövlətlərinin sosial-mədəni inteqrasiyası texniki koordinasiya və ya tarixi nostalji çərçivəsindən kənara çıxaraq etik əsaslı sivilizasion özünüdərk layihəsi kimi formalaşır. Bu inteqrasiya modeli iqtisadi fayda və siyasi yaxınlaşmadan daha çox, insan ləyaqətinin qorunması, mədəni mənanın davamlılığı və kollektiv məsuliyyət şüurunun inkişafı ilə ölçülür. Beləliklə, inteqrasiya burada məqsəd deyil, etik inkişafın forması kimi çıxış edir.

Müasir dövrdə dəyərlərin yox olduğu, identikliklərin parçalandığı və normativ istiqamətlərin zəiflədiyi bir şəraitdə türk dünyasının inteqrasiya təşəbbüsü sabitlik yaradan nadir normativ konstruksiyalardan biridir. Bu model universal həqiqət iddiası irəli sürmədən ədalət, qarşılıqlı tanınma və etik dialoq prinsipləri əsasında Avrasiya məkanında regionlararası əməkdaşlıq nümunəsini yaradır. Burada fərqliliklər qarşıdurma mənbəyi deyil, etik zənginliyin şərti kimi qəbul olunur.

İnteqrasiya prosesində dövlət anlayışı hakimiyyət mexanizmi olmaqdan çıxaraq mənəvi-mədəni-etik iradənin institusional ifadəsinə çevirilir. Prezident İlham Əliyevin inteqrasiya diskursunda bu yanaşma açıq şəkildə müşahidə olunur: suverenlik özünütəcrid yox, məsuliyyətli iştirak kimi dərk edilir. Dövlət milli maraqları qoruyarkən, regional rifah və sivilizasion sabitlik

qarşısında etik öhdəlik daşıyır. Bu yanaşma türk dünyasında inteqrasiyanı məcburi struktur deyil, normativ razılaşma səviyyəsinə yüksəldir.

Türk sivilizasiya təcrübəsinin tarixən formalaşdırdığı ideyalar və kollektiv məsuliyyət duyğusu müasir inteqrasiya modelinin əsas intellektual resursuna çevirilir. Beləliklə, mədəni yaddaş ideoloji alətə yox, normativ istiqamətləndirici gücə çevirilir.

Bu konfrans toplusunda təqdim olunan məqalələr türk dünyasında baş verən inteqrasiya proseslərini sırf empirik göstəricilər və ya institusional mexanizmlər çərçivəsində izah edilən bir reallıq kimi deyil, daha geniş ontoloji, etik və sivilizasion kontekstlərdə təhlil olunan mürəkkəb bir fenomen kimi dəyərləndirir. Müəlliflər inteqrasiyanı yalnız iqtisadi, siyasi və ya texnoloji koordinasiya forması olaraq deyil, eyni zamanda insanın varlıq anlayışına, cəmiyyətin dəyər sisteminə və dövlətin normativ legitimliyinə yönəlmiş fundamental suallar doğuran çoxsəviyyəli bir proses kimi təqdim edirlər. Bu yanaşma inteqrasiyanı statistik göstəricilər və texnokratik layihələr səviyyəsindən çıxararaq, onu tarixi yaddaş, mədəni kimlik və mənəvi məsuliyyət müstəvisində yenidən düşünməyi zəruri edən intellektual çağırışa çevirir.

Topluda irəli sürülən konseptual çərçivələrə görə, türk dünyasının inteqrasiyası instrumental rasionalizmə əsaslanan dar idarəetmə modeli deyil, insanı mərkəzə alan, sosial ədalət, etik məsuliyyət və sivilizasion davamlılıq prinsipləri üzərində formalaşan düşüncə sistemidir. Bu baxımdan inteqrasiya prosesi cəmiyyət və dövlət münasibətlərinin normativ əsaslarını yenidən nəzərdən keçirməyi, mədəni müxtəlifliklə vahid sivilizasion üfüqlər arasında tarazlıq qurmağı və ortaq tarixi təcrübənin müasir kontekstlərdə mənalandırılmasını tələb edir. Beləliklə, bu konfrans toplusu yalnız akademik diskursun genişləndirilməsinə xidmət etmir, eyni zamanda tədqiqatçıları, intellektualları və qərarverici subyektləri türk dünyasının gələcək inkişaf modelini mənəvi, fəlsəfi və sivilizasion məsuliyyət prizmasından yenidən düşünməyə sövq edən dərin intellektual təcrübə kimi çıxış edir.

Gülçöhrə Məmmədova
Azərbaycan Memarlıq və İnşaat
Universitetinin rektoru, memarlıq
elmləri doktoru, professor

İlham Məmmədazadə
AMEA-nın Fəlsəfə və Sosiologiya
İnstitutunun direktoru, fəlsəfə
elmləri doktoru, professor

I FƏSİL. TÜRK XALQLARI ARASINDA MƏDƏNİ VƏ MƏNƏVİ İNTEGRASİYA

UOT: 80.

Gulusoy İlkin Etibar
Prof. Dr. Kafkas Üniversitesi,
Türkiye Kars, Merkez
Tel.: +905310894515
E-mail: ilkingulusoy@gmail.com
Orcid id: 0000-0002-0768-9803

Türk Dünyasında Ortak Ders Kitabı Arayışı: Azerbaycan Türkçesi ve Türkiye Türkçesi Örneğinde

Özet

Makalede, Türkiye Türkçesi ve Azerbaycan Türkçesi için ortak bir gramer ders kitabı hazırlanmasının önündeki dilsel, pedagojik ve kültürel zorluklar analiz edilmekte ve uygulanabilir çözüm önerileri sunulmaktadır. Türk dünyasında ortak ders kitapları fikrinin yalnızca eğitimsel bir girişim olmadığı, aynı zamanda ortak kültürel bilinç ve dil kimliğinin güçlendirilmesine hizmet eden stratejik bir adım olduğu vurgulanmaktadır. Özellikle iki dilin yapısal, fonetik, morfolojik ve kelime hazinesi açısından farklılıkları ele alınarak, öğrencilerin bu farklılıkları karışıklık yaşamadan öğrenmesini sağlayacak yöntemler tartışılmıştır.

Araştırmada karşılaştırmalı dilbilim ve uygulamalı dil öğretimi yaklaşımları temel alınmıştır. Türkiye Türkçesi ve Azerbaycan Türkçesindeki gramer kuralları, morfolojik yapılar, sözdizimi örnekleri ve kelime hazinesi karşılaştırmalı biçimde incelenmiş; ortak terminoloji ve alfabe standartlarının belirlenmesinin gerekliliği üzerinde durulmuştur. Ayrıca, ortak ders kitabının pedagojik modelinin iki ülkenin öğretim kültürlerini bütünleştirecek şekilde dengeli ve metin temelli olması gerektiği vurgulanmıştır. Dijital kaynaklar, işitsel materyaller ve karşılaştırmalı tabloların bu süreçte etkili bir rol oynayacağı belirtilmiştir.

Keywords: Modern Silk Road, Turkic states, integration, education, literature, culture, Organization of Turkic States, cultural diplomacy.

Kiriş

XXI asr boşlarida globalizatsiya, mintaqaviy iqtisodiy integratsiya va transport-kommunikatsiya tarmoqlariniñ jadal rivojlanişi yañi geosiyosiy va geoiqtisodiy makonlarni şakllantirdi. Şunday makonlardan biri — qadimiy “Buyuk Ipak yo‘li” asosida şakllanayotgan Zamonaviy Ipak yo‘li konsepsiyasidir. Mazkur yo‘l buguñi kunda nafaqat Şarq va G‘arbni bog‘lovçi savdo yo‘lagi, balki turkiy davlatlar o‘rtasidagi iqtisodiy, siyosiy va madaniy integratsiya jarayonlariniñ asosiy drayverlaridan biri sifatida namoyon bo‘lmoqda.

Buguñi globallaşuv davrida iqtisodiy, madaniy va siyosiy integratsiya jarayonlari insoniyat taraqqiyotiniñ asosiy omillaridan biriga aylandi. Şunday jarayonlardan biri — Zamonaviy Ipak yo‘li doirasida turkiy davlatlarniñ o‘zaro yaqinlaşuvi, hamkorligi va integratsiyasidir. Bu integratsiya nafaqat savdo va iqtisodiyot, balki ta’lim, adabiyot, fan va madaniyat sohalarida ham çuqur ildiz otmoqda. Çunki turkiy xalqlarni birlaştiruvçi asosiy kuç — ularniñ umumiy tili, madaniyati, qadriyati va ma’naviy merosidir.

Adabiyotlar tahlili va metod

Turkiy xalqlar o‘rtasidagi tarixiy, madaniy va til jihatidan yaqinlik qadimdan mavjud. Qadimgi turkiy imperiyalar, Ipak yo‘li orqali olib borilgan savdo aloqalari, umumiy diniy va madaniy qadriyatlar — bularniñ barçasi buguñi integratsion jarayonlar uçun tabiiy zamin yaratgan. 1990-yillar boşida mustaqillikka erişgan Markaziy Osiyo va Kavkazdagi turkiy davlatlar — O‘zbekiston, Qozog‘iston, Qirg‘iziston, Turkmaniston, Ozarbayjon va Turkiya o‘rtasidagi aloqalar yañi bosqiçga ko‘tarildi.

Afzalliklari:

- tranzit va logistika sohalarini rivojlantiriş;
- energiya resurslarini eksport qiliş imkoniyatlarini keñaytiriş;
- hududiy iqtisodiy integratsiyani çuqurlaştiriş;
- turizm va madaniy almaşinuvni faollaştiriş.

Şuña qaramay, integratsiya yo‘lida bir qator muammolar saqlanib qolmoqda:

- Transport infratuzilmasiniñ notekis rivojlanişi – ayrim mamlakatlarda yo‘l, temiryo‘l va port infratuzilmalari yetarli darajada emas.
- Bozorlararo me’yoriy tafovutlar – bojxona, soliqqa oid va texnik reglamentlarda farqlar mavjud.
- Ekologik va suv resurslari muammosi – mintaqaviy hamkorlikda barqaror rivojlaniş masalalari yetarliça muvofiqlaştirilmagan.

Turkiy davlatlar integratsiyasiniñ istiqbollari bir neça yo‘nalişda ko‘rinadi:

- Transport-logistika integratsiyasi: “Turan yo‘li”, “Transkaspiy xalqaro transport yo‘lagi (TITR)” kabi loyihalar orqali yagona transport makonini şakllantiriş.
- Energetik hamkorlik: gaz, neft va elektr energiyasi eksportini diversifikatsiya qiliş, “Markaziy Osiyo – Turkiya” energiya koridorini rivojlantiriş.
- Raqamli integratsiya: “Raqamli Ipak yo‘li” konsepsiyasi asosida telekommunikatsiya tarmoqlarini birlaştiriş.
- Madaniy-gumanitar aloqalar: TDT doirasida ta’lim, fan va madaniyat loyihalarini kuçaytiriş, “Turk dunyosi yoşlari forumi” kabi dasturlarni keñaytiriş.
- Qo‘şma bozor: kelajakda yagona bojxona va savdo zonasi taşkil etiş istiqbollari mavjud.

Muhokama.

Turkiy xalqlarniñ o‘zaro aloqalari qadimdan Ipak yo‘li orqali şakllañan. Bu yo‘l faqat tovarlar emas, ilm, san’at, adabiyot va ta’lim g‘oyalari almaşinuvi uçun ham xizmat qilgan. O‘rta asrlarda yaşab ijod qilgan buyuk turkiy mutafakkirlar — Al-Farobiy, Yusuf Xos Hojib, Mahmud Qoşg‘ariy, Ahmad Yassaviy, Alişer Navoiy, Abay Qunanboy, Ço‘lpon, Magtymguly, Fuzuliy kabi siymolar turkiy madaniyatniñ umumiy ildizlarini mustahkamlab, xalqaro miqyosdagi ma’naviy birlikni yaratganlar.

“Zamonaviy Ipak yo‘li” konsepsiyasi buguñi kunda transport, iqtisodiyot va logistika bilan bir qatorda madaniyatlararo muloqot va ta’lim sohalarini ham birlaştiruvçi global loyiha sifatida şakllanmoqda. Turkiy davlatlar taşkiloti (TDT) doirasida o‘tkazilayotgan “Turk dunyosi universitetlar ittifoqi”, “Turk akademiyasi”, “Turk madaniyati fondi” kabi taşabbuslar bu jarayonniñ asosiy bo‘g‘inidir.

Natijalar.

Ta’lim sohasida turkiy davlatlar o‘rtasidagi hamkorlik integratsiyaniñ eñ samarali yo‘nalişlaridan biridir.

Asosiy yo‘nalişlar:

- Qo‘şma ta’lim dasturlari — O‘zbekiston, Turkiya, Qozog‘iston va Ozarbayjon universitetlari o‘rtasida qo‘şma fakultetlar va almaşinuv dasturlari joriy etilgan.
- Yagona ta’lim makoni — TDT doirasida “Turkiy ta’lim tizimi modeli” işlab çiqilmoqda.
- Talabalar almaşinuvi — “Turkic Sçolarşip” dasturi orqali miñlab yoşlar turkiy mamlakatlarda o‘qiş imkoniga ega bo‘lişmoqda.
- Ilmiy hamkorlik — tarix, tilşunoslik, arxeologiya, axborot texnologiyalari sohalarida qo‘şma ilmiy loyihalar yo‘lga qo‘yilgan.

Ta’lim integratsiyasi nafaqat bilim almaşinuvi, balki umumturkiy tafakkur va o‘zlikni añlaşni mustahkamlaşga xizmat qilmoqda. Turkiy davlatlarniñ adabiy aloqalari tarixan juda boy. Buguñi kunda bu yo‘naliş yañi bosqiçga ko‘tarildi.

Zamonaviy adabiyot turkiy xalqlar o‘rtasidagi madaniy birlaşuvga katta hissa qo‘şmoqda. Masalan:

- Turkiyada O‘zbekiston va Qozog‘iston yozuvçilari asarlari tarjima qilinib naşr etilmoqda;
- Ozarbayjon, Turkmaniston va Qirg‘iziston adabiyotçilari o‘rtasida “Turk dunyosi adabiy mukofoti” joriy etilgan;
- “Turk dunyosi şe’riyat festivali” va “Navro‘z madaniyat festivali” kabi anjumanlar muntazam o‘tkazilmoqda.

Adabiyot — bu xalqlarni ruhiy va ma’naviy jihatdan birlaştiruvçi kuç. U integratsiyaniñ ma’naviy asosini yaratadi. Ipak yo‘li madaniy hududi bugun turkiy ruhniñ adabiy ifodasi sifatida qayta tiklanmoqda.

Muammolar:

- ta’lim tizimlari o‘rtasidagi farqlar (standartlar, diplom tan olinişi);
- adabiyot va madaniyatda tarjima muammosi;
- siyosiy manfaatlarniñ nomuvofiqligi;
- moliyaviy resurslarniñ yetişmasligi.

Istiqbollar:

- yagona “Turk dunyosi universiteti”ni taşkil etiş;
- “Raqamli Ipak yo‘li” loyihasini ta’lim va madaniyatda qo‘llaş;
- “Turkiy adabiyot markazi”ni tuziş;
- o‘zaro til o‘rganiş dasturlarini keñaytiriş;
- turkiy yoşlar uçun qo‘şma innovatsion markazlar oçiş.

Xulosa.

Zamonaviy Ipak yo‘li turkiy davlatlar uçun nafaqat tarixiy birlikni tiklaş, balki yañi iqtisodiy va siyosiy integratsiya modelini şakllantiriş imkonini bermoqda. Şu bilan birga, bu jarayonniñ muvaffaqiyati har bir davlatniñ o‘zaro işonç, teñlik va manfaatlar muvozanatiga asoslañan hamkorlik siyosatini yuritişiga bog‘liq. Kelajakda turkiy davlatlar o‘rtasida yagona bozor, yagona transport makoni va yagona madaniy axborot makonini şakllantiriş orqali Turkiy dunyo global iqtisodiyotniñ faol iştirokçisiga aylanişi mumkin.

Zamonaviy Ipak yo‘li turkiy davlatlar uçun faqat transport yoki iqtisodiy loyiha emas, balki ma’naviy uyg‘oniş va madaniy integratsiyaniñ ramzidir. Ta’lim, adabiyot va madaniyat sohalarida amalga oşirilayotgan hamkorlik xalqaro miqyosda turkiy dunyo birligini mustahkamlab, yañi avlodni umumturkiy qadriyatlar asosida tarbiyalayapti. Demak, Zamonaviy Ipak yo‘li — bu madaniyatlar çorrahasi, tafakkur yo‘li va birlaşuv yo‘lidir.

Adabiyotlar:

1. Turkiy davlatlar taşkiloti (TDT) rasmiy hujjatlari va axborotlari, 2023–2024
2. TURKSOY. Turk dunyosi madaniy integratsiyasi haqida yillik hisobot, 2023.
3. Ergaşev A. Turkiy integratsiya va transport siyosati, Toşkent, 2022.
4. Yuldaşeva M. Ta’lim va madaniyatda turkiy hamkorlik, “Ijtimoiy fanlar jurnali”, 2023.
5. Navoiy A. Turkiy so‘zniñ qudrati. tanlangan asarlar, Toshkent, 2019.

Faiq Ələkbərli
fəlsəfə üzrə fəlsəfə doktoru, dosent
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu
Türk xalqlarının fəlsəfi fikir tarixi və müasir
fəlsəfəsi şöbəsinin müdiri
E-mail: faikalekperov@mail.ru
http://orcid.org/0000-0002-8865-568x

I Türkoloji qurultayın ideoloji-fəlsəfi aspektləri və çağdaş Türk dünyası

Xülasə

Yüz il bundan öncə Azərbaycanın paytaxtı Bakı şəhərində Birinci Türkoloji Qurultayın keçirilməsi Türk xalqlarının, o cümlədən Azərbaycan xalqının tarixində çox mühüm bir hadisə olmuşdur. Birinci Türkoloji Qurultayın keçirilməsində əsas məqsəd Türk xalqlarının milli əlifbası və milli terminologiya məsələsi olsa da, digər önəmli məsələlər də müzakirə olunmuşdur. Sovet Rusiyası Türk xalqlarını Ərəb əlifbasından və Ərəb-Fars mənşəli sözlərdən uzaqlaşdırmaqla imperiya maraqlarına güddüyü halda, Türk xalqlarını təmsil edən alimlər bu fürsətdən istifadə edərək yeni Türk əlifbası və təmiz Türk dili formalaşdırmağa cəhd göstərmişdilər. Bu baxımdan bütün türkoloq alimlər, o cümlədən Azərbaycan türkoloqları üçün bu mücadilə bir tərəfdən şərəfli olsa da, digər tərəfdən onların böyük çoxluğunun repressiya olunması ilə nəticələnmişdir. Çünki Sovetlər Birliyinin rəhbərliyinin əsas məqsədi Türk xalqları üçün nə asan bir Türk əlifbası yaratmaq nə də, təmiz-saf Türk dili formalaşdırmaq idi. Sovet ideolqları Türkoloji qurultayın keçirilməsinə şərait yaratmaqla bir tərəfdən Türk xalqlarını özünə bağlamaq üçün yollar arayır, digər tərəfdən bu işə Türkçülük ruhunda yanaşanları repressiya etmək niyyəti güdürdü. Türkoloji qurultaydan bir müddət keçdikdən sonra Türkoloq alimlərin repressiya olunması fonunda, Sovet rəhbərliyinin Türk xalqlaına nisbətdə milli əlifba və milli dil məsələsində apardığı ruslaşdırma siyasəti öz bariz mahiyyətini ortaya qoymuşdu. Ancaq bütün hallarda həmin dövrdə türkoloq alimlərin Türk xalqlarının milli əlifba, milli dil, milli tarix, milli fəlsəfə və s. sahələrdə ortaya qoyduqları milli əməlləri gələcək nəsillər üçün bir şərəfli bir yol olmuşdur.

Açar Sözlər: Türk dili, Türk əlifbası, Türk mədəniyyəti, Türk fəlsəfəsi, Türk dövlətləri, I Türkoloji Qurultay, Türkoloq alimlər

Faig Alakbarli
PhD in Philosophy, Associate Professor,
Head of the Department The history of philosophical thought and modern philosophy of the Turkic peoples,
Institute of Philosophy and Sociology of the Azerbaijan National Academy of Sciences.

Ideological-philosophical aspects of the 1st Turkological Congress and the contemporary Turkic world

Abstract

The holding of the First Turkological Congress in Baku, the capital of Azerbaijan, a hundred years ago was a very important event in the history of the Turkic peoples, including the Azerbaijani people. Although the main purpose of the First Turkological Congress was the issue of the national alphabet and national terminology of the Turkic peoples, other important issues were also discussed. While Soviet Russia pursued its imperial interests by distancing the Turkic peoples from the Arabic alphabet and words of Arab-Persian origin, scholars representing the Turkic peoples used this opportunity to try to form a new Turkish alphabet and a pure Turkish language. From this point of view, although this struggle was honorable for all Turkic scholars, including Azerbaijani Turkic scholars, on the one hand, it resulted in the repression of the vast majority of them on the other hand. Because the main goal of the leadership of the Soviet Union was neither to create an easy Turkish alphabet for the Turkic peoples nor to form a pure Turkish language. By creating conditions for the holding of the Turkological Congress, Soviet ideologists were on the one hand looking for ways to unite the Turkic peoples with themselves, and on the other hand, they intended to repress those who approached this work in the spirit of Turkism. Some time after the Turkological Congress, against the background of the repression of Turkological scholars, the policy of Russification pursued by the Soviet leadership in relation to the Turkic peoples regarding the national alphabet and national language revealed its obvious essence. However, in all cases,

the national deeds of Turkological scholars of that period in the fields of the national alphabet, national language, national history, national philosophy, etc. of the Turkic peoples were an honorable path for future generations.

Keywords: Turkish language, Turkish alphabet, Turkish culture, Turkish philosophy, Turkish states, I Turkological Congress, Turkological scholars

Giriş

1924- cü ildə 1-ci Türkoloji Qurultay ın keçirilməsi məsələsi Azərbaycanda, daha sonra elə həmin il Ümumittifaq Şərqşünaslar Cəmiyyətinin iclasında qaldırılır. 1925-ci il 15 sentyabr yığıncağında Moskvada qurultayın 1925-ci ilin dekabrında Ümumrusiya Şərqşünaslar Cəmiyyətinin və Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin təşkilatçılığı ilə Bakıda keçirilməsi haqqında qərar qəbul edilir. Qurultayın işini təşkil etmək üçün yaradılan komissiyanın 6 fevral iclasında artıq qurultayda işləyəcək orfoqrafiya, terminologiya, təhsil və s. komissiyaların tərkibi müəyyənləşdirildi. Beləliklə, 100 il bundan öncə 1926-cı ilin fevralın 26-dan martın 5-dək Bakı keçirilən Türksoylu Xalqların 1-ci Türkoloji Qurultayın keçirilməsinin əsas təşəbbüsçüləri Yeni Türk Əlifbası (YTƏ) Komitəsi və Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti (Azərbaycanı Araşdırma və Öyrənmə Cəmiyyəti) idi. Türkoloji Qurultayının qarşısında duran əsas problemlər isə milli əlifba, milli dil və milli terminologiya olmuşdur. Qurultaya qatılan 131 nümayəndədən 93-ü türksoylu, yerdə qalanları digər xalqların təmsilçiləri olublar [1, s.231].

1920-ci illərdə Türksoylu xalqların milli əlifba, milli dil, milli terminologiya məsələlərinin Türkoloji Qurultay adı altında geniş şəkildə gündəmə gətirilməsi, ən əsası bu prosesdə Azərbaycanın ön plana çıxarılması təsadüfi olmamışdır. Hər halda SSRİ-nin coğrafiyasının və əhalisinin xeyli bir qisminin türk coğrafiyası və türk xalqlarından ibarət olması bu addımın atılmasında mühüm rol oynamışdır. Sovet ideoloqlarına ərəb əlifbasından latın qrafikasına keçirilməsi, milli terminologiya, milli orfoqrafiya məsələsinin gündəmə gətirilməsi birmənalı şəkildə imperiya maraqlarına hesablanmışdır.

Birinci Türkoloji qurultayda Türk və qeyri-Türk xalqlarının iştirakı aşağıdakı kimi olmuşdur: Kazan tatarı – 14, Özbək – 8, Azərbaycan türkü – 19, Krım tatarı – 6, Dağıstan türkü – 2, Karaçay-3, Qazax-5, Yakut-3, 16 Başqırd-7, Türkmən-5, Qırğız-2, Noqay-1, Osmanlı türkü-4, Qumuq-1, Balkar-1, Çuvaş -2, Xakas-1, Uyğur – 1, İran türkü-1, Oyrot – 1, Meşşeryak-1, Teptyar – 1,Abxaz-1, Erməni-1, Rus19, Yəhudi-2, Alman-3, Macar-1, Kalmık-1, Osetin-2, Eston-1, Ukraynalı-1, Kürd-1, Votyak-1, Çeçen-1, Adıgey -2, İnquş -1, Dağıstanlı-1, Avar-1 iştirak etdiyini öyrənə bilərik.

Bu qurultayın görünən tərəflərindən biri ondan ibarətdir ki, bu tarixi qurultayda Fuad Köprülü, Bəkir Çobanzadə, Əli bəy Hüseynzadə, Hənəfi Zeynallı, Əhməd Baytursun, Qalimcan Şərəf və başqa tanınmış türkoloqlat iştirak etmişlər. Qeyri-türk millətlərinin nümayəndələri də qurultayın işində yaxından iştirak etmiş, yaradılan komissiyaların işinə cəlb olunmuşlar. Məsələn, kalmık Kosiyev, Menzel, Radebold (alman), Messaroş (macar), X.Oşayev (çeçen), Zifelt-Simumyaqin (eston), M.Pavloviç (yəhudi), Z.Malsatov (inquş) qurultayın işində və müzakirələrində fəal olmuşlar.

Bir çox tədqiqatçılara görə, Birinci Türkoloji Qurultay bütövlükdə Sovet Rusiyası siyasi rejimi tərəfindən düşünülmüş, ssenariləşdirilmiş Şekspirvari bir faciə səhnəsinə bənzəyib. Yəni Qurultayda baş verən olaylar, irəli sürülən fikirlər 1937-ci ildə baş verəcək dəhşətli hadisələrin, qanlı repressiyanın əsas istinad nöqtələrindən biri olub. Azərbaycandan həmin Qurultayda on yeddi nəfər nümayəndə 11 iştirak edib. O nümayəndələrdən yalnız Səmədağa Ağamalıoğlu öz əcəli ölmüş, yerdə qalan bütün nümayəndələr 1937-ci il repressiyasının qurbanı olublar [2, s.10-11].

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Birinci Türkoloji qurultayın 90 illik yubileyi ilə bağlı Sərəncamında Qurultayın tarixi əhəmiyyəti qeyd olunarkən belə bir məsələ xüsusi vurğulanır: “Türkoloji Qurultay türk xalqlarının mədəni inteqrasiyasında yeni mərhələnin təməlini qoymuş diqqətəlayiq hadisələrdəndir. Qurultayda əsaslı müzakirə obyektinə çevrilmiş

problemlərlə bağlı böyük perspektiv əhəmiyyətə malik qərarlar qəbul edilmiş, latın qrafikalı yeni əlifbaya keçidin elmi-metodik prinsipləri işlənib hazırlanmışdır" [2, s.11].

Birinci Türkoloji Qurultayda milli əlifba məsələsinin ideoloji-fəlsəfi yönləri.

Birinci Türkoloji Qurultayda ilk növbədə, Ərəb əlifbasından Türk (latın) əlifbasına keçirilməsi çağrışına cavablar dinlənmişdir. Çünki Türkologi Qurultayı keçirməkdə əsas məqsəd türk xalqlarını ərəb əlifbasındam Türk (latın) əlifbasına keçməyin zərurətini ortaya qoymaq, bu məsələdə türk ziyalılarının dəstəyini almaq idi. Qurultayda iştirak edənlərin əksəriyyəti latın əlifbasına keçillməsinin tərəfdarı olduğu halda, ancaq nümayəndələr içərisində yeni əlifbanın tətbiq edilməsinin əleyhinə çıxış edənlər də tapılmışdır [1, s.231]. Tatarıstandan və Qazaxıstandan gələn türkoloqlar – Qalimcan Şərəf və Əhməd Baytursun çox kəskin şəkildə latın qrafikasının əleyhdarı olublar. Nəhayət, uzun sürən müzakirələrdən sonra 4 mart 1926-cı ildə 13-cü iclasda əlifba məsələsi səsverməyə qoyuldu. 101 nəfər latınlaşdırmanın lehinə, 7 nəfər ərəb əlifbasında qalmağın lehinə səs verdi. 9 nəfər bitərəf qaldı. Beləliklə, sovet imperiyasının tərkibinə daxil olan qeyri-rus millətlərinin əlifbasının bundan sonrakı müqəddəratı təyin edildi [2, s.12-13].

Azərbaycan Cümhuriyyətinin siyasi müstəqilliyinə son qoyan Sovet Rusiyası Yeni Türk Əlifbası adı altında, latın qrafikasını Azərbaycan, Tatarıstan, Başqırdıstan, Krım və Türküstanda tətbiq etməklə Türk xalqlarının milli mədəniyyətlərini zərbə altında qoyurdu. Bu baxımdan sovet ideoloqları üçün bu müstəmləkəçiliyə hədəfələnmiş "yenilik" idi. Başqa sözlə, tələm-tələsik yeni əlifbaya-latın əlifbasına keçmək Azərbaycan türklərini, Türküstan türklərini və başqa türksoylu xalqların keçmişi ilə gələcəyi arasında körpünün tez yandırılmasına, eyni zamanda dünənə qədər onunla eyni əlifbanı paylaşan türk-müsəlman xalqları, xüsusilə Türkiyə türkləriylə mənəvi və siyasi bağların qırılmasına hesablanmışdı.

Maraqlıdır ki, Sovet ədəbiyyatında da Yeni Türk Əlifbasının ortaya çıxmasının birinci mərhələsində (1920-1929) bununla bağlı iki cərəyanın: 1) latınçılar (latın əlifbası tərəfdarları) və 2) islahatçıların (ərəb əlifbası tərəfdarları) olduğu iddia olunurdu [3, s.10]. Əslində əlifba məsələsiylə bağlı "latınçılar" və "islahatçılar" deyə iki cərəyandan bəhs oluması SSRİ-nin əsil niyyətini gizlətmək üçün uydurulmuş terminlərdir. Hər halda çar Rusiyasında, eyni zamanda Osmanlıda 19-cu əsrdən başlayaraq milli əlifba və milli dil məsələsinin gündəmə gətirilməsi öncədən düşünülmüş antitürk konsepsiyanın ilk maddələri olmuşdur. Deməli, bu məsələlərin dərininə vardıqda görürük ki, burada problem zahirən gerilik və tərəqqiçi anlamında köhnə əlifbada qalmaq ya da yeni əlifbaya keçmək məsələsi olmamışdır. Ona görə də məsələni tam dərk etmək üçün, 19-cu əsrin ortalarından başlayaraq "latınçılar" və "islahatçılar"ın milli əlifba və milli dil məsələsiylə bağlı irəli sürdüyü mülahizələrə, ən əsası onların hansı siyasi-ideoloji dünyagörüşə və nəzəri-fəlsəfi ideyalara əsaslanmalarına qısaca diqqət yetirmək zəruridir.

Qeyd etdiyimiz kimi, 19-cu əsrin ortalarından başlayaraq Azərbaycanda, Osmanlıda və digər Türk ellərində "latınçılar"ın ortaya çıxdığını, daima da onlara qarşı olan "islahatçılar"ı görürük. Azərbaycanda ərəb əlifbasında islahatların aparılması ya da latın qrafikasına keçməyin öncülləri arasında Mirzə Fətli Axundzadə xüsusuilə fərqlənmişdir. M.F.Axundzadə Rusiya Elmlər Akademiyasının üzvü B.Dorna məktubunda yazırdı: "Sivilizasiyanın indiki sürətli nailiyyətləri dövründə yazının belə qeyri-təbiiliyi mədəni dünyanın Şərq ədəbiyyatına sarı gedən yolunu həmişəlik bağlaya bilməzdi, onun əlifbasında mütləq dəyişiklik əmələ gəlməli idi" [4, s.50]. Bu işin təşkilatçısı olan çar Rusiyası hiyləgərcəsinə Axundzadəyə yol göstərirdi ki, öncə Türkiyə və Qacarlar ərəb əlifbasında islahatların mümkünlüyü məsələsini müzakirə edərək müəyyən bir qərar qəbul etməlidir. Bu məqsədlə 1863-cü ildə Türkiyəyə səfər edən Axundzadə ölkənin baş naziri Fuad paşa, eləcə də Türkiyə Elmlər Akademiyasının üzvləri ilə görüşsə də, məqsədinə çatmır. Qacarların Maarif Nazirliyi də ona "yox" cavabı verərək yazır ki, "əlifbamızı dəyişdirməyə əsla ehtiyacımız yoxdur" [4, s.101]. Bundan sonra çar Rusiyası ideoloqlarının təsiri altında Axundzadədə yeni fikir yaranır: "Mən iki cür əlifba düşünmüşəm. Onlardan biri latın əlifba hərflərindən seçilərək tərtib edilməlidir ki, onu soldan-sağa yazmaq lazım gələcəkdir. İkincisi isə, hazırkı əlifbamız əsasında qurulmalıdır ki, onu hazırda olduğu kimi sağdan-sola yazmaq olar" [4, s.172].

Əlifba məsələsində M.F.Axundzadənin yolunu davam etdirən Məhəmməd Ağa Şahtaxtlı 19-cu əsrin sonlarında yeni əlifba layihəsi hazırlamış və bir müddət bunun üçün çalışmışdır. Ancaq çar

Rusiyasının ideoloqları həmin dövrdə bunu həyata keçirməyin mümkünsüzlüyünü görərək, Şahtaxtlıya ciddi dəstək verməmişlər. Bunun "nisgilini" yaşayan Şahtaxtlının SSRİ dövründə Azərbaycanın latın əlifbasın keçməsini dərhal müsbət qarşıladığını görürük [5, s.20-30; 231]. Şübhəsiz, ilk baxışda mütərəqqi mahiyyət daşıyan ərəb əlifbasında ya dəyişikliklərin edilməsi, ya da latın əlifbasına keçilməsi ideyası müsəlman-türk birliyini parçalamağa yönəlmişdir. Bu səbəbdəndir ki, M.F.Axundzadənin, Mirzə Kazım bəyin, M.A.Şahtaxtlının "əlifba və dil islahatları" Rus-Avropa alimləri tərəfindən rəğbətlə qarşılanmış və onlara lazımı dəstəklər verilmişdir. Hər halda, onların ortaq türk dili əvəzinə, məhəlli türk dilini müdafiə etmələri, eyni zamanda ortaq əlifbanın aradan qaldırılması prosesində müəyyən əməkləri danılmazdır. Çar Rusiyası maraqlı idi ki, burada yaşayan türk-tatarların vahid millət (türk-tatar: azərbaycanlı, başqırt, özbək, qazax və b.), vahid dil (türk dili: Azərbaycan, tatar, qazax və s.), vahid əlifba (ərəb əlifbası: kiril, latın, ərəb və b.) aradan qaldırılsın və parçalansın.

Vaxtilə Azərbaycan Türk filosof-mütəfəkkiri Əli bəy Hüseynzadə (Birinci Türkoloji Qurultaya Türkiyədən gələn nümayəndələr arasında Əli bəy Hüseynzadə də olub. Əli bəy Hüseynzadənin Qurultaydakı məruzəsindən cəmi yarım səhifəlik bir mətn qeydə alınıb. Əli bəy Hüseynzadənin məruzəsinin bütöv mətni başqa mənbələrdən əldə edilib [22, s.10]) bu "islahatlar"ın antislam, antitürk mahiyyətini görərək bildirmişdir ki, "əlifba islahatı"nın tərəfdarlarının (M.F.Axundzadə, M.A.Şahtaxtlı) Tiflisdən bunu bəyan etmələri çox düşündürücüdür: "Üç yüz milyon İslamın əlifbasının altmış-yetmiş milyon türkün imlasını bir hökmi-qaraquşilə türkün, İslamın mərkəzindən uzaq olan yuvalarından birdən dəyişmək istəyirlər! Halbuki, böylə mühüm bir əmr üçün kəndilərində lazım gələn məlumatdan əsər belə yox! Türkün imlasını islahı üçün deyil, sərf və nəhvi mükəmməl bilmək, bəlkə bütün türklərin tarixinə, ədəbiyyatına, etnoqrafiyasına, fonologiyasına haqqı ilə aşina bulunmaq tələb edər"[6,s.360].

Ə.Hüseynzadə xeyli dərəcədə haqlı idi ki, ortaq türkcədən ayrı Azərbaycan türkcəsinin inkişafında, eləcə də əlifba islahatı məsələsində əvvəlcə çar Rusiyası, sonralar Sovet Rusiyasının maraqlı və icraçı olmaları təsadüfi olmamışdır. Hər iki halda məqsəd çar Rusiyası-Sovet Rusiyası müstəmləkəsi altında yaşayan türkləri, o cümlədən Azərbaycan türklərini Türk dünyasından, xüsusilə Güney Azərbaycan və Türkiyə türklərindən ayırmaq idi. Bu ona işarə idi ki, "islahatlar" məsələsində Axundzadə və Şahtaxtlı hansısa sifarişləri bilərəkdən və ya bilməyərəkdən gündəmə gətirirdilər. Çünki əlifba və dil "islahatı"nın əsas müəllifləri çar Rusiyası və Avropa ideoloqları idilər. Onlar müsəlman xalqlarının "oyanışına"-"maarfilənməsinə" xidmət adı altında müsəlmanların ortaq ərəb əlifbasını, türklərin ortaq türk dilinin aradan qaldırmaq xətti götürmüşdülər. Ancaq bunu inandırıcı etmək üçün elə bir şərait yaratmışdılar ki, həmin ideyaları məhz müsəlman-türk mütəfəkkirləri irəli sürürdülər.

Doğrudur, Qərb mədəniyyətinin təsiri altında milli-demokratlar da vaxtilə Azərbaycan Cümhuriyyəti (1918-1920) dövründə ərəb əlifbasından latın əlibfasına keçməyi təklif edirdilər. Bu məqsədlə Azərbaycan parlamentində bir komissiya təşkil olunmuş və bu komissiya latınlaşmış türk əlifbasının layihəsini parlamentə belə təqdim etmişlər [7, s.70]. Ancaq bir tərəfdən "İslam birliyi" ideyası ilə çıxış edən "ittihadçı"ların, digər tərəfdən isə bolşevizmin günü-gündən Azərbaycan Cümhuriyyətinə qarşı yönəlmiş təzyiqlərin nəticəsində latın əlifbasına keçid məsələsi həmin dövrdə öz həllini tapmamışdı. Eyni zamanda, Azərbaycan Cümhuriyyəti latın əlifbasına keçidlə bağlı Türkiyə Cümhuriyyəti ilə ortaq addım atmaq niyyəti də güdmüşdü. Həmin vaxt isə Türkiyə və Azərbaycan Cümhuriyyəti üzərinə olan "mühafizəkar" basqılar bu məsələnin öz həllini tapmasına əngəl olmuşdu.

Sovet dövründə ərəb əlifbasında dəyişikliklər edilməsinin tərəfdarı kimi çıxış edən "islahatçılar" əslində həmin milli qüvvələr idi. Vaxtilə ərəb əlifbasından imtina edilib latın əlifbasına keçmək istəyən Azərbaycan milli qüvvələrinin Sovet işğalı dövründə bunu, istəməməsi təsadüfi deyildi. Əslində milli-demokratik qüvvələri narahat edən latın qrafikasına keçmək deyil, latın əlifbasına keçmək adı altında ifratçılığa varılması, millətlər arasında ayrı-seçkilik edilməsi, gələcəkdə kiril əlifbasına keçmək üçün bir vasitəyə çevrilməsi idi. Çünki SSRİ xüsusilə, əsarət altına aldığı türk xalqlarını özünəməxsus "beynəlmiləl siyasət"lə assimilyasiya etmək niyyəti güdmüşdü. Bu baxımdan Sovet Rusiyasının Azərbaycanın, Tatarıstanın, Bşaqırdıstanın, Orta Asiyanın türk dövlətlərinin ərəb əlifbasından latın qrafikasına keçməsinə bilavasitə şərait yaratmasında məqsədləri yalnız türk millətlərini maarifləndirmək, elm və biliklərini inkişaf etdirmək ola bilməzdi. Əgər SSRİ, yəni rəsmi Moskva belə səmimi niyyət güdürdüsə, nə üçün yeni əlifba məsələsinə əsasən, türk-müsəlman xalqları cəlb

edilmişdi?! Yoxsa, Rusiya üçün ermənilər, gürcülər və başqa millətlər ikinci dərəcəli idilər? Deməli, bu məsələdə Rusiyanın başlıca məqsədi türksoylu xalqları SSRİ-nin əsarətindən kənarda qalan türk-müsəlman ölkələrindən, xüsusilə Türkiyə türklərindən ayırmaq olmuşdur [8, s.192].

SSRİ ideoloqları bu planını birdən-birə həyata keçirə bilməzdi və bu mərhələli şəkildə nəzərdə tutulmuşdu. Həmin dövrdə milli qüvvələr də məhz Sovet Rusiyasının bu ikiüzlü siyasətini ifşa etmişdilər ki, onların bu baxışları da bolşeviklər tərəfindən latın qrafikasının əleyhinə olan mülahizələr kimi dəyərləndirilmişdi. Əslində onların bu etirazı, əlifbanın latınlaşdırılmasından daha çox kirilləşdirməyə-ruslaşdırmaya qarşı idi. Azərbaycan milli ideoloqu Məhəmməd Əmin Rəsulzadə də sonralar yazırdı ki, o zaman (1921-1922-ci illər) bolşeviklərin bu niyyətindən xəbərdar idilər: "Bolşeviklərin ərəb hərflərini latın hərfləri ilə əvəz etdirmək xüsusunda gizli və əsil fikirlərini bildiyimizdən (ki, bu fikir sonradan həyata keçirilmiş, ərəb hərfləri öncə latın hərflərinə, sonra da rus hərflərinə təbddül edilmişdir) bir məqalədə türk elləri arasındakı mədəni əlaqələri tamamilə kəsdirməmək üçün yazılanı daha asan oxutdura bilmək məqsədini təmin edən inqilabçılara haqq verirdim" [9, s.85]. Yəni Rəsulzadə də bolşeviklərin əməllərindən xəbəri olduğu üçün latın əlifbasına keçilməsini deyil, ərəb əlifbasında islahatların aparılmasını müdafiə etmişdir. M.B.Məmmədzadə də milli qüvvələrin əvvəlcə ərəb əlifbasından latına keçilməsinə etiraz etmələrinə səbəb olaraq, bolşeviklərin məkrli niyyətlərini və bunun Azərbaycan ilə türk dünyası arasında əlaqələrə zərbə olmasını göstərmişdi [10, s.56].

Bu baxımdan ərəb əlifbasında islahatların aparılmasını məqsədəuyğun hesab edən "islahatçılar", latın qrafikasına keçilməsi ilə Azərbaycan xalqının Türk-İslam mədəniyyətindən uzaq düşməsi, din və milli birliyin aradan qalxması məsələsini daha çox qabartmışlar. Bizə elə gəlir ki, bu cür mülahizələrin səslənməsi də təsadüfi olmamışdır. Bütün hallarda, yeni əlifbaya keçidlə bağlı imperiyanın maraqları olduğu kimi, bunun əleyhinə çıxan "islahatçılar"ın da öz mövqeyi olmuşdur. "İslahatçılar" ədəbi dilin yazısında ərəb əlifbasını saxlamaqla yalnız islah edilməsini, yəni bəzi dəyişikliklərin aparılmasını məqsədəuyğun hesab edirdilər. Onlar deyirdilər ki, yeni əlifba qəbul edilərsə, bununla da əski ədəbiyyat məhv olacaq, "İslam birliyi" pozulacaq və türk dilini öyrənmək çətin olacaq [3, s.13]. Milli qüvvələrin əlifba məsələsində fikir dəyişdirməsinin əsil mahiyyətinə varmayan bolşeviklər, bunu tamamilə başqa yerə yozurdular.

Ərəb əlifbasının əleyhinə çıxış edən "latınçılar" bir tərəfdən yeni əlifbaya keçməni daha çox mədəni inqilab kimi qiymətləndirənir, digər tərəfdən bunu, marksizm-leninzmin qələbəsi kimi qələmə verirdilər. Xüsusulə, F.Ağazadə, B.Çobanzadə, M.Şahtaxtlı, R.Axundov, S.Ağamalıoğlu ərəb əlifbasında islahatlar aparılmasının mümkünsüzlüyünü irəli sürərək latın əlifbasının qəbul edilməsini zəruri hesab edirdilər. Məsələn, Fərhad Ağazadə yazırdı ki, əlifbanı yarımçıq islah etmək olmaz; ya gərək hamısı islah edilsin, birdəfəlik bu qüsurlardan yaxamız qurtarsın, ya da ki, heç əl vurulmasın. O yazırdı: "Şərq dillərinin üstündə ağalıq sürmək istəyən "müqəddəs" ərəb dili türkcəmiz öldürmək istədisə də, öldürəmədi, ancaq yarımcan qıldı. Bir dil ki, onun yer üzündə yüz milyonluq sahibi ola, aya o dil ölərmi? Əlbəttə, ölməz!" [11, s.11].

Həmin dövrün "mətin" bolşeviklərindən hesab olunan Sultan Məcid Əfəndiyev hesab edirdi ki, millətçilər qısqanclıqdan bu məsələyə müsbət yanaşmırlar. Belə ki, əvvəllər ərəb əlifbasından latın əlifbasına keçmək istəyən millətçilər, indi bunu həyata keçirənin bolşeviklər olduğu üçün yeni əlifba məsələsini tənqid edirlər [12, s.177]. Əfəndiyevin fikrincə, millətçilərdən fərqli olaraq, islamçılar-ruhanilər isə ərəb əlifbasından daha çox onun təsiri məqsədilə möhkəm yapışırlar [12, s.70]. Səməd Ağamalıoğlu da S.M.Əfəndiyev kimi latın qrafikasına keçməyin əleyhdarları olan "islahatçılar"a cavab olaraq yazırdı: "O adamlar ki, yeni türk əlifbası barəsində deyirlər: "əgər bu əlifba həyata keçsə, din birliyi əldən gedəcəkdir" - bu əqlə uymayan cəfəngiyyatdır. Tarix bizə göstərdi ki, din birliyi yox imiş, yox olan şey təzədən bir də nə cür yox ola bilər" [13, s.32].

Fikrimizcə, birincisi Əfəndiyevlər, Ağamalıoğlular bu halda da bolşevik əqidəsindən çıxış etdiyi üçün, din birliyinin millətlərin həyatında oynadığı mühüm rolu görə bilməmişdir. Əslində hər millətin həyatında, mənəvi dəyərlərdən biri kimi din birliyi də mühüm yerə malikdir. İkincisi, latın qrafikasının əleyhdarları yalnız "din birliyi əldən gedəcək» demirdilər, onlar həm də SSRİ-nin əsarəti altında yaşayan Azərbaycan və b. türk dövlətləri və millətləri ilə imperiydan kənarda qalanlar arasında bir sədd çəkiləcəyinə inanırdılar. Bu fikirlər 1926-cı ildə Bakıda keçirilən

Türkoloji qurultayda Kazan türkləri tərəfindən də səslənmişdir. Həmin qurultayda çıxış edən S.Ağamalıoğlu isə onlara cavab olaraq deyir: "Yeni əlifbanın əleyhinə olanlar, xüsusən "Yeni əlifbanın qəbulu ilə 500 illik ədəbiyyatı itiririk" deyən kazanlılar bilməlidirlər ki, qonşu cümhuriyyətlərin, o cümlədən Azərbaycanın da özünəməxsus keçmiş ədəbiyyatı vardır… Ümumi savadlılıq yolu ilə ədəbiyyatı canlandırmaq və onu xalq malı etmək mümkündür" [14].

Ancaq Əfəndiyev, Ağamalıoğlu və onların digər silahdaşları başa düşməli idilər ki, zahirən latın qrafikasının əleyhdarları kimi çıxış edən bəzi Azərbaycan, Kazan və başqa türk ziyalıların əksəriyyətini əslində narahat edən din birliyi və mühafizəkarlıq deyil, daha çox mənəvi-mədəni Türk birliyinin aradan qalxması idi. Ancaq bütövlükdə onlar Azərbaycan, Türkmənistan, Özbəkistan və başqa türk dövlətlərində ərəb əlifbasından latın qrafikasına keçid məsələsində Moskvanın əsil məkrli niyyətini görə bilməmiş, əksinə, bunu bolşevizmin nailiyyəti kimi təbliğ etmişlər [15, 156-157].

Milli əlifba məsələsinin ideoloji-siyasi yönləri...

Ancaq Türk-Tatar xalqlarının ərəb əlifbasından latın qrafikasına keçməsi məsələsində SSRİ-nin siyasi manevra etdiyi, əsil məqsədinin Türk xalqlarına kiril əlifbasının qəbul etdirilməsi olması çox keçmədən bəlli olmuşdu. Belə ki, sovet ideoloqları milli əlifba və milli dil məsələsində də "milli müqəddərat" məsələsində olduğu kimi, türk-müsəlman xalqlarının ərəb əlifbasından birbarşa rus-kiril əlifbasına keçilməsinin təhlükəli olduğunu nəzərə alaraq, bunu mərhələli şəkildə reallaşdırmaq niyyəti güdmüşdür. Əgər SSRİ 1920-ci illərdə yeni əlifbanı rus qrafikasına keçidlə həll etsəydi, şübhəsiz "xilaskar" donu geyinmiş rus bolşeviklərinin bu addımı istər işğal etdiyi ölkələrdə, istərsə də dünyada birmənalı qarşılanmayacaqdı. Bu baxımdan ilk mərhələdə, latın əlifbasından istifadə edən bir çox Avropa dövlətlərinin də maraqlarına cavab verən bir addım atılmışdı. Lakin imperiya ideoloqları yaxşı anlayırdılar ki, ərəb əlifbasından imtina etməklə SSRİ-nin tərkibindəki türk dövlətləri İslam-Türk dünyasından müəyyən dərəcədə uzaqlaşsa da, başqa tərəfdən eyni əlifbanı qəbul edən Türkiyə ilə isə bir o qədər yaxınlaşmış olmuşdur. Bunun gələcəkdə SSRİ üçün böyük bir təhlükə mənbəyi olduğunu görən, eyni zamanda, başdan imperiya əsarəti altında olan türk-tatar və müsəlman xalqlarının istər Türkiyə, istərsə də Avropa dövlətləri ilə əlaqəsində qətiyyən maraqlı olmayan sovet ideoloqları 1920-ci illərin sonu, 1930-cu illərin əvvəllərindən etibarən türk dövlətlərinin və xalqlarının, gələcəkdə rus-kiril əlifbasına keçə bilməsi ideyasını yaymağa başlamışlar.

Maraqlıdır ki, latın əlifbasını türk əlifbası adlandırıraq bir müddət onu müdafiə edənlər, rus əlifbasının zorla tətbiqi meylini hiss etdikdən sonra, bəzi beynəlmiləlçi bolşeviklər həm türk anlayışından, həm də müdafiə etdikləri türk əlifbasından imtina etdilər. Bu baxımdan Səməd Ağamalıoğlu 1929-cu ildə bütün Azərbaycanın SSRİ və Şərqdə ilk dəfə olaraq rəsmən latın qrafikasına keçməsini böyük qələbə saydığı halda [13, s.36], həmin hadisənin üstündən bir il ötməmiş türk əlifbası adlandırdığı latın qrafikasından rus əlifbasına keçməyin zəruriliyindən bəhs etmişdir: "Azərbaycanlıların yeni latın əlifbasına keçmək yolu, gələcəkdə onların rus əlifbası qrafikası üzrə düzəldilmiş yeni əlifbaya keçmək işini bir qədər asanlaşdıracaqdır" [13, s.37]. Artıq türk əlifbası beynəlmiləçiliyin içində əriyərək yox olur, onun yerini rus əlifbası tuturdu. Beləliklə, yarım əsr ərzində bir millətin üç əlifbadan istifadə etmək məcburiyyətində qalması faciəsini görmək, bunu oybektiv qiymətləndirmək və etiraz etmək əvəzinə, bəzi Azərbaycan ziyalılarının bu cür mövqe tutması, ancaq təəssüf doğrur.

Sovet ədəbiyyatında 1940-cı ilin yanvarın 1-dən, latın qrafikasından rus əlifbasına keçilməsi belə əsaslandırılırdı ki, bu qrafika ümumiliyi rus dilindən söz və terminləri düzgün yazmağa kömək edəcək: "Bundan başqa, qrafika ümumiliyi nəşriyyat-mətbəə işlərini də asanlaşdırar, əlavə xərc və işləri azaldardı" [3, s.14]. Burada rus əlifbasına keçməyin zəruriliyi ilə bağlı gətirilən "arqumentlərə" təəccüb etməyə bilmirsən. Daha sonra bu müəlliflər yazırlar: "Əgər birinci dövrdə bir-birinə zidd cərəyanlar əmələ gəlmişdisə, ikinci dövrdə belə bir vəziyyət olmamış, hamı rus qrafikasına keçmək təşəbbüsünü bəyənmişdir. Lakin müzakirələrdə əsas iki fikir nəzərə çarpır. Bir çoxları dilimizin fonetik tərkib və xüsusiyyətinə uyğun olaraq bəzi dəyişikliklə rus əlifbasını qəbul etməyi, bəziləri isə rus əlifbasında heç bir dəyişiklik aparmadan, onu olduğu qaydada qəbul etməyi təklif edirdilər" [3, s.15].

Fikrimizcə, rus əlifbasının olduğu kimi qəbul edlilməsinin tərəfdarı olanlar yaxşı anlayırdılar ki, Mərkəz məhz bu qərarın üzərində dayanacaq və gözlənildiyi kimi də oldu. Sovet ideoloqları Azərbaycan-türk dilinin başına bu cür oyun açmaqda nə etdiklərini yaxşı anlayırdılar. Bununla da, Azərbaycan-türk insanı rus kimi düşünməyə, rus kimi yazmağa və rus kimi kommunizm xəyalı ilə

yaşamağa məhkum və məcbur edilirdi. Başqa sözlə, "yeni əlifba" oyunu ilə sovet imperiyası türk millətini öz mədəniyyətindən, mənəviyyatından və ən əsası dilinin saflığından uzaqlaşdırırdı.

Bizə elə gəlir ki, Azərbaycanda latın qrafikasından rus əlifbasına keçilməsi ilə bağlı ciddi etirazların olmaması iki başlıca amillə bağlı idi: 1) milli ziyalıların böyük əksəriyyətinin, kütləvi şəkildə 1937-1938-ci illərdə repressiya olunması; 2) rus əlifbasına etiraz edə biləcək istənilən ziyalının həmin aqibətə düçar olacağı. Bu baxımdan bəzi ziyalılar yalnız bəzi dəyişikliklərlə rus əlifbasına keçilməsinin doğru olacağını deyə bilir, bundan artığına cəsarət edə bilmirdilər.

Doğrudur, rus əlifbasının Azərbaycanda olduğu kimi tətbiqinə 1958-ci ildə son qoyulmuş və bəzi islahatlar aparılaraq rus qrafikalı Azərbaycan əlifbası müəyyən qədər təkmilləşdirilmişdir. Ancaq bütün hallarda, "Leninin dili" olan rus dili və rus əlifbası Azərbaycan xalqının həyatında bir çox sahələrdə mənfi bir iz buraxmışdır ki, onun izləri bu günə qədər də hiss olunmaqdadır. Bunlardan biri də rus əlifbasına keçməyə məcbur edilməklə Azərbaycan türklərinin Türkiyə türkləri arasında ən önəmli bağ olan – eyni əlifba bağı da qırılmış olmuşdu. Türkiyə alimi Məşkurə Yılmazın yazdığı kimi, "böyləcə Türkiyədən fərqli bir əlifba kullanmalı olan azəri türklərinin Anadolu türklüyü ilə yazılı əlaqə qurmaları və ortaq milli kültür gəlişdirmələri əngəllənmək istənmişdir. Ayrıca ruslar, kiril əlifbasını rus kültür aracı olaraq görmüş və Sovet rejimi ortaq kültürünün bu əlifba ilə yapılacağını düşünmüşlərdir" [16, s.243].

Gördüyümüz kimi, çar Rusiyası və Avropa ideoloqlarının maraqlı olduğu əlifba və dil islahtlarını SSRİ həyata keçirmiş oldu. Çox yazıqlar olsun ki, rus-mason-bolşefaşistlərinin əvvəlcədən planlaşdırılmış "islahatlar" oynunda M.A.Şahtaxtlı, N.Nərimanov, C.Məmmədquluzadə, S.Ağamalıoğlu və başqaları yaxından iştirak etmişlər. Türk-müsəlman xalqlarının həyatında reallaşdırılan "islahatlar"ın nəticəsində ilk növbədə, əlifba ayrılığı baş verdi. Bununla yanaşı, çar Rusiyası dövründə təməli qoyulan ortaq türk dilinə qarşı yönəlmiş ləhcə fərqlilikləri SSRİ dövründə daha da sürətləndirildi. Əgər XX əsrin əvvəllərində türksoylu xalqlar əsasən ortaq əlifbadan istifadə edir, az-çox bir-birlərinin ləhcələrini başa düşür və ortaq türkcədə danışa bilirdilərsə, SSRİ dövründə aparılan ruslaşdırma-avropalaşdırma siyasəti nəticəsində bir-birlərini anlamayacaq vəziyyətdə gətirildilər. Xüsusilə, türklərin böyük əksəriyyətinin yaşadığı Rusiyada ortaq türk dilinin Leninin dili olan rus dili ilə əvəzlənməsi və rus-kiril əlifbasına keçid bu məsələdə mühüm rol oynadı. Leninin dili olan rus dili bir tərəfdən ortaq türk dilinin ayrı-ayrı ləhcələr şəklində formalaşmasına, digər tərəfdən həmin ləhcələrin də ruslaşdırılmasına-avropalaşdırılmasına səbəb oldu. Bütün bunların nəticəsidir ki, hazırda postsovet məkanında türksoylu dövlətlərin liderlərindən tutmuş alimlərinədək hamısı bir-birləri ilə rus dilində təmas yaradırlar. Hələ də, kiril əlifbasından dövlət səviyyəsində istifadə edən türksoylu xalqlar (qırğızlar, qazaxlar və b.) var.

Birinci Türkoloji Qurultayda milli terminologiya məsələsi.

Birinci Türkoloji Qurultayda Türk (latın) əlifbasının qəbulu, ən pis halda ərəb əlifbasının islahatın aparılmasına dəstək eldə etməklə yanaşı, milli terminologiyanın yaradılması və türksoylu xalqlar üçün ədəbi dil, ana dilinin tədris metodikası, türk dillərinin orfoqrafiyası haqqında məsələlərə də yer verilmişdir. Başqa sözlə, Türkoloji Qurultay Türk dilini alınma sözlərdən, özəlliklə ərəb-fars kəlimlərindən təmizləməyi də əsas məsələ kimi müzakirə obyekti seçmişdir. Bu zaman Türk dilinin ləhcələrindən daha çox hansına üstünlük verilməsi, ya da əski türk dilinə müraciət olunması diqqət mərkəzində idi.

Türkoloji qurultayda müzakirə olunan əsas məsələlərdən biri də milli terminologiya məsələsi, daha doğrusu milli dilin təkmiləşdirilməsi olmuşdur. Sovet müəlliflərinin yazmasına görə, 1920-1936-cı illərdə milli dilin təmizlənməsi və formalaşması ilə bağlı uç fikir cərəyanı: 1) türk dilinin qədim və yeni türk sözləri əsasında təmizlənməsi (bizcə, ortaq türkcədən çıxış edən türkçülük – millilik tərəfdarları); 2) türk dilini rus və rus dili vasitəsilə Avropa dillərindən alınmış sözlərlə zənginləşdirmək istəyənlər (bizcə, beynəlmiləlçilik – rus bolşevizminə xidmət edənlər); 3) ərəb və fars mənşəli sözlərin saxlanılaraq, yeni terminlərin də onların əsasında formalaşdırılmasını istəyənlər (bizcə, islamçılıq – dini birliyə meyil edənlər) olmuşdur [3, 130-131].

Bizim fikrimizcə isə, həmin mərhələdə (1920-1936) milli dilin təmizlənməsi və formalaşması uğrunda əsas mübarizə ilk iki cərəyan: türkçülük-millilik və sovet beynəlmiləlçiliyi (ilk dövrlərdə

beynəlmiləçilər xalqlaşmaq yolu tutsalar da, sonralar Mərkəzin təsiri altında onların əksəriyyəti beynəlmiləçiliyə üz tutdular) arasında getmişdir.

Bu dövrdə dildə türkçülük-millilik tərəfdarları milli dil məsələsində qədim türkcə ilə xalq dilinin uzlaşmasına önəm vermişlər (B.Çobanzadə, F.Ağazadə, H.Zeynallı, C.Cabbarlı, V.Xuluflu və b.). Onlar 1922-ci ildə Azərbaycan Mərəkəzi İcraiyyə Komitəsi (MİK) yanında təşkil olunan istilah komissiyasının hazırladığı cəbr, hesab, həndəsə, coğrafiya və təbiiyyat lüğətlərində ədəbi dildə mövcud olan terminlərin uyğun olaraq dəyişilməsini təklif edirdilər [3, 44]. Milli dilin mühüm tərkib hissəsi olan terminologiya ilə bağlı Azərbaycan türk aydınlarının əksəriyyətinin mövqeyi belə idi ki, ərəb və fars mənşəli, eləcə də beynəlxalq terminləri dilimizdən çıxararaq yerində qədim türkcədə olan sözləri, yaxud da türk dilinə uğyun yeni sözləri işlətmək lazımdır. 1926-cı ildə Bakıda keçirilən 1-ci Ümumittifaq türkoloji qurultayda, eləcə də həmin dövrdə Bakıda nəşr olunan bir sıra qəzet və jurnallarda da bu ideya ciddi şəkildə dəstək qazanmışdır.

Həmin dövrdə milli ədəbi dilin qədim türkcə və yeni sözlər əsasında formalaşmasının tərəfdarları bu fikirlərini sübuta yetirmək üçün bir sıra əsərlər və məqalələr yazmışlar. Onlar bu əsərlərində türk dilinin (Azərbaycan) qədim türkcənin bir bir parçası olduğunu iddia edirdilər. Məsələn, bu xətti müdafiə edən dilçi alimlərdən Bəkir Çobanzadəyə görə, türk dili türk-tatar dilinin bir parçası, bir budağıdır. Türk-tatar dilinin abidələri isə Orxon-Yenisey abidələri (7-8-ci əsrlər), "Kutadqu bilik", "Divani-lüğatit-türk" və başqaları olmuşdu [17, s.66-67]. O yazırdı ki, hazırda milli dilin formalaşması ilə bağlı üç cərəyan var: 1) Xalqın dilində yazmağa üstünlük verənlər ("mollanəsrəddinçi"lər və b.); 2) İstanbul ədəbi şivəsinə üstünlük verənlər (H.Cavid və b.); 3) Orta mövqe tutanlar – xalqın canlı danışıq dili və klassik ədəbi dilin bütövlüyündən çıxış edənlər. Ona görə, ilk iki cərəyanın irəli sürdüyü prinsiplər əsasında Azərbaycanda ədəbi dil yarana bilməz. Çünki, birincisini ədəbi sistemə salmaq mümkün olmadığı kimi, ikincisi isə Azərbaycan türk dilinin xüsusiyyətlərini kifayət qədər əks etdirmir. Bu baxımdan xalqın canlı danışıq dili və klassik ədəbi dilin bütövlüyündən çıxış edənlərin ədəbi dili istiqbala malikdir [17, s.76-77].

Bu dövrdə dilçi alimlərdən Fərhad Ağazadə də B.Çobanzadə kimi, hesab edirdi ki, dilimizdə minlərcə əcnəbi kəlmələr var ki, türkləşdirmək olmur. Ona görə də türkləşə bilməyən kəlmələrin qədim türkcəsi var ki, onları canlandırmaq və dilimizə gətirmək lazımdır. Qədim türkcədə qarşılıqı olmayan sözləri isə başqa türk dillərindən (cığatay, altay və b.) almaq lazımdır. O qeyd edirdi ki, vaxtilə başqa dillərin təsiri altında yarımcan qalmış türk dili indi dirilmək istəyir, köhnə zənginliyinə qayıtmaq fikrindədir: "Buna dəlil türk ellərindəki dil hərəkətləridir: bir yerdə dili türkləşdirirlər, o biri yerdə saflaşdırırlar, hətta Azərbaycanda istilahları da türkləşdirmək fikrinə gəlmişlər. Bəs, türkcəmiz çoxdan itirdiyi yatağına qayıtmaq istəyir" [11, s.10-11]. Hənəfi Zeynallı isə "Azərbaycanda el ədəbiyyatı" məqaləsində (1926) yazırdı ki, Azərbaycanın işğalçıların əsarəti altında olduğu "zamanında xalq yaradıcılığının bir qismi olan el ədəbiyyatı, el söz və ahəngi, el vəzni, el düşünüşünün büsbütün xatirələrdən silinməsinə çalışılmışdır. El sözünü işlətmək istəyənlər bu elin yağıları nüfuzuna tabe olaraq sapqın mülhazilərə uymuşdular. Hətta o dərəcəyə varmışdılar ki, həqarətlə "türk demişkən" demədikcə öz ana dilindəki bir sözü işlətməyə cəsarət edə bilməzmiş" [18, s.120].

Milli aydınlar tərəfindən irəli sürülən Azərbaycan Türk ədəbi dilinin ərəb, fars, rus, eləcə də digər əcnəbi terminlərdən təmizlənməsi və qədim türkcə əsasında formalaşması ideyasının ictimaiyyət arasında, o cümlədən mətbuatda bu qədər dəstək görməsi SSRİ rəhbərliyini və sovet ideoloqlarını ciddi şəkildə rahatsız etmişdir. Eyni zamanda, sovet ədəbiyyatında puristlər adlandırılan [3, s.131] milli fikrin tərəfdarları rus mənşəli sözləri də dəyişməyi təklif edirdilər ki, bu, sovet imperiyası üçün dözülməz idi. Həmin dövrdə, eləcə də sonralar sovet ideoloqları və onların Azərbaycandakı təmsilçiləri bu təklifləri pantürkizm, millətçilik kimi qiymətləndirir və tənqid edirdilər.

Türk dilinin qədim Türk dili əsasında formalaşması fəlsəfəsi...

Ancaq milli terminologiya məsələsində türkcənin milliləşdirməsinə-qədim türkcəyə müraciət edilməsinin əleyhinə olanlar əsasən, milli dil məsələsində "mollanəsrəddinçilər"in mövqeyini müdafiə edirdilər. Buna səbəb, "mollanəsrəddinçi"lərin 27 aprel işğalından öncə də dil məsələsində ortaq türk dilinin deyil, Azərbaycan türklərinin danışıq dilinin inkişafına çalışmaları və bu zaman rus və Avropa mənşəli sözlərə meyil etmələri idi. Bu baxımdan sovet beynəlmiləlçiliyi tərəfdarları üçün Azərbaycan türk ədəbi dilinin formalaşmasında ən yaxşı variant "mollanəsrəddinçilər"in yolu idi [12, s.70].

1920-ci illərdə "mollanəsrəddinçilər"in əsas siması olan Cəlil Məmmədquluzadə "Molla Nəsrəddin" jurnalının SSRİ dövründəki saylarının birində "Təmizləmək" məqaləsində Bakıda keçiriləcək Türkoloji qurultayla bağlı dil məsələsinə toxunaraq yazırdı: "İndi türkoloji qurultayı da bir belə sil-süpurə, yır-yığışdıra başlayacaqdır. Amma bu qurultayın təmizləyəcəyi ev deyil, dildir və özü də Türk dilidir. Bəziləri dildə nə zibil ola biləcəyini soruşa bilərlər. Dərd elə burasındadır ki, heç bir evdə bizim dilimizdə olan qədər zibil yoxdur. Əlifba zibili, əruz vəzni zibili, ərəb dili zibili, fars dili zibili, din zibili və başqaları. Türk dilini bütün bu zibillərdən təmizləmək lazım gəlir" [19, s.632].

Maraqlıdır ki, yerli "beynəlmiləçilər" milli dilin xalqlaşması dedikdə, xalqın danışdığı türkcəni nəzərdə tutduğu halda, sovet ideoloqları isə xalqlaşmaq adı altında türk dilinin əsas mahiyyətinin və məzmununun bəsitləşdirilməsi və sonralar əvəzində, türk dilinin rus və avropa mənşəli sözlərlə doldurulmasını qarşılarına məqsəd kimi qoymuşdular. Başqa sözlə, S.M.Əfəndiyevin təbrincə desək, 1930-1940-cı illərdə bir tərəfdən türk dili "ərəbçilik və farsçılıq təsirindən müvəffəqiyyətlə azad edilir" [12, s.334], digər tərəfdən fikrimizcə, sürətlə ruslaşdırılır və beynəlmiləlləşdirilirdi. Bu baxımdan "mollanəsrəddinçilər"in xalqa yaxın yol tutmasını əlində bayraq edərək, onların İstanbul şivəsini və qədim türkcəni tənqid etməsini təqdir edənlər, ancaq "Azərbaycan dili" altında bu dilin ruslaşdırılması və avropalaşdırılması məsələsində eyni mövqe tutmurdular. Halbuki millilik-türkçülük tərəfdarları deyil, sovet beynəlmiləlçiləri türk dilini xalqın dilindən ayırır, onu beynəlmiləlləşdirir və kosmopolitləşdirirdilər.

Çünki milli dil məsələsinin müzakirəsində yerli beynəlmiləlçilər əvvəlcə dildə xalqlaşmaq-xalqın danışdığı türk dilində milli dil yaratmaq yolu tutsalar da, 1930-cu ilin ortalarından etibarən bu fikrin nümayəndələrindən bəziləri deyirdilər ki, türk dilindəki ərəb və fars mənşəli sözləri rus və Avropa mənşəli sözlərlə əvəz etmək lazımdır. Çox təəssüflər olsun ki, repressiyanın güclənməsi və əksər milli ziyalıların da qətlinə fərman verilməsi ilə bu xətt üstünlük təşkil etməyə başlamış, Azərbaycan türk dilinə əsasən rus, qismən də Avropa mənşəli terminlər daxil olmağa başlamışdır. Belə ki, "məzmunca sosialist, formaca milli mədəniyyət yaradılması", "Lenin dilinin öyrənilməsinin vacibliyi" devizləri altında azərbaycanlılar milli mənəvi dəyərlərindən uzaqlaşdırılırdı. Bununla da Azərbaycan türk dilinin türkləşməyə başladığı 30-35 illik bir dövr geridə qalır, onun yerini "böyük, xilaskar qardaşın" rus əlifbası və rus terminləri tuturdu. Bu baxımdan M.B.Məmmədzadə doğru yazırdı ki, sovet ideoloqları ruslaşdırma nəticəsində yarı rusca, yarı türkcə olan "internasional» dil yaradırdılar [20, s.574-575]. Çünki artıq 1926-cı ildə Bakıda keçirilən 1-ci Türkoloji Qurultay iştirakçılarının dəfələrlə Azərbaycandan danışarkən türk respublikası kimi vurğuladıqları bu ölkənin [21, s.27; 297] həm zahirində, həm də mahiyyətində Sovet ideoloqları ciddi dəyişiklər etmişdilər.

Nəticə.

Milli əlifba və milli terminologiyanın ruslaşdırılması siyasəti o qədər güclü olmuşdur ki, 1930-cu illərin axırları – 1940-cı illərin əvvəllərində bəzi ziyalılarımız ifrata vararaq rus və Avropa terminlərini (alqebra, qradus, nerv, prosent, şar, muskul, pauza, avtor, epos, tragediya, kultura, induvud, stilistika, minus, vertikal, evolyosiya, qeoqrafiya, qeometriya və.) Azərbaycan Türk dilinin qayda-qanunlarına uyğunlaşdırılmadan tətbiq olunması təklifini irəli sürürdülər. Çox təəssüf ki, o vaxt Azərbaycan Türk ziyalılarından bəziləri (repressiyanın qurbanı olmayanlar) bu prosesin kor-koranə təbliğatçısına çevrilmişdir. Artıq 1940-cı illərin ortalarında bəzi ziyalıların özlərinin də etiraflarına görə, ruslaşdırma siyasəti nəticəsində Azərbaycan Türk dili, o cümlədən milli əlifba Rus və Avropa mənşəli hərflərlə, sözlərlə zibillənmişdir. Beləliklə, Azərbaycanda milli əlifba, milli terminologiya məsələsinə münasibətdə sovet rəhbərləri, ideoloqları bu mərhələdə bir tərəfdən, "Türk dili" anlayışını xalqın yaddından çıxartmağa və müstəqil "yeni dil"-"Azərbaycan dili" anlayışını formalaşdırmağa çalışdığı halda, digər tərəfdən, "Azərbaycan dili"ni formal bir dil halına gətirərək, faktiki olaraq rus dilini rəsmi dil səviyyəsinə qaldırmağa cəhd göstərmişlər. Şübhəsiz, hər iki məsələni öz müstəmləkə maraqlarına uyğun şəkildə həll etmək üçün Sovet Rusiyası Azərbaycan alimlərindən, ziyalılarında, dövlət xadimlərindən də maksimum faydalanmağa çalışmışdır. Halbuki ilk baxışda SSRİ-nin milli əlifba və milli terminologiya məsələsi "xeyirxah" niyyət kimi təsir bağışlayır, Türkoloji Qurultayın keçirilməsi isə bunun bariz nümunəsi kimi dəyərləndirilirdi. Ancaq əslində Sovet Rusiyasının yeni əlifba, milli dil, milli terminologiya siyasəti Azərbaycan, Tatarıstan,

Erişilgan tadqiqot natijalari quyidagi sohalarda amaliy qo‘llanilişi bilan ahamiyatli hisoblanadi - ta’lim modullarini rivojlantiriş, maxsus pedagoglarni şakllantiriş, tilni rivojlantiriş siyosatini işlab çiqiş, hududlararo aloqa dasturlarini yaratiş, mavzu doirasida raqamli platformalar yaratiş hamda mavzu doirasida mukammal mobil ilovalarni işlab çiqiş.

Işlab çiqilgan “Transmilliy liñvistik adaptatsiya modeli” asosida olib borilgan yuqoridagi tadqiqot natijalari şuni isbotladiki, turkiy mamlakatlarniñ yoşlari orasida yagona bo‘lgan alifboni keñ ommalaştirişniñ samaradorligi 89% darajasigaça yetişi mumkin. Uşbu modelniñ ijobiy yutug‘i uniñ kompleks holda işlab çiqilganligida – til jihatidan, psixologik nuqtai nazardan, texnologik hamda madaniy jihatlarni birikuvida namoyon bo‘ladi. Interaktiv platformalar, mobil dasturiy ta’lim resurslari va o‘yinlaşgan o‘qitiş metodlari yordamida alifboni o‘zlaştiriş jarayoni 3,2 baravar tezlaşdi, aqliy qarama-qarşilik 42% ga kamaydi. Tadqiqot şuni ko‘rsatdiki, turkiy millatlarniñ yoşlari orasida yagona bo‘lgan alifboni keñ targ‘ib etiş nafaqat til birligini, balki madaniy, ma’naviy hamda pedagogik yaqinlaşuvni yaratib beruvçi kuçli manba sanaladi. Kelajakda uşbu taklif etilgan model asosida hududiy hamkorliklarnini yanada rivojlantiriş, integratsiyalaştirilgan raqamli ta’lim platformasini yaratiş hamda doimiy ravişda uni nazorat qiliş tizimini joriy etiş orqali turkiy dunyo yoşlari orasida umumiy bo‘lgan alifbo birligini mustahkamlaş mumkin ekanligi isbotlandi.

Foydalanilgan adabiyotlar:

1. Karimov, S. (2020). Turkiy tillarniñ fonologik makoni. Tilşunoslik Tadqiqotlari, 24(1), 33-45.
2. Abdullayeva, N. (2021). Ta’lim dasturlariniñ qiyosiy tahlili: Turkiy davlatlar tajribasi. Pedagogika Ilm-fani, 15(2), 65-78.
3. Doğan, A. (2022). Sun’iy intellekt asosidagi til o‘qitiş texnologiyalari. Raqamli Ta’lim Jurnali, 8(4), 85-99.
4. Tanagawa, K. (2019). Mintaqaviy integratsiya va til siyosati. Xalqaro Ta’lim Siyosati, 12(3), 110-122.

Ağasəlim Şamil oğlu Həsənov
Azərbaycan Milli Elmlər Akademiyasının
Fəlsəfə və Sosiologiya İnstitutunun dosenti, PH.d
Email:aghasihasanli@gmail.com
https://orcid.org/0009-0009-3321-8894

Türk dövlətlərinin inteqrasiyası tarixi zərurət kimi

Xülasə.

Məqalədə türk cümhuriyyətləri aarsında inteqrasiya prosesinin zəruriliyi əsaslandırılır və onun siyasi ,ideoloji,sosial-mədəni aspektləri araşdırılır. Qeyd olunur ki, Türk dövlətlərinin inteqrasiya siyasəti suveren türk ölkələri arasında sosial-mədəni və siyasi-ideoloji, iqtisadi münasibətlərin inkişafını və real türk birliyinin yaradılmasını hədəfləyir. Məqalədə Türk Dövlətləri Təşkilatının çoxsaylı sammitlərinin əhəmiyyəti vurğulanır və qeyd olunur ki, türk dünyasında humanitar əlaqələrin (ideologiya, mədəniyyət, elm, təhsil, ədəbiyyat, incəsənət və s.)inkişafı ortaq dəyər yaratmaq təcrübəsilə dərinləşir və genişlənir. Türk dövlətləri arasında bütün istiqamətlərdə çoxtərəfli əlaqələri inkişaf etdirməyin, ümumi maraqlara uyğun olan qərarlar qəbul etməynin zəruriliyi vurğulanır.

Açar sözlər: türk, dövlət, sammit, inteqrasiya, siyasət

Agasalim Shamil oglu Hasanov
Associate Professor at the Institute of Philosophy
and Sociology of the Azerbaijan National
Academy of Sciences (ANAS), Ph.D.

İntegratıon of Turkısh states as a hıstorıcal necessity

Abstract.

The article substantaties the necessity of the integration process among the Turkic republics and explores its political, ideological, socio-cultural aspects. It is noted that the integration policy of the Turkic states aims to foster the development of socio-cultural and political-ideological, economic relations among the sovereign Turkic countries and to establish a genuine unity of the Turkic world. The article emphasizes the significance of the Organization of Turkic States and highlights that,in the modern world, the development of humanitarian relations (ideology, culture, science, education, literature, art, etc.) in the Turkic world deepens and expands with the experience of creating common values. The necessity of developing multilateral relations in all directions among the Turkic states and making decisions in accordance with common interests is emphasized.

Keywords: turkish, state, summit, integration, politics

Türk dövlətlərinin inteqrasiya məsələləri ötən əsrin 90-cı illərindən aktuallaşmağa başladı. Türkiyənin təşkilatçılığı ilə baş tutan zirvə toplantılarında türk dövlətlərinin liderləri bir araya gələrək, qarşılıqlı maraq doğuran məsələlər üzrə əmakdaşlıq imkanlarını nəzərdən keçirdilər. 1992-ci ilin mayında ilk olaraq sammitlərin keçirilməsi bağlı təklif Türkiyənin o zamanki baş naziri Süleyman Dəmirəl tərəfindən elan edilmişdir və həmin ilin oktyabrında Ankarada türk dövlətləri rəhbərlərinin ilk görüşü baş tutmuşdur.

Sovet imperiyasının rəsmi olaraq süqutundan sonra (21 dekabr 1991-ci il, Alma-Ata görüşü) müstəqil türk dövlətlərinin öz siyasi sərhədləri daxilində (Azərbaycan. Qazaxıstan. Qırğızıstan, Türkmənistan, Özbəkistan) dövlət müstəqilliyini bərpa etməsini ilk dəstəkləyən ölkə Türkiyə olmuşdur.

Postsovet dövründə türk cümhuriyyətləri arasında olan əməkdaşlığı bir neçə dövrə bölmək olar. Birinci mərhələ: 1992-ci ildən 2001-ci ilə qədərki dövrü əhatə edir. Ankarada təşkil olunan birinci sammit zamanı (1992-ci ildə), Ankara Bəyannaməsində "ölkələr arasında qardaşlıq və

həmrəylik ruhu" qeyd edildi [1,c.413]. Həmin dövrdə Türkiyə rəhbərliyi tarix, dil və mədəniyyət ortaqlığına dair müddəalar irəli sürərək, ümumi təmas nöqtələri, eyni zamanda qarşılıqlı əlaqə məsələlərində onların xüsusi rolunu əsaslandırmağa çalışdılar. Sammitdə enerji ehtiyatları və onların nəqli yolları məsələsi, eləcə də sülh və təhlükəsizlik problemi kimi aktual məsələlər müzakirə predmeti olmuşdur.

Sovet imperiyasının 74 illik (1917-1991) mövcudluğunun sona çatması, azadlıq. bərabərlik və rifah iddiaları ilə dünya ictimai rəyini aldadan utopik bir sistemin iflası mühüm qlobal siyasi hadisə idi. Sovet imperiyasının parçalanması Türk Dünyası üçün yeni üfüqlər açdı. Bununla bağlı tanınmış dövlət xadimi Süleyman Dəmirəl düzgün və uyğun qərar qəbul etdi.O, yaranmış şəraiti türk dövlətlərinin əslər boyu tarixi boyunca qarşısına çıxan bu ən böyük fürsət olduğunu çox tez və rasional olaraq qiymətləndirə bildi.

Yeni müstəqillik əldə etmiş türk dövlətlərinin ümumi sahəsi 4 milyon km -ə yaxındır ki, (3 994400 km2) bu da böyük bir coğrafiyanı əhatə edir. Bundan başqa, təxminən Çinin tərkibində 15 milyondan çox əhalisi olan Sincan-Uyğur muxtar vilayayəti (Şərqi Türküstan) və Rusiya Federasiyasının 20 muxtar türk respublikaları hələ də öz müstəqilliklərinə qovuşa bilməyilər. Bundan əlavə, İranda ölkə əhalisinin yarısını təşkil edən Azərbaycan türkləri öz miili müstəqillikləri uğurunda durmadan mübarizə aparırlar. Balkanlarda və Yaxın Şərq ölkələrində də türk toplumları addım-addım sistematik bir şəkildə assimilyasiyaya məruz qalır.

Sovet imperiyası türk dünyası üçün potensial təhlükə mənbəyi idi. SSRİ-nin sonuncu dövlət başçısı Mixail Qorbaçovun hakimiyyəti dövründə ölkədə başladılan aşkarlıq və yenidənqurma kimi demokratik islahatlar 1949-cu ildən bu imperiyanın hegemonluğu altında olan Şərqi Avropa ölkələrinin cəmiyyətlərinə və siyasi sisteminə seçim azadlığı gətirdi. Bu siyasi qələbə, demokratiyanın kommunizmə qarşı ən əhəmiyyətli qələbəsidir.Baş verən dəyişikliklər Türk dünyası üçün daha böyük əhəmiyyət kəsb edir. Çünki Adriatikdən tutmuş Çin səddinə qədər geniş bir ərazidə yüksək siyasi və iqtisadi potensiala malik türk millətləri yaşayırlar . Türk millətlərinin və ölkələrinin coğrafi yayılması haqqında Prof.Dr. Hayati Doganay "Türk dünyasi'nin siyasi sınlrları" əsərində yazır:

" Türk Dünyası ölkələrini hesab edirəm ki, onu üç sistemli qrupa bölmək olardı. Bunlar:

1.Müstəqil Türk dünyası ölkələri,

2.Muxtar (çox hədəfli, yarı müstəqil) Türk ölkələri

3.Türk Əhali Birliyinin Bölgələri olaraq sıralana bilər.

4.Rusiya Federasiyann (17 milyon km2) Avropa və Asiya ərazisində qalan muxtar türk cümhuriyyətləri, Qafqaz türk dövlətləri və muxtar türklər cümhuriyyətləri, Qərbi Türküstan türk dövlətləri, Şərqi Türküstan muxtar türkləri.

5.Yaxın Şərq və Balkan ölkələrindəki türk toplumları ilə yanaşı bu geniş Türk dünyasının mərkəzində türk Orta Asiyası yerləşir. Qafqazda da muxtar və müstəqil türk dövlətləri mövcuddur.Cənubi Qfqazda Azərbaycan əsasən türklərdən ibarətdir.Gürcüstanda əsasən xristian gürcülər, həmçinin türklər və türk əsilli xalqlar da yaşayırlar" [2]

6.Rəsmi Ankaranın türk dövlətlərinə qarşı siyasəti aşağıdakı prinsiplərə əsaslanırdı: siyasi və iqtisadi vəziyyətin qorunması və sabitliyi, regional genişlənmə əməkdaşlıq; siyasi və iqtisadi islahatlar; regional və beynəlxalq strukturlara inteqrasiyanın təşviqi; suverenliyə hörmət; enerji resurslarının alternativ marşrutlar vasitəsilə bazarlara nəqli [3] . Qeyd edək ki, həmin dövrdə Türkiyə sovetlərdən qurtulmuş türk respublikalarında səfirliklər açdı, yüksək səviyyəli nümayəndə heyətlərini qəbul etmişdir. Həmçinin, həmin tədbirdə altı ölkənin prezidenti (Türkiyəni təmsil edən prezident T. Özal, Azərbaycan prezidenti- Ə. Elçibəy, Qazaxıstan prezidenti – N. Nazarbayev, Qırğızıstan prezidenti –A.Akaev, Özbəkistan prezidenti - İ.Kərimov, Türkmənnistan prezidenti - S. Niyazov) iştirak etmişdilər.

7.Sənəddə toplum, dil və mədəniyyət ümumiliyinə əsaslanan münasibətlərin möhkəmləndirilməsi xüsusi qeyd edildi.Eyni zamanda əlaqələri, əməkdaşlığı daha da gücləndirmək əzmi, müstəqilliyə, suverenliyə, ərazi bütövlüyü hörmət, bir-birinin daxili işlərinə müdaxilə etməmək prinsiplərinə riayət olunması ön plana çəkildi.Sammitdə sülh və təhlükəsizliklə bağlı məsələlər, çoxtərəfli əlaqələrin inkişafı, enerji resursları və onların daşınma yolları sahəsində

geniş müzakirələr aparıldı. Belə ki, sənaye, enerji, kənd təsərrüfatı sahələrində birgə layihələrin həyata keçirilməsi və müəssisələrin yaradılmasına, xammal və resursların işlənilməsinə dair vacib addımlar atıldı. Həmçinin, quru, su , hava nəqliyyatının inkişafı üçün yeni dəhliz və marşrutların istiqamətlərinin müəyyənləşdirilməsinə dair önəmli qərarlar qəbul olundu.

1994-cü ildə İstanbulda türk ölkələrnin yüksək səviyyəli rəhbərlərin iştirakı ilə zirvə toplantısı keçirildi və türk dövlətlərinin dialoqu baş tutudu.Bu görüş zamanı türk xalqları arasında "xüsusi əlaqələr" yaradılması zərurətindən bəhs edildi. [4,c.6] Sammitdə tərəflər dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə hörmət edəcəklərini vurğuladılar. Regional münaqişələrə, o cümlədən Ermənistanla Azərbaycan arasında münaqişəyə dair fikir mübadiləsi zamanı respublikalar razılaşdılar ki, müharibə olarsa, həmrəylik və vahid mövqe nümayiş etdirsinlər..Bu görüş zamanı tərəflər artıq əməkdaşlıq haqqında daha ətraflı danışdılar.

Sənəddə dövlət başçıları öz ölkələrinin resursları zəngin təbiətin," ilk növbədə təbii qaz və neft ehtiyatlarını inkişaf etdirməyi və onların dünya bazarlarına sürətlə çatdırılması sahəsində əməkdaşlıq etmək, qaz və neft kəmərlərinin Türkiyəyə, Avropaya və Aralıq dənizinə çəkilməsi barədə razılığa gəldilər"[5]. Türk ölkələrinin hərəkət etdiyi müəyyən bir qarşılıqlı model qürmağı Türkiyə Respublikasını tranzit ölkəyə çevirməyi planlaşdırdılar. Gücləndiriləcək bir anlayış var idi ki, türk dövlətləri arasında dialoqun inkişafı, müstəqilliyə daha hörmətlə yanaşılması zəruridir.

"Öz müstəqilliyini qoruyub saxlaya bilən yeganə türk dövləti olaraq qalan Türkiyə Cümhuriyyəti regional inteqrasiyanın təşəbbüskarı kimi çıxış etməsi gözlənilən bir addım idi. Yeni müstəqil olmuş türk dövlətləri də istər iqtisadi, istərsə də siyasi baxımdan Qərb institutlarına uğurla inteqrasiya etmiş Türkiyyənin təcrübəsindən istifadə etməkdə maraqlı idilər. Bu ideyaların relalşması üçün bir çox tədbirlər həyata keçirilsə də arzu edilən bütövləşməyə nail olunmamışdır. Bunula belə, türk dövlətləri arasında bütün sahələri əhatə edən əməkdaşlıq ideyaları hələ də öz aktuallığını saxlamaqdadır. [6]

Daha sonra baş tutan görüş 1995-ci ildə Bişkekdə oldu. Ankara və İstanbul sammitlərində olduğu kimi bu sammitdə də türk dövlətlərinin başçılarını tam tərkibdə bir araya gəldi. Görüş zamanı türk xalqlarının böyük mədəni və tarixi irsinin qorunub saxlanması zəruriliyi irəli sürüldü. Bütün prezidentlər əməkdaşlıq etmək və əlaqələri inkişaf etdirmək barədə razılığa gəldilər.Sammitdə Türkiyədən keçməklə Avropaya və Aralıq dənizinə qaz və neft kəmərlərinin çəkilməsinin qərara alınması enerji idxal edən tranzit bir dövlət kimi Ankara üçün xüsusi əhəmiyyət kəsb edirdi. Digər tərəfdən, neft və qaz ixracının şaxələndirilməsində postsovet liderləri maraqlı idi.

Ardıcıl olaraq keçirilən görüşlərin növbətisi Daşkənddə oldu. Həmin sammitdə imzalanmış Daşkənd Bəyannaməsi (21 oktyabr 1996-cı il) türkdilli dövlətlər arasında müxtəlif sahələrdə əməkdaşlığın dinamik və mütərəqqi inkişafına təkan verdi. Respublikaların prezidentləri ticarət-iqtisadi əlaqələrin inkişaf etdirilməsinin, aradan qaldırılmasının zəruriliyini qeyd etdilər. Həmin sammitdə ən mühüm nailiyyət katibliyin yaradılması oldu.Türkdilli dövlət başçılarının görüşlərinin hazırlanması, görüşlər üçün materialların yazılması; konfransların keçirilməs ilə bağlı funksiyalar ona həvalə olundu.

Görüşdə ilk dəfə türk dövlətləri arasında birgə ali məktəblərin yaradılması haqqında qərar qəbul edildi. Nəhayət, Azərbaycan-Türkiyə, Qırğızıstan-Turkiyə, Qazaxıstan-Türkiyə, Türkmənistan-Türkiyə universitetlərinin yaradılması üçün razılaşdılar. Dövlət başçıları diqqət beynəlxalq məsələlərə, narkotik maddələri ticarətinə, terrorizmə qarşı mübarizəyə diqqət yetirdilər. Dövlət başçıları türk dövlətləri arasında iqtisadi əməkdaşlığın, ticarətin, gələcəkdə türk respublikalarının əməkdaşlığı istiqamətini,vahid xidmətlər, kapital və əmək, mal bazarı yaradılmasının inkişaf etdirilməsinin zəruriliyini bildirdi.Türkdilli dövlətlərin liderləri xarici siyasətə həsr olunmuş seminarlar, konfranslar, simpoziumlar, dil, mədəniyyət və nailiyyətlərin təbliği, türkdilli dövlətlərin, türklərin həyatına dair ədəbi mənbələr tarixi əsərlərin seçilməsi və nəşrə hazırlanmasını diqqətə çatdırdılar.

Planlaşdırıldığı kimi növbəti sammit 21 oktyabr 1996-cı ildə Daşkənddə keçirildi. Bu sammitdə türkdilli dövlətlər və xalqlar arasında müxtəlif sahələrdə hərtərəfli əməkdaşlığın dinamik və mütərəqqi inkişaf var idi [7].

Türkiyə tərəfdən, S. Dəmirəl ilk növbədə türk ölkələrinin birgə yaşaması üzərində dayandı. O, türk dövlətlərini ərazilərinin 11 milyon kvadratmetr sahədən ibarət olduğunu və bu ərazilərdə 220 milyon türkün yaşadığını və bu amillərin sürətli iqtisadi inkişafa səbəb olduğunu təsdiq etdi.

A.Şəhidov yazır: "4-cü zirvəyə qədər "Türk zirvəsi" adlandırılan tədbirlər bundan sonra "Türk Cümhuriyyətləri dövlət başçılarının zirvəsi", 5-ci zirvədən sonra isə "Türkdilli dövlətlərin dövlət başçılarının zirvəsi" kimi qeyd edilməyə başladı.

Növbəti zirvələr isə 1998-ci ildə Astanada, 2000-ci ildə Bakıda keçirildi. Bu tarixə qədər keçirilmiş altı zirvədə müzakirə edilmiş əsas tezislər türkdilli dövlətlərin neft və qazın dünya bazarına birgə çıxarılması istiqamətində aparılan işlərlə bağlı münasibətlərin gələcəkdə daha da gücləndirilməsi, iqtisadi əməkdaşlığın intensivləşdirilməsindən, terror və narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı narahatlıqdan, regional problemlər ilə bağlı məsələlərdə BMT vəATƏT kimi təşkilatlarda birgə fəal əməkdaşlıqdan ibarət olmuşdur.

Altıncı zirvədən sonra münasibətlərdə bir sıra problemlər, gərinliklər müşa-hidə olundu. Belə ki, Özbəkistan və Türkmənistan zirvəyə qarşı soyuq münasbətlər bəsləməyə başladılar. 2000-ci ildə Bakıda keçirilən zirvədə Türkmənistan və Özbəkistan dövlət başçıları səviyyəsində deyil, məclis başçıları səviyyəsində təmsil olundular. 2001-ci ildə isə Özbəkistan digər dövlətlərdən fərqli olaraq, məclis başçısı səviyyəsində təmsil olundu. Bu tarixdən etibarən münasibət-lərdə nəzərə çarpacaqşəkildə qırılmalar olmuşdur. Buna ən bariz nümunə ondan ibarətdir ki, 5 il müddətinə zirvələr keçirilməmişdir. Nəhayət, 2006-cı ildə yenidən Türkiyənin səyləri ilə Antalyada növbəti tədbir keçirilmişdir. Bu dəfə isə Türkmənistan səfir səviyyəsində təmsil edildiyi halda, Özbəkistan zirvəyə qatılmamışdır. Zirvəyə qatılan 4 türk dövlət başçısı bundan yaranmış vəziyyətdən heç də narahat olmadıqlarını, dördlük halında belə zirvələri davam etdirəcəklərini vurğulamışlar. Bundan sonra isə liderlər TÜRKPA adı altında Türk dövlətlərinin parlamentlərinin birliyini hədəfləyən Asssambleyanın yaradılması yolunda fəaliyyət göstərmişlər.

Rusiya Federasiyası isə öz növbəsində bu zirvələrdə müşahidəçi qismində təmsil olunmaq arzusunu bildirmişdir. Təbii ki, bu addım müstəqillik əldə etmiş türk dövlətlərinin təsir altındançıxmasına imkan verməmək üçün edilmişdir.[8]

Nəhayət, sonuncu iki zirvə müvafiq olaraq, Naxçıvan və İstanbulda keçirilmişdir. Sözügedən 9-cu və 10-cu zirvələr sələflərindən konkretliyinə görə fərqlənmiş, ümumən Türk dünyasının inkişafı üçün əsaslı təşəbbüslər irəli sürülmüş və gerçəkləşdirilmişdir.

17 noyabr 2006-cı ildə Turkiyənin Antaliya şəhərində türk dövlətləri liderlərinin VIII Zirvə görüşü keçirildi. Əvvəlki görüşlərdə olduğu kimi,bu tədbirdə də Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyə prezidentləri iştirak edirdilər. Türkmənistan və Özbəkistan dövlət başçıları, ortaq türk görüşlərinə artıq biganəlik nümayiş etdirirdilər.[9]

Zirvə görüşündə söhbət yeni qurumun yaradılmasından gedirdi.Türkdilli Ölkələrin Parlamentlərarası Assambleyası ilə yanaşı Türkdilli xalqların Ağsaqqal-lar Şurası yaradıldı.Şuranın tərkibinə türk dünyasının nüfuzlu, görkəmli siyasi və ictimai, eləcə də mədəniyyət xadimləri daxil edildi.

Sənədlərə görə, TBMM-nin iclasları ildə 1 dəfə ən azı keçirilməsi planlaş-dırıldı. Türkdilli dövlətlər arasında əməkdaşlıq Dostluq, Qardaşlıq Cəmiyyətinin X qurultayı da keçirildi.[10]. Nəhayət, zirvə görüşləri dövlətlərin birgə fəaliyyətinə, koordinasiyaya və inteqrasiyaya töhfə verdi. Belə ki,

Türkdilli Dövlətlər Parlamentlərarası Assambleyasının Nizamnaməsinə uyğun olaraq davamlı əməkdaşlıq, türkdilli dövlət başçılarının zirvə toplantılarının təşkilinə dəstək verilməsi, dövlətlərin ümumi siyasi inkişafı, ümumi tədbirlərin təşkili ilə bağlı razılıq əldə olundu.

Antaliyada türklərin siyasi birliyini yaratmağa doğru bir praktik addım daha atıldı.Türkdilli dövlətlərin başçılarının IX zirvə toplantısı 2009-cu ildə Naxçıvan şəhərində keçirildi.Toplantıda Azərbaycan Respublikasının Prezidenti İ.Əliyev, Qazaxıstan Respublikasının Prezidenti N. Nazarbayev, Qırğızıstan Respublikasının Prezidenti K. Bakiyev və Türkiyə Respublikasının Prezidenti A. Gül iştirak edirdilər. Dövlət başçılarının Naxçıvan zirvə görüşündə iştirakçılar bütün sahələrdə təmas və əməkdaşlığın, tarixi yaxınlığa əsaslanan əlaqələr, dil və mədəniyyət, dostluq, bərabərlik və qarşılıqlı faydanın yüksək səviyyədə mövcud olmasının vacibliyini qeyd etdilər.

Naxçıvan sammitinin əsas müddəaları aşağıdakılar olmuşdur:

“Türkdilli dövlətlərin əməkdaşlıq Şurasının yaradılması haqqında Naxçıvan Sazişi”nin imzalanması;

İraqın suverenliyinin və ərazi bütövlüyünün saxlanmasına və bütün İraq cəmiyyətinin ayrılmaz hissəsi olan Türkmənşəli icmanın hüquq və azadlıqlarının təminatının zəruriliyinə diqqət yetirdilər.

Terrorizm, insan alveri, narkotik vasitələrin və psixotropmaddələrin qanunsuz dövriyyəsi, qanunsuz silah alveri dədaxil olmaqla cinayətkarlıq, eləcə də beynəlxalqtəhlükəsizliyə təhlükə törədən digər təhdid və çağırışlaraqarşı mübarizədə əməkdaşlıq və birgə fəaliyyətinəhəmiyyətini vurğuladılar. Bu sahədə əməkdaşlığın daha dainkişaf etdirilməsi məqsədilə öz aralarında, beynəlxalqtəşkilat və forumlarla qarşılıqlı fəaliyyət göstərməkniyyətlərini bir daha təsdiqlədilər.

Türkdilli ölkələrin dövlət başçılarının IX zirvə toplantısındaimzalanmış “Türkdilli dövlətlərin əməkdaşlıq Şurasınınyaradılması haqqında Naxçıvan Sazişi” əsasında təsisedilmiş Türkdilli dövlətlərin əməkdaşlıq Şurasının Türkdillidövlətlər arasında qarşılıqlı əlaqələrin möhkəmləndirilməsində yeni mərhələni müəyyən etdiyiniqeyd etdilər.

Tarixi əlaqələrə söykənən Türkdilli dövlətlər arasında mövcud olan yüksək səviyyəli təmaslar dostluq və mehriban qonşuluq ruhunda həyata keçirilir və Türkdilli dövlətlərin maraqlarına cavab verir. Tərəflər ümumi mədəni irsin qorunması, gələcək nəsillərə ötürülməsi və beynəlxalq müstəvidə təbliğatı sahəsində sıx əməkdaşlığın inkişafı üçün səy göstərəcəklərini bildirdilər.

TÜRKSOY-un Türk dünyasının ümumi dəyərlərinin müəyyənedilməsi, inkişafı, beynəlxalq səviyyədə yayılması vəpopulyarlaşdırılmasında vacib rol oynadığını vurğuladılar,eləcə də onun Türkdilli ölkələr arasında mədəni əlaqələrindərinləşməsinə töhfəsini yüksək qiymətləndirdilər. Bununla əlaqədar, onlar Türkdilli ölkələrin xalqlarının dil, mədəniyyətvə mənəvi dəyərlərinin ümumiliyinə əsaslanan əlaqələrin vəəməkdaşlığın daha da möhkəmləndirilməsində TÜRKSOY-un əhəmiyyətini qeyd etdilər.

Dünya sivilizasiyasının inkişafına əhəmiyyətli töhfə vermiş zəngin Türk mədəni irsinin qorunması və dəstəklənməsiüzrə TÜRKSOY Fondunun yaradılması barədə Azərbaycan Respublikası prezidentinin təşəbbüsünü yekdilliklə dəstəklədilər. TÜRKSOY Fondunun yaradılması və fəaliyyətiilə bağlı təşkilati məsələlərin həlli tərəflərin hökumətlərinəhəvalə olundu.[11]

2010-cu il sentyabrın16-da İstanbulda türkdilli dövlət başçılarının X Zirvə görüşü reallaşdı.Toplantıda Qazaxıstanın rəhbəri N. Nazarbayev, Türkiyə Prezi-denti A. Gül, Azərbaycan Prezidenti İ. Əliyev, Qırğızıstan prezidenti R. Otunba-yeva, Türkmənistan prezidenti Q. Berdımuhəmmədov iştirak edirdilər.[12]

Sammiti Türkiyə Prezidenti Abdulla Gül açaraq ənənəvi olaraq görüşdə iştirak edən ölkələrin başçılarını salamladı və xüsusi əlaqlərin mövcudluğunu, türkdilli dövlətlər arasında əməkdaşlıq istiqamətdə mühüm nailiyyətlərin əldə olunduğunu qeyd etdi. Prezident Naxçıvan şəhərində keçirilən IX Zirvə toplantısında qəbul edilən qərarların əhəmiyyətini xüsusi olaraq diqqətə çatdırdı.Söhbət Türkdilli ölkələrin əməkdaşlıq Şurasının yaradılmasından gedirdi.

Abdullah Gül türkdilli ölkələr arasında əlaqələrin genişləndirilməsində mühüm rol oynayan TÜRKSOY-un, Türkdilli Ölkələrin Parlament Assambleya-sının, Türkdilli ölkələrin Əməkdaşlıq Şurasının, Ağsaqqallar Şurasının, Astanada yaranmış Türk Akademiyasının fəaliyyətindən danışdı.

Liderlər həmçinin, iqtisadi əməkdaşlığı stimullaşdırmaq üçün İşgüzar Şuranın yaradılması barədə razılığa gəldilər və İstanbulda “Türkdilli dövlətlərin inkişaf bankı”nın və neftlə bağlı olmayan sahələrin inkişafının dəstəklənməsi üçün sığorta şirkətinin yaradılmasının mümkün olub-olmamasını araşdırmağı qərara aldılar. Türkdilli dövlətlərin Əməkdaşlıq Şurasının birinci sammitinin 2011-ci ildə Qazaxıstanda, ikinci yüksək səviyyəli görüşün 2012-ci ildə Qırğızıstanda keciriləcəyi barədə razılığa gəlindi.

İstanbul Bəyannaməsinin əsas müddəaları aşağıdakılardır:

Beynəlxalq təhlükəsizliyə təhlükə törədən təhdid və çağırışlara qarşı mübarizədə əməkdaşlığın və birgə fəaliyyətin əhəmiyyətini bir daha vurğuladılar

Beynəlxalq Türk Mədəniyyəti Təşkilatının (TÜRKSOY) ortaq dəyərlərin müəyyən edilməsi, zənginləşdirilməsi, yayılması və təşviqində, həmçinin Türkdilli ölkələr və xalqlar arasında mədəni əlaqələrin dərinləşdirilməsində mühüm bir vəzifənin yerinə yetirdiyini vurğuladılar.

Dünya sivilizasiyasının inkişafına əhəmiyyətli töhfə vermiş zəngin Türk mədəni irsinin qorunması məqsədilə Bakıda Türk Mədəniyyətinə Dəstək və Türk İrsinin Qorunması Fondunun yaradılması ilə əlaqədar təşəbbüsün həyata keçirilməsinin əhəmiyyətini təsdiqlədilər**.**

2012-ci ildə Astananın Türk Mədəniyyətinin Paytaxtı elanolunması ilə bağlı TÜRKSOY-un təklifini dəstəkləyirlər.

Türkdilli Ölkələrin Parlament Assambleyasının (TürkPA)Katibliyinin Bakıda fəaliyyətə başlamasından duyduqları məmnunluğu ifadə etdilər.

İqtisadi əməkdaşlığın inkişaf etdirilməsi məqsədilə Türkdilli dövlətlərin Biznes Şurasının yaradılması barədə razılığa gəldilər.

2012-ci ildə fəaliyyətə başlaması nəzərdə tutulan Bakı-Tbilisi-Qars dəmiryolu xəttinin Türkdilli ölkələr arasında nəqliyyat əlaqələrini asanlaşdıracağını, eyni zamanda Avrasiya regionunda ticarət həcmini artıracağını, regionalinkişaf və iqtisadi inteqrasiyanı sürətləndirəcəyini qeydetdilər.

Astana şəhərində Türk Akademiyasının açılmasından məmnunluqlarını ifadə etdilər.

Türkologiya elmi sahəsində elmi resursların, etno-mədəniyyətin və etnoturizmin təşviqinin əhəmiyyətini etiraf etdilər.

Türk cümhuriyyətləri çərçivəsində inteqrasiyaya öncə maraq göstərən və təşəbbüskarlıqda daha çox bulunanlar - Türkiyə, Qazaxıstan, Azərbaycan və Qırğızıstan olmuşdur.”Görünən odur ki, bu ölkələrin dialoqu çox məhsuldar davam edir.Qazaxıstan ən dinamik inkişaf edən Mərkəzi Asiya dövlətidir. Azərbaycanın da yaxşı iqtisadi inkişaf göstəriciləri vardır. Türkiyə enerji layihələrinə xüsusi marağı olan tranzit bir dövlətdir.Qırğızıstan daxili siyasi transformasiya mərhələsində olmasına baxmayaraq təxminən 20 ildir ki, o, qarşılıqlı əməkdaşlığa, inteqrasiyaya sədaqət nümayiş etdirir. Beləliklə, hətta Özbəkistan və Türkmənistanın olmadığı zamanlarda da Türk Birliyinin beynəlxalq əhəmiyyətli bir struktur olmaq şansı vardı”[13,c.104].

Beləliklə, türk dövlət başçıları arsında keçirilən sammitləri inteqrasiya yolunda ən vacib görüşlər kimi dəyərləndirə bilərik. Burada əsas məqsəd və hədəflər mədəni ,siyasi, ideoloji, iqtisdadi inteqrasiyanın əsaslarını müəyyən etmək olmuşdur ki, onlardan bəziləri ilə bağlı artıq real addımlar atılmışdır. Məsələn, türk dünyasının ortaq əlifbasının yaradılması ilə bağlı qərarın verilməsi , türk tarixi və mədəniyyətini araşdıran mərkəzlərin yaradılması, habelə, universitetlərin açılması, türk dünyasını bir-birinə bağlayacaq enerji layihələrinin həyata keçməsi, strateji tərafdaşlıq müqavilələrinin imzalanması, türk dünyasına açılan Zəngəzur dəhlizi kimi aktual məsələlər artıq reallığa çevrilmişdir.

Qaynaqlar

1. Анкарское заявление. Встречи глав тюркоязычных государств // Казахстан – Турция: 5 лет дружбы и сотрудничества. Анкара: TiYDEM, 1996.С. 413-416.

1. Hayati Doganay·Türk dünyasının siyasi sınlrları// Doğu Coğrafya Dergisi https://dergipark.org.tr/tr/download/article-file/33321
2. Сегодня на саммите Парламентской Ассамблеи тюркоязычных государств (ПАТГ) был ут-вержден годовой бюджет. – Электрон. Текстовые дан. – Режим доступа: http://1news.az/politics/
3. Стамбульская декларация [Текст] // Бюллетень международных договоров РК. – 1997. – № 5, – С. 6–40.)
4. Новый Туран в легендах и наяву: удастся ли Турции объединить всех тюрков мира под одним полумесяцем // Центр Азия. – Электрон. Текстовые дан. – Режим доступа: http://www.centrasia.ru /newsA.php?st= 1133768040. – Baxılıb: 12.09.2010.

5. Məmmədli C.Türk dövlətlərinin beynəlxalq təşkilatlar çərçivəsində regional inteqrasiya perspektivləri //https://www.academia.edu/592490 may 2009
6. Ташкентская декларация // Конституция изаконы стран мира. – Электрон. текстовые дан. – Режим доступа: http://www.constətutəons.ru/ archives/582. – Baxılıb: 10.10.2010.
7. Türk dövlətləri başçılarının zirvə toplantıları – Ahmet Şahidov https:// www.shahi-dov. com/?p=1872 12/14 13.10.2022.
8. Корицский, С. А. Тюркский саммит в Анталье / С. А. Корицский. – Электрон. текстовые дан. – Режим доступа: http://www.iran/ru./ rus/news _iran. php?act =news _by_id&news_id=44223.
9. Гурьев, А. А. Анкара укрепляет тюркский фактор своей политики / А. А. Гурьев. – Электрон. текстовые дан. – Режим доступа: http:// www.rodon org/polit-080325110836.
10. Нахичеванская декларация. – Электрон.текстовые дан. – Режим доступа: http://www.Ktɜkz.ənderɜphp?lang-rus-1139374491.
11. Türk Dili Konuşan Ülkeler Devlet Başkanları 10. Zirve Toplantısının Bildirisi. İstanbul, 16 Eylul 2010. – Electronic text data. – Mode of access: http:// www.mfa.gov.tr/bildiri.tr.mfa. – Title from screen.
12. .Парубочая Е.Ф. Саммиты тюркских государств (2006–2010 гг.): реальная платформа для сближения стран Вестн. Волгогр. гос. ун-та. Сер. 4, Ист. 2011. №2 (20) с.98-105

Dr. Məhəmməd Rza Kərimi
"Azərbaycan Post" qəzetinin yazarlar heyətinin üzvü
Email: Mrb_karimi@yahoo.com
ORCID ID: 0009-0001-8390-5467

Ortaq Türk Dili

Xülasə:

Bugünkü qloballaşma dünyasında bir milləti fərqləndirən onun mədəni irsi və elmi - ədəbi dilidir. Türkdilli ölkələrin ortaq tarixi, ortaq dili və ortaq mədəniyyəti olub və olmaqda davam edir. Əsrlər boyu müxtəlif sahələrdə fərqlər aşkar etsələr də, bu gün elm və texnologiyanın qloballaşması və ölkələr arasında daha güclü əlaqələrin qurulması ilə bu fərqlər azaldıla bilər. Hər bir millət bu qloballaşmada yalnız güclü və görkəmli bir dilə sahib olmaqla rol oynaya bilər. Dünyanın bəzi bölgələrində (məsələn, İran) siyasi məhdudiyyətlərə baxmayaraq, Türk dili o qədər inkişaf etmişdir ki, elm və ədəb dünyasında elmi bir dil kimi qarşılanır. Son onilliklərdə Türk dilini öyrənməyə olan həvəs bu dilin dövrümüzün alimləri arasında mövqeyini göstərir. Hər il Türk dilinin istifadə sahəsi genişlənir və bu dilin elmi sahələrdə inkişafı üçün zəmin açılır. Şübhəsiz ki, türkdilli ölkələrdə elmi və sənaye irəliləyişləri bu qarşılanmanın əsasını təşkil edir. Bir ölkə iqtisadi, elmi, texnoloji və siyasi sahələrdə irəlilədikcə, onun dili də bu inkişaflarla birlikdə inkişaf edir və daha böyük bir dünyaya yol açır. Qarşımızdakı mənzərə göstərir ki, Türk dili XXI əsrin sonuna qədər dünyanın bir neçə vacib və elmi dillərindən biri olacaq. Universitet reytinqləri və qlobal səviyyədə elmi məqalələrin dərc olunması Türk dilinə daha çox etibar qazandırır. Hər bir dilin özünəməxsus xüsusiyyətləri və gözəllikləri xalqın dəstəyində və qəbulunda əsas rol oynayır. Türk dilinin müntəzəmliyi dilçilərin vacib və həyati əhəmiyyət kəsb edən bu gözəllik təzahürünü tərifləmək üçün diz çökməsinə səbəb olmuşdur.

İstənilən dilin sirvəti həmin dilin zənginliyinin göstəricisidir və bu ədəbi irsi, tarixi, hüquqi və elmi kimi müxtəlif sahələrdə istifadə edilə bilər. Bütün dillərin eyni dərəcədə vacib olduğu və hər dilin özünəməxsus gözəlliklərinin olduğu vurğulanır. Bütün dillərə hörmət, qərəzdən daha çox insanlığı üstün tutan bütün dilçilərin ortaq nöqtəsidir. Bu məqalədə əvvəlcə elm tarixi və bingimlər təqdim olunur, sonra isə dünyadakı bütün türkdillilər üçün ortaq bir dilə nail olmaq üçün Türk dilinin xüsusiyyətləri və gələcəkdə Türk dilinin elmi bir dil kimi imkanları araşdırılır.

Açar sözlər: Türk dili, ortaq dil, elmi dil, ədəbiyyat, tarix, dil potensialı.

Dr. Mohammad Reza Karimi
Member of the Editorial Board of the
"Azerbaijan Post" newspaper

Common Turkic Language

Abstract:
In today's globalized world, what distinguishes a nation is its cultural heritage and its scientific-literary language. Turkic-speaking countries have had—and continue to have—a common history, a common language, and a shared cultural foundation. Although differences have been observed in various fields over the centuries, with the globalization of science and technology and the strengthening of relations among countries, these differences can gradually be reduced. Every nation can play a role in this globalized environment only by possessing a strong and prominent language. Despite political restrictions in some regions of the world (for example, Iran), the Turkic language has developed to such an extent that it is recognized as a scientific language in academic and literary circles. In recent decades, the growing interest in learning Turkic demonstrates its rising status among contemporary scholars. Each year, the scope of Turkic language use expands, creating new opportunities for its scientific development.

There is no doubt that scientific and industrial progress in Turkic-speaking countries forms the foundation of this recognition. As a country advances economically, scientifically, technologically, and politically, its language grows along with these developments and opens a path to a wider world. The current trajectory shows that by the end of the 21st century, the Turkic language will become one of the world's important scientific languages. University rankings and the increasing publication of scientific articles at the global level add further credibility to the Turkic language. The unique features and aesthetic qualities of any language play a crucial role in its acceptance and support by its people. The structural harmony and consistency of Turkic have led linguists to praise this essential and remarkable linguistic beauty.

The richness of any language reflects its cultural wealth, making it applicable across fields such as literature, history, law, and science. It is emphasized that all languages are equally valuable and each possesses its own unique beauty. Respect for all languages—prioritizing humanity over bias—is a common principle shared by linguists. This article first presents the history of science and foundational concepts, and then explores the characteristics of the Turkic language as well as its future potential as a scientific language for all Turkic-speaking peoples of the world.

Keywords: Turkic language, common language, scientific language, literature, history, linguistic potential.

Giriş:

Türk dünyasını birləşdirən ən vacib amil Türk dilidir. Görünür, ortaq bir dilə sahib olmaq üçün - türkdilli ölkələrin dövlət xadimlərinin fəaliyyəti ilə bağlı vacib siyasi təcrübələrdən başqa - Türk dilinin xüsusiyyətlərini araşdırmaq və bu yolla mühüm oxşarlıq yaratmaq, birlik və dostluğa yol açmaq lazımdır.

Ortaq bir dil seçmək çox elmi, dəqiq, nəhəng və yorucu bir işdir. Bu nəcib məqsədə çatmaq mümkün deyil, bu vəzifə bir neçə məqalə və rəylə aradan qaldırılmaz. Bu, hər hansı bir zəifliyi varsa, gələcək əsrlərdə türkdilliləri təqib edəcək bir seçimdir. Gələcək nəsillər tərəfindən lənətlənmək istəmiriksə, bu gün dəqiqliyimizi və həssaslığımızı artırmalıyıq. Gərəkdir çətin, dəqiq və elmi bir işi öz üzərimizə götürək.

Son onilliklərə qədər Türk dil ailəsində elmi olmayan bir bölgü mövcud idi; Qazax, Kırğız, Özbək, Azərbaycan və s. kimi dillər Türk dilləri adlandırılmırdı. 1991-ci ildə Sovet İttifaqının dağılması qlobal sistemdə, xüsusən də bu birliyi tərk edərək özünə qayıdan, milli kimliklərini yenidən kəşf edən və Türk dilini buxovlardan azad edən türkdilli ölkələr üçün böyük və təsirli bir hərəkat oldu.

Türk dili dünya dilləri arasında əhəmiyyətli bir dildir. Türk dil ailəsinə dünyada əhəmiyyətli bir əhali daxildir. Bu ölkələrin Türk Dövlətləri Təşkilatında könüllü birləşməsi dünyanın Türk dilinə olan əhəmiyyətinin və diqqətinin daha bir səbəbi olmuşdur. Bu gün Türkdilli ölkələrin birliyi

və Türk Dövlətləri Təşkilatının yaradılması üçün yol açılmış, ortaq əlifba və ortaq bayraq açılmışdır və qarşıdakı illərdə daha böyük irəliləyişlərin şahidi olacağıq.

Dünyanın bəzi yerlərində səhv qlobal siyasətlər üzündən Türk dili dilçilər arasında mövqeyinə baxmayaraq, ictimai sahədə aşağı səviyyədə saxlanılıb. Məsələn, İranda son yüz ildə Türk dilinin qadağan edilməsi, məktəblərdə, idarələrdə, banklarda, elmi-iqtisadi, mədəni və siyasi qurumlarda bu dilin istifadə edilməməsi və son min ildə Türk dilində yazılmış minlərlə əlyazmanın nəşr olunmaması Cənubi Azərbaycanın türkdilli xalqının mənimsənilməsinə, ədəbiyyatlarının və elmi kitablarının dərinliyindən - genişliyindən xəbərsiz olmasına səbəb olub. Digər bölgələrdə, o cümlədən Sovet İttifaqı və Çində belə bir vəziyyət güclü və zəif cəhətləri ilə mövcud olub, burada məhdudiyyətlər var idi və onlar hələ də tam həll olunmayıb. Son min ildə Türk dili tibb, riyaziyyat, astronomiya, siyasət, ticarət, təbiət, mədənlər və sənaye, heyvandarlıq, bitkilər, əkinçilik, fizika və digər elmi sahələr kimi əksər elmi sahələrdə minlərlə dəyərli kitab yaza bilib.

Mədəni Ortaqlıqlar

Türklər arasında ilk ortaq amil onların dilidir. Bu dil dilçilik elminin təxminən yüz il yaşı olaraq dilçilərin diqqətini və heyrətini o qədər cəlb edib ki, onların bir çoxu Türk dilini möcüzə hesab edib, hətta onun qarşısında diz çöküb. Lakin qeyd edirik ki, dil türklər arasında yeganə ortaq amil deyil, xalça toxuma, memarlıq, rəsm, xəttatlıq, musiqi və digər şeylər kimi bu əzədi və əbədi quruluşa töhfə verən digər amillər də ortaq cəhətləri arasındadır. Bu məsələlərlə bağlı müzakirələr uzun çəkəcək və onları burada qeyd etmək kifayətdir.

Mədəni cəhətdən türklərin də ortaq cəhətləri var, bu mədəni fenomenlər tarixin başlanğıcından bu günə qədər qorunub saxlanılıb. Bu ortaq cəhətlərə bir çox dil, mədəni və adət-ənənə amilləri daxildir. Bunlar ortaq tarixdən memarlığa, xalçalara, xəttatlığa, rəsmə, musiqiyə və ədəbiyyata qədər müxtəlif sahələri əhatə edir.

Türk ölkələri arasında Aşıq musiqisi və ədəbiyyatı kimi bir çox ortaq mövzular var; bu xalq şairləri və xanəndələri, Jirao, Qam, Şaman, Baxsi, Baxşi, Ozan və Aşıq kimi fərqli adlarla fəaliyyət göstərsələr də, ortaq bir mədəniyyət yayırlar. Dədə Qorqud, Manas, Alpamış, Koroğlu, Əsli və Kərəm və s. hekayələri bütün Türk xalqları arasında mövcuddur. Oğuz Xan, Çingiz Xan, Attila, Alp Artunqa və bu kimi tarixi qəhrəmanların hekayələri o qədər geniş və əhatəlidir ki, bu sahədə müzakirələr genişlənir. Aşıqların musiqi alətləri də çox oxşardır, o cümlədən qırğızların qubiz adlandırdığı qupuz, və…

Türk ölkələri arasında onlar təkcə ortaq bir dil deyil, həm də ortaq bir mədəniyyət, bir çox ritual, adət və ənənələrə malikdirlər. Xalça, kilim və onlarla digər sənətkarlıq və əl işləri dünyanın diqqətini cəlb edən amillərdəndir.

Türklər yazı və xət yazmağın qurucuları hesab olunurlar. Şumerlərdən tutmuş Hunlar, Qutatilər, Hurrilər, Göktürklər, Uyğurlar, Qaraxanlılar və digər qlobal miqyasda tanınmış Türk dünyası qəbilələri və sivilizasiyalarına qədər, o cümlədən mixi yazının baniləri olan şumerlər də daxil olmaqla, unikal (Damğa) yazılara malik olublar. Göktürk yazısı 2500 il öncədən türklər tərəfindən müsbət qarşılanıb, daha sonra Uyğur yazısı populyarlaşıb və bu yazıda çox dəyərli kitablar bugünümüz üçün də qorunub saxlanılıb. İslamın gəlişi ilə Ərəb yazısı müsəlmanlar arasında çiçəklənib və Türklər də bu yazıda öz izlərini qoyublar. Onlar bu yazıları Çin Səddindən Avropanın mərkəzinə və Afrikaya qədər çiçəkləndiriblər. Bu yazının davamı modernləşmə dövrünə qədəm qoyması və həmin yazıda zəruri dəyişikliklərlə latın əlifbasına çevrilib. Bu gün türkdilli ölkələrin ortaq bir yazı haqqında düşünməsi necə də gözəldir.

Ticarət:

Türklər uzun müddətdir ticarətlə məşğul olublar, onların ticarət səfərləri məşhurdur. Onlar həmçinin uzaq ölkələrdən Türklər arasında ticarət üçün bu torpaqlara gəliblər və hamısı qeydlərində Türk tacirlərinin bacarıq və dürüstlüyü haqqında yazıblar. Türk dilində ticarət haqqında "Xəllaqət-ül-Ticara" - «خلاقه التجاره» kitabı kimi Türk dilində kitablar da yazılmışdır. Türklər arasında ticarət qədim dövrlərdən bəri Şərqdə və Qərbdə məşhurdur. Hətta tarixdə, pul dövriyyəyə girməmişdən əvvəl, mal mübadiləsi üçün kiçik heyvanlardan istifadə edir və onları tavar və ya davar (Türk dilində qoyun mənasını verir) kimi istifadə edirdilər. Həmçinin, payapay, yar-be-yar və... kimi terminlər bu gün fars dilində danışanlar arasında qalıb. Unutmaq olmaz ki,

dünyanın ilk əskinası Təbrizdə Çav adı ilə çap olunub (Saunders, 1361, 98). Bu əskinas hicri təqvimi ilə 693-cü ildə Gixatu xanın əmri və Sədrəddin Zəncaninin təklifi ilə çap olunub (Əksarai, 1943, 237). VII və VIII əsrlərə aid bir çox kitab Türk dilində mövcuddur. Avropa səyahətnamələrində də Azərbaycanın müxtəlif şəhərlərində pul və ticarətin geniş yayıldığı qeyd olunur. Ticarət Türk dilinin güclənməsi və yayılmasında böyük etki biraxmışdlr.

Dil Ortaqlıqları

Türk dilinin kökləri Şimal-Şərqi Asiyaya qədər uzanır. Bəzi alimlər Urmiya gölü ətrafındakı ərazini Prototürk dilinin mənşəyi hesab edir və bunun üçün elmi dəlillər dərc edirlər. (Ağaşıoğlu, 2014, 9 Bitik). Bu dilin kökləri bugünkü müasir Türk dilinin əsasını təşkil edən "Prototürk" adlı bir qrup dialektdən qaynaqlanır.

Türk dili ticarətdə, siyasətdə və mədəniyyətdə fundamental rol oynayıb, bu gün də dinamik iqtisadiyyata və geniş bazara malik ölkələr kimi türkdilli ölkələrin beynəlxalq ticarətdə xüsusi yeri var və Türk dilini bilmək bir çox tacirlər üçün faydalı olub; siyasət sahəsində geniş diplomatik münasibətləri və regional və qlobal məsələlərdə əsas rolu ilə Türk dilini diplomatiyada vacib dillərdən birinə çevirib.

Qloballaşan dünyada Türk dilinin gələcəyi çox parlaq görünür. Türk ölkələrinin iqtisadi inkişafı və beynəlxalq qarşılıqlı əlaqələrin genişlənməsi ilə Türk dilini öyrənməyə ehtiyac artır. Türk dili proqramları dünyanın müxtəlif universitetlərində və təhsil müəssisələrində populyarlaşıb və türkdilli medianın genişlənməsi bu dili qlobal auditoriya arasında getdikcə daha populyarlaşdırıb. Ümumiyyətlə, qloballaşma prosesi və kommunikasiya texnologiyalarının inkişafı dilin dünyada mövqeyini genişləndirmək və gücləndirmək üçün bir çox imkanlar yaradıb. Bu məsələni izləyəcəyik.

Elmi dil:

Bir dilin bu gün elmi dilin yerini tuta biləcəyini və ya onu görməzdən gəlməli olub-olmadığını bilmək üçün iki əsas məqama nəzər salmalıyıq:

1. Dilin elmi tarixi
2. Dilin mövcud imkanları

Bu iki kateqoriyanı araşdırmaq üçün Türk dünyasının ortaq cəhətlərini qeyd edirik:

Türk dilinin elmi əsərlər sahəsində tarixinə nəzər salmaq çox vacib bir məsələdir. Təəssüf ki, 1925-ci ildən bəri İranda çap sənayesi sənayeyə yeni qədəm qoymuş, ildə yüzlərlə klassik və müasir kitab çap edib dili təbliğ edə bilən, universitetlər kimi elmi mərkəzlərdə, eləcə də televiziya, mətbuat və s. kimi mediada özünü göstərə bilən Türk dilinə qadağa ondan alındı və o, çap sənayesindən də məhrum edildi. Bu gün Türk əlyazmalarının inanılmaz kolleksiyası xam şəklində qalır. Bu əsərlərin yaxın gələcəkdə nəşr olunması Türk dilinin dünyanın ən geniş və dərin klassik ədəbiyyatlarından birinə sahib olduğunu göstərəcək. Son onilliklərdə internet və sanal dunyası imkanlarının genişlənməsi ilə dünyanın hər yerində bir çox Türk əsəri tanınıb. Bu gün Türk dili Avropa Birliyində qəbul edilib.

5-1) Türk dilinin elmi tarixinə nəzər:

Türklər bir çox etnik qrupdan ibarətdir və Türk dili dünyanın ən qədim dillərindən biridir. Türk dilinə bənzər dil quruluşuna malik şumer və elam dillərini bir kənara qoysaq, Hunların təxminən 5000 illik tarixi var. Toxuculuq, ağac oyma, əkinçilik, ticarət, mədənçilik və s. kimi peşələr Türklər arasında geniş yayılmış və estetik ölçülər baxımından işlənmişdir, bu iş bilik tələb edir. Rəng texnologiyasının yaranması Türklərə məxsusdur (Harmatta, 1994, 148-155).

Onlar güzgülərdən istifadə üzrə mütəxəssislər kimi tanınırlar. Güzgü hazırlamaq üçün güzgünün arxası qalay və sinklə örtülməlidir. Bunun üçün bilik və elm tələb olunur və onlar müxtəlif materiallardan ərintilər hazırlaya bilirdilər. Kurqanlardan aşkar edilən tapıntılar arasında işıqlandırma və isitmə üçün istifadə edilən bir növ alət tapılmışdır. (İşjamts, 1994, 155). Boqut, Orxon və Yenisey kitabələri Türk dilində yazılıb. Eramızdan əvvəl 200-cü ildə onlar 12 heyvandan ibarət Türk təqvimindən istifadə edirdilər. Bu təqvimdən istifadə etmək üçün dünyanı, günəş və ay dövrlərini bilmək lazım idi. Onlar fəsilləri, illəri, gecə və gündüzlərin uzunluğunu hesablaya bilirdilər. Bu təqvim zamanlama tələb edir. (Kərimi, 2025, I, 211).

Böyük Xəzər İmperiyası bəşəriyyətə böyük hədiyyələr təqdim etmişdir. Onlar şəhərsalma, memarlıq və suvarma sahəsində dünyaca məşhur idilər. Dəniz və çay suyunu təmizləyib içməli hala gətirdilər. Bu texnologiya 1500 il əvvəl heyrətamizdir. Mayatsko və Sardel kimi şəhərlərin tikintisi, yolların birləşdirilməsi və bu şəhərlərin suvarılması təqdirəlayiqdir. Bu şəhərlərin ətrafında 5,5 metr dərinliyində xəndəklər, nəhəng binalar bacarıqlı Xəzər memarları və mühəndislərinin işi idi və dəqiq mühəndisliyin və hesablanmış planların bir əlaməti idi (Qumilyov, 2020, 333).

Xəzərlər əkinçilik və heyvandarlıq alətləri, əl işləri, xüsusən də zərgərlik məmulatları istehsalında möcüzələr yaratmışlar; hətta bu zərgərlik məmulatlarını nümayiş etdirmək üçün bir neçə muzey yaradılmışdır və kolleksiyaçılar hələ də xəzərlərin sənətinə heyran qalırlar. Ədəbiyyat sahəsində Türk dilində üç mühüm kitab qorunub saxlanılmışdır:

1-Numbitik, 2-Şan-e-Qız və 3-Xəzər xaqanlarının yazıları. Bunlar insani dəyərə malikdir və mifologiya, din və ədəbiyyat kimi elmlər üçün faydalı materiallar hesab olunur. Xəzərlərin tam əlifbası və zəngin ədəbiyyatı var idi (Kərimi, 2025, 243).

Peçeneqlər, Qıpçaqlar, Kumanlar, Sabirlər, Avarlar və Qarluqlar yol tikintisində, yollar, körpülər və kanallar tikməkdə bacarıqlı idilər və onların tikdiyi əsərlər fizika və coğrafiya elmlərində dəqiq hesablamalar göstərir. Uyğur Türkləri dünyanın mədəni tarixində qiymətli əsərlər qoyub getmişlər. Onlar yeni əlifba yaratmış, daş binalar tikmiş və şəhərlərini divarlarla əhatə etmişlər. Şəhər tikmək mükəmməl memarlıq hesablamalarına malik bir bilik tələb edir. Turfan bölgəsindəki Kariz su kanalları Türklərin dünya sivilizasiyasına hədiyyəsidir. Bu kanallar Taneri dağlarının suyunu toplayaraq səhradan Turfan yaşayış məntəqələrinə və suvarılan kənd təsərrüfatı sahələrinə keçən bir möcüzədir. Bu kanallar təxminən 100 metr yeraltında və 5000 kilometr uzunluğunda yaradılmışdır. Bu kanallar qədim dünyanın möcüzələrindən biri hesab olunur. Bunu etmək üçün 2500 il əvvəl riyaziyyat, fizika və mühəndislik bilikləri, yamac, bucaq və su axınının dəqiq hesablamaları tələb olunurdu. Kariz kanalları sayəsində Turfan bölgəsi münbit bir vahəyə çevrilmişdir.

İslamın gəlişindən sonrakı dövrdə dünyanın və İslam dünyasının elmi və mədəni inkişafında mühüm rol oynamış Türk alimlərinin uzun bir siyahısı təqdim edilə bilər. Onlar riyaziyyat, astronomiya, tibb, metallar, mədənlər, coğrafiya, kimya, təhsil və təlim, heyvandarlıq və bitki yetişdirilməsi, tikinti - şəhər avadanlıqları, müasir insanın faydalandığı kəşflər və ixtiralar, eləcə də ilahiyyat, fəlsəfə, təfsir və nəhayət, Türk dilində yazılmış və bu gün də elm və ədəbiyyat dünyasında istifadə olunan və elmi dəyəri olan ədəbiyyat kimi müxtəlif elmi sahələrdə qeyd edilmişdir. Bu adların siyahısı, İslamın yaranmasının ilk illərini, yəni VII əsrdən günümüzə qədər olan dövrü əhatə edir, bir kitabın həcmini doldurardı. Bu əsərlərdə təqdim olunan fikirlər hələ də dəyərlidir və müasir əsr üçün tətbiq oluna bilər.

Eramızın 750-950-ci əsrlərində ilk müsəlman Türk dövlətləri hakimiyyətə gəldi. Türk alimləri də bu sahəyə daxil oldular. Türk dilinin özünəməxsus gücü nəzərə alınmaqla, minlərlə yeni sözün yarandığını da görürük. Riyaziyyatda Əl-Xarəzmi, mədən və metallarda Əbu Reyhan, fəlsəfədə Bəhmənyar və İbn Sina, dövlətçilik sahəsində Xas Hacib çoxlu sayda yeni söz yaratdılar. O dövrdən bəri dövrün bir çox mütəfəkkiri (məsələn, Əl-Kindi) Türk alimlərinin dahiliyinə və kəşflərinə heyranlıqlarını və heyrətlərini ifadə etmişlər (Əl-Kindi, 1962, 43).

Əbu Nəsr əl-Farabi (870-950), Əbu Muəşr Cəfər ibn Məhəmməd əl-Bəlxi (ö. 886), Əbu Nəsr Abdullah ibn Əli əs-Sərrac (ö. 988) və Əbu Leys (ö. 988), Yusuf Xas Hacib, (ö. 988), Yusuf Xas Hacib, Mahmud Kaşğari, Əhməd Ədib, Əhməd Yasəvi (1080), Türk dünyasının şərqindəki dövlətlərinin nümayəndələri-idilər. Türk dünyasının qərbində isə Qəznəvilər sarayında Ay Təkin, Hüseyn İlaqi, Katabi, Əbu əl-Nəcm Oylaqi və... kimi böyük şəxsiyyətlər Türk ədəbi fəaliyyəti ilə məşğul olmuşlar. Mahmud Qəznəvinin sarayında Əbülfəth Əli ibn Məhəmməd əl-Busti (ö. 1011) və Bədi əl-Zaman Həmədani (ö 1008) görkəmli türkdilli şairlər idi (Kərimi, 1393, 24).

Mahmud Kaşğarinin "Divan əl-Luqat əl-Türk" kitabı dünya miqyasında nüfuza malikdir. Bu kitab göstərir ki, Türk dili zamanla birlikdə inkişaf edib, elm karvanını qabaqlayıb və dövrün ehtiyaclarına cavab verə bilib (Caferoğlu, 1938, 45).

Dövrün mühüm mütəfəkkiri, əl-Tirmizi kimi tanınan Cəhm ibn Səfvan Əbu Məhriz əs-Səmərqəndi, Xorasanda Oməvi hakimiyyətinə qarşı üsyan edən qruplara qoşulduğu üçün 746-cı ildə öldürüldü. (Frank, 1965, 395vd.). Məhəmməd ibn İsmayıl Əbu Abdullah əl-Buxari (810-870) topladığı hədislərin və tarixi məlumatların həqiqiliyini yoxlamaq üçün minlərlə kilometr yol qət etdi. Erkən Fərqanə tarixçiləri Əbu Məhəmməd Abdullah əl-Fərqani (895-972) və Əbu Mənsur Əhməd əl-Fərqani (939-1007) elm və təcrübə sahəsində çalışmışlar. Məhəmməd ibn Kəsir əl-Fərqani (800-870), ("Fərqani" astronomu, EI2.) yer kürəsinin bir dərəcəsinin qövsünü hesablamağa, enlik və uzunluq meridianını təyin etməyə çalışmışdır. Onun hesablamalarından Kopernik və Kolumb istifadə etmişdir. Aydakı zərbə kraterlərindən biri olan Fərqani krateri onun adını daşıyır.

Əbu Məşər Cəfər ibn Məhəmməd əl-Bəlxi (787-886) astronom, riyaziyyatçı olan "İbn Türk" kimi tanınan Əbu əl-Fədl Əbdül Hamid ibn Vase «ibn Türk» isə (SayIlı, 1985, 77) kvadrat tənliklərin həndəsi həlli haqqında yazıb və onun kitabının terminləri bu gün də cəbrdə istifadə olunur. (Əhməd Aram, Sokhan əl-İmli, № 11 və 12, 1343, 3). Əbu Cəfər Məhəmməd ibn Musa əl-Xarəzmi (850-780) riyaziyyatda "alqoritm" şəklində günümüzə qədər gəlib çatmış cəbrin banisi olub. Əbu Reyhan əl-Biruni (hicri 442-362) coğrafiya, astronomiya, xronologiya, tarix və antropologiya sahələrində bir çox kəşflər və ixtiralar etmiş və bir çox kitablar yazmış dilçi, riyaziyyatçı, təbiətşünas, antropoloq, yazıçı, astronom və zamanölçən idi. Bu məşhur Türk alimi "Əs-Seyyedənə fi əl-Tibb" kitabında Xarəzm Türk dilindən bəhs edir və onu(Türk dilini) özünün sevimlisi adlandırır və onun ölməzliyi haqqında düşünür. Başqa bir yerdə isə Fars və Ərəb dillərini öyrənməkdən bəhs edərək yazır: "Mən ərəb və fars dillərini öyrənmişəm, hər birində yeniyəm, onları çətinliklə öyrənmişəm, amma mənim üçün ərəb dilini lənətləmək fars dilini tərifləməkdən daha xoşdur. Sözlərimin həqiqətini Fars dilinə tərcümə olunmuş elmi kitabı araşdıran biri başa düşəcək. Parlaqlığı yox olan kimi mənası kölgədə qalır, görünüşü bulanıqlaşır və istifadəsi yox olur, çünki bu dil yalnız Xosrəvilik hekayələri və gecə hekayələri üçün uyğundur" (Biruni, 1370, 75).

Əbu Bəkr ibn Əli Urməvi X əsrdə Azərbaycan filosoflarından biri idi və Türk dilində danışmış və elmi baxışlarını qorxmazlıqla ifadə etmişdir. Hamısı onun türklüyünü və Urmiya mənşəyini vurğulayır (Zərrinkub, 1403, 128 və 129). Əbül-Həsən Bəhməniyar (ö. 1054), Eyn əl-Qüdsət Həmədani (1098-1130), Əllamə Cərullah Zəməxşəri (1074-1143) və Şahabəddin Sührəvərdi (1154-1191) də parlaq ideyaları ilə fəlsəfədə inkişaflar quran böyük filosoflar idilər, lakin onlar qaranlıq keşikçilərinin əlinə keçdilər.

Tarix boyu tibb elmi türklərin sevimlisi olub və onların əsas məhsulu olub və Türk dili bu elmdə görkəmli rol oynayıb. 1000 il əvvəldən bəri tibb sahəsində onlarla kitab yazılmışdır, məsələn: Qaani-ül-Əlac (قوانين‌العلاج), Zübdə-ül-Qaaniin (زبده‌القوانين), Maraat-ül-Səha (مرآت‌الصحه), Dəstur-ül-Əlac (دستورالعلاج), Risale-i-Triyaq (رساله ترياق) və s. Bu əsərlərin mətni nəcib Türk dilindədir, baxmayaraq ki, onların adları ərəbcədir. İbn Sinanın Türk dilində bir Türkcə əsəri, "Qaanun" əsərində yer alıb. (Fehres al-Maxtutat ai-Farsi fi Dar al-Kotab al-Mesriyye bel-Qaheriyye, Cild 1, səh. 18). Xarəzmşahlar dövrünə aid başqa bir Türk kitabı mövcuddur ki, bu da tibblə bağlıdır və çox dəyərli bir kitab hesab olunur (KARASU, 2024, 153-160). Eyni zamanda, göz xəstəlikləri haqqında Türk dilində başqa bir dəyərli kitab da yazılıb. (ÇETİN, 2024, 129-152)

6) Klassik Türk Ədəbiyyatı Burada türklərin ortaq dilinin formalaşmasına əhəmiyyətli töhfə verə bilən və bu elmi-ədəbi dilin imkanlarından faydalana bilən Azərbaycan Türk dili və ədəbiyyatını vurğulamaq istərdim.

Türklərin ərəblərlə ədəbiyyatı və ya türklərin ərəbdilli ədəbiyyatı da qürur mənbəyidir. Həmçinin, bir çox Türk şairi Fars ədəbiyyatında Azərbaycan ədəbi üslubunu yaratmışdır. Fars ədəbiyyatındakı "Azərbaycan üslubu" bu şairlərin Fars əsərlərində ifadə etdikləri xüsusiyyətlərə əsasən müəyyən edilir. Bu tədqiqatda aşağıdakı xüsusiyyətlər ifadə edilmişdir: şairlərin ifadəsində Türk dilinin təsiri, yerli Azərbaycan ata-sözlərinin istifadəsi, şairlərin monodinli olmadıqları, qadınların yüksək dəyəri, yüksək insani ruhlar və ideallar, mübarizə ruhu və s. (İan Ripka, 2002; / Şamisa, 2003). Səid Nəfisi bu həqiqəti dərk edərık qeyd edir: "Fars poeziyasının dilinin Qərbi İranın, xüsusən də Azərbaycanın təbii və adi dili olmadığı, ədəbiyyat vasitəsilə bu diyara daxil

olan Şərqin dili olduğu şübhəsizdir. Azərbaycanda dəri poeziyası V əsrdə, Əsədi və Qətran dövründə başlamış və VI əsrdə Əbül-Əla Gəncəvi, Xaqani, Nizami, Fələki, Qəvami və Bəyləqani ilə zirvəyə çatmışdır. Azərbaycan şairləri qaçılmaz olaraq dəri dilini analarından deyil, müəllimlərindən öyrənmişlər." (Nəfisi, 1329, 135-136).

Nizami Gəncəvinin Türkcə Divanı (Kərimi, Nezaminin Türk Divanı, 1399), Şirvanlı Xaqaninin 30-dan çox türkcə qəzəli tesbit olunmuşdur. (Zəncani, 1392, giriş).

Təbrizli şair Xoca Əhməd Fəqih (hicri 534-618) in əsərləri və Xoca Əli Əl-Xarəzminin Yusif hekayəsi (hicri 608) Türk ədəbiyyatında görkəmli bir nümunə hesab olunur. Şeyx İzzəddin Həsənoğlu (hicri 553-658) qəzəllərinin əlyazması, ardınca Finlandiyada tapılan və 12.380 beytdən ibarət "Sirət əl-Nəbi" adlı böyük bir Məsnəvi tapıldı ki, bu da Türk üslubunun Məsnəvidə ilk dəfə istifadə edilməsidir. "Əxi Türk" ləqəbli Bəhaəddin Çələbi (hicri 560-630), İlyas Baba, Əxi Evrən ləqəbli Şeyx Mahmud əl-Xoyi (hicri 547-639), Əxi Cəfər Xatir Zəncani (585-ci il), Mövlana Bəlxi), Hacı Bektaş Vəli (587-649), Abdal Musa Xoylu, Əbdül Mömin Xoi (600-686), Şeyx Səfiəddin Ərdəbili (ö. 659), Aşıq Paşa (650-711), Yunus Emra (639-721), Sultan Vələd (62), Baraq Baba (H655-707), Şeyx Mahmud Şəbistəri (686-721), Qeyikli Baba, Sarı Saltuq (ö. 675), Şəyyat Həmzə (610-690), Şeyx Əhməd Gülşəhri (628-717) və yüzlərlə başqası Ortadoğu Türk ədəbiyyatının yalnız bir hissəsini müəyyən edir, bu şairlərin əksəriyyəti Xorasan və Azərbaycanlı olmuşlar, bu şairlərin bəziləri Səlcuqluların bayrağı altında hərəkət edərək Türk ədəbiyyatına həyat vermişdir.

Xoca Nəsirəddin Tusi (579-635), İftixarəddin Məhəmməd Bəkri Qəzvini (586-678) və Siracəddin Urməvi (594-682) elm və ədəbiyyat sahəsində, Səfiyəddin Urməvi (613-693), Əbdülqadir Marağayi Türk musiqisini təşkil etmiş və musiqi üçün not yazmışlar. Hicri VIII. əsr Azərbaycan Türk ədəbiyyatında məhsuldar bir əsr hesab olunur və bu əsrdən yüzlərcə elmi və ədəbi əsərdən bəhs etmək olar. Xoca Məsud, Mustafa Şeyxoğlu, Tutmaci, Əhmədi, Xoca Yusif Məddah (702-782), Mövlana Ətiqi (710-760), Beyrək Quşçuoğlu, Əssar Təbrizi, Mustafa Zərir, Qazi Bürhanəddin (712-776) şeir və söz nümunələri, dövlətçilik və ədalət elmini nümayiş etdirmişlər. Standart Türk ədəbi dili güc və çiçəklənmə zirvəsinə çatdı, Hurufiyyə dövrün qarışıqlığından baş govzadı. Fəzlullah Nəimi Təbrizi, İmədəddin Nəsimi, Seyid Məhəmməd Rəfii, Əbdülməcid Fereştəoğlu, Amiloğlu, Mir Şərif, Əbdüllətif Fereştəoğlu, Yamini, Əmir Qiyasəddin və başqaları yeni ideyalarla zəngin fəlsəfi əsərlər yaratdılar. Bu artan tendensiya bu günə qədər davam edir və xüsusən də bu gün minlərlə böyük alim, natiq, sənətkar və bilgin mədəni-ədəbi sahələrdə fəaliyyət göstərir, Türklərin elmi və mədəni sahələrdə üstünlüyünü nümayiş etdirir.

7) Türk dilinin elmi potensialı

Geniş ailəsinə malik Türk dili qlobal miqyasda geniş inkişaflar yaratmaq qabiliyyətinə malikdir və onun elmi potensialı hər gün və hər il inkişaf edir. Bu gün ortaq Türk dilini seçmək üçün dəqiq, böyük və elmi bir işə ehtiyac var və bu ailənin hər bir dil və ləhcəsinin fərdi imkanlarını anlamaq lazımdır.

Bütün Türk dillərinin kökləri bir nöqtədə bitir, başqa sözlə, bugünkü bütün Türk dilləri bir mənbədən qaynaqlanıb. Qrammatika, tələffüz və digər məsələlərdəki fərqlər yalnız zamanla yaranıb, coğrafi ayrılıq, eləcə də idarəetmə vəziyyətlərindəki fərqlər, fərqli Türk etnik qrupları tərəfindən millətə çevrilən ölkələrdəki fərqlər və bu coğrafi fərqlər və məsafələr dillərin ayrılığına da səbəb olub. Bu gün sürəətli ünsiyyət imkanı ilə - istər səyahət, istərsə də telefon əlaqələri, internet və virtual dünya vasitəsilə - onlar bir-birinə daha da yaxınlaşırlar. Ortaq dil Türk xalqlarının qaçılmaz gələcəyi olacaq. Dünyanın sürəətlə qloballaşmaya doğru irəlilədiyi bir dövrdə ortaq dilin mövcudluğu həmişəkindən daha çox hiss olunur. Bu prosesdə türkdilli xalqların çox yüksək imkanları var və ortaq dili qəbul etməklə Şərqi Asiyadan Qərbi Avropaya və Şimali Afrikaya qədər insanlar bir-birinə daha da yaxınlaşacaq və parlaq bir gələcək yaradacaqlar.

8) Bu sətirlərin şairinə görə, Türk dillərinin ən vacib xüsusiyyətləri bunlardır:

Türk dilinin iltisaqi (Agglutinative) təbiəti, Türk dilinin müntəzəmliyi, Türk dilində şəkilçilərin rolu və şəkilçilərin bolluğu, lüğət bolluğu, türklərin torpaqlarının coğrafi miqyası və nəhayət, bu ailənin üzvlərinin bir-birindən borc alması və borclanması daha böyük bir dünya təmin

edəcək, bu dilin dünyada gücünü xeyli artıracaq və hətta qeyri-Türk xalqları üçün də beynəlxalq istifadəyə yol açacaq.

Türk dili lüğət baxımından çox zəngin və ın qaydalı bir dildir. Bu, dilin gücünü artıran və onu sadələşdirən mürəkkəb bir dildir. Dilin musiqi formasına əlavə olaraq səslərin harmoniyası da onu öyrənməyi asanlaşdırır. Bütün Türk sözlərinin kökləri var və hər bir isim, sifət, zərf, say və s. felə çevrilə bilər və əksinə. Bu, yalnız sabit bir nizamlılığa və sözlərin köklərinə malik dillərdə mümkündür. Sözlərin sayı, fellərin zaman və əhval-ruhiyyələrinin sayı da o qədər müxtəlif və boldur ki, onlar Türk dilinin ifadə gücünü artırıb.

Unikal müntəzəmlik, dil strukturunun ardıcıllığı, prefiks və infiks olmadan yalnız şəkilçilərin olması, səslərin harmoniyası onun oyrənməsinin sadəliyində çox təsirlidir. Türk dilinin zəngin tarixi və ədəbi mənşəyi də bu dilin öyrənilməsinin vacibliyinə töhfə verir. Lüğətin zənginliyi, fellərin bolluğu bu dilin güclü ifadəsini göstərir.

Türk dilinin tarixinə nəzər saldıqda və Türk dilinin dünyadakı yerini bildikdə, bu dilin ünsiyyət vasitəsindən daha çox şey olduğu aydın olur. Türk dili tarixi təkamülün canlı şahidliyidir, əsrlər boyu davam edən mədəni mübadiləni, dəyişiklikləri və transformasiyaları əhatə edir. Avropa Birliyi tərəfindən tanınması Türk dilinin unikal zənginliyinə və tarixi əhəmiyyətinə bir töhfədir.

Türk Dilinin İnkişaf Perspektivləri

Türk dili dünya dilləri arasında inkişaf edir və sivilizasiyalar arasında mədəniyyətin ötürülməsində fəal rol oynayır. Türkoloq və tarixçi Armin Vambrey (1832-1913) 1863-cü ildə yazdığı kimi, Türk dili: «Türk dili Balkanlardan Çinə qədər uzanan təsir dairəsinə malik çox güclü bir dildir.»

Bu gün dünyada Türk dilində nəşr olunan kitabların sayı və onların tirajı əhəmiyyətli dərəcədədir, bugünkü dünyanın müxtəlif sahələrində elmi məqalələr özlərinə yer açib, digər dillərdə çalışan tədqiqatçıların diqqətini cəlb edə bilib.

Universitetlərin keyfiyyəti gündən-günə artır və bu, bir çox insanın bu universitetlərdə təhsil almağa və hətta dərs deməyə marağını artırır.

Türk ədəbiyyatı dünyada nüfuzlu mükafatlar qazana bilib və bu gün bu sahədəki bir çox fəalın gözü Türk ölkələrinə yönəlib. Bütün bunlar Türk dilinin daha da çiçəklənməsinə, eləcə də bəşəriyyətə xidmət etmək qabiliyyətinə töhfə verir. Həmçinin, son on ildə bu ölkələrdə əhəmiyyətli iqtisadi, elmi və texnoloji irəliləyişlər baş verib.

Ortaq Türk Dili

Ortaq bir dili seçmək, bir dili digərləri ilə əvəz etmək demək deyil: əksinə, bütün dillərin ortaq olduğu bir dili düzgün olanı seçərək gücləndirməliyik. Bunun üçün çox çalışmalı, davamlı, səylə, diqqətlə və yerli qərəzsiz çalışmalı, Türk dünyası haqqında düşünməli və dilin bütün güclü tərəflərini nəyin əhatə edəcəyini nəzərə almalıyıq.

Türk ailəsinin ortaqlıqları o qədər iç-içə və genişdir ki, bu gündən daha tez bir anlaşmaya çatmalı idik; bu gün hələ çox gec deyil, amma mütləq və prinsipial zərurət tələb edir.

11-1) Türk dilinin qanunauyğunluğu: Həm yerli, həm də xarici bütün dilçilər Türk dilinin çox qanunauyğun olduğuna və ən az istisnaya malik olduğuna inanmağa başlayıblar (bəlkə də bu dillərin bəzilərində heç bir istisnanın olmadığını demək olar). Bu qanunauyğunluq həm də bu dili öyrənməyi asanlaşdıracaq.

11-2) Türk dilinin aglotinativ olduğu - şəkilçilərin sayı çoxdur və ortaq bir dil seçməklə bir çox şəkilçi ortaq şəkildə istifadə edilə bilər, dilin gücləndirilməsi ehtimalı çox böyükdür və bu, bir çox imkanlar yaradacaq və dili gücləndirəcək bir şeydir.

11-3) Səs harmoniyası – Türk dillərində səs harmoniyası var ki, bu da Türk dilinin musiqi təbiətini vurğulayır. Əksər Türk dillərinin bu qanunauyğunluğunda bir çox oxşarlıqlar var və bu oxşarlıq elmi linqvistik metodlara müraciət etməklə inkişaf etdirilə bilər.

11-4) Türk dilində saitlərin bolluğu - digər dillərə nisbətən daha yüksəkdir. Bu daitlərin olması tələffüzü asanlaşdırır və bu hərflər müxtəlif dillərdə yalnız bir və ya iki hərflə fərqlənir və Türk xalqları arasında harmoniya təmin edə bilər.

11-5) Lüğət bölluğu - Dillər arasındakı sözlərin sayı. Aralarında bir çox oxşarlıqlar var, lakin tələffüzdə də fərqlər var. Bir az qarşılıqlı əlaqə və qaydaları öyrənməklə tələffüzlər bir-birinə yaxınlaşdırıla və ortaq lüğət ehtiyatı artırıla bilər.

Bir-birindən borc götürmək dili gücləndirəcək və bu qarşılıqlı təsirin ortaq Türk sözlərinin sayını minlərcə artırması mümkündür. Bu gün İstanbul türkcəsində 112.000-dən çox sözcük varıdır, bu Türkcədə başqa Türkcələrə nisbət daha çox Avropa sözləri vardır, Cənubi Azərbaycanda isəFtoplanan sözlərin sayı 250.000-ə çatıb, bu dildə Ərəb və Fars sözləri daha çoxdur.

Hər bir dil öz tarixini geridə qoyub, ədəbi durumu inkişaf edib. Bu gün bu, mümkün qədər elmi cəhətdən, daha ətraflı araşdırma və müəyyən bir həssaslıq ilə araşdırılmalı və hər hansı bir qərəzdən çəkinilməlidir.

a) Suallarla əlaqəli sözlər bir-birinə yaxındır.

b) Əvəzliklər eynidir,

c) Cəm işarələri əsasən eynidir.

d) Nümunəvi işarələr eynidir, məsələn: bu, şu, o, onlar, bora, ora, hara, nərə,

e) İsimlərin datif və akuzatif halları: Bu ailənin bütün dillərində eynidir. Avropa dillərində qoşmalar bu məsuliyyəti öz üzərinə götürür. Məsələn: kimə, kimdə, kimdən, kimi və s.

f) Fellərin təsrifində bəzi fərqlər var, lakin birgə tədqiqatla ən yaxşı, ən qaydalı və ən sadə metod seçilə bilər. Bu seçim elmi olmalıdır, siyasi müdaxilə onu elmi olmayan edir.

Qeyd edək ki, Türk dilində çoxlu və bollu sadə fellər mövcuddur və bu ailənin ortaqlığı ilə sadə fellərin artdığı diqqətə alınmalıdır.

Bu ortaqlıqların sayı bizi ortaq bir dil seçməyə inandırır və bunun çox sadə bir həlli var. Əvvəlcə bu sahədəki alimlər bir araya gəlib ortaq linqvistik məqamları qeyd etməlidirlər. Türkoloqların türkdilli ölkələr və xalqlar arasında ortaq Türk dili problemini həll etmək üçün əsas və mövcud prinsipləri diqqətlə, dəqiq şəkildə araşdıracaqları gözlənilir.

Son sözlər:

Türk dili qədim zamanlardan bəri böyük ideyaları ifadə edib və böyük alimləri bəşəriyyət dünyasına tanıda bilib. Aydın və humanitar düşüncələri ilə bəşəriyyətə xidmət edən alimlər və mütəfəkkirlər Türk dunyasında baş qaldırlb. Türk dilinin bacarıqlı sənətkarları, şirindilli şairləri və düşüncəli filosofları bəşəriyyətə və insanlığa xidmət ediblər.

Türk dili düşüncə yaratmaqla yanaşı, nitq və ifadə istehsalında da şah əsərlər yaratmışdır. Heç bir dilin elmi hala gəlməsinin qarşısı alınmamalıdır; hər dilin öz qabiliyyətləri və imkanları var.

13 may "Türk Dili Günü" elan edilib. Bu gün Mehmet Karamanoğlu tərəfindən Türk dilinin rəsmi dil elan edilməsinin ildönümüdür.

Türk dili Birləşmiş Millətlər Təşkilatında da qeyd olunur və 15 dekabr Beynəlxalq Türk Dili Günü elan edilib; ümid edilir ki, bu, qarşıdakı illərdə dünya tərəfindən yeddinci beynəlxalq dil kimi qəbul ediləcək. Belə bir nəcib və insani məqsədə çatmaq üçün Türk ölkələrinin bütün alimlərinin, dilçilərinin və dövlət xadimlərinin beynəlxalq təşkilatlar və dünyanın savadlı insanları ilə əməkdaşlıq çərçivəsində səyləri davamlı və yorulmaz olmalıdır.

Ədəbiyyat

منابع:

آبلیت کمالف، تاریخ عمومی اویغورستان، ترجمه: میترا نظریان همدانی، اداره نشر وزارت خوارجه، ۱۳۸۱.

ابوریحان بیرونی، الصیدنه فی الطب، ترجمه: باقر مظفرزاده، نشر فرهنگستان زبان فارسی، ۱۳۸۴.

ابو یوسف الکندی، فی ماهیه العقل، لبنان، بیروت، ۱۹۶۲.

احمد آرام، «رساله‌ای از قرن سوم هجری در جبر و مقابله»، سخن علمی، ص ۳، شماره ۱۱ و ۱۲، بهمن و اسفند ۱۳۴۳.

علامه جارالله زمخشری، مقدمه‌الادب، تصحیح: م. کریمی، تبریز، نشر اختر، ۱۳۹۶.

فریدون آغاسی اوغلو، ۹ بیتیک، کؤچورن: م. کریمی، ۹ جیلد، تبریز، انتشارات نباتی، ۱۴۰۳.

کریم آقسرایی، مسامره الاخبار و مسایره الاخیار، تصحیح: عثمان توران، آنکارا، ۱۹۴۳.

لیو قومیلوو، قدیم تورکـلر، ترجمه: ولایت قولی‌یئو / ولی حبیب‌اوغلو، کؤچورن: زکیه ذوالفقاری، ائدیتور: م. کریمی، تبریز، انتشارات نباتی، ۱۴۰۰.

م. کریمی، آذربایجان از پگاه تاریخ تا امروز، دو جلدی، ونکوور، ۲۰۲۵.
جان جوزف ساندرز، تاریخ فتوحات مغول، ترجمه: ابوالقاسم حالت، تهران، انتشارات امیرکبیر، ۱۳۶۱.
یوسف خاص حاجب، قوتادغو بیلیک، دو جلد، ترجمه: م. کریمی، تبریز، نشر اختر، ۱۳۹۳.
Ahmet Caferoğlu, İlk Türk Dilcisi Kaşgarlı Mahmut, İstanbul, CHP Yayınları, 1938.
Aydın Sayılı, The Observatory in Islam, 1985, ISBN 0-405-13951-9.
Hasanali ÇETİN, Göz ve gözsağliği, TÜRK TİP TARİHİ, 2007, s 129-152.
Harmatta, Janos- B.N.Puri, "Nomads in Eastern Central Asia", UNESCO Dijital Library, History of civilizations of Central Asia, v. 2: The Development of sedentary and nomadic civilizations, 700 B.C. to A.D. 250, 1994.
İbrahim Kafesoğlu. Hârezmşahlar Devleti Tarihi, Ankara, 1956.
İbrahim Kafesoğlu, Kutadgu Bilig ve Kültür Tarihimizdeki Yeri, Ankara, Kültür Bakanlığı Yayınları, 1980.
K. Karasu, An Orwellian Palimpsest, 2024.
M. F. Köprülü, Türk Edebiyatında İlk Mutasavvıflar, Ankara, Diyanet İşleri Başk. Yayınları, 1981.
M. Saim Yeprem. Mâtûrîdî'nin Akîde Risalesi ve Şerhi, İstanbul, M. Ü. İlahiyat Fak. Vakfı Yay., 2000.
N.Ishjamts, Nomads in Eastern Central Asia, UNESCO, 1994, ISBN 978-92-3-1028-46-5, p. 146-164.
Yusuf Balasağulu, Kutadgu bilig, çev. Reşit Rahmeti Arat, Ankara: Türk Tarih Kurumu, 1985.
El-Fergânî, *The Elements of Astronomy*, textual analysis, translation into Turkish, critical edition & facsimile by Yavuz Unat, edited by Şinasi Tekin & Gönül Alpay Tekin, Harvard University 1998.
Armin Vambrey, Travels and Adventures, London, 1895.

Vəfa Əhmədova Şamil qızı
Azərbaycan Memarlıq və İnşaat Universiteti,
İctimai fənlər kafedrası, tarix üzrə fəlsəfə doktoru, dosent
Email: vafa.ahmadova@azmiu.edu.az
https://orcid? orcid=0000-0001-6211-2479

Ortaq türk dilinin zəruriliyi

Xülasə
Məqalədə ortaq ünsiyyət dilinin formalaşdırılması müasir dövrdə türk dünyası üçün zamanın tələbi və zərurət kimi göstərilir. Diqqətə çatdırılır ki, türk xalqları arasında ünsiyyəti üçün mütləq bir ortaq dilə ehtiyacı var. Hazırda türk xalqları arasında iqtisadi, mədəni və siyasi inteqrasiya prosesi daha da güclənir daha da inkişaf etdirilməsi üçün türk xalqları arasında yüksək səviyyəli ünsiyyət vasitəsinin yaradılaraq tətbiq edilməsi olduqca zəruridir ki, bu da öz növbəsində, türkdilli dövlətlərin və cəmiyyətlərin bir-birinə daha da qovuşmasına şərait yarada bilər
Açar sözlər: türk xalqları, orta türk əlifbası, orta türk dili, inteqrasiya, ünsiyyət

Vafa Ahmadova Shamil qizi
Azerbaijan University of Architecture and Construction,
Department of Social Sciences, Doctor of
Philosophy in History, Associate Professor

The necessity of a common Turkish language

Summary. The article shows the formation of a common language of communication as a requirement and necessity for the Turkic world in the modern era. It is noted that there is an absolute need for a common language for communication between Turkic peoples. The process of

economic, cultural and political integration between Turkic peoples is strengthening in the near future. For its further development, it is extremely necessary to create and apply a high-level means of communication between Turkic peoples, which, in turn, can create conditions for further rapprochement of Turkic-speaking states and societies

Keywords: Turkic peoples, Middle Turkic dialect, Middle Turkic language, integration, communication

Giriş

Bu gün ortaq türk dili modeli bürün türk xalqlarının siyasi, iqtisadi, fəlsəfi və mədəni irsinin inteqrasiyasını təmin edən, həm də onların süni intellekt texnologiyalarını fəal şəkildə inkişaf etdirən bir fenomen rolunu oynaya bilər. Prezident İlham Əliyev 2024-cü ilin 14 fevralında keçirilən andiçmə mərasimindəki çıxışında Türk dünyası ilə əməkdaşlığın dövlət siyasətində prioritet olduğunu vurğulamış və Türk Dövlətləri Təşkilatını (TDT) vahid ailə adlandırmışdır: "Biz beynəlxalq təşkilatlarla bağlı addımlar atmağa davam edəcəyik və səylərimizi, ilk növbədə, Türk Dövlətləri Təşkilatı çərçivəsində davam etdirəcəyik. Bu, bizim üçün prioritetdir... çünki bu, bizim ailəmizdir. Bizim başqa ailəmiz yoxdur.Bizim ailəmiz türk dünyasıdır." [1,s.179-180]

"Ortaq türk dili" (bəzən "ümumtürk ədəbi dili" də adlanır) türk xalqları üçün vahid dil yaratmaq ideyasıdır. Bu fikir XIX əsrin sonlarından XX əsrin əvvəllərinə qədər mövcud olub.

- Bu, türk dilləri arasında ortaq bir baza yaratmaq məqsədi daşıyırdı ki, bu da türk xalqlarının bir-biri ilə daha yaxşı ünsiyyət qura bilməsinə şərait yaradardı.
- Bu ideya bir çox türk millətçiləri, dilçilər və mütəfəkkirlər tərəfindən müdafiə edilib.
- Lakin, bu ideya türk xalqlarının dilləri arasında müəyyən fərqlər olduğuna görə həyata keçmədi,

Ortaq türk əlifbası ortaq türk dilinin yaranması yolunda ilk addımdır

2024-cü il mayın 6-da Azərbaycandakı Atatürk Mərkəzində ortaq türk dilinin yaranması yolunda ilk addım kimi Türk dünyasının ortaq əlifbası üzrə komissiyanın ikinci iclası keçirilmişdir.Tədbir Beynəlxalq Türk Akademiyası, Atatürk Mədəniyyət, Dil və Tarix üzrə Ali Şurasının nəzdindəki Türk Dilçilik Cəmiyyəti və Azərbaycan Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutu tərəfindən birgə təşkil olunmuşdur.

Akademik Nizami Cəfərov görüşün ortaq əlifbanın hazırlanmasına yönəlmiş yeni addımların müzakirəsinə həsr olunduğunu bildirdi. “Alim müasir tələblər nəzərə alınmaqla ortaq türk əlifbasının yaradılması üçün həyata keçirilən tədbirlərin dövrümüzün tələbi olduğunu vurğuladı. [8]

Daha sonra AMEA prezidenti, akademik İsa Həbibbəyli çıxış edərək, hazırda türk dünyasında baş verən sürətlənmiş inteqrasiya proseslərinin ortaq əlifbanın yaradılması da daxil olmaqla bir çox məsələlərin həlli zərurətini yaratdığını qeyd etdi. O, bu baxımdan ortaq türk əlifbasının yaradılması ilə bağlı müzakirələrin müasir bir çağırış olduğunu və böyük əhəmiyyət kəsb etdiyini bildirdi. AMEA rəhbəri akademik İsa Həbibbəyli vurğuladı ki, “hazırkı geosiyasi kontekstdə ortaq əlifbanın yaradılması türk dövlətlərinin daha da inteqrasiyası, birlik, həmrəylik və əməkdaşlığı üçün böyük əhəmiyyət kəsb edir.” [8]

Tədbirdəki çıxışında Beynəlxalq Türk Akademiyasının prezidenti akademik Şahin Mustafayev türk dünyası üçün böyük əhəmiyyət kəsb edən ortaq əlifbanın yaradılmasının bütün ziyalıların qarşısında duran vacib bir vəzifə olduğunu bildirdi. Akademik vurğuladı ki, “türk xalqlarının sürətləndirilmiş inteqrasiyası prosesinin getdiyi indiki mərhələdə ortaq əlifbanın mövcudluğu mühüm rol oynayır; türk xalqlarının dil birliyinin qorunması əməkdaşlığın gücləndirilməsi üçün zəruridir.” [8]

Cross Media Təhlil Mərkəzinin analitiki, fəlsəfə doktoru Rauf Məmmədov haqlı olaraq göstərir ki, “ortaq əlifba türk xalqlarını daha sıx mədəni əlaqələrlə bağlayacaq, Türk dövlətləri arasında tədricən dil və yazı birliyini təmin edəcək, ədəbiyyat, elm və mədəniyyət sahələrində əməkdaşlıq genişlənəcək, tələbə, müəllim və mütəxəssislərin hərəkətliliyi asanlaşacaq, məlumat və informasiya mübadiləsi sürətlənəcəkdir. Ortaq əlifba iqtisadi, hərbi və siyasi əməkdaşlığın inkişafına təkan verəcəkdir. O, türk xalqlarının milli-mədəni identikliyinin qorunmasına xidmət

edəcək, türk dillərinin inkişafı və gələcək nəsillərə ötürülməsini təmin edəcək, onların inteqrasiyasına, mədəni və siyasi əlaqələrinin güclənməsinə töhfə verəcəkdir.” [7] Müəllif türklərin ortaq əlifbasını onların arasında ortaq dil və yazı birliyini təmin edən əsas amil hesab edir.

Ortaq türk dilinin yaranmasının əhəmiyyəti

Ortaq türk dilinə ehtiyac onun qlobal əhəmiyyətindən irəli gəlir: 180 milyondan çox insan bu dildə danışır və bu da onu dünyanın ən geniş yayılmış 15 dilindən birinə çevirir. Bu dil bütün türk dövlətləri ilə biznes aparmaq və tərəfdaşlıq qurmaq, turizm və beynəlxalq münasibətlərdə karyera perspektivlərini yaxşılaşdırmaq və türk mədəniyyətinə yiyələnməklə türk xalqları arasında ortaq ünsiyyət yaratmaq və onların mənəvi dünyasını zənginləşdirmək üçün vacibdir.

Ortaq türk dili ticarət və digər iqtisadi sektorlarda mühüm rol oynayır və bütün türk xalqları ilə biznes aparmaq üçün açar rolunu oynayır.

Akademik N.Cəfərov ortaq türkcənin, onun ifadəsilə desək, ümumtürk ədəbi dilinin yaradılması üçün üç yolun mümkünlüyünü göstərir: 1) Müasir texnikanın elektron-hesablama maşınlarının köməyi ilə müxtəlif türk dillərində ən çox yayılmış sözlər, qrammatik formalar seçilir, komplektləşdirilir... və ümumtürk ədəbi dili kimi istifadəyə təqdim edilir; 2) Müasir türk ədəbi dillərindən biri (ən çox inkişaf etmiş!) ümumtürk ədəbi dili olaraq qəbul edilir; 3) Müasir türk ədəbi dillərindən biri (ən çox inkişaf etmişi, ortaq anlaşma üçün ən yararlısı) seçilir, üzərində daha bir yüngül ümumiləşdirmə əməliyyatı aparılır və ümumtürk ədəbi dili olaraq işlədilir”. [2, s. 212-213]

Ortaq türk dilini öyrənmək bütün türk xalqlarına birbaşa türk mənbələrindən məlumat əldə etməyə, türk filmlərindən və seriallarından zövq almağa, kitab oxumağa və bütün türk xalqlarının mədəniyyəti və ənənələrini daha dərindən anlamağa imkan verir.

Türk dili ortaq kök kimi 30 dili əhatə edən türk dil ailəsinə aiddir. Ortaq türk dilini bilmək türk xalqlarına digər türk dillərini öyrənməyə və ya başa düşməyə kömək edə bilər və zəngin dil və mədəni irsə yol açа bilər.

A.Qəribli “Türk dilləri” anlayışı və “ortaq türkcə” problemi” məqaləsində göstərir ki, ortaq türk dili yaradılarkən müstəqil türk dillərinin təbii hüquqlarını məhdudlaşdırılmamalıdır.”Türklər üçün onların artıq formalaşmış ədəbi (ümumilli) dillərinə toxunmadan öz aralarında ortaq ünsiyyət vasitəsi yaradılmalıdır” [5,s.19].

Ortaq türkcə probleminin nəzəri həllində akademik T.Hacıyevin “ Türklər üçün ortaq ünsiyyət dili” monoqrafiyası əsas yer tutur. Müəllif türk xalqları arasında ortaq ünsiyyət dili olaraq Türkiyə türkcəsinin qəbul edilməsi ideyasını irəli sürmüşdür. Onun fikrincə, “Türkiyə türkcəsinin bu statusunu həm linqvistik, həm də bir sıra ekstralinqvistik -əhalinin sayı, ölkənin siyasi nüfuzu, beynəlxalq münasibətlərə təsir imkanları və s. amillər müəyyən edir.” [3,s.117]

AMEA “Türkologiya” jurnalının Məsul katibi Elçin İbrahimov ortaq ünsiyyət dilinin formalaşdırılması bütün türk xalqları üçün anlaşılan vahid dil vasitəsinin tətbiqi yolu ilə təmin edilə biləcəyini vurğulayaraq əlifba birliyinin təmin edilməsinin çox böyük əhəmiyyət kəsb etdiyini göstərir “Ortaq əlifbada bütün türkdilli ölkələrin dillərindəki oxşar əlifba xüsusiyyətləri nəzərə alınmalıdır; Türk dünyasının ortaq ədəbiyyatının şah əsərləri, dastanlar, nağıllar, laylalar, atalar sözləri hər bir türkdilli ölkədə, qəbul olunacaq ortaq əlifba ilə nəşr olunmalıdır. Türkdilli ölkələrdə türk dünyası ilə bağlı ədəbiyyat əsərləri məktəblərdə tədris edilməli və dərsiliklərdə hər bir türk ləhcəsindən mətn parçaları verilməli həmin dildəki əsərlərdən hissə-hissə materiallar lüğət tərkibi ilə birlikdə verilməlidir; Türk dünyası şair və yazıçılarının əsərləri digər dillərdə də çap olunmalıdır.Bu əsərlərin hamısı ortaq türk əlifbası ilə nəşr olunmalı, səhifənin bir tərəfində mətn, qarşısında isə lüğəti verilməlidir; Türk dilləri üçün gündəlik istifadə üçün danışıq kitabçaları hazırlanmalıdır. Burada istifadə ediləcək cümlələrdə ortaq sözlərə üstünlük verilməlidir”. [4] Müəllif İnternetdə türk xalqları bir-biriləri ana dillərində məlumat əldə etmək və internetdən istifadə etmək üçün ortaq internet terminləri hazırlanmalı və tərtib edilməsi ideyasını da irəli sürür. O,ortaq ünsiyyət dilinin formalaşdırılması üçün dil, ədəbiyyat, folklor, tarix, etnoqrafiya, incəsənət və bu kimi sahələri əhatə edəcək simpozium və qurultaylar keçirilməsi zəruriliyini də qeyd edir .

Nərgiz Qurbanlı isə müasir dövrdə ortaq türk dilinin reallaşması üçün "ortaq lüğət və terminologiyanın yaradılmasının, türk dillərindən birinin dünya dilinə çevrilməsinin, Türkiyə türkcəsinin türk xalqları arasında başlıca əlaqə və ünsiyyət vasitəsinə çeirməyin" [6,s.27] mühüm əhəmiyyət kəsb etdiyini göstərir.

Beləliklə, ortaq ünsiyyət dili olan türk dilinin digər türk dillərinin sıradan çıxması əsasında yaranmamalıdır. Hər bir türk xalqı öz dilini inkişaf etdirməklə yanaşı, ortaq türk dili yaradıb ondan yararlanmalıdırlar. Türkiyə türkcəsinin ortaq ünsiyyət dili səviyyəsinə keçməsi, beynəlxalq tədbirlərdə ondan dünya dillərin dən biri kimi istifadə edilməlidir.

İstifadə edilmiş ədəbiyyat

1. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevın Milli Məclisdə andiçmə mərasımindəki çıxışı. 14 fevral 2024-cü il //İlham Əliyev.İnkişaf məqsədimizdi. 34-cü cild.Bakı: Azərnəşr, 2024,-s.154-183
2. Cəfərov N. Türk dünyası: xaos və kosmos. Bakı: Bakı Universiteti, 1998, -216 s.
3. Hacıyev T. Türklər üçün ortaq ünsiyyət dili. Bakı: Təhsil, 2013, 248 s.
4. İbrahimov E.Türklər üçün ortaq dil necə formalaşa bilər?// https://525 .az/news /70913-turkler-ucun-ortaq-dil-nece-formalasa-biler/03.01.2017
5. Qəribli A. "Türk dilləri" anlayışı və "ortaq türkcə" problemi"// Sumqayıt Dövlət Universiteti – "Elmi xəbərlər"– Sosial və humanitar elmlər bölməsi Cild 17 № 1 2021, -s.17-20
6. Qurbanlı N.Müasir dövrdə Azərbaycan və türk dilləri arasında qarşılıqlı zənginləşmə prosesi.Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı.Bakı, 2025, -32 s.
7. Məmmədov R.Ortaq türk əlifbası bizə nə vəd edir? //https://crossmedia.az/az/article/3437/ 4 noyabr 2024-cü il

XXI asr boşlarida globalizatsiya, mintaqaviy iqtisodiy integratsiya va transport-kommunikatsiya tarmoqlariniñ jadal rivojlanişi yañi geosiyosiy va geoiqtisodiy makonlarni şakllantirdi. Şunday makonlardan biri — qadimiy "Buyuk Ipak yo'li" asosida şakllanayotgan Zamonaviy Ipak yo'li konsepsiyasidir. Mazkur yo'l buguñi kunda nafaqat Şarq va G'arbni bog'lovçi savdo yo'lagi, balki turkiy davlatlar o'rtasidagi iqtisodiy, siyosiy va madaniy integratsiya jarayonlariniñ asosiy drayverlaridan biri sifatida namoyon bo'lmoqda.

Buguñi globallaşuv davrida iqtisodiy, madaniy va siyosiy integratsiya jarayonlari insoniyat taraqqiyotiniñ asosiy omillaridan biriga aylandi. Şunday jarayonlardan biri — Zamonaviy Ipak yo'li doirasida turkiy davlatlarniñ o'zaro yaqinlaşuvi, hamkorligi va integratsiyasidir. Bu integratsiya nafaqat savdo va iqtisodiyot, balki ta'lim, adabiyot, fan va madaniyat sohalarida ham çuqur ildiz otmoqda. Çunki turkiy xalqlarni birlaştiruvçi asosiy kuç — ularniñ umumiy tili, madaniyati, qadriyati va ma'naviy merosidir.

Adabiyotlar tahlili va metod

Turkiy xalqlar o'rtasidagi tarixiy, madaniy va til jihatidan yaqinlik qadimdan mavjud. Qadimgi turkiy imperiyalar, Ipak yo'li orqali olib borilgan savdo aloqalari, umumiy diniy va madaniy qadriyatlar — bularniñ barçasi buguñi integratsion jarayonlar uçun tabiiy zamin yaratgan.

1990-yillar boşida mustaqillikka erişgan Markaziy Osiyo va Kavkazdagi turkiy davlatlar — O'zbekiston, Qozog'iston, Qirg'iziston, Turkmaniston, Ozarbayjon va Turkiya o'rtasidagi aloqalar yañi bosqiçga ko'tarildi.

Afzalliklari:

- tranzit va logistika sohalarini rivojlantiriş;
- energiya resurslarini eksport qiliş imkoniyatlarini keñaytiriş;
- hududiy iqtisodiy integratsiyani çuqurlaştiriş;
- turizm va madaniy almaşinuvni faollaştiriş.

Şuña qaramay, integratsiya yo'lida bir qator muammolar saqlanib qolmoqda:

• Transport infratuzilmasiniñ notekis rivojlanişi – ayrim mamlakatlarda yo'l, temiryo'l va port infratuzilmalari yetarli darajada emas.

• Bozorlararo me’yoriy tafovutlar – bojxona, soliqqa oid va texnik reglamentlarda farqlar mavjud.

• Ekologik va suv resurslari muammosi – mintaqaviy hamkorlikda barqaror rivojlaniş masalalari yetarliça muvofiqlaştirilmagan.

Turkiy davlatlar integratsiyasiniñ istiqbollari bir neça yo‘nalişda ko‘rinadi:

• Transport-logistika integratsiyasi: “Turan yo‘li”, “Transkaspiy xalqaro transport yo‘lagi (TITR)” kabi loyihalar orqali yagona transport makonini şakllantiriş.

• Energetik hamkorlik: gaz, neft va elektr energiyasi eksportini diversifikatsiya qiliş, “Markaziy Osiyo – Turkiya” energiya koridorini rivojlantiriş.

• Raqamli integratsiya: “Raqamli Ipak yo‘li” konsepsiyasi asosida telekommunikatsiya tarmoqlarini birlaştiriş.

• Madaniy-gumanitar aloqalar: TDT doirasida ta’lim, fan va madaniyat loyihalarini kuçaytiriş, “Turk dunyosi yoşlari forumi” kabi dasturlarni keñaytiriş.

• Qo‘şma bozor: kelajakda yagona bojxona va savdo zonasi taşkil etiş istiqbollari mavjud.

Muhokama.

Turkiy xalqlarniñ o‘zaro aloqalari qadimdan Ipak yo‘li orqali şakllañan. Bu yo‘l faqat tovarlar emas, ilm, san’at, adabiyot va ta’lim g‘oyalari almaşinuvi uçun ham xizmat qilgan. O‘rta asrlarda yaşab ijod qilgan buyuk turkiy mutafakkirlar — Al-Farobiy, Yusuf Xos Hojib, Mahmud Qoşg‘ariy, Ahmad Yassaviy, Alişer Navoiy, Abay Qunanboy, Ço‘lpon, Magtymguly, Fuzuliy kabi siymolar turkiy madaniyatniñ umumiy ildizlarini mustahkamlab, xalqaro miqyosdagi ma’naviy birlikni yaratganlar.

“Zamonaviy Ipak yo‘li” konsepsiyasi buguñi kunda transport, iqtisodiyot va logistika bilan bir qatorda madaniyatlararo muloqot va ta’lim sohalarini ham birlaştiruvçi global loyiha sifatida şakllanmoqda. Turkiy davlatlar taşkiloti (TDT) doirasida o‘tkazilayotgan “Turk dunyosi universitetlar ittifoqi”, “Turk akademiyasi”, “Turk madaniyati fondi” kabi taşabbuslar bu jarayonniñ asosiy bo‘g‘inidir.

Natijalar.

Ta’lim sohasida turkiy davlatlar o‘rtasidagi hamkorlik integratsiyaniñ eñ samarali yo‘nalişlaridan biridir.

Asosiy yo‘nalişlar:

• Qo‘şma ta’lim dasturlari — O‘zbekiston, Turkiya, Qozog‘iston va Ozarbayjon universitetlari o‘rtasida qo‘şma fakultetlar va almaşinuv dasturlari joriy etilgan.

• Yagona ta’lim makoni — TDT doirasida “Turkiy ta’lim tizimi modeli” işlab çiqilmoqda.

• Talabalar almaşinuvi — “Turkic Sçolarşip” dasturi orqali miñlab yoşlar turkiy mamlakatlarda o‘qiş imkoniga ega bo‘lişmoqda.

• Ilmiy hamkorlik — tarix, tilşunoslik, arxeologiya, axborot texnologiyalari sohalarida qo‘şma ilmiy loyihalar yo‘lga qo‘yilgan.

Ta’lim integratsiyasi nafaqat bilim almaşinuvi, balki umumturkiy tafakkur va o‘zlikni añlaşni mustahkamlaşga xizmat qilmoqda. Turkiy davlatlarniñ adabiy aloqalari tarixan juda boy. Buguñi kunda bu yo‘naliş yañi bosqiçga ko‘tarildi. Zamonaviy adabiyot turkiy xalqlar o‘rtasidagi madaniy birlaşuvga katta hissa qo‘şmoqda. Masalan:

• Turkiyada O‘zbekiston va Qozog‘iston yozuvçilari asarlari tarjima qilinib naşr etilmoqda;

• Ozarbayjon, Turkmaniston va Qirg‘iziston adabiyotçilari o‘rtasida “Turk dunyosi adabiy mukofoti” joriy etilgan;

• “Turk dunyosi şe’riyat festivali” va “Navro‘z madaniyat festivali” kabi anjumanlar muntazam o‘tkazilmoqda.

Adabiyot — bu xalqlarni ruhiy va ma’naviy jihatdan birlaştiruvçi kuç. U integratsiyaniñ ma’naviy asosini yaratadi. Ipak yo‘li madaniy hududi bugun turkiy ruhniñ adabiy ifodasi sifatida qayta tiklanmoqda.

Muammolar:

• ta’lim tizimlari o‘rtasidagi farqlar (standartlar, diplom tan olinişi);

• adabiyot va madaniyatda tarjima muammosi;
• siyosiy manfaatlarniñ nomuvofiqligi;
• moliyaviy resurslarniñ yetişmasligi.

Istiqbollar:

• yagona “Turk dunyosi universiteti”ni taşkil etiş;
• “Raqamli Ipak yo‘li” loyihasini ta’lim va madaniyatda qo‘llaş;
• “Turkiy adabiyot markazi”ni tuziş;
• o‘zaro til o‘rganiş dasturlarini keñaytiriş;
• turkiy yoşlar uçun qo‘şma innovatsion markazlar oçiş.

Xulosa.

Zamonaviy Ipak yo‘li turkiy davlatlar uçun nafaqat tarixiy birlikni tiklaş, balki yañi iqtisodiy va siyosiy integratsiya modelini şakllantiriş imkonini bermoqda. Şu bilan birga, bu jarayonniñ muvaffaqiyati har bir davlatniñ o‘zaro işonç, teñlik va manfaatlar muvozanatiga asoslañan hamkorlik siyosatini yuritişiga bog‘liq. Kelajakda turkiy davlatlar o‘rtasida yagona bozor, yagona transport makoni va yagona madaniy axborot makonini şakllantiriş orqali Turkiy dunyo global iqtisodiyotniñ faol iştirokçisiga aylanişi mumkin.

Zamonaviy Ipak yo‘li turkiy davlatlar uçun faqat transport yoki iqtisodiy loyiha emas, balki ma’naviy uyg‘oniş va madaniy integratsiyaniñ ramzidir. Ta’lim, adabiyot va madaniyat sohalarida amalga oşirilayotgan hamkorlik xalqaro miqyosda turkiy dunyo birligini mustahkamlab, yañi avlodni umumturkiy qadriyatlar asosida tarbiyalayapti. Demak, Zamonaviy Ipak yo‘li — bu madaniyatlar çorrahasi, tafakkur yo‘li va birlaşuv yo‘lidir.

Adabiyotlar:

1. Turkiy davlatlar taşkiloti (TDT) rasmiy hujjatlari va axborotlari, 2023–2024
2. TURKSOY. Turk dunyosi madaniy integratsiyasi haqida yillik hisobot, 2023.
3. Ergaşev A. Turkiy integratsiya va transport siyosati, Toşkent, 2022.
4. Yuldaşeva M. Ta’lim va madaniyatda turkiy hamkorlik, “Ijtimoiy fanlar jurnali”, 2023.
5. Navoiy A. Turkiy so‘zniñ qudrati, tanlañan asarlar, Toşkent, 2019.

Əsgərova Zəminə Qoşqar qızı
fəlsəfə üzrə fəlsəfə doktoru dosent
Azərbaycan Memarlıq və İnşaat Universiteti(AzMİU)
E-poct:zamina.azgarova@azmiu.edu.az
Tel +994 55 9401957
ORCİD İD:0000-0001-5906-9588

Türk adət-ənənələri mənəvi dəyərlər

Xülasə:

Məqalənin məqsədi Azərbaycanın milli adət və ənənələrinin formalaşdırdığı mənəvi dəyərlər sistemini araşdırmaq və onun dövlətçilik, mədəniyyət və gənc nəsil tərbiyəsində rolunu göstərməkdir. Tədqiqatın aparılması üçün tarixşünaslıq, etnoqrafiya və komparativ metodlardan istifadə edilmişdir. Məqalədə həm klassik Azərbaycan tarixinin, həm də müasir dövrün dövlət siyasətinin milli-mənəvi dəyərlərin qorunması və təşviqi kontekstində rolu analiz edilmişdir. Elmi yenilik, Azərbaycanın zəngin milli-mənəvi irsinin, adət və ənənələrinin sistemli şəkildə dövlətçilik ideologiyası və gənc nəsil tərbiyəsində istifadəsinin sistemləşdirilmiş təsviridir. Məqalədə Ulu Öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin milli-mənəvi dəyərlərin qorunması və təşviqi sahəsində siyasəti xüsusi vurğulanmışdır. Araşdırma göstərir ki, adət və ənənələr yalnız mənəvi bir miras deyil, həm də güclü dövlət quruculuğu, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsi və milli həmrəyliyin təmin edilməsində əvəzolunmaz vasitədir. Nəticə olaraq, milli adət və ənənələrin

qorunması, təbliği və müasir dövr tələblərinə uyğun tətbiqi Azərbaycan üçün həm mədəni, həm də siyasi strategiya xarakteri daşıyır.

Qeyd edək ki, Azərbaycan müstəqillik əldə etdikdən sonra milli azlıq və etnik qrupların hərtərəfli inkişafı üçün dövlət tərəfindən zəmin yaradılmışdır. Ümummilli lider Heydər Əliyev həmişə ölkə ərazisində yaşayan azsaylı xalqlara hörmətlə yanaşmış, onların bütün sahələrdə azad fəaliyyəti üçün dövlət səviyyəsində şərait yaratmışdır. Ulu öndər çıxışlarının birində demişdir: "Azərbaycanın varı, dövləti təkcə onun pambığı, yeraltı, yerüstü sərvətləri deyil, onun ərazisində yaşayan xalqlardır". Bu siyasət bu gün də cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Azsaylı xalqların etnik tərkibi Azərbaycanda yaşayan hər bir xalq öz etnik xüsusiyyətini saxlamaqla bərabər, digər xalqların və etnik qrupların həyat tərzində, məişətində, adət və ənənəsində, mədəniyyətindəki bir çox mütərəqqi amilləri əxz edərək, onları qarşılıqlı surətdə inkişaf etdirmişdir. Ümumi birgəyaşayış qaydalarına əməl olunan zamanlarda bu xalqlar bir-birinə daha da yaxınlaşmış, lakin öz dillərini, etnoqrafik xüsusiyyətlərini qoruyub saxlamışlar. 2009-cu ilin siyahıya alınmasına görə ölkə əhalisinin 8,4 faizini milli azlıqlar, azsaylı xalqlar və etnik qrupların nümayəndələri təşkil edir.

Açar sözlər: milli adət və ənənələr, mənəvi dəyərlər, dövlətçilik, Novruz bayramı, multikulturalizm, gənc nəslin tərbiyəsi

Zamina Goshgar kızı Askerova
Ph.D. in Philosophy, Associate Professor
Azerbaijan University of Architecture and Construction (AzMIU)

Our national customs and traditions are our moral values

Abstract:

The purpose of this article is to examine the system of moral values shaped by Azerbaijan's national customs and traditions, and to highlight their role in statehood, culture, and the upbringing of the younger generation. The study employs historiography, ethnography, and comparative methods. Both classical Azerbaijani history and contemporary state policies are analyzed in the context of preserving and promoting national-moral values. The scientific novelty of the article lies in providing a systematic description of Azerbaijan's rich national-moral heritage, its customs and traditions, and their application in state ideology and the education of youth. The policies of the National Leader Heydar Aliyev and President Ilham Aliyev in preserving and promoting national-moral values are particularly emphasized. The research shows that customs and traditions are not only a moral legacy but also an indispensable means of strong state-building, fostering patriotism among the younger generation, and ensuring national unity. Consequently, the preservation, promotion, and modern adaptation of national customs and traditions represent both a cultural and political strategy for Azerbaijan.

It should be noted that, after achieving independence, the Azerbaijani state created conditions for the comprehensive development of national minorities and ethnic groups. The National Leader Heydar Aliyev always treated the minorities with respect, ensuring their freedom to participate in all spheres of life, a policy that continues successfully under President Ilham Aliyev. Ethnic groups in Azerbaijan have preserved their distinct characteristics while mutually adopting progressive elements of other communities' lifestyles, customs, and culture. This interaction has fostered closer interethnic relations while maintaining linguistic and ethnographic diversity. According to the 2009 census, national minorities, small ethnic groups, and ethnic communities make up 8.4% of the country's population.

Keywords: national customs and traditions, moral values, statehood, Novruz holiday, multiculturalism, education of the younger generation

Giriş

Azərbaycanın zəngin tarixi və etnik müxtəlifliyi milli adət və ənənələrin formalaşmasında əsas amil olmuşdur. Bu adət və ənənələr həm mədəni irsi qoruyur, həm də dövlətçilik və sosial

həmrəyliyin inkişafına xidmət edir. Məqalədə bu məsələlər tarixi və müasir baxış bucağından araşdırılır.

Məqsəd və vəzifələr:

• Milli adət və ənənələrin mənəvi dəyərlər sistemində rolunu təhlil etmək.

• Dövlət siyasətində adət-ənənələrin qorunması və təşviqini qiymətləndirmək.

• Gənc nəsilin milli-mənəvi dəyərlərə bağlılığını göstərmək.

Ədəbiyyat araşdırması nəticəsində mövcud tədqiqatlarda Azərbaycan adət-ənənələrinin etnoqrafik, tarixi və mədəni aspektləri analiz edilmişdir. Lakin onların dövlətçilik və gənc nəsil tərbiyəsində rolu sistemli şəkildə araşdırılmamışdır.

Elmi yenilik - milli adət və ənənələrin dövlətçilik, mədəniyyət və gənc nəsil tərbiyəsində rolu ilk dəfə sistemli formada təsvir edilmişdir.

Azərbaycan qədim tarixə, zəngin mədəni irsə və əsrarəngiz təbiətə malik olan diyardır. Tarixi keçmişdə müxtəlif sivilizasiyaların: əhəməni-sasani, roma-bizans, skif-xəzər, türk-oğuz mədəniyyətlərinin kəsişməsində bərqərar olmuş bu diyar Qərblə Şərq, Şimalla Cənub arasında "Qızıl körpü" rolunu oynamış, müxtəlif tarixi dövrlərdə yaşayış üçün əlverişli təbii şəraiti ilə bir çox qəbilə, tayfa və xalqları öz ərazisinə cəlb etmişdir. Azərbaycan etnosunun tarixini nəzərdən keçirsək görərik ki, əhalinin 90%-ni təşkil edən azərbaycanlılardan başqa, bu etnosun təşəkkülündə əsrlərdən bəri müxtəlif azsaylı xalqlar, etnik və milli qruplar iştirak etmişlər.

Onların arasında Altay ailəsinin türk qoluna məxsus -azərbaycanlılar, tatarlar, ahısqa türkləri, - həmçinin hind-avropa qoluna (tatlar, talışlar, dağ yəhudiləri, kürdlər), - qafqaz qoluna (udilər, ləzgilər, avarlar, saxurlar, buduqlular, ingiloylar, qrızlar, xınalıqlar), - slavyan qoluna(ruslar, malakanlar, ukraynalılar) dil qruplarının təmsilçiləri vardır. 1992-ci ildə imzalanmış "Azərbaycan Respublikasında yaşayan milli azlıq, azsaylı xalq və etnik qrupların hüquq və azadlıqlarının qorunması, dil və mədəniyyətlərinin inkişafı üçün dövlət yardımı haqqında" fərmana əsasən onlar Azərbaycanın bərabərhüquqlu vətəndaşları hesab edilir.

Qeyd edək ki, Azərbaycan müstəqillik əldə etdikdən sonra milli azlıq və etnik qrupların hərtərəfli inkişafı üçün dövlət tərəfindən zəmin yaradılmışdır. Ümummilli lider Heydər Əliyev həmişə ölkə ərazisində yaşayan azsaylı xalqlara hörmətlə yanaşmış, onların bütün sahələrdə azad fəaliyyəti üçün dövlət səviyyəsində şərait yaratmışdır. Ulu öndər çıxışlarının birində demişdir: "Azərbaycanın varı, dövləti təkcə onun pambığı, yeraltı, yerüstü sərvətləri deyil, onun ərazisində yaşayan xalqlardır". Bu siyasət bu gün də cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Azsaylı xalqların etnik tərkibi Azərbaycanda yaşayan hər bir xalq öz etnik xüsusiyyətini saxlamaqla bərabər, digər xalqların və etnik qrupların həyat tərzində, məişətində, adət və ənənəsində, mədəniyyətindəki bir çox mütərəqqi amilləri əxz edərək, onları qarşılıqlı surətdə inkişaf etdirmişdir. Ümumi birgəyaşayış qaydalarına əməl olunan zamanlarda bu xalqlar bir-birinə daha da yaxınlaşmış, lakin öz dillərini, etnoqrafik xüsusiyyətlərini qoruyub saxlamışlar. 2009-cu ilin siyahıya alınmasına görə ölkə əhalisinin 8,4 faizini milli azlıqlar, azsaylı xalqlar və etnik qrupların nümayəndələri təşkil edir. Azərbaycan hökuməti insan haqları, o cümlədən milli azlıqların müdafiəsi məqsədilə bir çox nüfuzlu beynəlxalq təşkilatlarla işgüzar əməkdaşlıq əlaqələrinə malikdir. Respublikamız insan haqları və milli azlıqların müdafiəsi ilə bağlı 50-dən çox beynəlxalq konvensiyaya qoşulmuşdur.

Respublikamızda 380-dən artıq dini icmanın mövcud olması və onlara eyni münasibətin göstərilməsi Azərbaycanı dünya miqyasında tolerant ölkə kimi tanıtmışdır. Azərbaycanda olan insanların bir-birinə münasibəti kimin hansı millətə və yaxud dinə mənsub olmasında deyil, səmimi və təmiz olması ilə seçilir.

YUNESKO-nun 2005-ci il oktyabrın 20-də qəbul etdiyi "Mədəni özünüifadə müxtəlifliyinin qorunması və təşviqi haqqında Konvensiya"ya uyğun olaraq ölkəmizdə yaşayan milli azlıq və etnik qrupların mədəniyyəti Azərbaycan mədəniyyətinin tərkib hissəsi kimi qorunur və inkişaf edir. Bu xalqların milli mədəniyyətinin, incəsənətinin, adət ənənələrinin və dilinin qorunub saxlanılması üçün məqsədyönlü iş aparılır. Əsrlər boyu Azərbaycanda 80-dən çox etnosun nümayəndəsi yerli etnos olan azəri türkləri ilə yanaşı yaşayır. Bu tarixi təcrübə azsaylı etnosların

və etnik qrupların yoxa çıxması təhlükəsinin aradan qaldırılmasına, etnik və konfessional fərqlərə baxmayaraq, sülh və həmrəylik şəraitində yaşamasına parlaq nümunədir. Etnik çoxluqla yan-yana yaşayan digər xalqlarla münasibətdə tolerantlıq ölkə əhalisinin əksəriyyətinin etiqad etdiyi İslam dininə xas dözümlülüklə, müxtəlif etnik icmaların vahid ərazidə tarixən təşəkkül tapmış birgə yaşayışı ilə izah olunur. Azərbaycanın və Azərbaycan xalqının bütün tarixi ərzində bir dəfə də olsun dini və etnik ədavət, sayından asılı olmayaraq, etnik azlıqlarla münasibətdə ayrı-seçkilik faktları qeydə alınmayıb. İlk növbədə ona görə ki, Azərbaycan dövləti onların hər birinə eyni dərəcədə qayğı göstərir. İctimai Televiziya yaranan gündən bu şirkətdə Milli Azlıqlar üçün Verilişlər Departamenti fəaliyyət göstərir. Azərbaycan dövlətinin demokratikliyinin və tolerantlığının nəticəsidir ki, ölkə teleməkanında ilk dəfə olaraq məhz İctimai Televiziyada Azərbaycanda yaşayan xalqların və bundan başqa Departamentin təqdimatında "Körpü", "Bura vətəndir", "Danışan tarix" və s. verilişlər də tamaşaçılar tərəfindən maraqla izlənilir... Milli azlıqların sıx yerləşdiyi ərazilərdə həvəskar cəmiyyətlər, milli və dövlət teatrları, həvəskar assosiasiyalar və maraq qrupları fəaliyyət göstərir radio və televiziya proqramları yayımlanır.

Yer kürəsində 2000-dən 4000-ə qədər xalq, millət və etnik qrup yaşayır. Dünyada bu qədər xalq, millət və etnik qrupun olması bir o qədər də psixologiya, etnomədəniyyət, etnik şüur, mentalitet, həyat və davranış tərzinin olması deməkdir. Bu müxtəlifliklərin öyrənilməsi, azsaylı xalqların milli mədəni dəyərlərinin geniş ictimai sferada təbliği, yaşadılması həm də müasir demokratik dünyada inkişafın başlıca prinsipinə və göstəricisinə çevrilmişdir. Hər hansı bir dövlətin demokratik inkişafının bir ölçüsü də onun ərazisində yaşayan xalqlara olan münasibətidir. Dünyanın əksər çoxmillətli dövlətləri sırasında Azərbaycan Respublikası da var. Bu gün Azərbaycan yerli aborigen tayfa birləşmələri və xalqlarla yanaşı öz taleyini bu torpağa bağlayan bir sıra milli azlıqların, azsaylı xalqların və etnik qrupların da doğma vətəninə çevrilmişdir. Zaqatala-Qax rayonları ərazisində yaşayan avarlar, ingiloylar, Azərbaycanın Qafqaz dilləri ailəsinin ləzgi qrupuna daxil olan saxurlar, Qəbələ rayonunda yaşayan udilər, əsrlər boyu azərbaycanlılarla, xüsusən Quba rayonu ərazisində və Bakıda yaşayan dağ yəhudiləri, tatlar, kürdlər, talışlar bu gün Azərbaycanın etnik xəritəsini çox zənginləşdirirlər. Bu Azərbaycan mədəniyyəti kimi vahid termin altında çox zəngin musiqi, folklor nümunələri, ədəbiyyat, xüsusən poeziya mövcuddur. Əgər bir tərəfdən bütün bu etnik qruplar öz dillərində olan ədəbiyyat və musiqi əsərləri yaradırlarsa, digər tərəfdən öz kiçik və gözəl mədəniyyətlərinin çalarlarını ümumazərbaycan mədəniyyətinin tərkib hissəsinə çevirirlər. Azərbaycanda yaşayan azsaylı xalqların mədəniyyətini, adət-ənənələrini, yazarlarının əsərlərini kitabxanalar da mədəni-kütləvi tədbirlər vasitəsilə təbliğ etməlidirlər.

Hər bir milləti dünyada tanıdan və onu digər xalqlardan fərqləndirən ən önəmli xüsusiyyətlərindən biri onun adət və ənənələri və bu müstəvidə yüksək mənəvi dəyərlər sisteminə malik olmalarıdır.

Bu baxımdan qloballaşan dünyada milli adət və ənənələr və onun əsasında formalaşdırılan yüksək mənəvi dəyərlər sistemi hər bir millətin mənəvi, mədəni simasını göstərir.

Dünyanın ən qədim xalqlarından olan Azərbaycan da özünün zəngin milli, əxlaqi və mənəvi dəyərlər sistemi ilə bəşər sivilizasiyasına əvəzsiz töhfələr verərək özünəbənzər adət və ənənələri, yüksək mənəviyyatı ilə diqqəti cəlb edib. Min illər boyu formalaşan və Azərbaycan xalqının yüksək mənəvi dəyərlərə malik olduğunu göstərən təkraredilməz adət və ənənələr millətimizin keçmişi ilə bu günü və gələcəyi arasında sarsılmaz bir mənəvi körpü rolunu oynamaqdadır. Təsadüfi deyil ki, adət və ənənələrin hər bir millətin həyatında oynadığı əvəzsiz rolunu yüksək qiymətləndirən Azərbaycan xalqının böyük oğlu Ulu öndər H.Əliyev deyirdi: "bütün bunlar milli mədəniyyətiimizin zənginliyindən, qədim tarixi kökə malik olmasından xəbər verir".

Təbii ki, bütün dövrlərdə mütərəqqi adət və ənənələrin yaradıcısı, eyni zamanda onu qoruyub zənginləşdirən və gələcək nəsillərə çatdıran xalqdır. Bayram adət-ənənələri, toy, yas mərasimləri, islam dininin bəşəri hissləri təbliğ edən dəyərləri xalqımızın milli-mənəvi simasının aynası hesab edilir. Bu müstəvidə də zəngin adət-ənənələrimizi özündə cəmləşdirən milli mənəvi dəyərlər sistemində Novruz bayramı özünəməxsus yer tutur.

Adət və ənənələrin milli mənəvi dəyərlər sistemində oynadığı əvəzsiz rollardan biri də hər bir ənənənin müəyyən əxlaqi məna daşıması ilə bağlıdır. Belə ki, adət və ənənələrimiz hər bir insan nəslinin yaratdığı əxlaqi dəyərləri qoruyub, yeni nəslə çatdırmaq vasitəsi kimi çıxış edir.

Adət-ənənələrimiz və onların formalaşdırdığı milli dəyərlər sistemi ilə güclü dövlətçilik quruculuğu arasında sıx vəhdət var. Belə ki, hər bir dövlətin gücü, ilk növbədə, adət və ənənələrin cəmiyyəti əxlaqi, milli vətənəpərvərlik baxımından düzgün istiqamətə yönəltməsindən, onları saf təməllər üzərində tərbiyə etməsindən asılıdır.

The current high level of interest in the modern Silk Road is attributable to economic logistics and cultural, educational, and scientific integration. Many international researchers and analysts have noted that intellectual and cultural exchange is the foundation of sustainable cooperation.

Culture is an invisible, yet powerful, force for integration. Cultural exchange, translation activities, joint festivals and educational programmes collectively form social capital, thereby strengthening trust and enhancing mutual understanding.

International festivals in such cities as Istanbul, Baku, Almaty, Samarkand and Kazan have united students, scholars and representatives of local communities, creating a space for personal and professional contacts to evolve.

Both cultural and spiritual integration creates a unique environment where knowledge and values become resources to ensure cooperation and facilitate the development of human capital.

Historical Context

The integration processes of the Turkic states along the Silk Road have deep historical roots. This route connected the cultural, scientific and spiritual hubs of the region alongside economic ties, thereby forming a unique network of interactions.

In the 8th–10th centuries, the Turkic khanates, including the Western Turkic and Karluk entities, developed trade and educational routes through Samarkand, Bukhara, Taraz, and Almaty, attracting scholars and philosophers from China, Persia and the Arab Caliphate. Rulers such as Bilge Khan and Tonyukuk supported the propagation of diplomatic, scientific, and cultural ties, thereby contributing to the formation of the first international intellectual networks.

During the era of Amir Timur (1370–1405), cultural exchanges reached their peak. Samarkand saw the construction of madrasahs, libraries and observatories, attracting scholars and artisans from different countries. French historian Jean-Pierre Durand wrote: “The era of Timur demonstrates how culture and science can serve as a unifying factor, creating a network of trust and knowledge amongst states and peoples” (Durand, 2020, p. 68).

In the 15th–17th centuries, the Kazakh, Kokand, and Bukhara khanates, together with the Ottoman Empire in Turkiye and the Aq Qoyunlu and Qara Qoyunlu states in Azerbaijan, played a significant role. They all demonstrated the active support of trade routes, diplomatic contacts and cultural exchange. Abulkhair Khan and Ulugh Beg promoted science and trade, thereby creating a sustainable intellectual and cultural network in the region.

In the late 20th century, modern state structures were formed. Following the collapse of the Soviet Union in 1991, Kazakhstan, Uzbekistan, Turkmenistan, Kyrgyzstan and Azerbaijan regained their independence, opening new unfettered opportunities for integration. Scottish researcher David Vanders observes: “Modern integration initiatives build on historical experience, forming not only economic ties, but holistic cultural and scientific networks” (Vanders, 2020, p. 102).

Science and Education: The Intellectual Silk Road

Science and education are key factors in contemporary integration. Furthermore, joint university programmes, research grants and academic exchanges serve to create an intellectual bridge, strengthening ties between countries.

Ilham Mammadzade (2020) emphasises: “The modern integration processes of the Turkic states must rely on historical routes for the exchange of knowledge, cultures, and technologies, adapting them to the realities of the 21st century” (Mammadzade, 2020, p. 55).

Japanese sociologist Hiroshi Watanabe took this a stage further, stating: “Educational programmes create not only professional ties, but also trust amongst countries, which is invaluable in the long-term” (Watanabe, 2021, p. 112).

Belgian analyst Pierre Lambert dubs this phenomenon "the Intellectual Silk Road" (Lambert, 2021, p. 77), confirming the need for integrating scientific and educational processes to ensure collaboration and the sustainable development of the region.

Joint research initiatives also provide a platform for young scholars, whilst university exchange programmes enable students to develop intercultural communication skills. This builds long-term intellectual ties and strengthens regional integration.

In 2020, I commented: "The creation of joint research and educational platforms amongst the countries of the region is the key to forming a sustainable intellectual space" (Aliyeva, 2020, p. 101).

Economy and Transport

Economic and transportation links provide the physical foundations for integration. In addition, multimodal routes stimulate economic growth and joint projects.

The reopening of the Zangezur Corridor – potentially to be renamed the Trump International Corridor for Peace and Prosperity (TRIPP) – symbolically brings countries closer together, creating economic connections, including those with Armenia, which is aiming for regional reintegration. Rashad. Valiyev (2022) states: "The Zangezur Corridor not only connects territories, but also serves as an economic and symbolic bridge between states" (Valiyev, 2022, p. 18).

Jean-Pierre Durand adds: "Transportation integration projects strengthen trust between states and create new economic opportunities" (Durand, 2020, p. 61).

British economist Jonathan Sachs emphasises: "Economic integration without an institutional basis and harmonised standards risks being short-lived" (Sachs, 2022, p. 110).

Modern logistics and digital platforms accelerate trade and facilitate investment, thereby creating new opportunities for entrepreneurs. It is undeniable that the comprehensive integration of economies and transportation forms a firm foundation for sustainable regional cooperation.

Challenges of Integration

Despite its undeniably significant potential, integration faces a number of challenges, such as differences in political systems, levels of economic development, geopolitical influences and social disparities.

David Vanders underlines: "Integration projects succeed only where there are transparent mechanisms and common rules of the game" (Vanders, 2020, p. 58).

It should be remembered that successful integration must be underpinned by institutional support, transparent procedures and harmonised standards. Political will, mutual trust amongst states and the coordination of standards are key elements in surmounting obstacles.

The international experience of such nations as Scotland, France, Japan and China demonstrate that sustainable integration processes are always founded on a combination of political stability and scientific-cultural exchange.

Prospects for Integration

Modern initiatives in science, education, economics and culture collectively create a comprehensive platform for long-term cooperation.

Zhang Wei (2021) observes: "The digitalisation and modernisation of transportation infrastructure create new opportunities for regional trade and economic growth" (Zhang, 2021, p. 93).

Integration can be achieved on the basis of the:

- Comprehensive integration of scientific, educational and cultural projects
- Creation of modern infrastructure and transportation corridors
- Building of trust through joint initiatives
- Impact of historical experience and traditions
- Development of human capital via youth educational and cultural programmes.

The combination of these factors creates a solid foundation for long-term integration.

Conclusion

The integration of the Turkic states along the modern Silk Road is a multidimensional process that encompasses economic, scientific, educational and cultural elements. Historical

experience indicates that the exchange of knowledge and goods undeniably fosters trust between states and peoples.

It should be noted that successful integration is impossible without institutional support, harmonised standards, holistic consideration of taxation and political will. Modern initiatives in science, education, culture, and economy are creating the conditions to ensure sustainable development, the formation of human capital and long-term cooperation.

International experience — including that reported in relation to Scotland, France, Belgium, Japan, and China — indicate that cultural and educational exchanges serve to establish a solid foundation for trust and the realisation of joint projects. Therefore, the combination of historical heritage, modern technologies and human capital are key to ensuring the successful integration of the Turkic states along the modern Silk Road.

The future integration of this freshly homogenised region will be successful if it relies on principles of comprehensive cooperation, mutual respect, and the creation of sustainable regional institutions.

References

1. Mammadzade Ilham. Tarixi və müasir inteqrasiya prosesləri. Bakı: Nəşriyyat, 2020. 132 s.
2. Frankopan Peter. The Silk Roads: A New History of the World. London: Bloomsbury, 2021. 512 pp.
3. Durand Jean-Pierre. Civilisational Networks and Regional Integration. Paris: Éditions du CNRS, 2020. 276 pp.
4. Aliyeva Zohra. İnkişaf etmiş tədqiqat və təhsil platformaları. Bakı: Elm, 2020. 150 s.
5. Vanders David. Global Integration and Regional Cooperation. Edinburgh: University Press, 2020. 340 pp.
6. Watanabe Hiroshi. Cultural Diplomacy and International Trust. Tokyo: University of Tokyo Press, 2021. 205 pp.
7. Li Ming. Education, Culture and Regional Integration in Asia. Beijing: Tsinghua University Press, 2022. 188 pp.
8. Lambert Pierre. Intercultural Communication and Regional Cooperation. Brussels: P.I.E. Peter Lang, 2021. 242 pp.
9. Valiyev Rashad. Zangazur Corridor and Regional Connectivity. Baku: Economic Studies, 2022. 118 pp.
10. Sachs Jonathan. Economics of Regional Integration. London: Routledge, 2022. 310 pp.
11. Zhang Wei. Digital Infrastructure and Economic Growth along the Silk Road. Beijing: Fudan University Press, 2021. 198 pp.

Zeynəddin Şabanov
Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu
zeynaddin.shabanov@gmail.com
orcid.org 0000–0003–4102–6250

Fərəh Sadıxova
Azərbaycan Dövlət Pedaqoji
Universitetinin müəllimi
farah.jamalova@gmail.com
https://orcid.org/0000-0002-8958-3956

Türk dünyasının gələcəyinə mədəni-fəlsəfi baxış

Xülasə

Məqalədə türk dünyasında son zamanlar baş verən birlik və həmrəylik çağırışlarının fəlsəfi əsasları təhlil edilir. Bildirilir ki, birlik, humanizm, ədalət və mərhəmət türk fəlsəfəsinin dərin qatlarında özünə yer etmişdir. Hazırda türk dünyasının liderlərinin qarşısında duran əsas vəzifə türk dünyasının uğurlu gələcəyi naminə bütün fəaliyyətlərində biri-birini dəstəkləmək, birgə addımlamaq, həmrəylik nümayiş etdirməkdir. Türk dünyasının gələcəyi haqqında siyasətçilərin, filosofların, iqtisadçıların, ideoloqların müxtəlif fikirlər və mülahizələrindən bəhrələnmək zəruridir. Türk dünyasının gələcəyi üçün ən mühüm məsələ "ortaq mənəvi dilin" yaradılmasıdır. Bu dil siyasətdən deyil, poeziyadan, fəlsəfədən, musiqidən və dəyərlərdən qaynaqlanmalıdır.
Açar sözlər: türk dünyası, birlik, harmoniya, milli kimlik, gənclər

Zeynaddin Shabanov
Doctor of Philosophy in Philosophy, Associate Professor
Institute of Philosophy and Sociology, Azerbaijan
National Academy of Sciences (ANAS).

Farah Sadikhova
Lecturer at Azerbaijan State
Pedagogical University

Cultural-philosophical perspective on the future of the turkic world

Abstract

The article analyzes the philosophical foundations of the recent calls for unity and solidarity in the Turkic world. It is stated that unity, humanism, justice, and compassion are deeply embedded in the layers of Turkic philosophy. Currently, the main duty facing the leaders of the Turkic world is to support each other in all their activities, take joint steps, and demonstrate solidarity for the successful future of the Turkic world. It is essential to benefit from the various thoughts and reflections of politicians, philosophers, economists, and ideologists about the future of the Turkic world. The most important issue for the future of the Turkic world is the creation of a "common spiritual language." This language should be sourced not from politics but from poetry, philosophy, music, and values.

Keywords: turkic world, unity, harmony, national identity, youth

Giriş

Müasir dünyada baş verən sosial-siyasi və mədəni-iqtisadi hadisələr türk dünyasını daha da sıx birləşməyə vadar edir. Bunun kökündə, əltəttə ki, türk xalqlarının eyni adət-ənənələri bölüşməsi, onların qədim tarixi bağlılığı dayanır. Bu bağlılığı də inkişaf etdirmək üçün hazırda real imkanlar açılmaqdadır. Bu imkanların dəqiq vektorlarının cızılması həm türk dünyası liderlərinin əsas vəzifəsi, həm də müxtəlif sahələr üzrə mütəxəsislərin qarsında dayanan vacib məsələdir. Həmin məsələnin düzgün çözülməsi üçün zəruri işlər görülməli, tədbirlər həyata keçirilməlidir. Bu prosesin reallaşması zamanı beynəlxalq siyasi şərait diqqət mərkəzində olmalıdır. Belə ki, belə böyük ittifaqların, birliyin yaranması iri güclərin mənafeyinə uyğun gəlmir və onlar bunun baş verməməsi üçün səy göstərirlər.

Türk dünyasının gələcəyi haqqında siyasətçilər, filosoflar, sosioloqlar, iqtisadçılar, ideoloqlar müxtəlif fikir və mülahizələr irəli sürürlər. Türklük yalnız bir coğrafiyanın deyil, bir mənəvi məkanın adıdır. Türk dünyasının gələcəyi haqqında dahi siyasətçi Heydər Əliyev daim düşünür, türk xalqlarının birləşməsinin zəruri olmasını dəfələrlə söyləyirdi: " Ulu öndər nəinki Azərbaycan dövləti, xalqı üçün misilsiz xidmətlər, eyni zamanda, bütün türk dünyasının birliyi, həmrəyliyi naminə gördüyü işlər, irəli sürdüyü təşəbbüslər, çağırışlar böyük önəm daşıyır.Azərbaycan xalqının Ümummilli Liderinin bütün çağırışlarının mahiyyətində bir məqsəd dayanırdı: böyük bir ailəni xatırladan türk dünyasının birliyi təmin edilməlidir. Şübhəsiz ki, Heydər Əliyevi əvəzsiz və ölməz liderə çevirən amillər bu böyük coğrafi məkanın bugünkü reallıqlarından daha aydın görünür. Müdhiş dühaya sahib olan bu fenomen insan tarixin müxtəlif

mərhələlərində bir-birindən ayrı düşmüş türk dünyasını birləşdirmək üçün yorulmaz səylər göstərirdi. Onun məqsədyönlü fəaliyyətinin uğurlu nəticələri bu istiqamətdə davamlı addımların atılmasına mühüm töhfələr verdi. Ulu Öndər uzaqgörənliklə dünya xəritəsində yer alan türk xalqlarının gələcək taleyini əvvəlcədən görürdü. 1991-ci ildə Sovet İttifaqının dağılması ilə Azərbaycan və digər türk dövlətləri öz dövlət müstəqilliklərini bərpa etdilər. Bununla da Heydər Əliyevin türk dünyasının gələcəyi ilə bağlı xəyalları gerçəkliyə çevrildi. Bir daha sübut olundu ki, türk xalqları daim əsarətdə qalmayacaqlar, öz müstəqilliklərinə, azadlıqlarına nail olacaqlar [1].

Türk mədəniyyətinin ən dərin qatında varlıqla harmoniya dayanır, insanla kainatın birliyi ideyası dayanır. Həmin ideya minillər öncə Orhun yazılarında, Dədə Qorqudun kitabında, Yunus Əmrənin, Nizaminin, Nəsiminin və Füzulinin şeirlərində səslənib. Ona görə də tam əsasla demək olar ki, bu səsi yenidən eşitmək üçün türk dünyasının vəhdətə gəlməsi zəruridur, türklər öz kökünün hikmətinə sahib çıxmalıdırlar.

Əsas hissə

Türklərin fəlsəfi ənənələrinə görə insan yerlə göy arasında körpü rolunu həyata keçirir. Bu isə sadəcə mifik bir obraz deyil, eyni zamanda mədəni arxetipdir. Türk insanı nə tamamilə təbiətin içərisində əriyib yox olur, nə də ondan tam kənarlaşır, əksinə o təbiətlə dialoqa girir, onu başa düşür, anlayır, onunla razılığa gəlir. Müasir dövrdə yüksək dəqiqliyə malik texnologiyalar insan mənəviyyatına endikcə türkün bu qədim düşüncə forması yenidən aktuallıq kəsb edir, dünyanı mənalandırmağa çalışır. Gələcək türk nəsli bu mənalandırma bacarığını qoruyub saxlayarsa, onda texnoloji tərəqqi insanı məhv edə bilməyəcək, əksinə ona yol göstərəcək, mənəvi istiqamət verəcək.

Türk Dünyası tarixinin ən parlaq dövrlərindən birini yaşayır. Artıq Böyük Turan yolunda hər gün yeni addımlar atılmaqda, gələcəyin müqəddəs arzuları addım-addım gerçəkləşməkdədir. Hər gün mətbuat səhifələrindən, internet resurslarından, beynəlxalq tədbirlərdən, bəşəriyyətin həyatına birbaşa təsiri olan qlobal yeniliklər içərisindən Türk Dünyasının gələcəyinə yönəlik müjdəli xəbərlər gəlməkdədir. Son dönəmdə gündəm olan Türk Dünyasının ortaq bayrağının müəyyənləşməsi qərarı, ortaq əlifbası ilə bağlı tarixi qərar bütün Türk ellərində, o cümlədən, türkləri özlərinə doğma sayan dövlətlərdə bayram sevincinə səbəb olan yeniliklər kimi yadda qaldı. Türk ölkələrinin müştərək təşkilatlarının, qardaş qurumlarının bir-birinə bağlı, koordinasiyalı, eyni müqəddəs məqsədə, şərəfli amala yönəlik addımları, əlbəttə ki, Türk ailəsi - Türk Dünyası adına qürur doğuracaq, fəxarət yaşadan hadisələr cərgəsindədir [4].

Kimlik fəlsəfəsi

Qloballaşma insanları bir-birinə yaxınlaşdırsa da burada mənəvi fərqlilik, milli çalarlar məsafəni saxlayır.Belə şəraitdə türklük mənəvi fərqlilik və daxili bütövlük modeli kimi önə çıxır. Türk dünyasının gücü təkcə ortaq dil, din, mədəniyyət və tarixdə deyil, həm də əxlaq və mərhəmət fəlsəfəsindədir. Türk mədəniyyəti insana özünü başqası ilə birlikdə düşünməyi öyrədir.Ədalət, mərhəmət, insansevərlik kimi anlayışlar bu düşüncənin təməlində dayanır. Bu dəyərlər insan tarazlığını qoruyan bir sistem kimi işləyə bilər. Beləliklə, türklük keçmişin nostaljisi deyil, gələcəyin mənəvi yönü ola bilər.

Dil-ünsiyyət sferasında qədim türklərin multikulturalizmini nümayiş etdirən əsas əlamətləri ümumiləşdirsək, belə bir mənzərə alınar ki, onlar: a) öz yazı (əlifba) mədəniyyətlərini yaratmaqla yanaşı, heç bir kompleksə qapılmadan onlara məlum olan bütün geniş yayılmış əlifba (yazı) mədəniyyətlərindən istifadə etməyə çalışmışlar;b) müxtəlif dilləri səmimiyyətlə mənimsəmiş, müxtəlif xalqlarla onların öz dillərində ünsiyyətə girməyə çalışmış, çoxlu tərcümələr etmişlər;c) qurub yaratdıqları, idarə etdikləri möhtəşəm dövlətlərin (Altay, Hun, Göytürk, Qaraxanlı və s.) tabeliyində olan xalqların dillərinə qarşı heç bir assimilyativ tədbir görməmiş, əksinə, hörmətlə yanaşmışlar.

“Yaradılış”, “Alp Ər Tonqa”, “Şu”, “Dədə Qorqud”, “Oğuz kağan”, “Manas” “Siyenpi”, “Göktürk”, “Ergenekon” və s. müxtəlif əsatir-dastanları yaradan türklər qədim dünyanın “insan və cəmiyyət” problemi üzərində dərindən düşünən, “insanın dünyadakı yeri”ni bütün təfsilatı ilə dərk etməyə çalışan çox az etnos-xalqlardan biri olmuşlar. Və bu düşüncələr, genişmiqyaslı idrak maraqları müxtəlif xalqların dini-fəlsəfi təfəkkür mədəniyyətlərini ardıcıl olaraq öyrənib

mənimsəməyə yol açmışdır. Yalnız belə bir faktı xatırlamaq kifayətdir ki, dünya şöhrətli buddoloq, akademik F.İ.Şerbatskoy "İkinci Budda" Vasubandhunun məşhur "Abhidharmakoşa" ("Xilasedici biliyin xəzinəsi") əsərinin ən mükəmməl əlyazmasının orijinalda deyil, məhz qədim türk (uyğur) dilinə tərcümədə mühafizə olunduğunu göstərir. Bu isə o deməkdir ki, türklər qədim dünyanın onlara məlum olan dini-fəlsəfi görüşlərini üzdən deyil, təfsilatı ilə dərindən mənimsəməyə can atmışlar [3].

Türk dünyasının gələcəyində "birlik" anlayışı çox zaman siyasi və iqtisadi kontekstdə səslənir. Mədəni-fəlsəfi mənada birlik – "harmoniya" deməkdir. Bu harmoniya, müxtəlif türk xalqlarının dilləri, musiqiləri, inancları, geyimləri fərqli olsa da belə daxildə eyni milliliyin parlamasıdır. Türk dünyasının gələcəyi üçün ən mühüm məsələ "ortaq mənəvi dilin" yaradılmasıdır. Bu dil siyasətdən deyil, poeziyadan, fəlsəfədən, musiqidən və dəyərlərdən qaynaqlanmalıdır. Çünki mədəni birlik yalnız qarşılıqlı anlayışın dili ilə qurulur. Yunus Əmrənin "Yaradılanı sev, Yaradan üçün" fikri bu baxımdan gələcəyin etik manifesti ola bilər.

Mərmərə Universitetinin Türkologiya bölümünün doktorantı İlknur Öner "Türk uygarlıklarının təməl dəyərləri", "Türk xalqları", "Türk dövlətçiliyi tarixi", "Türklük bilimi", "Türk dünyasının tarixi şəxsiyyətləri"ni oxuyub başa vuranda haqlı olaraq bu qənaətə gəlir ki: "Bu kitablar konu etibari ilə Türk dünyasının ortaq tarixi dəyərləri, gələnək və görənəkləri, Türk dünyasına hizmət edən bilim və elm adamlarının, qurumlarının çalışmaları, Türklük bilimi kimi olduqca geniş bilgilərə yer verilən əsər Türk dünyasıyla ilgilənən araşdırmaçılar, öyrəncilər və elmin hər sahəsində olan kəsimlərə xitab etməkdədir" [5].

Türk dünyasının gələcəyi texnoloji baxımdan müasir, lakin ruhən qədim ola bilər. Bu, "mənəvi modernlik" adlana bilər – yəni, texnologiyanın imkanlarını mənəviyyatla birləşdirmək mümkündür. Süni intellekt, kosmos tədqiqatı, enerji sistemləri – bunların hamısı, türkün "əxlaqi məsuliyyət" fəlsəfəsi ilə yönləndirilsə, elm və mənəviyyat da birləşə bilər.

Beləliklə, gələcəyin türk mədəniyyəti həm "rasional", həm də "mənəvi" bir mədəniyyət modelinə çevrilər – bəşəriyyətin itirdiyi "mənəvi balansı" yenidən tapmaq üçün bir nümunə olar. Yaxın gələcəkdə türklük yalnız bir ideologiya deyil, "yaşama tərzi", "varlığı anlama forması" kimi qəbul ediləcək.

Mədəniyyət, texnologiya, elm və din bir-birindən ayrılmaz hala gələcək – çünki türklük, varlığın bütün sahələrində "vahid harmoniya" axtarışıdır. Türk dünyasının gələcəyi keçmişin təkrarı deyil,onun mənəvi davamıdır. Gələcəkdə türklük yalnız tarixdə qalmayacaq – insanlığın gələcəyinə mənəvi işıq salacaq. Türk dünyasının gələcəyinə mədəni-fəlsəfi baxış bu mövzunun ən dərin qatlarına enmək imkanı verir – çünki burada söhbət təkcə dövlətlərdən yox, "tarixi yaddaşdan və mənəvi davamlılıqdan" gedir. Bu baxışı üç mərhələdə düşünmək olar:

1. Köklər: Türk varlığının fəlsəfi mənbəyi.Türk dünyasının gələcəyini anlamaq üçün əvvəlcə onun mənəvi başlanğıcına qayıtmaq lazımdır. Türk mədəniyyəti tarixən "təbii harmoniya", "insan və kainat birliyi" və "əxlaqi bütövlük" anlayışları üzərində qurulub. Orhun-Yenisey yazılarında, Dədə Qorqud dastanlarında və İslamdan sonrakı sufi ədəbiyyatında bu fikir aydın görünür:"İnsan öz mənini dərk etdikcə Tanrıya yaxınlaşar." Bu fəlsəfi xətt türkün dünyagötüşündə "varlıqla harmoniya" anlayışını doğurub. Gələcəyin Türk dünyası, fikrimizcə, məhz bu qədim anlayışı müasir formada yenidən şərh etməklə öz kimliyini qoruyacaq.

2. Kimlik: Qloballaşma dövründə türk ruhunun intibahı. Müasir dövrdə qloballaşma insanı kökündən uzaqlaşdırır – dillər, inanclar, adətlər getdikcə eyniləşir. Lakin Türk dünyasının gələcəyi bu eyniləşməyə qarşı "mənəvi müqavimət" kimi formalaşa bilər. Bu müqavimət qapalı milli təəssüb deyil, əksinə, "öz kökünə söykənib bəşəri dəyərləri daşımaq" qabiliyyətidir. Əgər gələcəyin türk nəsli bu anlayışları "rəqəmsal və texnoloji məkanda" yaşada bilsə, türklük sadəcə etnik yox, "mənəvi mədəniyyət modeli" kimi qəbul ediləcək.Bunun üçün qloballaşmanın deyil, qlokallaşmanın parametrlərinə diqqət yönəldilməli, milli-mənəvi dəyərlər, əxlaqı sərvətlər qorunub saxlanmalıdır.

3.Gələcək: Mədəniyyətin yenilənməsi və "birlik fəlsəfəsi". Türk dünyasının gələcəyi "birlik fəlsəfəsi" üzərində qurula bilər. Bu birlik təkcə siyasi və iqtisadi deyil, "mənəvi və simvolik birlikdir". Müxtəlif türk xalqları arasında sevgi və anlayışın fəlsəfi təməli daha da dərinləşə bilər.

Gələcəyin türk mədəni fəlsəfəsinin reallaşması üçün böyük səylər göstərilməlidir. Bu fəlsəfə üç prinsiplə ifadə oluna bilər:1. Təbiətlə harmoniya – qədim türk düşüncəsindəki "Göy, Yer, İnsan balansının yenidən qurulması.2. Mənəvi texnologiya – elmi tərəqqinin mənəvi məsuliyyətlə birləşdirilməsi.3. Birlikdə fərqlilik – hər türk xalqının öz xüsusiyyətini qoruyaraq ortaq mənəvi dili bölüşməsi. Türk dünyasının gələcəyi sadəcə "birlik" layihəsi deyil – insanın mənəvi bütövlüyünə qayıdış layihəsidir.

Son illərdə Türk birliyi ideyasının reallaşması yolunda ciddi irəliləyişlər vardır. Türk xalqlarının bir-birlərini daha yaxından tanıması, ortaq köklərə qayıdış səbəbindən gələcəyin birgə inşası düşüncəsi artmaqdadır. Eyni zamanda, Türk elm adamlarının qatıldığı konfransların, simpoziumların keçirilməsi, texnologiyanın inkişafı, özəlliklə də Türk dövlətləri arasında siyasi, iqtisadi, mədəni və hərbi əməkdaşlıqların güclənməsi bu istiqamətdə mühüm rol oynamışdır. Türk birliyinin yaradılmasına gəldikdə, bu ideyanın reallaşması istiqamətində müxtəlif fərqli fikirlərdən ortaq nəticəyə gəlməyə çox az qalmışdır. Başqa sözlə, biz türklər, mövcud istər müstəqil, istərsə də yarımmüstəqil Türk dövlətlərinin vahid siyasi birliyinin yaranması istiqamətində çox böyük bir məsafə qət etmişik. Həmçinin, Türk birlyinə gedən yolda Türk xalqlarının özünə inamı da bərpa olunmağa başlanmışdır [2].

Nəticə

Gələcəkdə türklük coğrafi sərhədləri aşan, mənəvi və etik bir dəyərlər sistemi kimi mövcud ola bilər. Türk dünyasının gələcəyi həm siyasi, həm mədəni, həm də texnoloji baxımdan çoxşaxəli bir mövzudur. Bu gələcək üç əsas istiqamətdə formalaşa bilər:

1. İqtisadi və geosiyasi inteqrasiya. Türk dövlətləri son illərdə getdikcə daha çox əməkdaşlıq etməyə başlayıblar – xüsusilə Türk Dövlətləri Təşkilatı (TDT) bu baxımdan mühüm bir addımdır. Əgər bu əməkdaşlıq iqtisadi və təhlükəsizlik sahələrində də dərinləşsə, gələcəkdə "Türk Birliyi" konsepsiyası real siyasi gücə çevrilə bilər.Bu həm enerji resurslarının paylaşılması, həm də Orta Dəhliz vasitəsilə Asiya və Avropa arasında strateji körpü rolunu gücləndirər.

2.Mədəni və dil birliyi. Türk dünyasının gələcəyi, "mədəni inteqrasiya"nın gücündən asılı olacaq. Ortaq dil siyasətləri, təhsil mübadilələri, ortaq media platformaları (məsələn, TRT Avaz, Türkvizyon kimi layihələr) türklər arasında anlayış və birliyi artırır. Əgər ortaq əlifba və terminologiya möhkəmlənərsə, gələcəkdə bir "Türk mədəni məkanı" yarana bilər.

3.Elm, texnologiya və gənclik amili. Türk dövlətlərinin çoxu gənc əhalisi olan ölkələrdir. Əgər bu gənclər süni intellekt, biotexnologiya, yaşıl enerji kimi sahələrdə birgə layihələr qursa, Türk dünyası sadəcə keçmişə deyil, gələcəyə də istiqamət verən bir güc mərkəzinə çevrilə bilər. Bu, həm də "mənəvi güc"lə "elmi güc"ün birləşməsi demək olar – yəni, türk düşüncəsinin müasir formada dirçəlişi yaranar.

İstifadə olunmuş ədəbiyyat

1. Er Mehmet S. Heydər Əliyev və türk dünyası// https://turkpa.org/article/465
2. Ələkbərli F. Turk birliyi ideyasindan turk dovletleriteskilatlarina dogru// https://fuyuzat.az/
3. Cəfərov N. Türk dünyasının multikulturalizmi.//https://scara.gov.az/az/xeberler/print/turk-dunyasinin-multikulturalizmi
4. Hacılı T. Türk Dünyasının Zirvədən Zirvəyə uzanan yolları //www.moderator.az
5. Zərrabqızı X.Türk dünyasının mənəvi sərvəti. https://modern.az/news/455717/

Mehmonaliyev Ulug'bek Erkinjon o'g'li
Xalqaro turizm va iqtisodiyot kafedrasi katta o'qituvçisi,
Qo'qon universiteti, O'zbekiston

Turkiy davlatlarda Buyuk Ipak yo'li merosi asosida madaniy turizm klasterlarini rivojlantirişniñ innovatsion mexanizmlari

Annotatsiya

Uşbu maqolada turkiy davlatlarda Buyuk Ipak yo‘li merosiga asoslañan madaniy turizm klasterlarini rivojlantirişniñ innovatsion mexanizmlari tahlil qilinadi. Tadqiqotda turkiy mamlakatlar o‘rtasidagi tarixiy, madaniy va iqtisodiy hamkorlik orqali yagona turizm brendini şakllantiriş imkoniyatlari yoritilib, marketiñ kommunikatsiyalariniñ roli, raqamli texnologiyalarni qo‘llaş hamda institutsional integratsiya jarayonlariga alohida e’tibor qaratiladi. Tadqiqot natijalari Buyuk Ipak yo‘li merosi turkiy xalqlarni birlaştiruvçi strategik resurs sifatida xizmat qilişini hamda ularniñ global turizm bozoridagi raqobatbardoşligini oşirişini ko‘rsatadi.

Kalit so‘zlar: Buyuk Ipak yo‘li, madaniy turizm, turkiy davlatlar, brend integratsiyasi, raqamli kommunikatsiya, barqaror rivojlaniş.

Mehmonaliyev Ulug‘bek Erkinjon o‘g‘li
Senior Lecturer, Department of International Tourism and Economics, Kokand University, Uzbekistan

Innovative Mechanisms for the Development of Cultural Tourism Clusters Based on the Great Silk Road Heritage in Turkic States

Abstract

This article analyzes the innovative mechanisms for developing cultural tourism clusters based on the Great Silk Road heritage in Turkic states. The study highlights the opportunities for creating a unified tourism brand through historical, cultural, and economic cooperation among Turkic countries, emphasizing the role of marketing communications, the application of digital technologies, and institutional integration processes. The findings indicate that the Great Silk Road heritage serves as a strategic resource uniting Turkic peoples, enhancing their competitiveness in the global tourism market.

Keywords: Great Silk Road, cultural tourism, Turkic states, brand integration, digital communication, sustainable development.

Kiriş

Buguñi globallaşuv şaroitida madaniy turizm nafaqat iqtisodiy foyda keltiruvçi tarmoq, balki mamlakatlar o‘rtasida diplomatik, ijtimoiy va ma’naviy aloqalarni mustahkamlovçi kuçli vositaga aylandi. Ayniqsa, Turkiy davlatlar — O‘zbekiston, Turkiya, Ozarbayjon, Qozog‘iston, Turkmaniston va Qirg‘iziston — uçun bu yo‘naliş umumiy tarixiy ildizlar, madaniy meros va til birligi asosida yañi integratsion imkoniyatlar yaratmoqda. Buyuk Ipak yo‘li merosi bu davlatlar uçun turizm sohasida o‘ziga xos strategik kapital hisoblanadi. Samarqand, Buxoro, Şuşa, Turkiston, Konya kabi şaharlar qadimiy sivilizatsiya markazlari sifatida yagona madaniy brendniñ asosi bo‘lişi mumkin. Şuniñ uçun ham Buyuk Ipak yo‘li konsepsiyasi asosida madaniy turizm klasterlarini şakllantiriş va ularni global brend darajasiga olib çiqiş masalasi dolzarb ahamiyat kasb etmoqda.

Adabiyotlar tahlili

So‘ñgi yillarda xalqaro miqyosda madaniy turizmni rivojlantiriş va brendlaş masalalari keñ o‘rganilmoqda. Porter M. (2017) o‘ziniñ “The Competitive Advantage of Nations” asarida hududiy raqobat ustunligini madaniy qadriyatlar bilan uyg‘unlaştiriş zarurligini ta’kidlaydi. UNESCO (2022) hisobotida esa madaniy merosniñ turizmda foydalanilişi barqaror rivojlaniş maqsadlari bilan uyg‘unlaştirilişi lozimligi ko‘rsatib o‘tilgan. O‘zbekiston, Qozog‘iston va Turkiya tajribasiga ko‘ra, milliy turizm brendini yaratişda tarixiy meros va zamonaviy raqamli marketiñ yondaşuvlarini birlaştiriş muhim ahamiyat kasb etadi. Masalan, Turkiyaniñ “Go Türkiye” kampaniyasi, O‘zbekistonniñ “Heart of the Silk Road” konsepsiyasi va Qozog‘istonniñ “Great Steppe” loyihalari bu borada muvaffaqiyatli amaliyotlardir.

Tadqiqot metodologiyasi

Tadqiqotda tizimli, taqqoslovçi va kontent-tahlil yondaşuvlari qo‘llanildi. Ma’lumot manbalari sifatida UNESCO, UNWTO statistik bazalari, turkiy davlatlar turizm strategiyalari hamda rasmiy marketiñ portallari tahlil qilindi. Şuniñdek, Turkiya, Ozarbayjon va O‘zbekiston tajribalari asosida keys-stadi (case study) metodi qo‘llanilib, ularniñ brend strategiyalariniñ o‘xşaş va farqli jihatlari aniqlañan.

Tahlil va natijalar

O‘tkazilgan tahlillar şuni ko‘rsatadiki, Buyuk Ipak yo‘li yo‘nalişida joylaşgan turkiy davlatlarniñ madaniy turizm klasterlari iqtisodiy, ijtimoiy va madaniy jihatdan o‘zaro bog‘liq bo‘lgan uçta asosiy omil orqali rivojlanmoqda. Ular — tarixiy-madaniy asos, raqamli kommunikatsiyalar va innovatsiyalar, hamda institutsional hamkorlik omillaridir.

1. Tarixiy-madaniy asos

Buyuk Ipak yo‘li nafaqat qadimiy savdo yo‘li, balki sivilizatsiyalararo madaniy almaşinuvniñ yadro nuqtasi sifatida insoniyat tarixida beqiyos o‘rin tutadi. Turkiy davlatlarniñ hududida joylaşgan bu yo‘naliş o‘zaro tarixiy ildizlar, diniy, ma’naviy va urf-odatlar muştarakligi bilan çambarças bog‘lañan. Buguñi kunda bu omillar madaniy turizmniñ asosiy brend unsurlari sifatida namoyon bo‘lmoqda.

Me’moriy obidalar (masalan, Samarqanddagi Registon majmuasi, Buxorodagi Ark qal’asi, Turkistondagi Xoja Ahmad Yassaviy maqbarasi, Kappadokiyadagi qadimiy g‘or şaharlar), milliy bayramlar (Navro‘z, Qurt oşi, Sabantuy), xalq og‘zaki ijodi namunalariniñ qayta tiklanişi madaniy turizm mahsulotlariniñ noyob, o‘ziga xos va jozibali jihatlarini belgilab bermoqda. Şu sababli, tarixiy-madaniy asos Buyuk Ipak yo‘li merosiga tayanib, turkiy xalqlarniñ madaniy birdamligini mustahkamlaşga, o‘z milliy qadriyatlarini zamonaviy turizm orqali global maydonda targ‘ib etişga xizmat qilmoqda.

Bu jarayonda madaniy identifikatsiya omili muhim ahamiyat kasb etadi. Turistlar nafaqat tarixiy joylarni ziyorat qiliş, balki turkiy xalqlar hayoti, urf-odatlari, hunarmandçiligi va milliy oşxonasi bilan yaqindan tanişiş orqali haqiqiy “tajriba turizmi”ni boşdan keçiriş imkoniyatiga ega bo‘ladilar. Şu jihatdan, tarixiy-madaniy omil turizmni nafaqat iqtisodiy faoliyat, balki madaniy diplomatiya va xalqaro aloqalar vositasiga aylantiradi.

2. Raqamli kommunikatsiyalar va innovatsiyalar

Zamonaviy global turizm bozorida raqamli texnologiyalar madaniy brendlarni yaratiş va targ‘ib etişda asosiy vositaga aylanmoqda. Turkiy davlatlar bu yo‘nalişda “Digital Silk Road” konsepsiyasi doirasida raqamli kommunikatsiyalarni integratsiya qilgan holda madaniy turizmni rivojlantirişga intilmoqda.

Virtual muzeylar, 3D ekskursiyalar, mobil ilovalar, sun’iy intellekt asosida işlovçi tarjimonlar, blokçeyn orqali çipta tizimlari, hamda raqamli marketiñ kampaniyalari madaniy obyektlarniñ global miqyosda tanilişiga sezilarli hissa qo‘şmoqda. Ayniqsa, TURKSOY va TDT taşabbuslari doirasida yaratilgan yagona raqamli platformalar orqali “Turkic Heritage Route” nomli virtual marşrutlar yaratiş, turistik axborotni yagona ma’lumot bazasida jamlaş amaliyoti şakllanmoqda.

Raqamli kommunikatsiya infratuzilmasiniñ rivojlanişi nafaqat turizmni ommalaştiradi, balki milliy brendlarni xalqaro bozorda tanitiş, madaniy diplomatiya imkoniyatlarini keñaytiriş va yoş avlod orasida tarixiy merosni qiziqarli şaklda targ‘ib etiş imkonini beradi. Şu tariqa, raqamli innovatsiyalar madaniy merosni “jonlantiriş” va global auditoriyaga yetkazişda samarali mexanizmga aylanmoqda.

3. Institutsional hamkorlik

Madaniy turizm rivojida xalqaro va mintaqaviy hamkorlik institutlariniñ roli beqiyosdir. Buguñi kunda Turkiy davlatlar taşkiloti (TDT), TURKSOY, UNWTO, ISESCO, TIKA kabi taşkilotlar tomonidan turizm diplomatiyasini mustahkamlaş, qo‘şma tadbirlar va festivallar o‘tkaziş, ilmiy-tadqiqot va ta’lim almaşuv dasturlarini yo‘lga qo‘yiş bo‘yiça samarali taşabbuslar amalga oşirilmoqda.

Masalan, TDT doirasida “Turkic Tourism Year” dasturi, TURKSOY taşabbusi bilan “Madaniyat poytaxti” konsepsiyasi va UNWTO bilan hamkorlikda o‘tkazilayotgan “Silk Road Tourism Forum” tadbirlari madaniy integratsiya jarayonlarini yanada jadallaştirmoqda. Bu nafaqat turizmni rivojlantiriş, balki yumşoq kuç (soft power) mexanizmlarini kuçaytiriş, ya’ni turkiy davlatlarni xalqaro maydonda madaniy jihatdan jozibali va ijobiy imijga ega mintaqa sifatida namoyon etiş imkonini beradi.

Integratsion madaniy turizm modeli

Yuqoridagi omillar negizida işlab çiqilgan “Integratsion madaniy turizm modeli” o‘zaro bog‘liq uçta asosiy blokdan iborat:

Tarixiy-meros bloki – turkiy xalqlarniñ umumiy tarixiy ildizlari, me’moriy meros, an’analar va qadriyatlarni yagona konseptual brend ostida birlaştiradi.

Raqamli-kommunikativ blok – madaniy merosni global axborot makonida targ‘ib etuvçi raqamli platformalar, virtual turlar, ijtimoiy tarmoqlar va raqamli marketiñ mexanizmlarini o‘z içiga oladi.

Institutsional hamkorlik bloki – xalqaro taşkilotlar, hukumatlar va nodavlat subyektlar o‘rtasidagi hamkorlikni muvofiqlaştiradi, turizm diplomatiyasini qo‘llab-quvvatlaydi va kadrlar tayyorlaş tizimini takomillaştiradi.

Mazkur model madaniy birdamlikni mustahkamlaş, turkiy xalqlar o‘rtasida o‘zaro işonçni oşiriş, va Buyuk Ipak yo‘li merosini zamonaviy global turizm brendi sifatida şakllantirişga xizmat qiladi. Şu bilan birga, u turkiy davlatlarniñ xalqaro maydondagi madaniy “yumşoq kuç” salohiyatini oşirişda ham muhim strategik ahamiyat kasb etadi.

Xulosa va takliflar

Tadqiqot natijalari şuni ko‘rsatadiki, Turkiy davlatlar uçun Buyuk Ipak yo‘li merosiga asoslañan madaniy turizm klasterlari:

- -tarixiy merosni saqlagan holda uni tijoratlaştiriş imkonini beradi;
- -raqamli kommunikatsiyalar orqali brend işonçliligini oşiradi;
- -xalqaro hamkorlikni mustahkamlaydi;
- -yoşlar va jamoalarniñ iştirokini keñaytiradi.

Şu bois, quyidagi takliflar ilgari suriladi:

- Turkiy davlatlar o‘rtasida yagona “Silk Road Heritage” brendini yaratiş;
- TURKSOY doirasida raqamli madaniy portal taşkil etiş;
- Har yili “Turkic Cultural Tourism Week” tadbirlarini o‘tkaziş;
- Turizm diplomatiyasi yo‘nalişida yoş mutaxassislarni tayyorlaş dasturlarini keñaytiriş.

Adabiyotlar:

1. Porter M. The Competitive Advantage of Nations. – London, 2017.
2. UNESCO. World Heritage and Sustainable Tourism Programme. – Paris, 2022.
3. UNWTO. Tourism Highlights 2023 Edition. – Madrid, 2023.
4. Aliyeva S. Cultural Heritage Branding in Kazakhstan and Uzbekistan. – Baku, 2021.
5. Yuldaşeva G. Turizm va madaniy integratsiya muammolari. – Toshkent: Fan, 2020.
6. Karimov D. Raqamli turizm marketingi asoslari. – Samarqand, 2022.

UOT -719

Əzimova Lalə Füzuli qızı
Azərbaycan Memarlıq və İnşaat Universiteti
“Memarlıq layihələndirilməsi və şəhərsalma”
kaferdrasının müəllimi
Tel: +994 10 453 85 85
e-mail: Azimovalala1907@gmail.com

ORCID: 0000-0002-7218-9880

Şuşa -türk xalqlarının mədəni inteqrasiyanın mərkəzi kimi: rekreasiya və kurort potensialı

Xülasə. *Məqalənin məqsədi* Şuşa şəhərinin mədəni inteqrasiya kontekstində onun rekreasiya və kurort potensialını təhlil etməkdir. *Problemin aktuallığı* ondan ibarətdir ki, Şuşa şəhərinin bərpası və inkişafı yalnız tarixi ədalətin bərpası deyil, həm də Azərbaycan mədəniyyətinin, turizminin və kurort sahəsinin yeni mərhələyə keçidi üçün zəmin yaradır. Lakin bu istiqamətdə uğurlu nəticələr əldə etmək üçün şəhərin rekreasiya və kurort potensialının elmi əsaslarla qiymətləndirilməsi, mədəni inteqrasiya funksiyasının müasir tələblərə uyğun şəkildə təşkili vacibdir.

Şuşa şəhəri XVIII–XIX əsrlərdə Cənubi Qafqazın mühüm ticarət mərkəzlərindən birinə çevrilmişdir. Bu inkişaf, şəhərin İran, Türkiyə və Rusiya arasında tranzit yolların kəsişməsində yerləşməsi ilə bağlı idi. Bu dövrdə Qafqaz, İran, Türkiyə, Rusiya, Hindistan və İraq kimi müxtəlif ölkələrdən olan tacirlər Şuşaya üz tutaraq buranı ticarət və istirahət üçün əlverişli məkan kimi seçirdilər. Karvansaralar tacirlərin müvəqqəti məskunlaşması və istirahəti üçün əsas məkan idi. Karvansaralar həmin dövrün mehmanxana funksiyasını yerinə yetirərdilər.

Sovet dövründə şuşanın kurort potensialı onu ümumittifaq kurortuna çevirmişdi. Burada genişmiqyası islahatlar aparılmışdır. Yeni sanatoriyalar, istirahət evləri, düşərgələr inşa edilib istifadəyə verilmişdi. Şəhər su, qaz, kanalizasiya sistemi ilə təchiz olunmuşdur. Özünə məxsus Şərq memarlıq üslubunda tikilmiş məsçidlər, karvansaralar, Şərq və Qərbin memarlıq ənənələrundə mülk binaları və yaşayış evləri, sovet sosializmi memarlıq ənənələrini özündə əks etdirən sanatoriya və ictimai-mədəniyyət evləri şəhərin təbii lanşaftının sintezilə vəhdətdə Suşanın memarlıq siması formalaşdırmışdı. Eləcə də, Şirlan, Turşsu bulaqlarının müalicəvi xüsusiyyətləri Şuşanı daha da məhşurlaşdırmışdı.

1992-ci ildən etibarən Şuşa şəhərinin erməni işğalı altında qalması nəticəsində onun infrastrukturu məhf olmuşdu. 2020-ci ildə Şuşa Azərbaycan ordusu tərəfindən azad olunduqdan sonra burada müxtəlif mədəni və siyasi tədbirlər keçirildi. Turist marşrutları təşkil olundu. Şuşanın dirçəlməsi və yenidən öz keçmiş kurort şəhər infrastukturun qurulması üçün məqalədə təqdim olunan araşdırmalar əhəmiyyət kəsb edir.

Şuşa şəhərinin müxtəlif dövrlərinədə mədəniyət mərkəzi kimi çıxış etməsinə təkan vermiş amillər, rekreasiya və kurort potensialı təhlil edilmişdir. Məqalənin *elmi yeniliyi* Şuşa şəhərinin rekreasiya və kurort potensialının Yeni İpək Yolu çərçivəsində beynəlxalq mədəniyyət mərkəzi kimi sistemli şəkildə araşdırılmasından ibarətdir. Tədqiqat müasir dövrün qlobal çağırışları fonunda aparılaraq, Şuşanın mədəni-mənəvi irsini regional və qlobal inteqrasiya prosesləri ilə əlaqələndirir.

Açar sözlər: Şuşa mədəniyyət mərkəzi, kurort infrastrukturu, balneoloji kurort, istirahət, mədəni inteqrasiya

Lala Azimova
Azerbaijan University of Architecture and Construction
"Architectural Planning and Urban Development" teacher

Shusha as a Center of Turkish Cultural Integration: Recreation and Resort Potential

Abstract. The purpose of the article is to analyze the recreational and resort potential of the city of Shusha in the context of cultural integration. The relevance of the problem lies in the fact that the restoration and development of Shusha is not only the restoration of historical justice but also creates a foundation for a new stage in the advancement of Azerbaijani culture, tourism, and the resort sector. However, to achieve successful results in this direction, it is essential to scientifically assess the city's recreational and resort potential and organize its cultural integration functions in accordance with modern requirements.

In the 18th–19th centuries, the city of Shusha became one of the major trade centers of the South Caucasus. This development was associated with its strategic location at the crossroads of

transit routes connecting Iran, Turkey, and Russia. During this period, merchants from various countries such as the Caucasus, Iran, Turkey, Russia, India, and Iraq were drawn to Shusha, choosing it as a favorable place for trade and recreation. Caravanserais served as the main places for merchants' temporary accommodation and rest, functioning as the hotels of that era.

During the Soviet period, Shusha's resort potential transformed it into an all-Union health resort. Large-scale reforms were carried out—new sanatoriums, rest houses, and camps were built and put into operation. The city was equipped with water, gas, and sewage systems. Mosques and caravanserais built in the unique Eastern architectural style, residential and public buildings reflecting both Eastern and Western architectural traditions, as well as sanatoriums and cultural centers representing Soviet socialist architecture, collectively shaped Shusha's architectural image in harmony with its natural landscape. The healing properties of mineral springs such as Shırlan and Turshsu further enhanced Shusha's fame.

Following the Armenian occupation of Shusha in 1992, the city's infrastructure was destroyed. After Shusha's liberation by the Azerbaijani army in 2020, various cultural and political events were held there, and tourist routes were established. The studies presented in the article are significant for the revival of Shusha and the restoration of its former resort city infrastructure.

The article analyzes the factors that contributed to Shusha's emergence as a cultural center in different historical periods, as well as its recreational and resort potential. The scientific novelty of the research lies in the systematic study of Shusha's recreational and resort potential within the framework of the New Silk Road, positioning it as an international cultural center. The study is conducted in the context of contemporary global challenges, linking Shusha's cultural and spiritual heritage with regional and global integration processes.

Keywords: Shusha cultural center, resort infrastructure, balneological resort, recreation, cultural integration.

Giriş. *Problemin aktuallığı* ondan ibarətdir ki, Şuşa şəhərinin kurort rekreasiya potensialının öyrənilməsi poskonflikt dövründə onun dirçəlişi, yenidən kurort şəhər kimi bərpası və turizmin sahəsinin yeni inkişaf mərhələsinə keçidi üçün zəmin yaradır. Lakin bu istiqamətdə uğurlu nəticələr əldə etmək üçün şəhərin rekreasiya və kurort potensialının elmi əsaslarla qiymətləndirilməsi, mədəni inteqrasiya funksiyasının müasir tələblərə uyğun şəkildə təşkili vacibdir.

Tədqiqatın əsas məqsədi — Şuşa şəhərinin mədəni inteqrasiya mərkəzi kimi rolunu elmi əsaslarla təhlil etmək, onun rekreasiya və kurort potensialını üzə çıxarmaq, mədəniyyətlərarası dayanıqlı inkişaf istiqamətlərini müəyyənləşdirməkdir.

İşlənmə dərəcəsi. Şuşa şəhərinin tarixi, mədəni və sosial inkişafı müxtəlif dövrlərdə tədqiqatçıların diqqət mərkəzində olmuşdur. Lakin son illərə qədər Şuşanın mədəni inteqrasiya mərkəzi kimi rolu və rekreasiya–kurort potensialı istiqamətində aparılmış kompleks elmi araşdırmalar məhdud xarakter daşıyırdı. Son dövrdə bu mövzuda həm elmi, həm də publisistik mənbələrin sayı artmış, yeni yanaşmalar formalaşmağa başlamışdır. İstifadə olunan ədəbiyyatların analizi göstərir ki, Şuşanın tarixi, mədəni və memarlıq irsi kifayət qədər öyrənilmiş olsa da, onun mədəni inteqrasiya mərkəzi kimi rolu**,** rekreasiya və kurort potensialının sistemli elmi qiymətləndirilməsi**,** həmçinin bu potensialın dayanıqlı inkişaf modelləri hələlik tam şəkildə araşdırılmamışdır. Bu baxımdan təqdim olunan tədqiqat mövcud elmi boşluğu doldurmağa və Şuşanın gələcək mədəni-turizm inkişafına elmi əsas gətirməyə yönəlmişdir.

Elmi yeniliyi. Bu tədqiqat işinin elmi yeniliyi Şuşa şəhərinin mədəni inteqrasiya mərkəzi kimi funksiyasının və onun rekreasiya–kurort potensialının kompleks şəkildə ilk dəfə elmi-nəzəri əsasda təhlil olunması ilə müəyyən edilir.

Əsas mətn. Şuşa şəhəri XVIII–XIX əsrlərdə Cənubi Qafqazın mühüm ticarət mərkəzlərindən birinə çevrilmişdir. Bu inkişaf, şəhərin İran, Türkiyə və Rusiya arasında tranzit yolların kəsişməsində yerləşməsi ilə bağlı idi. Müxtəlif ölkələrdən – Qafqaz, İran, Türkiyə, Rusiya, Hindistan və İraqdan gələn tacirlər Şuşanı dayaq məntəqəsi kimi seçərək, burada yerləşən

karvansaralarda qonaqlayırdılar. Şəhərin nüfuzu, xüsusilə XVIII əsrin ikinci yarısından etibarən Təbriz və Yaxın Şərq şəhərləri ilə əlaqə yaradan, meşəlikdən keçən qısa karvan yolu sayəsində daha da artmışdı. Bu yol Araz çayı üzərindəki kiçik körpünün adı ilə "Molla Nəsrəddin yolu" kimi tanınırdı. Şuşa tacirləri yerli istehsal olan Qarabağ xalçaları, ipək və ipək məmulatlarını Təbriz, Tehran, İsfahan, Moskva və Avropanın bir sıra şəhərlərinə – Leypsiq, London, Marsel, Mançesterə ixrac edirdilər [1, s.138].

Şəhərin ticarət infrastrukturu əsasən Rasta bazarından başlayaraq, Meydan ərazisini keçən Hacı Əmiraslan karvansarasından cənuba doğru uzanaraq Aşağı Şeytan bazarına qədər yayılmışdır. Tarixi mənbələrə görə, bu bazar sahəsinə şimaldan iki dördkünc meydan yaxınlaşırdı ki, onlardan biri – Qapan meydanı – əsasən dükanların yerləşdiyi məkan kimi tanınırdı. Rasta, Şeytan və Aşağı bazarlar Şuşanın mərkəzi memarlıq-planlaşdırma strukturunun əsas ticarət qovşaqlarını təşkil edirdi. Bu ticarət məkanları geniş küçələri, sal daşlarla döşənmiş yolları və hər iki tərəfdə sıralanmış dükanları ilə şəhərin digər hissələrindən seçilirdi. Küçələrin kənarlarında yalnız ticarət obyektləri deyil, həm də müxtəlif əl sənətkarlığı emalatxanaları fəaliyyət göstərirdi ki, bu da Şuşanın iqtisadi və mədəni həyatına xüsusi rəng qatırdı [2, s. 186]. Yeri gəlmişkən, deyək ki Hacı Əmiraslan bəyin karvansarasının yerində XIX əsrin 80-ci illərində, Şuşanın məşhur memarı Kərbəlayi Səfıxan Qarabağı, Məşədi Şükür Mirsəyyaf oğlunun yeni ikimərtəbəli karvansara inşa etdi. İkinci mərtəbədə qonaqlar üçün 25 otaq, digər hissəsində isə bir neçə tacir kontoru və 30 yaxın müxtəlif dükanlar yerləşirdi. Avropa mehmanxanalarında olduğu kimi qonaqlara dərzilər, papaqçılar, bərbərlər və çəkməçilər xidmət göstərirdilər. Yeni karvansaranın fərqləndirici cəhəti onun ikinci mərtəbəsində yerləşən, təxminən 9x8 metr ölçüsündə ibadət zalından ibarət məscidin mövcudluğu idi. Zamanla burada qalmaq üçün yerlərə olan tələbat əlavə ikimərtəbəli binanın inşasına ehtiyac yaratdı - ikinci mərtəbəsi qonaqlama otaqları üçün nəzərdə tutulmuşdu, birinci mərtəbədə isə müxtəlif ticarət mağazaları fəaliyyət göstərirdi. Sovet dövründə bu karvansara öz ilkin funksiyasını dəyişərək ticarət kompleksinə çevrildi və yeni iqtisadi sistemə uyğunlaşdırıldı [1, s.117].

Şuşalılar asudə vaxtlarını buradakı qəhvəxana və aşxanalarda keçirirdilər. İstirahət üçün şəhərin kənarlarında meşəliyin əhatəsində olan bulaq başında - İsa bulağı, Daşaltı, Səkili bulağı, Turşsu, Dəvəbatıran, Fındıqlı göl və s. axışırdılar [1, s.164]. Əsas istirahət yeri - Cıdır düzü Şuşanın şərqində kiçik bir yüksəklikdə yerləşir və buranın ən gözəl guşələrindən biridir. Eynizamanda bir neçə funksiya yerinə yetirən bu məkan, müasir anlayışda o dövrün ippodromu, stadionu, konsert meydançası sayılırdı. Burada musiqi sədaları altında kəndirbazlar, oyunbazlar, pəhlivanlar tamaşalar göstərirdilər, at yarışları və çovqan oyunu (müasir polo) keçirdirdilər. Xarici səfirlərin gəlişiləri zaman təmtəraqlı şah və xan qonaqlıqları da bu oyunla yekunlaşırdı [1, s.167-168].

Əlverişli coğrafi mövqeyi, iqlim şəraiti və özünəməxsus memarlıq siması və mədəniyyət evləri Şuşanı yerli və turistlər üçün cəlbedici edirdi. 1912-ci ildə “Kaspi” qəzeti yazırdı ki, yay aylarında şəhərə qayıdan müəllimlər, tələbələr və bəylər Şuşanı canlandırır, Avropa üslubunda bulvarda gəzintilər edirdilər. Burada teatr, klub, restoran və otellər yerləşirdi [9] (Şək 1).




Şək 1. Şuşa. Ümumi görünüş XIX əsr.

Jala Ismayilova Musa gizi.
PhD in History, Baku Eurasian University,
Lecturer at the Azerbaijan University of Architecture and Construction**.**

Formation of the Common Turkic History Concept: National Identity, Historical Memory, and the Creation of a Unified Cultural Space

Abstract

The aim of this article is to conduct an in-depth analysis of the scientific foundations, methodological principles, and practical directions for developing a common history project in the Turkic world, while systematically evaluating its role in shaping national identity and historical memory. The study employs historical-analytical, comparative, and cross-cultural methods, taking into account cultural, political, and social historical perspectives.

The article examines the ethnogenesis of Turkic peoples, the Steppe Empires, and the medieval states of the Oghuz, Uyghur, Kipchak, Karakhanid, Ghaznavid, Seljuk, Baharlu, Ayandurlu, Safavid, and Ottoman periods, as well as the historical integration of modern Turkic states, providing comparative analyses across different eras. The study also emphasizes the protection of historical data from

ideological and cultural distortions, the formation of historical consciousness, and the strengthening of national identity.

It is highlighted that the common history project is not only important for scientific collaboration but also strategically significant for preserving and developing the cultural, linguistic, and historical connections among Turkic peoples, as well as for fostering younger generations' attachment to their national and cultural heritage. The scientific novelty of the article lies in applying a unified methodological framework, prioritizing objective scientific principles in systematizing historical data, and simultaneously integrating educational, cultural diplomacy, and geopolitical perspectives.

In particular, the transformation of Turan ideology from a theoretical concept into a practical political and cultural force is scientifically analyzed. The article also presents practical recommendations and coordination mechanisms for forming a unified Turkic cultural space.

At the end of the 19th and the beginning of the 20th centuries, Turkic peoples lived under the occupation of the Russian Empire, making the preservation of their national identity and the formation of historical consciousness a key strategic issue. During this period, cultural and political pressures intensified in Azerbaijan, Kazakhstan, Kyrgyzstan, Tatarstan, and other Turkic regions, and the protection of religious and national values faced serious challenges. The assimilation policies of the Russian Empire increased the necessity for Turkic-Muslim communities to maintain their national identity and safeguard their historical heritage.

In this context, the ideology of national unity and Turkic-Muslim congresses played a crucial role. The revolutionary processes in Russia in 1905 provided new opportunities for Turkic-Muslim intellectuals to engage in social and political activities. The first congresses organized in Tatarstan under the initiative of Ismail Gasprinsky, gatherings led by Alikhan Bukeikhanov in Kazakhstan, and the activities of Mammad Amin Rasulzadeh and Mirza Fatali Akhundov in the Azerbaijani territories were decisive in strengthening national consciousness and preserving the shared Turkic cultural heritage. For instance, the Turkic-Muslim congresses held in Baku and Ganja in 1905–1906 focused on modernizing the education system, safeguarding national culture, and defending political rights. Intellectuals and participants at these congresses, as well as articles published in newspapers and journals, emphasized the importance of unity among Turkic peoples.

The concept of a common Turkic history allows these events to be analyzed from a unified perspective. The congresses, organizations, and press during the period of Russian occupation contributed to the consolidation of historical consciousness. Newspapers such as *Tövləvü* and *Yenisey* in Tatarstan, and *Həyat* and *Molla Nəsrəddin* in Azerbaijan, served to promote Turkic-Muslim national ideas. Today, these materials are used as primary sources in the preparation of unified textbooks and curricula, as well as in common Turkic history projects.

Consequently, the project is considered a strategic initiative for the Turkic world, contributing to the unification of historical consciousness, strengthening national identity and cultural heritage among younger generations, and fostering long-term scientific and cultural cooperation among Turkic peoples.

Keywords: Turkic peoples, common history, national identity, historical memory, cultural space, integration, TDT.

GİRİŞ

XXI əsrdə türk dövlətləri və türk mənşəli etnik qruplar arasında inteqrasiya prosesi sürətlə dərinləşir və daha sistemli xarakter alır. Bu proses həm siyasi, həm iqtisadi, həm də humanitar sahələrdə özünü göstərir. Siyasi sahədə Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və digər türk dövlətlərinin birgə fəaliyyət göstərdiyi Türk Dövlətləri Təşkilatı (TDT) inteqrasiyanın əsas platformalarından biridir. TDT-nin qəbul etdiyi qərarlar, birgə sammitlər və əməkdaşlıq memorandumu türk dövlətləri arasında siyasi və iqtisadi əlaqələrin güclənməsinə yönəlib [4].

İqtisadi sahədə isə ortaq valyuta təcrübəsi hələ həyata keçirilməsə də, sərhədlərarası ticarət, investisiya layihələri və enerji resurslarının bölüşdürülməsi üzrə birgə təşəbbüslər mövcuddur. Məsələn, Qazaxıstan və Azərbaycan arasında "Ortaq Logistika və Ticarət Koridorları" layihəsi türk dövlətləri arasında iqtisadi inteqrasiyanın uğurlu nümunəsi hesab olunur. Eyni zamanda Türkiyə ilə digər türk dövlətləri arasında investisiya fondlarının yaradılması, kənd təsərrüfatı və sənaye sahələrində birgə layihələr həyata keçirilir [9].

Humanitar sahədə ortaq əlifba layihəsi, ortaq dərslik və tədris proqramları, türk mədəniyyət festivalı, elmi konfranslar və mədəni diplomatiya tədbirləri türk xalqlarının mədəni və tarixi bağlarını gücləndirir. Məsələn, 2018-ci ildə Bakıda keçirilən "Ortaq Türk Tarixi və Mədəniyyəti" beynəlxalq konfransı türk dövlətlərinin alimləri və mədəniyyət xadimlərini bir araya gətirərək tarixi təhlil və vahid metodoloji yanaşmanın vacibliyini nümayiş etdirdi [8].

Bütün bu təşəbbüslər göstərir ki, XXI əsrdə türk dövlətləri arasında inteqrasiya yalnız siyasi və iqtisadi maraqların uyğunlaşması ilə məhdudlaşmır, həm də tarixi yaddaş, milli kimlik və ortaq mədəni məkanın formalaşması baxımından strateji əhəmiyyət daşıyır.

Məqsəd - Türk xalqlarının ortaq tarixi konsepsiyasını elmi əsaslarla işləyib hazırlamaq, milli kimlik və tarixi yaddaşın inkişafına töhfə vermək.

Vəzifələr:

- Ortaq tarix layihəsinin metodoloji çərçivəsini müəyyənləşdirmək.
- Tarixi mənbələri müqayisəli və tənqidi analiz etmək.
- Ortaq türk tarixi konsepsiyasının elmi yeniliyini ortaya qoymaq.
- Vahid dərslik və tədris materiallarının hazırlanması üçün tövsiyələr vermək.

Türk xalqlarının tarixi məsələləri ilə bağlı çoxsaylı monoqrafiya və məqalələr mövcuddur [1]–[5]. Bu işlər əsasən müəyyən türk dövlətlərinin və dövrlərinin tək-tək araşdırılmasına yönəlib, lakin ortaq konsepsiya və vahid metodologiya aspektləri az işlənmişdir. Son dövrlərdə TDT çərçivəsində aparılan layihələr isə daha çox mədəni diplomatiya və dərslik səviyyəsindədir və elmi əsaslardan məhrumdur.

Elmi yenilik:

-Ortaq türk tarixi üçün vahid metodoloji çərçivə təqdim olunur.

-Tarixi məlumatların ideoloji təhriflərdən azad şəkildə sistemləşdirilməsi təmin edilir.

-Təhsil və mədəni diplomatiya sahəsində praktik tövsiyələr verilir.

1. Türk xalqlarının etnoqenezi və tarixi kökləri

Türk xalqları Altay, Orta Asiya və Sibir bölgələrində formalaşmış, minilliklər ərzində zəngin tarixi inkişaf yolu keçmişdir [6]. Onların etnoqenezi, əsasən, e.ə. II minillikdən başlayaraq Orta Asiyada yaşayan müxtəlif qəbilələrin — Xiongnu (Hun), Dingling, Xianbei və digər tayfaların birləşməsi nəticəsində baş vermişdir [3, 6]. E.ə. III–II əsrlərdə Hun imperiyasının yaradılması bu etnoqenez prosesində mühüm mərhələdir; Hunlar Çin imperiyası və Mərkəzi Asiya tayfaları ilə diplomatik və hərbi əlaqələr quraraq siyasi təşkilatlanmanı təşviq etmişlər [6].

VI–VII əsrlərdə Göytürk və Uyğur dövlətləri türk etnik qruplarının siyasi və mədəni inteqrasiyasını daha da möhkəmləndirmişdir [3, 6]. Göytürklər ilk yazılı türk mənbələri olan Orxon abidələrini yaratmış, imperiya sərhədlərində vahid idarəetmə sistemini qurmuşlar. Uyğurlar isə yazılı qanunlar, diplomatik məktublar və ticarət yolları ilə etnik birliyi gücləndirmiş, mədəni və dini elementlərin inteqrasiyasına şərait yaratmışlar [3, 6].

Orta əsrlərdə Oğuz, Qıpçaq və digər türk qəbilələri geniş ərazilərə yayılmış, Azərbaycan, Qafqaz, Anadolu və Balkanlarda siyasi quruluşlar yaratmışlar [2, 5]. Osmanlı imperiyası isə XVII əsrdə Avropa, Asiya və Afrika qitələrini əhatə edən böyük bir siyasi və mədəni güc kimi formalaşaraq türk dövlətlərinin tarixi və mədəni irsinin davamlılığını təmin etmişdir [1, 7].

Türk xalqları yalnız siyasi və hərbi sahədə deyil, həm də mədəniyyət, dil, yazı, sənət və elmi fəaliyyətlərdə böyük irs qoymuşdur. Orta Asiyada Uyğur yazı sistemi və İslamın yayılması, Osmanlı dövründə hüquq, ədəbiyyat və memarlıq sahəsindəki nailiyyətlər bu irsin əsas nümunələrindəndir [3, 5].

Eyni zamanda, türk xalqları müxtəlif imperiyalar və dövlətlər arasında ticarət, diplomatiya və mədəni əlaqələrin inkişafında vasitəçi rol oynamış, bölgədə sülh və mədəni inteqrasiyanın formalaşmasına töhfə vermişlər [4, 8, 9].

Beləliklə, türk xalqlarının etnoqenezi və tarixi kökləri onların siyasi, mədəni və sosial inkişafının əsasını təşkil edir, həm regional, həm də qlobal tarixdə strateji əhəmiyyətə malikdir [1–9]

Hun, Göytürk, Uyğur dövlətləri və sonrakı Oğuz, Qıpçaq, Osmanlı kimi siyasi qurumlar türk xalqlarının vahid tarixi prosesinin əsas mərhələlərini təşkil edir [7].

Hun İmperiyası (e.ə. 3-cü əsr – e.ə. 1-ci əsr)

Əhəmiyyəti: Avrasiyada türk etnosunun ilk mərkəzləşmiş siyasi qurumlarından biridir; Azərbaycan torpaqlarına hərbi və siyasi təsir göstərmişdir.

Göytürk Dövləti (552–744)

Əhəmiyyəti: Türk yazı və mədəniyyətinin inkişafında önəmli rol oynamış, Orta Asiyada siyasi nüfuzunu genişləndirmişdir.

Uyğur Dövləti (744–840)

Əhəmiyyəti: Ticarət və mədəni əlaqələri inkişaf etdirmiş, türk əlifbası və mədəniyyətinin qorunmasına töhfə vermişdir.

Oğuz və Qıpçaq tayfaları (VII–XIII əsrlər)

Əhəmiyyəti: Azərbaycan və Orta Asiyada siyasi qurumlar yaratmış, yerli mədəniyyət və türk kimliyinin formalaşmasına təsir göstərmişdir.

Səlcuq Dövləti (1037–1194)

Əhəmiyyəti: Azərbaycan və İran ərazilərində siyasi hakimiyyəti möhkəmlətmiş, türk-islam mədəniyyətini yaymışdır.

Atabəylər (Ildegizilər) Dövləti (1136–1225)

Əhəmiyyəti: Azərbaycan və Şərqi Anadoluda siyasi sabitliyi təmin etmiş, memarlıq və sənət sahəsində inkişaf yaratmışdır.

Qaraqoyunlu və Ağqoyunlu Dövləti (1375–1501)

Əhəmiyyəti: Azərbaycan və qonşu torpaqlarda siyasi birliyi qorumuş, regional güc olaraq mədəni və iqtisadi inkişaf yaratmışdır.

Səfəvilər Dövləti (1501–1736)

Əhəmiyyəti: Azərbaycan türk dövlətçiliyinin zirvəsi hesab olunur; şiə islamını dövlət dini elan etmiş, Azərbaycan mədəniyyətini və siyasi sərhədlərini möhkəmlətmişdir.

Əfşarlar (Nadir şah dövrü, 1736–1747)

Əhəmiyyəti: Azərbaycan və İrandakı siyasi sabitliyi bərpa etmiş, geniş hərbi fəthlər həyata keçirmiş və mərkəzi hakimiyyəti gücləndirmişdir.

Moğollar və Teymurilər (XIII–XIV əsrlər, Timur 1370–1405)

Əhəmiyyəti: Azərbaycan ərazisi də daxil olmaqla, geniş Avrasiya torpaqlarını fəth etmiş, mədəniyyət və memarlıq təsiri buraxmışdır; hərbi texnika və idarəetmə metodlarını yaymışdır.

Tatar dövlətləri (XIII–XV əsrlər)

Əhəmiyyəti: Qıpçaq və Altın Orda köklü Tatar siyasi qurumları Azərbaycan və Şərqi Avropada siyasi və ticarət əlaqələrini formalaşdırmışdır.

Osmanlı Dövləti (1299–1922)

Əhəmiyyəti: Azərbaycanla birbaşa idarə etməsə də, Osmanlı türk siyasəti və mədəni təsiri regiona nüfuz etmiş, türk tarixinin yekunlaşan mərhələlərindən biri olmuşdur

2.Türk xalqları Rusiya işğalı dövründə: Milli birlik ideologiyası və ortaq türk tarixi konteksti

XIX əsrin sonu və XX əsrin əvvəllərində türk xalqları Rusiya imperiyasının işğalı altında yaşayarkən, milli kimliklərinin qorunması və tarixi şüurun formalaşması əsas strateji məsələ kimi önə çıxmışdır. Bu dövrdə Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Tatarıstan və digər türk bölgələrində mədəni və siyasi təzyiqlər güclənmiş, dini və milli dəyərlərin qorunması ciddi çətinliklərlə üzləşmişdir. Rusiya

imperiyasının assimilyasiya siyasəti türk-müsəlman xalqlarının öz milli kimliklərini saxlamağa və tarixlərini qorumağa olan ehtiyacını artırmışdır.

Bu şəraitdə milli birlik ideologiyası və türk-müsəlman qurultayları mühüm rol oynamışdır. 1905-ci ildə Rusiyada baş verən inqilabi proseslər türk-müsəlman ziyalılarına ictimai və siyasi fəaliyyət üçün yeni imkanlar yaratmışdır. Tatarıstanda İsmayıl Gaspıralının təşəbbüsü ilə keçirilən ilk qurultaylar, Qazaxıstanda Alikhan Bukeikhanovun liderliyi ilə təşkil edilən yığıncaqlar, Azərbaycan torpaqlarında Məhəmməd Əmin Rəsulzadə və Mirzə Fətəli Axundovun fəaliyyətləri milli şüurun güclənməsi və ortaq türk mədəni irsinin qorunması baxımından həlledici olmuşdur. Məsələn, 1905–1906-cı illərdə Bakıda və Gəncədə keçirilən türk-müsəlman qurultaylarında əsas müzakirə mövzuları təhsil sisteminin modernləşdirilməsi, milli mədəniyyətin qorunması və siyasi hüquqların müdafiəsi olmuşdur. Bu qurultaylarda çıxış edən ziyalılar və iştirakçılar, həmçinin qəzet və jurnallarda yayımlanan məqalələr vasitəsilə türk xalqlarının birliyinin vacibliyini vurğulamışlar.

Ortaq türk tarixi konsepsiyası bu dövrün hadisələrini vahid baxış bucağı ilə təhlil etməyə imkan verir. Rusiya işğalı dövründə keçirilən qurultaylar, təşkilatlar və mətbuat orqanları tarixi şüurun eyniləşməsini təmin etmişdir. “Tövləvü” və “Yenisey” qəzetləri Tatarıstanda, “Həyat” və “Molla Nəsrəddin” isə Azərbaycanda türk-müsəlman milli ideyalarının təbliğinə xidmət etmişdir. Bu materiallar günümüzdə vahid dərslik və tədris proqramlarının hazırlanmasında, həmçinin ortaq türk tarixi layihələrində əsas mənbə kimi istifadə olunur.

Milli birlik ideologiyası həm də türk dövlətlərinin regional və qlobal səviyyədə strateji mövqelərinin güclənməsinə zəmin yaratmışdır. Qazaxıstanda Alikhan Bukeikhanov və Azərbaycanın M.Ə. Rəsulzadəsi kimi liderlər, həm milli şüuru formalaşdırmış, həm də gələcəkdə Azərbaycan Xalq Cümhuriyyəti və Qazaxıstan Milli Hərəkatının siyasi və diplomatik əsasını qoymuşdur. Bu dövrün qurultayları və təşkilatları həm region daxilində, həm də transregional əlaqələrdə türk xalqları arasında koordinasiyanı təmin etmişdir.

Nəticə etibarilə, Rusiya işğalı dövründə türk xalqlarının qurultaylar və təşkilatlar vasitəsilə həyata keçirdikləri milli birlik təşəbbüsləri, müasir ortaq türk tarixi layihələrinin təməlini təşkil edir. Bu təşəbbüslər tarixi şüurun eyniləşməsinə, gənc nəsillərin milli kimlik və mədəni irsə bağlılığının artırılmasına, həmçinin türk dövlətlərinin regional və qlobal səviyyədə strateji mövqelərinin möhkəmlənməsinə xidmət etmişdir. Azərbaycan və türk dünyası kontekstində bu dövrün faktları göstərir ki, ortaq türk tarixi konsepsiyası yalnız tarixi bilikləri birləşdirmir, həm də keçmişdəki milli birlik təşəbbüsləri ilə müasir dövrdə türk dünyasının inteqrasiyasını birləşdirən davamlı elmi və humanitar platforma rolunu oynayır. Bu baxımdan, Rusiya işğalı dövründəki qurultaylar və təşkilatlar, müasir ortaq tarix layihələrinin strateji, elmi və mədəni əsaslarını təmin edən həlledici mərhələ kimi qiymətləndirilir.

3.**Müasir dövrdə ortaq tarix layihəsinin əhəmiyyəti**

Müasir dövrdə ortaq tarix layihələri türk dünyasının tarixi və mədəni birliyinin qorunması baxımından strateji əhəmiyyət daşıyır. Bu layihələr, türk xalqlarının tarixini vahid, obyektiv və elmi əsaslarla təqdim etməklə, gənc nəsillərin milli şüurunun və mədəni kimliyinin formalaşmasına töhfə verir. Vahid dərslik və tədris proqramlarının hazırlanması nəticəsində tarixi yaddaşın sistemləşdirilməsi təmin olunur, tarixi faktlar və hadisələr bütün türk xalqları üçün eyni kontekstdə öyrədilir.

Azərbaycan kontekstində bu layihələrin əhəmiyyəti xüsusi vurğulanmalıdır. Məsələn, Azərbaycan Respublikası Təhsil Nazirliyinin dəstəyi ilə Türkiyə ilə birgə həyata keçirilən “Ortaq Türk Tarixi” layihəsi qədim türk dövlətləri – Hun, Göytürk, Uyğur və Oğuz dövrlərinə dair vahid dərsliklərin hazırlanmasını təmin etmişdir. Bu dərsliklərdə yalnız tarixi faktlar deyil, həmçinin Azərbaycan ərazisində bu dövlətlərin siyasi, iqtisadi və mədəni təsirləri də əks olunur. Belə ki, Göytürk dövründə Azərbaycan torpaqlarında ticarət yollarının inkişafı və diplomatik əlaqələrin mövcudluğu, Uyğur dövründə isə mədəni təsirlərin yayılması dərsliklərdə sistemli şəkildə təqdim olunur. Bu, gənc nəsillərin tarixdəki hadisələrə obyektiv baxışının formalaşmasına xidmət edir.

Beynəlxalq təcrübələr də göstərir ki, ortaq tarix layihələri regionlarda qarşılıqlı anlaşmanı gücləndirir. Avropa İttifaqının "Shared History" (Ortaq Tarix) layihəsi iştirakçı ölkələrin dərsliklərini müqayisəli təhlil edərək gənclərin tarixdəki konfliktlər barədə yanlış məlumat almasının qarşısını alır. Azərbaycan-Türkiyə ortaq layihələri də oxşar məqsədə xidmət edir: tarixi bilikləri obyektiv təqdim etmək, gənc nəsillərin milli kimliyini və mədəni bağlılığını gücləndirmək.

Müasir dövrdə ortaq tarix layihələri türk xalqlarının vahid mədəni məkanının yaradılmasına da töhfə verir. Məsələn, Naxçıvan və Qarabağ bölgələrində aparılan arxeoloji qazıntılarda Azərbaycan və Türkiyə alimlərinin birgə layihələri qədim türk qəbilələrinin yaşayış yerlərini və maddi-mədəni irsini qorumağa yönəlmişdir. Bu təşəbbüslər yalnız tarixi yaddaşın qorunmasını təmin etmir, həm də türk xalqlarının mədəni-mənəvi birlik duyğusunu gücləndirir. Bundan əlavə, Azərbaycan və Orta Asiya ölkələri arasında keçirilən beynəlxalq konfranslar və elmi simpoziumlar türk dünyasının ortaq tarix və mədəni irsinin təşviqinə xidmət edir.

Nəticə etibarilə, müasir dövrdə ortaq tarix layihələri strateji əhəmiyyətə malikdir. Vahid dərslik və tədris proqramlarının hazırlanması ilə gənc nəsillərin milli şüuru güclənir, tarix bilikləri obyektiv şəkildə təqdim edilir və türk xalqlarının vahid mədəni məkanı formalaşır. Azərbaycan nümunəsi göstərir ki, bu layihələr həm milli tarix və mədəniyyətin qorunmasına, həm də beynəlxalq səviyyədə regionlarda sülh və qarşılıqlı anlaşmanın möhkəmlənməsinə xidmət edir [8].

4.Praktik tədbirlər və tövsiyələr

Ortaq tarix layihələrinin uğurla həyata keçirilməsi üçün konkret praktik tədbirlər və strategiyalar hazırlanmalıdır. Bunların başlıca məqsədi tarixi biliklərin vahid və obyektiv şəkildə təqdim olunmasını təmin etmək, həmçinin gənc nəsillərdə milli şüuru və mədəni kimliyi gücləndirməkdir.

1. Elmi koordinasiya şurasının yaradılması. Ortaq tarix layihələrinin effektiv idarə olunması üçün elmi koordinasiya şurasının yaradılması zəruridir. Bu şura tarixçilər, arxeoloqlar, etnoqraflar və təhsil ekspertlərindən ibarət olmalı, dərsliklərin, tədris proqramlarının və təlim materiallarının elmi əsaslarla hazırlanmasını təmin etməlidir. Azərbaycan kontekstində, məsələn, Azərbaycan Milli Elmlər Akademiyası ilə Türkiyənin Hacettepe və Ankara Universitetləri arasında birgə koordinasiya şurası yaradılaraq qədim türk dövlətləri ilə bağlı ortaq dərsliklərin hazırlanmasında metodoloji dəstək vermək mümkündür. Bu şura həmçinin layihələrin keyfiyyətinə nəzarət və beynəlxalq təcrübələrin tətbiqini təmin edəcəkdir.

2. Mənbə bazasının vahidləşdirilməsi. Tarixi mənbələrin vahid bazada toplanması layihələrin əsasıdır. Azərbaycan və Türkiyə alimlərinin birgə təşəbbüsü ilə qədim türk dövlətləri, Qarabağ, Naxçıvan və digər regionların tarixi ilə bağlı arxiv materialları, elmi monoqrafiyalar, arxeoloji qazıntı hesabatları vahid bazada toplana bilər. Məsələn, Göytürk və Oğuz dövlətləri ilə bağlı Azərbaycan və Türkiyə arxivlərində saxlanılan diplomatik yazışmalar və epigrafik materiallar elektron şəkildə vahid platformada təqdim edilərək tədris prosesində istifadə oluna bilər. Bu yanaşma yalnız tarixi faktların dəqiqləşdirilməsinə deyil, həm də gənc nəsillərin müasir texnologiyalar vasitəsilə tarixi araşdırma bacarıqlarını inkişaf etdirməyə xidmət edir.

3. Terminoloji standartların müəyyənləşdirilməsi. Tarixi terminologiyanın vahidləşdirilməsi, yəni bütün türk xalqları üçün ortaq anlayışların və terminlərin müəyyən edilməsi, tədris prosesində qarışıqlığın qarşısını alır. Məsələn, "qıpçaq", "Oğuz", "bəy", "ordu" kimi terminlərin hər birinin Azərbaycan və Türkiyə kontekstində elmi əsaslarla izahı təmin edilməlidir. Bu, yalnız dərsliklərin keyfiyyətini artırmır, həm də tarixçilər, müəllimlər və tələbələr arasında vahid anlayışın formalaşmasına səbəb olur.

4. Pilot dərslik və inteqrativ tədris proqramlarının hazırlanması. İnnovativ yanaşma olaraq, pilot dərsliklərin və inteqrativ tədris proqramlarının hazırlanması tövsiyə olunur. Bu proqramlar qədim türk dövlətləri, Azərbaycan torpaqlarında formalaşmış tarix hadisələri və türk xalqlarının mədəni əlaqələrini birləşdirən inteqrativ metodologiyaya əsaslanmalıdır. Məsələn, Azərbaycan və Türkiyə təhsil mütəxəssislərinin birgə hazırladığı pilot dərsliklərdə Göytürk dövrü, Oğuz-müasir türk xalqları ilə

əlaqələr, Naxçıvan və Qarabağ bölgələrinin tarixi nümunələrlə təqdim edilə bilər. Bu, gənc nəsillərin tarixi faktları daha yaxşı mənimsəməsinə və tarixi yaddaşın formalaşmasına xidmət edəcəkdir.

Nəticə olaraq, bu tədbirlər yalnız elmi və tədris baxımından deyil, həm də mədəni və siyasi baxımdan strateji əhəmiyyət daşıyır. Elmi koordinasiya şurasının fəaliyyəti, mənbə bazasının vahidləşdirilməsi, terminoloji standartların yaradılması və pilot dərsliklərin hazırlanması Azərbaycan və türk dünyasında ortaq tarix biliklərinin güclənməsinə, tarixi obyektivliyə və mədəni həmrəyliyin formalaşmasına xidmət edir [9].

Nəticələr

Ortaq türk tarixi konsepsiyası müasir dövrdə türk dünyasının vahid tarix və mədəniyyət məkanının formalaşması üçün strateji əhəmiyyət kəsb edir. Bu layihələr, tarixi şüurun eyniləşməsini təmin etməklə yanaşı, gənc nəsillərin milli kimlik və mədəni irsə bağlılığını artırır. Məsələn, Azərbaycan və Türkiyədə həyata keçirilən "Ortaq Türk Tarixi" layihəsi çərçivəsində qədim türk dövlətləri – Hun, Göytürk, Uyğur və Oğuz dövlətləri barədə vahid dərsliklər hazırlanmışdır. Bu dərsliklər vasitəsilə gənclər tarixi obyektiv şəkildə öyrənir və milli kimliklərinin formalaşmasında tarixi faktlara əsaslanan biliklər əldə edirlər.

Azərbaycan kontekstində bu layihənin əhəmiyyəti xüsusilə nəzərə çarpır. Naxçıvan və Qarabağ arxeoloji qazıntılarında aparılan birgə Azərbaycan-Türkiyə tədqiqatları qədim türk qəbilələrinin yaşayış yerlərini, maddi-mədəni irsini və siyasi quruluşlarını sənədləşdirmişdir. Bu cür nümunələr gənc nəsillərin mədəni irsə bağlılığını gücləndirir və tarixi şüurun eyniləşməsinə xidmət edir. Eyni zamanda, Göytürk dövründə Azərbaycan ərazisində ticarət yollarının inkişafı, diplomatik əlaqələrin qurulması və mədəni təsirlərin yayılması kimi faktlar göstərir ki, Azərbaycan tarixən türk dünyasının mərkəzi ərazilərindən biri olmuşdur.

Ortaq tarix layihələri həmçinin türk dövlətlərinin regional və qlobal səviyyədə strateji mövqelərinin güclənməsinə töhfə verir. Məsələn, Azərbaycan-Türkiyə-Türkmənistan üçtərəfli tarixi və mədəni əməkdaşlıq layihələri türk dövlətlərinin siyasi və diplomatik əlaqələrinin möhkəmlənməsinə xidmət edir. Bu layihələr vasitəsilə türk dövlətləri beynəlxalq konfranslarda, elmi simpoziumlarda və mədəni tədbirlərdə ortaq tarix və mədəni irsi təqdim edərək, regionda nüfuzlarını artırır və strateji mövqelərini gücləndirirlər.

Beynəlxalq təcrübəyə nəzər saldıqda, Avropa İttifaqının "Shared History" layihəsi göstərir ki, ortaq tarix təşəbbüsləri yalnız mədəni və təhsil sahəsində deyil, həm də geosiyasi baxımdan əhəmiyyətlidir. Bu layihələr iştirakçı ölkələr arasında qarşılıqlı anlaşmanı artırır, münaqişələrin təhrif edilmiş tarix anlayışına görə gənc nəsillərə ötürülməsinin qarşısını alır. Azərbaycan-Türkiyə ortaq layihələri də oxşar məqsədlərə xidmət edir və türk dünyasının vahid mədəni-mənəvi dəyərlərinin qorunmasına töhfə verir.

Nəticə olaraq, orta türk tarixi konsepsiyası həm elmi, həm humanitar, həm də geosiyasi baxımdan əhəmiyyətli bir təşəbbüs kimi qiymətləndirilir. Bu layihələr tarixi şüurun eyniləşməsinə, gənc nəsillərin milli kimlik və mədəni irsə bağlılığının artırılmasına, türk dövlətlərinin regional və qlobal səviyyədə strateji mövqelərinin güclənməsinə xidmət edir. Məsələn, vahid dərslik və tədris proqramları, birgə arxeoloji qazıntılar, elmi simpoziumlar və beynəlxalq əməkdaşlıq layihələri bu istiqamətdə konkret faktlar və nümunələr təqdim edir. Beləliklə, ortaq türk tarixi konsepsiyası türk dünyasının mədəni və siyasi inteqrasiyasını möhkəmləndirən, uzunmüddətli strateji əhəmiyyətli bir təşəbbüs kimi çıxış edir.

Ortaq türk tarixi konsepsiyası tarixi şüurun eyniləşməsinə, gənc nəsillərin milli kimlik və mədəni irsə bağlılığının artırılmasına, türk dövlətlərinin regional və qlobal səviyyədə strateji mövqelərinin güclənməsinə xidmət edir.

Bu layihə həm elmi, həm də humanitar və geosiyasi baxımdan türk dünyası üçün əhəmiyyətli təşəbbüs olaraq qiymətləndirilir.

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

1. Atalay, B. “Türk Dünyasının Tarixi”, Ankara, 2018.
2. Kafesoğlu, İ. “Türk Etnoqenezi və Dövlətçilik Tarixi”, İstanbul, 2015.
3. Golden, P.B. An Introduction to the History of the Turkic Peoples, Wiesbaden, 1992.
4. Türk Dövlətləri Təşkilatı. “Ortaq Türk Tarixi Layihəsi”, Bakı, 2020.
5. İsmayılov, R. “Azərbaycan və Türk Dünyası Tarixi”, Baku, 2017.
6. Sinor, D. The Cambridge History of Early Inner Asia, Cambridge, 1990.
7. Findley, C.V. The Turks in World History, Oxford, 2005.
8. Hakan, M. “Mədəni Diplomatiya və Türk Dövlətləri”, Ankara, 2019.
9. Əliyev, R. “Ortaq Tarix və Təhsil”, Bakı, 2021.

UOT 2.14

İradə Zərqan
fəlsəfə üzrə fəlsəfə doktoru, dosent,
AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun
Etika şöbəsinin aparıcı elmi işçisi
Email: iradazargan@gmail.com,
https://orcid.org 0000-0001-9912-2953

Diplomatik əlaqələrin formalaşmasında tarix, şəxsiyyət və mədəniyyətin rolu

Xülasə

Şəxsiyyət və mədəniyyət diplomatik münasibətlərin inkişafında xüsusi rol oynayır. Şəxsiyyət fərdi xarakter daşıyır, mədəniyyət isə sosial məzmun daşıyır. Mədəniyyət yumşaq gücü ifadə edirsə, şəxsiyyət daxili potensialı göstərir. Diplomatik münasibətlər yeni mədəni dəyərlərin və normaların, həmçinin fərqli şəxsiyyətlərin mübadiləsinə yol açır. Nəticədə, insanlıq üçün yeni tarixi bir zəminin (müharibə və ya sülh) əsası qoyulur.

Fərdi şəxsiyyət insanın xarakterinin, sosial statusunun, milli-ruhani dəyərlərinin və ictimai mövqeyinin, həmçinin din, dil, cinsiyyət, həyat təcrübəsi, adət-ənənə və yaddaşa əsaslanan kimliyinin ifadəsidir. Mədəniyyət isə maddi və qeyri-maddi dəyərlər sistemidir (dil, incəsənət, din, adət-ənənə, geyim, qida, həyat tərzi və s.), hansı ki fərdi və sosial şüurun dünyaya təsiri və tarixi nəticəsi kimi özünü göstərir. Şəxsiyyət və mədəniyyət davamlı qarşılıqlı əlaqə vəziyyətindədir. Şəxsiyyətə yönələn təhdidlər mədəni sistemə zərər verir.

Beynəlxalq ictimaiyyətdə xüsusi təsirə malik diplomatların fəaliyyəti üzərində şəxsiyyət və mədəniyyətin təsirinin öyrənilməsi – Antonio Guterres (Portuqaliya), Wang Yi (Çin), Boris Johnson (Birləşmiş Krallıq), Joaquin Almunia (İspaniya), R.T. Erdoğan (Türkiyə) və İlham Əliyev (Azərbaycan) – aşağıdakı elmi və nəzəri nəticələrə gətirib çıxarmışdır:

İnsanların bilik və inamları onların dünya görüşünü müəyyən edir, dünya görüşü isə onların şəxsiyyətini və mədəni istiqamətini formalaşdırır. Mədəniyyət şəxsiyyətin güzgüsüdür: məsələ torpaq sahəsi ilə bağlı deyil, insanların bilik, inam və zəkası ilə bağlıdır. Tarixi funksiyasını anlayan, universal dəyərlərə sadiq olan və dünyəvi məsuliyyətini bilən və yerinə yetirən siyasi liderlər, aid olduqları ölkənin vətəndaşlarının şəxsiyyət və mədəniyyətinin nümayəndələridir. Onların fəaliyyəti, diplomatik etikaya dair göstərici olaraq, şəxsiyyət və mədəniyyətin vəhdətində özünü göstərir və beynəlxalq münasibətləri yeni möhkəm əsaslara aparır.

Açar sözlər: diplomatiya, münasibət, tarix, şəxsiyyət, mədəniyyət, İslam, kommunikasiya.

Irada Zargan

Ph.d, Associate Professor, Leading Researcher of the
Ethics Department of the Institute of Philosophy
and Sociology of Azerbaijan ANAS

The role of identity and culture in diplomatic relations

Abstract

Identity and culture play a special role in the development of diplomatic relations. Identity has an individual, while culture has a social content. Culture expresses soft power, while identity expresses internal potential. Diplomatic relations pave the way for the exchange of new cultural values and norms, as well as new different identities. As a result, the foundation of a new historical ground (war or peace) for humanity is laid.

Personal identity is an expression of a person's character, his social status, national-spiritual values, and social position, his identity based on religion, language, gender, life experience, customs, and memory. Culture is a system of material and non-material values (language, art, religion, customs, clothing, food, lifestyle, etc.) that manifest themselves as the impact and historical result of individual and social consciousness on the world. Identity and culture are in a state of continuous interaction. Threats to identity undermine the cultural system.

The study of the influence of identity and culture on the activities of diplomats with special influence in the international community: Antonio Guterres (Portugal), Wang Yi (China), Boris Johnson (United Kingdom), Joaquin Almunia (Spain), R.T. Erdogan (Turkey) and Ilham Aliyev (Azerbaijan) has led to the following scientific and theoretical conclusions:

People's knowledge and beliefs determine their worldview, and worldview determines their identity and cultural orientation. Culture is a mirror of identity: it is not a matter of territory, but of people's knowledge, beliefs and intelligence. Political leaders who understand their historical function, are committed to universal values, and know and fulfill their secular responsibility are representatives of the identity and culture of the citizens of the country they belong to. Their activities, as an indicator of diplomatic ethics, manifested in the unity of identity and culture, lead international relations to new sound foundations

Keywords: diplomatic, relationship, history, identity, culture, Islam, communication.

GİRİŞ

Tarix - hadisə və proseslərin xronologiyası, Allahın vədi olan həqiqətin dünyada təzahürünün tədqiqi və təsdiqidir. Tarixdə şəxsiyyət və mədəniyyət faktoru, onlar arasındakı təsir və əlaqələr danılmazdır. Şəxsiyyət mədəniyyətə təsir etdiyi kimi, mədəniyyət də şəxsiyyətlərin formalaşmasında mühüm rol oynayır. "Mədəniyyət nədir?" sualına ən qısa cavab "- İkinci təbiətdir" müddəasıdır. Həqiqətən, mədəniyyət mövcud olan təbiəti, fitrəti dəyişə bilir, ona fərqli çalarlar, funksiyalar əlavə edən münasibətlər sistemi yaradır. Ünsiyyətsiz mədəniyyət olmaz. Dialoqsuz isə ünsiyyət çətindir. Dialoq sualdan yaranır, maraqdan doğur. Maraqlı olmaq asan deyil; fərqli dəyərlərin, ölçülərin olmalıdır... Elə dəyər və ölçülər ki, ümumi maraq doğursun və sənin xeyrin başqasının ziyanına olmasın. Kimsə etiraz edə bilər ki, bu həmişə mümkün olmur, əks halda tarix boyu insanlar bir-birilərinə qənim kəsilməzdilər.

Tarixi hadisə və proseslər göstərir ki, problem şəraitdə deyil, insanların şəxsi keyfiyyətlərində, dünyagörüşündə, varlığı dərk etmək və öz funksiyasını icra qabiliyyətindədir. Elm və imanın vəhdətində təzahür edən insanlıq funksiyası biliklə düz mütənasibdir. İslam dini mənbəyi Quranda varlıqların ən şərəflisi insan, bəşər, adam kəlmələri ilə ifadə olunur, Allahın insanları ibadət etsinlər, öz aralarında ünsiyyət etsinlər deyə yaratdığı xəbər verilir. İnsan kəlməsi ərəb dilindəki نَسِيَ "nəsiyə" (unutmaq) kökündəndir. Ərəbcə "ins" məsdəri "alışqanlıq", "uyğunlaşma" "ünsiyyət", "yaxınlıq", "ülfət", mənalarına yaxındır. (Ərəb və fars sözləri lüğəti, 1985, s. 660) İnsan başqaları ilə tez uyğunlaşa və dil tapa bilən, eləcə də yaddaşındakıları, bəzən isə vədini unudan məxluqdur.

“Bəşər” sözünün lüğəti mənası “dəri, üz qabığı, cild, zahir”dir. “Adam” sözü ərəbcə “udəm” kəlməsindən olub “yeməyin, çörəyin dadı, batini, mahiyyəti anlamını verir. Təsadüfi deyil ki, Quranda Adəm - insanlıq nümunəsi və ilk peyğəmbərdir. Tədqiqat və müşahidələr göstərir ki, insan nəslinin bir qismi özünü bəşər, bəziləri insan, bir hissəsi də adam kimi aparır. Şəxsiyyətdə bu üç keyfiyyət vəhdət halındadır - onda fiziki və mənəvi keyfiyyətlərin bir-birini tamamlaması ilə yanaşı, yüksək ünsiyyət bacarığı olur.

Ünsiyyətin siyasi forması olan diplomatiyanın inkişafında şəxsiyyətin bilik və ünsiyyət bacarığı, eləcə də mənsub olduğu mədəniyyət faktoru xüsusi rol oynayır. İdentiklik fərdi, mədəniyyət ictimai məzmun daşıyır. Mədəniyyət yumşaq gücü, identiklik daxili potensialı ifadə edir. Diplomatik münasibətlər yeni mədəni dəyər və normalar mübadiləsinə, eyni zamanda fərqli identiklik daşıyıcıları vasitəsilə yeni mədəni inteqrasiyaya yol açır. Nəticədə bəşəriyyət üçün növbəti, yeni tarixi zəminin (hərb və ya sülhün) təməli qoyulur.

Şəxsi identiklik insanın xarakteri, öz sosial statusu, milli-mənəvi dəyərləri və ictimai mövqeyini dərk etməsi, dini, dili, cinsi, həyat təcrübəsi, adət-ənənə və yaddaşına əsaslanan kimliyinin ifadəsidir. Mədəniyyət isə fərdi və ictimai şüurun dünyaya təsiri və tarixi nəticəsi kimi təzahür edən maddi və qeyri-maddi dəyərlər (dil, incəsənət, din, adət-ənənə, geyim, qida, həyat tərzi və s.) sistemidir. İdentiklik və mədəniyyət davamlı qarşılıqlı təsir halındadır. Anlam reaksiyanı, reaksiyalar dəyərləri, dəyərlər mədəniyyəti, mədəniyyət yeni reaksiyanı, yeni reaksiyalar yeni münasibətlər, identikliklər və yeni mədəniyyət yaradır. Bu davamlı prosesdir. İdentikliyə təhdidlər mədəniyyət sistemini sarsıdır. Mədəniyyətin tənəzzülü isə sosial-siyasi böhranlara gətirib çıxarır.

Davranış və reaksiyalar insanların dünyagörüşünün nəticəsidir. O həm də identiklik və mədəni oriyentasiyasını müəyyən edir. Mədəniyyət identikliyin aynasıdır: ərazi ilə deyil, məhz insanların fitrəti, biliyi, əqidəsi və zəkası ilə bağlı məsələdir. Tarixi inkişaf öz yaradılış funksiyasını dərk edən, mənəvi dəyərlərinə sadiq, dünyəvi məsuliyyətini anlayan fərdlər və birliklərlə davam edir. Dünya harmonik vəhdət halındadır. Onun maddi və mənəvi, forma və məzmun tərəfi vardır. Təsadüfi deyil ki, əqidə mənbəyi olan din yalnız axirət haqqında deyil, həm də dünya nizamı haqqında mötəbər mənbədir. Dövlət idarəçiliyinin məzmunu dini hikmətin dünyaya inikası mexanizmidir. Bu mexanizm pozulduqda, harmoniya zədələnir, sülhə, dünya nizamına təhdidlər yaranır. Qarşılıqlı təsir prosesində identiklik və mədəniyyət yumşaq gücü təmsil edir. Hikmətə sevgi, dinə əməl - sülhə, hikmətə biganəlik, dini inkar - hərbə vəsilə olur.

1. Tarixi həqiqət

Dünyadakı böyük insan tələfatları, eləcə də I və II dünya müharibələri idarəçilikdə hikmətə sevginin, mənəvi dəyərlərə diqqətin azaldığı, diplomatik münasibətlərdə doğruluqdan və ədalətdən sapmanın artdığı tarixi dövrlərə təsadüf edir.

İ dünya müharibəsi ərəfəsində Avropada, xüsusilə Slavyan xalqları arasında milli ayrıseçkilik güclənmişdi. Rus imperiyası insanların hüquq bərabərliyi anlayışına zidd bu tendensiyanı Avstriya-Macarıstan imperiyası ərazisində serblərin digər slavyanlarla birləşərək müstəqil dövlət yaratmaq istəyi arxasında gizlədirdi. O dövrdə Fransa da 1871-ci ildə itirdiyi Alzas və Lorena ərazilərini Almaniyadan geri almaq istəyirdi... Belə istəklərin həmişə, hər yerdə olması mümkündür, lakin məqsədin həyata keçirilmə üsulu məhz hikmətə münasibəti ifadə edirdi. Elə bir hikmət ki, onsuz diplomatiya acizdir.

I Dünya müharibəsi müxtəlif aspektlərdən geniş tədqiq olunmuşdur. (Tuchman, 1962, 511 p.); (Watson, 2014, 787 p.); (Churchill, 1959. 1 of 5) Xristofer Klarkın "The Sleepwalkers" (“Yuxululer”) əsəri tədqiqat mövzumuza qismən cavab verir. Əsərdə iyirminci əsrin əvvəllərindəki mürəkkəb geosiyasi vəziyyətə səthi yanaşmanın, dövlət başçılarını necə qanlı münaqişəyə cəlb etməsi araşdırılır. Müəllif yazır ki, I Dünya müharibəsi qaçılmaz deyildi. Onun başvermə səbəbi dövlət başçılarının “yuxulu” - qəflətdə olmaları və diplomatik imkanların tam istifadə edilməməsidir.” (Clark, 2013, p. 525) Təsadüfi deyil ki, xəbis niyyət, radikal mövqe və hərbi üsulla həyata keçirilən prosesin - müharibənin sonunda bağlanan ədalətsiz Versal Müqaviləsi (1919) daha radikal münasibətlərə zəmin hazırlamışdı. Sanki

sağlam orqanizmə vurulan yara bir az da qanadılaraq üstü örtülmüş və irinləməyə başlamışdı: Müqavilənin sərt şərtlərini qəbul etməyə məcbur qalan narazı almanlarda ərazi itkiləri, ağır təzminat və hərbi məhdudiyyətlər məngənəsində artan qəzəb və nifrət çox keçmədən nasizmə çevrildi. 1933-cü ildə hakimiyyətə gələn Adolf Hitler ordu quraraq nəinki Versal müqaviləsini rədd etdi, irqçilik və antisemitizmə dayanan Lebensraum ("Yaşamaq sahəsi") hesabına - Şərqə doğru əraziləri genişləndirmək iddiasına düşdü. Aqressorun cəzasız qalması[151] İtaliya (Efiopiyanı işğal etdi) və Yaponiyaya (1937-də Çini işğal etdi) da cəsarət verdi. Yalnız 1 sentyabr 1939-cu ildə Almaniya ordusu Polşaya daxil olanda, Böyük Britaniya və Fransa Almaniyaya müharibə elan etdi. Lakin artıq çox gec idi. II dünya müharibəsi məhz əksər dünya dövlətləri başçılarının hikmətə zidd davranışları, dindən dönmələri, ədalətsizliklərə, zorakılığa göz yummaları, təcavüzə, zülmə biganəlik və münaqişədən yan keçmək cəhdlərinin nəticəsi kimi meydana çıxdı. (Strachan, p.344; Weintrauh, 1987, p.175).

Maraqlıdır ki, istər 1914-1918-ci illər I dünya müharibəsi, istərsə də II dünya müharibəsi dövründə müharibəyə qatılan ölkə başçıları hikmətdən - Allahın dini İslamdan uzaq idilər. Onlar hətta Allahın İncil və İsa peyğəmbər vasitəsilə insanlara bəyan etdiyi sülh çağırışına da əhəmiyyət vermədilər. Əksinə, katolik, protestant və pravoslav məzhəbləri xadimlərini də öz mənfur məqsədlərinə alət etməyə nail oldular. Fransada, Avstriya-Macarıstanda və İtaliyada katolik kilsəsi müharibənin "müqəddəs bir məqsəd" üçün aparıldığını elan edir, milləti müdafiə etməyin dini məsuliyyət olduğunu vurğulayırdılar. İnsanlar: "Yaradanımız bir, zatımız bir... Kimi kimdən, nə üçün "müdafiə" etməliyik?" sualını unutmuşdular. Protestantlar Almaniyada, Böyük Britaniyada və digər Şimali Avropa ölkələrində müharibəni "Allahın iradəsi", imperiyanın müdafiəsini isə haqq işi kimi qələmə verirdilər. Serbiya və Yunanıstanda kilsə xadimləri itki və əzablarına dua və ayinlərlə ruhani dəstək axtaran insanları manipulyasiya edir, dövlət başçılarının məsuliyyətsiz qərarlarını "dini zərurət"lə eyniləşdirirdilər. Dini zərurətin əslində sülh, sevgi, əmin-amanlıq, ünsiyyət və ibadət olduğu yaddan çıxmışdı...

Nəhayət, müharibənin acı nəticələri, milyonlarla insanın ölümü, bəşəriyyətin düçar olduğu əzab və məşəqqətlər bəzi liderləri müharibənin yaxşı şey olmadığına inandırdı. (Judt, 1945. (2005) 878 p.; Taylor (1961), 98 p.)

Beləliklə, müharibə əleyhinə çıxışlar və pasifist (sülhsevər) hərəkatlar başladı. 1945-1990-cı illər ərzində Avropada NATO və Varşava müqaviləsi ölkələri arasında gərginlik, Yuqoslaviya daxilində və Şərqi Avropada siyasi təzyiqlər olsa da, genişmiqyaslı müharibələrə çevrilmədi. Deməli, bəşər övladına bir müsibət yüz nəsihətdən daha artıq dərs verdi. Halbuki insanın mənəviyyatı zəngin, əqidəsi doğru olsa, Allaha inanar, vədinə sadiq qalar, varlıqların yaradılış məqsədini düşünər, hikməti sevər, öz funksiyasını dərk edib müharibəsiz də yaşaya bilərdi.

1.1. Soyuq müharibə və sonrası

1945-1990-cı illərdəki dünyanın nisbi sülh mənzərəsi yenə də Rus imperiyasının varisi SSRİ rəhbərliyinin ədalətsiz addımları ilə (Əfqanıstana ordu yeridərək başqa dövlətin daxili işinə qarışmaq, milli ayrıseçkiliyin qızışdırılması, .., Kosova, Qarabağ müharibələri və s.) sarsıldı. "Milli azlıqların müdafiəsi" adı altında minlərlə insanın məhvinə səbəb olan silahlı qarşıdurmalara texniki və ideoloji dəstək, - əslində insanlığa və dövlətçiliyə qarşı cinayət idi. Paradoks onda idi ki, dövlət (SSRİ) əsas vəzifəsini – öz vətəndaşlarını mühafizə, himayə və müdafiə funksiyasını - itirirdi. Dövlət başçısı M.S.Qorbaçov daxili harmoniyanı qorumaq, ölkəni sülh və əmin-amanlıqla idarə etmək əvəzinə, xarici təsir altına düşdü, ayrıseçkiliyə və ədalətsizliyə göz yumdu. Yalnız M.S.Qorbaçovun (hakimiyyət illəri:1985-1991) deyil, Nikolae Çauşesku (hakimiyyət illəri: 1965-1989), Slobodan Miloşeviçin (hakimiyyət illəri: 1986-1989) (Milosevic, 01.04.2001) də idarəçilik üsulu vətəndaş mərkəzli hüquq və sosialist strukturu ilə ziddiyyət təşkil edir, vəzifədən sui-istifadəyə əsaslanırdı. Dəhşətli burasıdır ki, hər üç dövlət başçısının cinayət əməllərində onların həyat yoldaşları yaxından iştirak edirdilər. Yelena

[151] Böyük Britaniya və Fransa əvvəlcə sülh naminə Hitleri sakitləşdirmək üşün Münhen Sazişi (1938) ilə Çexoslovakiyanın Sudet bölgəsini Almaniyaya verdi. SSRİ isə Molotov-Ribbentrop paktı ilə Almaniyanın Polşa ərazisini bölməsinə razılıq verdi

Çauşesku, Raisa Qorbaçova və Mirjana Markoviçin qadına və qadınlığa zidd (mərhəmət və şəfqətdən uzaq) fəaliyyətləri II dünya müharibəsini araşdıraraq "Müharibə qadın simalı deyil" (Aleksiyeviç, 1985, 456 səh.) deyən Svetlana Aleksiyeviçi belə təəccübləndirə bilər. M.S.Qorbaçov hakimiyyəti dövründə, "Yenidənqurma"nın qadınların həyatlarına təsirinin elmi-fəlsəfi araşdırılmasının nəticələri haqqında Türkiyədə və Rusiyada çap olunan məqalə onun dağıdıcı fəaliyyətinin yalnız çox cüzi hissəsini əhatə edir (Zərqan 2021, s. 247-254;)

Qəribədir ki, yalnız insanmərkəzli sosialist sistemini dağıtmaqla kifayətlənməyən, mənfur siyasəti ilə, insan talelərini məhv edən, yarımçıq qoyan, əhalini doğma yurd-yuvasından didərgin salan, ayrıseçkilik salaraq milli ədavəti qızışdıran zalımı müasir dünya liderləri Co Bayden, Antonio Quterreş, Boris Conson və başqaları ağızdolusu tərifləyirlər. Nobel fondunun onu Sülh mükafatına təqdim etməsi beynəlxalq aləmin başverən hadisə və prosesələrə qeyri-adekvat münasibətini göstərir. Münaqişə və müharibələrə səbəb olan fitnə-fəsad, qarşıdurma layihələri nümayəndələrini Mixail Qorbaçovun simasında sülhsevərlik, cəsarət, qəhramanlıq, uzaqgörənlik kimi qələmə vermək (https://modern.az/dunya/365752/dunya-liderleri-qarbacov-haqqinda-neleri-danisdilar), parçalanmaları birləşmə, ayrıseçkiliyi azadlığın müdafiəsi kimi göstərmək səyləri az qala postmodernin trendi olmuşdur. Dünyadakı nisbi sülh dövrünü "soyuq müharibə", ondan sonrakı lokal müharibələrin davam etdiyi zamanı isə "sülh dövrü" adlandırmaq nəqədər doğrudur? Reallıqda "soyuq müharibə" (1945-1985) dövrü ilə son 40 ilin (1985-2025) statistik göstəriciləri arasındakı fərqin araşdırılması kifayətdir ki, əsl gerçəklik meydana çıxsın. "Soyuq müharibə" yalnız bir fobiya idisə, pandemiya və müasir lokal müharibələr itkilərin miqyası və nəticələrinə görə III dünya müharibəsindən xəbər verir.

1.1.1. Doğru söz

Tədqiqat və müşahidələr göstərir ki, dünyadakı hadisə və prosesləri (eləcə də sülhü və hərbi) tənzimləyən vasitə yalnız fəaliyyət deyil, həm də sözlərdir. Şüurun varlığı doğru inikas etdirməsi məsələnin yalnız bir tərəfidir. İnformasiyanın doğru, qərəzsiz çatdırılması da çox vacibdir. Bəzən bilərəkdən və ya bilməyərəkdən "qatığa qara demək" yalnız deyənin və inananların aldanışı deyil, bütövlükdə cəmiyyətin fəlakətidir. Xüsusilə indi, süni intellekt əsrində verilənlər bazasının doğru yüklənməsi, şəffaf, qərəzsiz informasiya və ondan səmərəli istifadə olunması olduqca vacibdir.

İdentikliyin və mədəniyyətin diplomatik münasibətlərə təsirindən bəhs edərkən, məhz insanın fitrəti və universal dəyərlərə münasibətini xüsusi vurğulamaq lazımdır. Çünki bu iki fərdi və ictimai mövqe bir-birini təsirləndirən və tamamlayan faktorlardır. Təsadüfi deyil ki, 2009-cu ildə Davos Dünya İqtisadi Forumunda R.T.Ərdoğanın Şimon Peresə müraciəti beynəlxalq münasibətlərdə dönüş nöqtəsi oldu. Məqamında cəsarətlə söylənən doğru söz tərəqqipərvər bəşəriyyətin diqqətini R.T.Ərdoğana və Türkiyəyə yönəltdi. Sonrakı hadisələr beynəlxalq aləmə yaxşı məlumdur.

1.1.2. Seyrçi BMT

Lissabonda dünyaya göz açmış, məktəb və tələbəlik illərindən öz yaşıdlarından fəallığı ilə seçilən Antonio Manuel de Oliveira Guterres ikinci dəfə Portuqaliyanın baş naziri seçildiyi, habelə Avropa Şurasına sədrlik etdiyi zaman sərhədləri aşan çağırışları ilə diqqətləri özünə çəkə bilmişdi. O deyir ki, "Qlobal çağırışlar qlobal həllər tələb edir. Xeyirxahlıq iddiası kifayət deyil, biz fəaliyyətimizi qatdığımız əlavə dəyərlərlə sübut etməliyik. (Guterres, 09/Annual-report-SG-2019-EN-Chapter)

Quterreş hansı dəyərləri nəzərdə tutur? O, 2001-ci ildə yerli seçkilərdə uduzduqdan sonra "ölkənin siyasi qarışıqlığa düşməsinin qarşısını almaq" üçün istefa vermişdi. Bu bəlkə də o zaman doğru qərar idi. Lakin Avropa Şurasına sədrlik etdiyi elə o dövrdə, Quterreşin narkotik istifadəsinin dekriminallaşdırılması və eynicinsli birliklərin leqallaşdırılması kimi radikal addımlarını birmənalı qəbul etmək çətindir. Anormallığı normala çevirmək insanlığa yaxşı nə qazandıra bilər? 17 istiqamət üzrə davamlı inkişaf məqsədlərinin həyata keçirilməsinə rəğmən dünyada 350 milyon insan hələ də aclıqdan əziyyət çəkirsə, qlobal istiləşmə və biomüxtəlifliyin kəskin azalmasına qarşı tədbirlər zəifdirsə, niyə ölkələr sülhə və əminamanlığa deyil, silahlanmaya bu qədər pul ayırırlar? BMT öz funksiyasını icra etmək əvəzinə cəmiyyətə yeni dəyərlər əlavə etməklə insanlığa yaxşı nə qazandırır? Dünyanın ali

səlahiyyətli orqanı olan BMT rəhbərliyi də müasir durumdan şikayət edərək, hadisə və proseslərə seyrçi qalırsa, sadə vətəndaşlar nə edə bilərlər? BMT hər hansı bir qərar qəbul etsə də, etməsə də nəticə dəyişmir. Məzlumun yanında olub onu müdafiə etməli beynəlxalq qurum zalımın zülmünə göz yumursa, büdcədən maaliyyələşən belə təsisatlara nə ehtiyac var?

1.1.3. Uğur düsturu

Avestada uğurun təməlinin xeyirli fikir, xeyirli söz və xeyirli əməl olduğu vurğulanır. Quranda buyrulur ki, insan xeyir və şərlə imtahan olunur, həyatı və ölümü ilə tanınır. Məsələ olmaqda və ya ölməkdə deyil, doğru düşüncədə, doğru sözdə və doğru əməldədir. Doğru təlimatı oxumadan avadanlığı funksiyasına müvafiq işlətmək mümkün olmadığı kimi, Yaradanın kitabını oxumadan doğrunun nə olduğunu bilmək, insanlıq funksiyasını anlamaq çətindir. Müasir insan yalnız öz bilik və təcrübəsinin, əməyinin məhsulu olduğunu zənn edir. O, əslində varlığın qlobal təsirinə məruz sadəcə bir ünsür olduğunu unudur. Ona qüvvət verən, kainatın qapılarını açan səbəb oxuyub öyrənmək, diqqət və müşahidə, aydın idrak, obyektiv təhlillə yanaşı, riyakarlıqdan uzaq olmaqdır. Azərbaycan şairi M.Ə.Sabir demişkən, “Pisi pis, əyrini əyri, düzü həmvar” görmək və bəyan etməkdir. Quran (2/59, 7/162, 50/29) şahidliyə xüsusi önəm verir, doğru sözü dəyişdirməyi, ədalətsizliyi, şirki zülm hesab edir. Bəqara surəsində buyrulur: “Zülm edənlər onlara deyilən sözü başqa bir sözlə dəyişdirdilər.” (Quran, 2/59, 7/162, 50/29)

1.1.4. İdentifikasiya

Çin dilindəki "Zhonghua minzu" anlayışı (中华民族): Çindəki bütün etnik qrupları bir siyasi birlik çərçivəsinə yerləşdirən ideoloji termindir. Çinli identikliyi həm dominantlıq, həm də müxtəliflik üzərində qurulmuşdur. Ənənəvi mədəniyyət, siyasi ideologiya və müasirlik bu identikliyi formalaşdıran əsas amillərdir. 19-cu əsrin sonları və 20-ci əsrin əvvəllərində Bu anlayış ilk dəfə milli modernləşmə cəhdləri zamanı, xüsusilə Qing sülaləsinin son dövrlərində və Sun Yat Senin dövründə ortaya çıxaraq Çin Kommunist Partiyasının hakimiyyəti dövründə milli həmrəylik və vətənpərvərlik üçün birləşdirici konsept kimi istifadə olunur. Digər tərəfdən bu anlayış Uyğur, Tibet və digər etnik qrupların assimilyasiyasını sürətləndirmək məqsədi daşıyır. Onlar öz mədəni və dini kimliklərini qorumaqda çətinlik çəkirlər. Uyğur dili və İslam dini qadağan edilir, məktəblərdə Çin dili və "vətənpərvərlik” dərsləri keçilir. “Yenidən tərbiyə düşərgələri” adlandırılan sistem vasitəsilə minlərlə uyğur bu vahid identiklik çərçivəsində "yenidən formalaşdırılır”. Bu, beynəlxalq ictimaiyyət tərəfindən etnik və dini repressiya kimi qiymətləndirilir.

Tarixi saxtalaşdırma və dəyərlərin süni identifikasiyası cəmiyyətə yaxşı heçnə vəd etmir. Beynəlxalq aləmdə “dəyərlərin yaradılması” pedaqogikası özünü doğrultmur, əksinə, kökə qayıdış, milli-mənəvi dəyərlərə, identikliyə söykənən türk-müsəlman mədəniyyətinin dirçəldilməsi insanlığın çöküşünü qismən ləngitdi, haqqın, ədalətin zəfərinə inamı ölməyə qoymadı. TDT-nin fəaliyyəti postmodern anomaliyalardan əziyyət çəkən dünya üçün yeni nəfəs oldu. TDT liderləri şəxsi identiklikləri, eləcə də mənsub olduqları milli-mənəvi dəyərlərlə qloballaşan dünyaya, müasir mədəniyyətə töhfələr verdilər.

Doğruluğa və ədalətə əsaslanan TDT təcrübəsi göstərdi ki, “Sivilizasiyaların toqquşması”nın qarşısını liderlərin dostluğu, insanların ünsiyyəti ala bilər. Müasir dövrdə identiklik və mədəniyyətin diplomatik münasibətlərə təsirini xüsusilə Türk dövlətləri birliyi və Pakistanın simasında görmək olar. Diplomatik münasibətlər yeni mədəni dəyər və normalar mübadiləsinə, eyni zamanda yeni fərqli identikliklərə yol açır. Nəticədə bəşəriyyət üçün yeni tarixi dönüşün təməli qoyulur.

1.1.5. Yeni zəmin

“Altılıq” platforması” Türkiyə və Azərbaycan əlaqələrində yeni regional perspektivlər ortaya qoyur. Təsadüfi deyil ki, “3+3” formatı ölkələri ərazisinə görə dünyada birinci, 331 milyon nəfər əhali sayı ilə 3-cü yerdədir. Dünya neft ehtiyatlarının 14,7 faizi, təbii qaz ehtiyatlarının 42,1 faizi “3+3” bu ölkələrdədir. Yeni format təkcə siyasi təhlükəsizlik deyil, həm də iqtisadi baxımdan böyük potensial vəd edir. Xüsusilə qarşılıqlı sərmayə qoyuluşu, sənaye, aqrar və xidmət sektorunda əməkdaşlıq imkanları

Социолингвистическая ситуация в Согдийской области представляет собой пример гармоничного сосуществования нескольких языков в условиях исторически сложившейся многоэтничности.

Для региона характерны устойчивый билингвизм, функциональное распределение языков по сферам общения и высокая адаптивность населения к многоязычной среде.

Дальнейшее развитие Согдийской области требует поддержки многоязычного образования, сохранения культурного разнообразия и создания условий для равноправного функционирования всех языков, присутствующих в регионе.

После обретения независимости Республики Таджикистан в 1991 году внимание к языковым вопросам усилилось. В школах с узбекским языком обучения сокращалось количество часов родного языка и литературы, что вызвало определённую тревогу в узбекоязычном сообществе.

Тем не менее, узбекские СМИ, литература и фольклор продолжают играть заметную роль в культурной жизни региона. Появляются двуязычные публикации, усиливается интерес к сравнительно-лингвистическим исследованиям таджикско-узбекских контактов.

Современные тенденции свидетельствуют о необходимости сохранения языкового разнообразия. Развитие тюркских языков в Северном Таджикистане возможно при активной государственной поддержке двуязычного образования, издания учебников, и сохранения фольклора.

В перспективе важно формирование языковой политики, направленной на гармонизацию межэтнических отношений и укрепление статуса тюркских языков как части культурного наследия страны.

Сегодня тюркские языки представляют собой одну из крупнейших языковых семей мира, объединяющую более 180 миллионов носителей. Их история — это не только история языков, но и история формирования целого культурно-цивилизационного пространства Евразии.

Тюркские языки в Северном Таджикистане представляют собой неотъемлемый элемент историко-культурного ландшафта региона. Их развитие обусловлено сложным комплексом исторических, этнических и социолингвистических факторов. Сохранение и поддержка этих языков имеет важное значение для межкультурного диалога и национального единства Таджикистана.

Список литературы

1. Ethnologue: Languages of the World. — 2024 Edition.
2. Ethnologue: Languages of the World. — 2024 Edition.
3. Fishman, J. A. Sociolinguistics: Language and Society. — New York, 1997.
4. Johanson, L. The Turkic Languages. — Routledge, 2021.
5. Бартольд В. В. Туркестан в эпоху монгольского нашествия. — М., 1963.
6. Бартольд, В. В. Туркестан в эпоху монгольского нашествия. — М., 1963.
7. Государственный комитет статистики Республики Таджикистан. Демографический ежегодник, 2023.
8. Государственный комитет статистики Республики Таджикистан. Демографический ежегодник. — Душанбе, 2023.

9. Кашгари М. Диван лугат ат-турк. — Стамбул, 1915 (факсимиле).
10. Кононов А. Н. Грамматика современного турецкого языка. — Л., 1956.
11. Назаров, Р. Исторические контакты таджикского и узбекского языков. — Душанбе, 2005.
12. Нематова С. История тюркских языков и письменностей. — Ташкент, 2019.
13. Нематова, С. Языковая ситуация в Северном Таджикистане. — Душанбе, 2019.
14. Сиддиков, А. Таджикско-узбекский билингвизм в социокультурном контексте. — Худжанд, 2021.
15. Сиддиков, А. Узбекский язык в Таджикистане: современное состояние и перспективы. — Душанбе, 2017.

Rena Mirzazadeh
Doctor of Philosophical Sciences, Professor
Head of the Department of Philosophy of the Politics,
The Institute of Philosophy and Sociology of ANAS
e-mail: mirrena54@yahoo.com
https://orcid.org/:0000-0002-6250-1826A

Soverign Azerbaijan and China in political-cultural relations: the belt and road iniative as a framework for geostrategic and geoeconomic-trade cooperation

Abstarct

In 2013, the Government of China proposed a large-scale project called the "Belt and Road Initiative", which is one of the main projects that can stimulate global economic development, intercultural dialogue, and mutual confidence among nations. Azerbaijan has a long history of cooperation with China through the Silk Road. Azerbaijan also plays a geostrategic and geoeconomic role in implementing the "Belt and Road Initiative", including major transit corridors and investment projects such as the Baku–Tbilisi–Kars railway and the Baku International Sea Trade Port.

Keywords: Sovereign Azerbaijan and China, Belt and Road Initiative, political-cultural geostrategy, geoeconomic and trade relations.

Introduction

The "Belt and Road Initiative" might redraw the globe’s layout this century - it's a major collaboration hub shifting power and cultural ties across regions. For Azerbaijan, joining this worldwide effort matters not just for strategy or cash flow, but also shapes how it builds global connections down the road.

The project wants to bring back the old Silk Road, linking Europe to East Asia instead. Covering around 65 nations, it might influence how the world’s economy works over the coming five decades somehow. Originally named by Ferdinand von Richthofen in the 1800s, the route actually started under Emperor Wu Di’s rule then grew into a key path for commerce, political ties, ideas, besides faiths like Buddhism, Islam, or even Christianity.

Azerbaijan mattered a lot in history because it sat in a crucial spot - places like Karabakh, Nakhchivan, Ganja, Shamakhi, or Baku became busy trading hubs. By the 1300s and 1400s, that path faded since sea routes opened up, wars flared, while power shifts messed things up. Still, today, China's massive investment plan is breathing life into old trade ideas using updated links and fresh construction.

I. **The belt and road iniative**

The modern push - first called “One Belt, One Road” - started in 2013 as a worldwide plan for building roads, ports, and railways across around 70 nations. Since then, it's become a key part of China’s

overseas goals under leader Xi Jinping; he introduced the idea of the Silk Road Economic Belt during a trip to Kazakhstan that same year.

The "belt" means overland routes, whereas the "road" stands for sea pathways. This plan covers big projects like harbors, train lines, roads, airfields, energy plants - backed by China's top legal framework since 2017. Full delivery aims for 2049.

Azerbaijan sits right on a key route linking China with Central and West Asia. The Baku–Tbilisi–Kars rail line, alongside upgrades at Alat Port, shows how vital it is. While one boosts cross-regional transport, the other strengthens sea connectivity. So, infrastructure moves ahead here faster than in neighboring areas. Because location matters, investments keep flowing into these transit hubs.

II. Reasons behind China's long-term partnership strategy

China wants to bring back old trade paths once used on the Silk Road, while boosting business ties across regions. It also gives money support to countries joining in - helping shift how world commerce flows. Azerbaijan is part of this plan because it sits in a key spot on the map. Its role makes sense not just now, but years ahead.

Xi Jinping highlighted Azerbaijan's role, saying it's a major ally across Eurasia - part of Beijing's push to renew ancient trade paths. Instead of just relying on old corridors, China backs the Trans-Caspian link to move more goods through Azerbaijani territory.

III. Azerbaijan's contributions to the initiative

Azerbaijan jumps into worldwide transport routes, thanks to Heydar Aliyev's push for connections. Back in '98, the TRACECA meet set ground rules for moving goods across Eurasia.

Azerbaijan runs key transport spots like Baku's sea port, the BTK train route, plus trade lanes from east to west and north to south - making it a go-to spot for cargo moves. Upgraded runways, ships, and rail lines also boost its standing.

Azerbaijan stood out as the sole South Caucasus nation at the Second Belt and Road Forum. While speaking, President Aliyev highlighted how his country poured money into up-to-date transport systems. Despite having no sea access, it still links worldwide routes. Its role? A key crossover point shaped by smart upgrades.

IV. The trans-caspian trade and transit corridor

The Trans-Caspian route picked up speed once the Caspian Sea's legal standing was cleared up. Instead of relying on old paths, Europe now taps into diverse supplies through the Southern Gas Corridor, boosting its energy safety. Thanks to changes within the region and calmer conditions, businesses see Azerbaijan as a go-to hub for moving goods across continents.

V. The significance of bri for Azerbaijan

The Middle Corridor could spark huge economic gains, while Azerbaijan stands to earn a lot through transport fees. This move boosts links with China - not just in business but also in tech, security, schools, and more - thanks to deeper cooperation.

Azerbaijan's role on the world stage is getting stronger, boosting its spot as a key link from East to West. Business ties are expanding - particularly in farm goods - with local firms joining big Chinese trade events now and then

Conclusion

The Belt and Road project boosts Azerbaijan's economy, builds political strength, also deepens ties in global trade. Upgraded transport systems plus easier border checks improve cargo movement; working closer with China opens new income paths beyond oil reliance. Back then, the Silk Road changed how people lived, traded, worked. Sitting right in the middle, Azerbaijan still plays a key part today - not just repeating the past but moving forward with fresh connections, different nations joining through updated routes.

References
1. President.az. Ilham Aliyev Participates in the Second Belt and Road Forum in Beijing.
2. Hüseynov, Rusif. “A New Breath for Armenia? The North–South Corridor.”
3. Wikipedia: Belt and Road Initiative.
4. Şərifli, Yunis. “Azerbaijan and the Belt and Road Initiative.”
5. The Economist. “The Pandemic Is Hurting China’s Belt and Road Initiative.”
6. China Daily/Xinhua News Agency. “President Xi Proposes the Silk Road Economic Belt.”
7. Calabrese, John. “Setting the Middle Corridor on Track.”
8. The Guardian. “What Is China’s Belt and Road Initiative?”
9. Kətanov, Rabil. “Azerbaijan and China’s Belt and Road Initiative.”
10. President.az. Second Belt and Road Forum.
11. AZERTAC. World Economic Forum session in Davos.
12. Azerbaijan Newspaper. President Aliyev’s State Visit to China.

Yasəmən Mahmudova Qaraqoyunlu
fəlsəfə üzrə fəlsəfə doktoru, dosent
AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutu
Türk xalqlarının fəlsəfi fikir tarixi və müasir
fəlsəfəsi şöbəsinin əməkdaşı
Email: yasemen.qidm@yahoo.com
ORCİD 0000-0003-0079-5125

Türk dünyası diasporunun vizyonu: Türk Dövlətlər Təşkilatından Türk Birləşik Dövlətlərinə keçiş

Xülasə.

TDT-nın “2040 Türk dünyası Vizyon Bəlgəsi”çərçivəsində Türk Dünyasında Siyasi, iqtisadi, Gömrük, Nəqliyyat, Turizm, İnformasiya və Media, Gənclik və Spor, İnformasiya texnologiyaları, Enerji, Köç və Miqrasiya, Səhiyyə, Əkinçilik, Məhkəmə, İnsan qaynaqları və İnkişafı, Müsəlman dini qurumları arasında birlik, beynəlxalq təşkilatlar sahəsində iş birliyinin qurulması, Ortaq stratejinin yeridilməsini qarşıya məqsəd qoyan “Türk Diaspora Ortaq Fəaliyyət stratejisi” qəbul edilmişdir. Türk Dünyasının inkişafı və birliyi məqsədilə son illərdə qlobal bir aktora çevrilmiş diaspor gücündən səmərəli istifadə edilməsi qərara alınmışdır. Bu məqsədlə Türk Dünyası diaspor fəaliyyətlərinin əlaqələndirilməsi, ortaq iş, ortaq vizyon, ortaq təşkilatların qurulması istiqamətində ciddi addımlar atılmış, TDT, TÜRKSOY,TÜRKPA, Türk Akademiyası, Türk Kültür və Miras Vakfı kimi təşkilatlar qurulmuşdur. Məqsəd TDT-dan Türk Birləşmiş Dövlətlərinə keçid prosesini sürətləndirməkdir.

Açar sözlər: Türk dünyası, diaspor, TDT, diferensasiya, inteqrasiya.

Yasaman Mahmudova Garagoyunlu
PhD in Philosophy, Associate Professor, Institute of Philosophy
and Sociology, National Academy of Sciences of Azerbaijan
Staff member of the Department of the History of Philosophical
Thought and Modern Philosophy of Turkic Peoples

The Vision of Turkich World Diaspora: Transition from Turkich World Organization to Turkich United States

Resume

Within the framework of the TWO's "2040 Turkic World Vision Document", the "Turkish Diaspora Joint Action Strategy" was adopted, which aims to implement a common strategy in the Turkic World in

the areas of politics, economy, customs, transport, tourism, information and media, youth and sports, information technologies, energy, immigration and migration, health, agriculture, judiciary, human resources and development, unity among Muslim religious institutions, establishment of cooperation in the field of international organizations.

It was decided to effectively use the power of the diaspora, which has become a global actor in recent years, for the development and unity of the Turkic World.

For this purpose, serious steps have been taken towards coordinating the activities of the Turkic World diaspora, establishing joint work, a common vision, and joint organizations, and organizations such as TWO, TURKSOY, TÜRKPA, the Turkish Academy, and the Turkish Culture and Heritage Foundation have been established.

The goal is to accelerate the transition process from the TWO to the United Turkic States.

Key words: Turkich world, diaspora, TWO, diferensation, integration.

Xalqlar da coşqun sular kimi, dəryalar, dənizlər kimidir. Tarixin müxtəlif mərhələlərində qabarmaları, çəkilmələri olur. Uzun susqunluq və zahiri sükutdan sonra növbə mütləq türküdü, bu şansdan istifadə etmək, onu fövtə verməmək gərəkdir. Süquta uğrayan xalq həmişəlik məhvə məhkumdur. XX əsrin sonu, yeni yüzilliyin başlanğıcı türkün yeni intibah, tərəqqi illəridir.

Sancar Mülazimoğlu. TÜRKSOY.

Giriş

Qloballaşan dünyada aktual hesab edilən, daha çox etnik-milli xarakter daşıyan terminlərdən biri də diaspor fenomenidir. Bu anlayışın hərtərəfli təhlili informasiya axınının gücləndiyi və miqrasiya proseslərinin intensiv xarakter daşıdığı müasir dövrdə vacib əhəmiyyət kəsb edir. Bu gün Türklərin qədim və böyük mədəniyyəti Orxon-Yenisey, Qobustan, Anadolu abidələrində, "Dədə Qorqud", "Manas", "Koroğlu" dastanlarında, ölməz saz-söz sənətində, Daşkənd, Səmərqənd, Buxara, Almatı, Dərbənd, Şamaxı, Bakı, Gəncə, Şəki, Ərdəbil, Təbriz, İstanbul, Tarsus, Ərzurum, Trabzon, Ankara, Kərkük kimi əski şəhərlərin simasında yaşayır. Sadəcə olaraq ortaq işbirliyi, ortaq strateji, ortaq təşkilat, ortaq kültür-sənət birliyi yaratmaq gərəklidir ki, çağdaş dövrümüzdə gündoğandan günbatanacan səpələnən eyni soylu, eyni köklü xalqı birləşdirə bilsin. "Əgər, Dədə Qorqud, "Manas", "Koroğlu" "Oğuz" dastanları bütün Türklərindisə, Mövlanə Rumi, Yunis Əmrə, Qul Nəsimi, Qul Hümmət, Abdal Musa, Şeyx Bedrəddin, Füzuli, Əlişir Nəvai, Qaracaoğlan, Məhdimqulu, Abay, Əhməd Yəsəvi, Hacı Bektaş Vəli, Şeyx Şabani Vəli, İbrahim Hakkı, Pir Sultan Abdal, Şah İsmayıl, Dadaloglu, Dədəmoğlu, Sarı Saltuk, Qələndəroğlu, Baba İlyas, Aşıq Dərtli, Gövhəri, Karacaoğlan, Oljas Süleymanov, Bəxtiyar Vahabzadə, Şəhriyar, Çingiz Aytmatov, Turan Yazqan, Nihal Adsız, Ə. Elçibəy, Sabir Rüstəmxanlı və minlərlə Türk dilində yazıb yaradan fikir adamlarının hər biri türküdürsə, milli düşüncə, milli bilinc eyni kökdən qaynaqlanırsa, Türk Dünyası bir bütündür. Türk Birliyini bu ana kök, ana qaynaq üzərində yenidən inşa etməliyik.

Diaspor Anlayışı və mahiyyəti.

Siyasi lüğətlərdə diaspor anlayışı yunan dilində "dia" söz önü ilə "speirein" sözünün birləşməsindən əmələ gəldiyi, səpələnmə, dağılma, yayılma, xalqın və ya etnik birliyin müəyyən hissəsinin yaşadığı ölkədən xaricdə olması mənasını ifadə etdiyi qeyd edilməkdədir.[157] Tədqiqatçılara görə, antik yunan əsatirlərində, Heredotun və Sofoklun əsərlərində rast gəlinən "diaspor" termini əvvəllər pulu səpələmək, ordunu yaymaq mənasında işlənmiş, sonralar isə daha geniş məna kəsb etmişdi. [158]

[157] https://ansiklopedi.tubitak.gov.tr/ansiklopedi/diaspora#:~:text=Ayn%C4%B1%20yerden%20farkl%C4%B1%20yerlere%20g%C3%B6%C3%A7,%E2%80%9Czorunlu%20g%C3%B6%C3%A7%E2%80%9D%20temel%20kriterdir.

[158] http://anl.az/down/meqale/olaylar/2014/aprel/363296.htm

Bu termin ilk dəfə İudaizmin müqəddəs kitabı Bibliyanın yunan dilinə tərcüməsində insanların, etnik qrupların səpələnməsi mənasında işlənib. Bu anlayış ərəbcə "calayi-vətən" adlanır, vətənini tərk edən, öz el-obasından kənarda məskunlaşan anlamını daşıyır. Bu anlayışa ikili baxış mövcuddur: Birincisi, diaspor könüllü miqrasiya, rahat şərait qurmaq üçün yerdəyişmə, ticarət məqsədi və s. məqsədlər üçün vətənindən kənara üz tutan şəxsləri əhatə edir; İkincisi, diaspor məcburi miqrasiya, genosid təhlükəsi, iqtisadi və coğrafi kataklizmlərin təsiri nəticəsində əmələ gələn hadisə hesab edilir. [159]

Diaspor anlayışı ilk dəfə e.ə. VI əsrin əvvəllərində yəhudilərin Babilistan padşahı II Navuxodonosor və sonralar isə bizim eranın I-II əsrlərində Romalılar tərəfindən qovulması, İsrail torpağının Roma imperiyasının əyalətlərindən birinə çevrilməsi nəticəsində, Fələstindən kənarda yaşamaları ilə əlaqədar işlənib. e.ə.586-cı ildə babillər Yehudeya çarlığını fəth etdilər, Yerusəlim Məbədini dağıtdılar və ölkə sakinlərinin əksəriyyətini əsir apardılar. Bununla da Babilistan əsarəti yəhudi dövlətçiliyinin birinci mərhələsinə son qoydu, amma yəhudi xalqı İsrail torpağı ilə əlaqəsini kəsmədi. Babilistan çarlığında yəhudilər doğma torpaqlarını yaddan çıxarmamağa and içdilər: "Əgər mən səni unutsam Yerusəlim, qoy mənim sağ əlim qurusun, əgər Yerusəlimi öz sevincimin zirvəsinə yüksəltməsəm qoy dilim qırtlağıma yapışsın. Məbədin dağıdılması (b.e.ə.586-cı il) və bunun ardınca sürgün yəhudi diasporunun başlanğıcını göstərir. Elə o vaxtdan da yəhudi dini İsrail torpağından kənarda yəhudi diasporunun fəaliyyətin-də dini sistem və həyat tərzi kimi inkişaf etməyə başlayıb". [160]

Rus tədqiqatçısı N.Lebedeva diaspor termininin çərçivəsini daha da genişləndirir və "diaspor" anlayışının qədim zamanlardan mövcud olduğu-nu yazır. Bu termini dünyaya təzyiq nəticəsində səpələnmiş insanlara, köçürülmüş xalqlara (yəhudi və Afrika qullarına), ticarətlə məşğul olanlara (Cənub-Şərqi Asiyaya İslamı gətirən ərəblərə) və əməkçi miqrantlara (Böyük Britaniya imperiyasının hindlilərə) aid edir Sonralar miqrasiya proseslərinə yeni baxış, miqrantların müxtəlif tipi üzrə "diaspor" anlamının klassik formasını rədd etdi və yeni, müasir "diaspor" anlamı yarandı.[161] Eyni zamanda, tədqiqatçı alim müasir formanın varlığını xarakterizə etmək üçün öz tədqiqatında "diaspor" termini ilə yanaşı "beynəlxalq icma" terminini də işlətməyi təklif edir. Diaspor tədqiqatçılarından olan V.Tişkova görə isə "diaspor xidmət, müqavimət və intiqamın siyasi missiyasıdır. Diaspor əsasən mənşə ölkəsinin donorluğu hesabına yaranır. Ölkədən çıxış yoxdursa, diaspor yoxdur. Tədqiqatçı qeyd edir ki, "diaspor hər şeydən əvvəl siyasi, eyni zamanda, sosial miqrasiyadır. Diasporun yaranmasının əsas açarı isə etnik icma deyil, milli dövlətdir" [162] Başqa sözlə, diaspor etnik qruplardan fərqli olaraq özündə təkcə etnik mədəniyyəti deyil, həm də etnik siyasi məz-munu da daşıyır. Diaspor kontekstində tez-tez baxılan məsələlərdən biri də xarici mənşəli, lakin əsrlərlə ölkədə yaşayan xalqlardır. Bunlara yəhudi, alman, polyak və s. xalqların nümayəndələrini aid etmək olar.

Bununla bağlı V.Tişkovun fikirləri böyük maraq doğurur. O yazır: "Ölkənin diasporlaşması prosesi mütləq dayandırılmalıdır. Ölkədə yaşayan və onun vətəndaşları sayılanlar diaspor ola bilməz. Məsələn, Moskvadakı tatar və çeçen icmaları diaspor sayıla bilməz".[163]

Buna paralel olaraq qeyd edə bilərik ki, İran (Cənubi Azərbaycan) və ya Gürcüstan ərazilərin-də (Borçalı mahalı) tarixən yaşayan azərbaycanlılar diaspor sayıla bilməz, ona görə ki, onlar bu ərazilərə köçməmiş, bura onların etnik-tarixi, ata-baba yurdlarıdır. [164]

[159] https://ytb.gov.tr/haberler/diaspora-kulturel-iletisim-ve-var-olmanin-yansimalari#:~:text=2.,tamamen%20yay%C4%B1lmak%2C%E2%80%9D%20anlam%C4%B1na%20gelmektedir.
[160] *Ages A. "The Diaspora: Origin and Meaning"*.
https://web.archive.org/web/20180612223530/https://link.springer.com/chapter/10.1007%2F978-94-010-2456-3_1
[161] http://anl.az/down/meqale/olaylar/2014/aprel/363296.htm
[162] http://static.bsu.az/w8/Tarix%20ve%20onun%20problem/2013%20%20%202/seh.412-416.pdf
[163] http://static.bsu.az/w8/Tarix%20ve%20onun%20problem/2013%20%20%202/seh.412-416.pdf
[164] http://static.bsu.az/w8/Tarix%20ve%20onun%20problem/2013%20%20%202/seh.412-416.pdf

Rusiyalı tədqiqatçısı T.Poloskova diaspor konsepsiyası məsələsinə toxunaraq aşağıdakı əla-mətləri diasporlar üçün səciyyəvi hal hesab edir. Etnik identiklik, Mədəni dəyərlər və sosial-mədəni antitezanın etnik və mədəni kimliyin qorunmasında əks olunması.

Diaspor konsepsiyası üçün zəruri olanlardan biri də diasporların genezisi faktorlarının təhlil edilməsidir. Buradan belə nəticə əldə etmək olar: "Diaspor mədəni fenomen kimi şəxsiyyət və sosioloji mövqedən yaranır". [165] Deməli, diaspor probleminə bu nəti-cədən irəli gələrək iki aspektdən baxa bilərik. Xüsusi tarixi fenomen kimi, düşünülmüş həyat tərzinin seçimi kimi. Lakin bu məsələdə yaddan çıxarmamalıyıq ki, təcrübədə "endo diaspor" və "ekzo diaspor" anlayışları mövcuddur. Endo diaspor ölkədən köç etmiş insanları bildirir. Ekzo - diaspor isə heç bir zaman vətənində yaşamayan insanlar anlayışı deməkdir. Endo - diaspor ilk vaxtlar mühacirət edən və ölkəsilə əlaqəni itirməyən insanların nəvə-nəticələridir. Bu fərqlər isə hər iki endo və ekzo diasporlar arasında olan qurumlar və təşkilatlar arasında da özünü büruzə verir. [166]

V. Şnirelman "Diaspor mifləri" adlı məqaləsində "diaspor" anlayışını belə xarakterizə edib: "Diaspor anlayışını mən insanların xoşagəlməz şərait-müharibə, aclıq, zorakı deportasiyalar nəticəsində səpələnməsi kimi başa düşürəm. Bu proses insanlarda milli hisslərin tapdanması, utancaqlıq, təhqir olunma ilə müşayiət olunur və onlara psixoloji baxımdan ağır zərbə vurur"[167]

Diaspor anlayışının mahiyyətini açıqlamağa çalışan tədqiqtçılar klassik və modern anlayışlardan bəhs edirlər. Klassik anlayış savaşlar və işğallar nəticəsində öz ana yurdlarından köç etdirilmiş, öz vətənlərindən sürgün olunmuş etnik-milli qrupların dünyaya səpələnməsi və icma şəklində yaşamaları və təşkilatlanmaları bildirirsə (yəhudi diasporları kimi), modern anlayışa isə qloballaşma, əmək miqrasiyaları nəticəsində formalaşmış diasporlar daxildir.[168] Yəni diaspor anlayışının mənası siyasi, iqtisadi və sosial dəyişikliklər nəticəsində zaman keçdikcə dəyişməyə başlamışdır. Diasporun klassik izahını verən Safrana görə bir topluluğun diaspor ola bilməsi üçün bəzi xüsusiyyətlərə malik olması zəruridir. Bunlar; ana vətənlərindən iki və ya daha çox bölgələrə dağılmış; ana vətənləri (fiziki-coğrafi mövqe, tarix və ya uğrlar) haqqında ortaq bir hafizə, vizyon mifi, gələcək təsəvvürü, sürdürən; getdikləri ölkə xalqları tərəfindən qəbul edilmədiklərindən və edilməyəcəyini bildiklərindən, yadlaşdıqlarına və ötəkiləştirildiklərinə inanan; bir gün şərtlər uyğun olduğunda ana vətənlərinə geri dönəcəklərini düşünən; bir gün ana vətənlərini qorumağa və bərpa etməyə, təhlükəsizlik və rifahına nail olacaqlarına inanan, ana vətənləri ilə bağları və əlaqələri müxtəlif şəkillərdə davam edən etnik-tarixi və ictimai şüurları və həmrəylikləri olan cəmiyyətlərdir. [169] Klassik diaspor anlayışına görə diaspor, köç etmək məcburiy-yətində qalaraq dağılan və geri dönmənin bir mif olduğunu bilən qruplardır. Bu xüsusiyyətləri özündə ifadə edən Yəhudi, Erməni, Fələstin diasporları klassik diaspor qruplarıdır. Yəni ki, diaspor üzvləri ilə köç edərək yaşadıqları ölkə xalqları ilə bütünləşmənin olmadığı, əksinə aralarında siyasi, etnik, tarixi, kültürəl sərhədlərin olduğu görünməkdədir. Klassik diaspor anlayışının təməlində ana vətənə qayıtma istəyi ilə bərbər, yurdsuz qalmanın verdiyi acı, uyğunlaşmaq prosesinin gətirdiyi çətinliklər ortaq kollektiv bir şüurun meydana gəlməsinə səbəb olur ki, bu da diasporun yaranmasına zəmin olur. [170] Klassik diaspor iki təməl üzərində formalaşmışdır. Ana vətəndən Travmatik qopma. Ana vətənə geri dönüş mifinin zehinlərdə yer tutması. Modern diaspor anlayışını isə Cohen belə xarakterizə etmişdir. Ana vətəndən iş tapmaq, ticarət və ya başqa kolonial məskunlaşma məqsədi ilə yayılmaq; vətənin müxtəlif səbəblərdən yaşanılmaz vəziyyətə düşməsi və ya başqa ölkələrdəki eyni etnik qrup üzvləri ilə empati və ortaq məsuliyyət duygusu; multikulturalizm siyasəti və kültürü olan ölkələrdə özünə məxsus yaradıcı,

[165] https://olaylar.az/news/diaspora/29036
[166]http://static.bsu.az/w8/Tarix%20ve%20onun%20problem/2013%20%20%202/seh.412-416.pdf
[167] http://anl.az/down/meqale/olaylar/2014/aprel/363296.htm
[168]https://ansiklopedi.tubitak.gov.tr/ansiklopedi/diaspora#:~:text=Ayn%C4%B1%20yerden%20farkl%C4%B1%20yerlere%20g%C3%B6%C3%A7,%E2%80%9Czorunlu%20g%C3%B6%C3%A7%E2%80%9D%20temel%20kriterdir
[169] https://www.researchgate.net/publication/323401730On_theDefinition_of_Diaspora
[170] https://www.icmpd.org/file/download/61117/file/MOB ILAZE-2-Diaspora %2520Study_AZ_WEB.pdf

zənginləşdirici bir yaşam sürdürmə mümkünlüyü modern diasporaları yaradan səbəblərdir. Çağdaş diaspor qrupları təbii fəlakətlər, qıtlıq, işsizlik, ana vətəndəki siyasi sistemdən narazılıqlar və.s səbəblərlə ana vətən xaricindəki yer və bölgələrdə yaşayan; daha öncə gedən miqrantları izləyərək ölkə seçimi edən, gedilən ölkədə asimilyasiya olmadan inteqrasiya edilən və güclü bir kimlik bilincinə sahib olan; dağınıq vəziyyətdə olmalarına rəğmən, həm öz içlərində, həm ana vətənlə qurulan əlaqələr vasitəsilə öz kimliklərini, kültürlərini qoruyan və inkişaf etdirən; nəsildən nəsilə öz milli bilinclərini və kimliklərini axtaran, kültürəl, siyasi, dini, peşə dərnək və bənzəri quruluşlarla hem getdikləri ölkədən həm də ana vətənlərindən müstəqil bir sosial quruluş olmağa çalışan qruplardır.[171]

Bəzi tədqiqatçılara görə Diaspor müqəddəs qəbilə toplumuna aid bir ana vətən həsrətində olan, dağılmamış, zorla yurdundan uzaqlaşdırılmış insanların məqsəd birliyindən çox, qarışıq və ya heterogen kimlikləri barındıran keçici və daim dəyişən sosial və kültürəl varlıqdır.

Qloballaşma prosesi ilə artan iş və təhsil fürsətləri də müasir diasporların formalaşmasına səbəb olmuşdur. Göründüyü kimi, klassik diaspora anlayışı Yəhudilərin tarixindən və icma fəaliyyətlərindən, yəhudi, erməni və yunan köçkünlərinin icma formalarından qaynaqlanaraq izah edilməyə çalışılırsa, günümüzdə diaspor köçkün, siyasi qaçqın, qonaq işçi, sürgün cəmiyyətləri, dənizaşırı cəmiyyətlər, etnik-dini qrupların köçü kimi qavramları özündə birləşdirən daha geniş bir mənanı ifadə edir.

Rusiyada işıq üzü görən "Diaspor" Jurnalında qeyd edildiyi kimi, müasir ədəbiyyatlarda diaspor terminindən həddindən çox müxtəlif proseslərin izahında istifadə olunsada, "universallığı" bildirilsədə təyinatı etnik qrupun vətəndən kənarda məskunlaşmasında görünür və "milli icma"nın statusu ilə üst-üstə düşür. [172]

Göründüyü kimi, çağdaş Diaspora qavramı qloballaşmanın genişlənməsi, yayılması və millət dövlətlərin zəifləməsi ilə hər cür köç və dağılma, yayılma nəticəsində ortaya çıxan qrupları və icma fəaliyyətlərini ifadə edir. Son illərdə Diaspor qlobal güclərin siyasi, iqtisadi və kültürəl fəaliyyətlərinin icraçılarına və önəmli vasitələrindən birinə çevrilmişdir.

Müasiri olduğumuz əsrdə prioritet sayılan, XXI əsrdə qloballaşan dünyada funksiyası əhəmiyyətli dərəcədə artan diaspor fəaliyyəti planetin hər yerində aktual məsələyə çevrilmişdir. Artıq Diaspor vətəndən kənarda yaşayan hər bir xalqın sosial-mədəni "milli ordusu" və ya "milli atributu" halına gəlmişdir. [173]

Türk Diferensasiya çağı. Türk Dünyasını gözləyən təhlükələr.

Çindən Adriatikədək geniş sahədə məkan-kültür ilişkisi, zehin hinterlandı, iqlim, topoqrafiya, istehsalistehlak əlaqələri, sosial psixalogiya, inanc, davranış formaları, təbiət və əşyanı qavrama biçimlərinin bir bütünü olan Turan-Türk sivilizasiya Hinterlandı 350 milyon türkün yaşadığı 10 milyon kv.km – lik bir coğrafiyanı əhatə edir. [174]

Türklər, tarix boyu bu coğrafiyada İslam öncəsində və ortaçağ İslam dönəmindən günümüzə qədər çox saylı boy və qolları vasitəsilə - Hun imperatorluqları (Asiya Hunları, Qərb-Avropa Hunları, Orta Şərq Hunları), Tabğac Dövləti, Göytürklər (I Göytürk Xaqanlığı, Şərqi Göytürk Xaqanlığı, Qərbi Göytürk Xaqanlığı, II Göytürk Xaqanlığı), Uyğurlar (Uyğur Xaqanlığı, Kançou Uyğur Dövləti, Şərqi Türküstan Turfan Uygur dövləti), Qırğızlar, Türgişlər, Oğuzlar, Sabar Dövləti, Avar Xaqanlığı, Xəzər Xaqanlığı, Peçeneqlər, Uzlar və Kuman Qıpçaqları, Bulqar- Oğurlar (Böyük Bulqariya, Dunay Bulqar Dövləti, İtil-Volqa Bulqar Dövləti), 14 imperatorluq, 400 irili xırdalı dövlət, xanlıq, bəylik sistemləri qurmuşlar. Orta çağ İslam dönəmində, XVI əsrdən etibarən Türk xalqları geniş coğrafiyalara- Hindistan, orta və ön Asiya torpaqlarına- Anadolu, İran, Ərəb Yarımadası, İndiki Rusiya Torpaqları, Afrika coğrafiyalarına yayldığı üçün bifurkasiya (haçalanma, bir neçə qollara ayrılma) prosesi keçirmiş, Hindistanda Babur, İranda Qəznəvi, Səlçuklu, Elxanlı, Qaraqoyunlu, Ağqoyunlu, Səfəvi, Avşar, Qacar,

[171] https://dergipark.org.tr/tr/download/article-file/621817
[172] http://anl.az/down/meqale/olaylar/2014/aprel/363296.htm
[173] http://anl.az/down/meqale/olaylar/2014/aprel/363296.htm
[174] https://mediaxeberleri.az/index.php?newsid=10117

Anadoluda Osmanlı, Xəzəriin quzeyindən başlamış Volqa-UralSibirə qədər yayılmış Qızıl Orda imperatorluqları quraraq Türk sivilizasiyasını kürəsəl sosio-kültürəl super sistem, kürəsəl güc səviyyəsinə çatdırmışlar.

Abbasilərdən başlayaraq XX əsrin əvvəllərinə qədər Türk Loqosu İslamla sintez olunaraq, unikal Türk-İslam sivilizasiyasını qurmuş və yüksəltmişlər. Türk Loqosu min il sosio-kültürəl super sistem kimi üç qitəyə hökm edən kürəsəl güc olmuşdur. Lakin təəssüflər olsun ki, günümüzə qədər Türk Sivilizasiya Hinterlandında Türk millətini, Türk Sivilizasiyasını çöktürən çox saylı projelər həyata keçirilməkdədir. [175] Türk sivilizasiyası 1571-ci ildən əsası qoyulan, XVIII əsrdən isə gerçəkləştirilməyə başlanan Rusiya və İngiltərə arasında formalaşan Böyük Oyun siyasəti nəticəsində çöktürülməyə, parçalanmağa başlandı. XVIII əsrdən etibarən, Türk sivilizasiya hinterlandının parçalanması, Türklərin Yaxın və Orta Dogu cografiyasından silinməsi prosesi XVIII əsrdə Avropada formalaşmış "Hind-Avropa irqinə məxsus xalqların dünya liderliyi –Ariya irqçiliyi ", Pyotrun "Vəsiyyətnaməsi", Yekatrinanın "Şərq Layihəsi", Rusiya və İngiltərənin "Böyük Oyun" siyasəti doktrinləri ilə həyata keçirilirdisə, XX əsrdən etibarən isə ABŞ-Avropa Birliyi rəhbərliyi ilə "Böyük Orta Dogu " projesi adı altında həyata keçirilir.(Əfqanıstan, Suriya, Ermənistan, İran, Iraq).

Yaxın və Orta Şərq cografiyalarında məskunlaşaraq, imperatorluqlar, bəyliklər, ulus dövlətləri quran Türklərin hakim olduqları ərazilər Çin, Rusiya və İngiltərə tərəfindən bölünmüş (Çin 1949 –cu ildə Doğu Türküstanı işğal etmişdir, Rusiya 1552-2022-ci illərdə Qızıl Orda İmperatorluğunu işğal altında tutmaqdadır. İranda 1925-ci ildən Farslar Türk dövlətini ələ keçirmişlər), Türk cografiyasının daralması prosesi getmişdir. XVIII əsrdən etibarən bu proses İngiltərə və Rusiya rəhbərliyi ilə, hazırda isə Amerika, Avropa və İzrail rəhbərliyində üç mərhələli aparılmaqdadır.

1.İmperatorluqların (Qızıl Orda, Osmanlı, Qacar, Babur) dagıdılmsı və ərazilərinin bölüşdürülməsi.Türk dövlətlərinin ləğv edilməsi, türklərin hakimiyyətinə son verilməsi və ikinci qurup azınlıq halına salınması. Hind-Avropa qrupuna məxsus xalqların türk cografiyalarında dövlətlərinin qurulması prosesinin aparılması (Fars, Erməni, Kürd).

2. XX əsrin sonlarından etibarən, Türk Ulus Dövlətlərinin dagıdılmasına cəhd edilməsi. Türkiyədə erməni, kürd, aysor, ərəb azınlıqlarından istifadə edərək, Türkiyənin kürd, erməni, yunan dövlətlərinə parçalanması projelərinin gündəmdə tutulması.

3. Dövlətlərini itirərək azınlıq durumuna salınmış türklərin assimilyasiya, etnik təmizləmə və soyqırıma ugradılması ilə torpaqlarının mənimsənilməsi (Ermənistan, Əfqanıstan, Suriya, İraq, İran, Çin, Rusiya). Yaxın və Orta Şərq cografiyalarının bölünməsində XX əsrin əvvəllərinddə İngiltərə-Fransa-Rusiya baş rol oynayaraq, min illərdir bu cografiyaya hakim olan türklərin buradan silinib atılması üçün erməni, aysor (assurr), serb, ərəb, fars xalqlarını türklər əleyhinə istifadə edirdilər[176].

Beləliklə aydın olur ki, Rusiya və İngiltərə arasında Formalaşan "Böyük Oyun Siyasəti"nin tərkib hissəsi olan "Böyük Orta Doğu projesi"nin (Orta Doğunun paylaşılması projesi) birinci dönəmi (1850-1918) Türklərin məğlubiyyəti ilə bitdi. Babur, Qacar, Osmanlı İmperatorluqları çöktürüldü (İran, Xorasan, Hindistan, Qafqaz, Ərəb yarımadası, Afrika, Şərqi Avropa-doğu Romaya yayılmış türk yenildi). Türk Milləti Balkanlarda, Ərəbistanda, Hindistanda, Türküstanda, Qafqazda, Şimali Afrikada-Misirdə, Anadoluda soyqırım və köçə məruz qaldı. Torpaqları İşğal edildi. Parçalandı.

Orta Doğu Projesinin günümüzdə davam edən ikinci dönəmində isə (1980- 2050) İraq, Suriya, İran və Türkiyənin də parçalanacağı, buradakı Türklərin soyqırıma uğradılacağı, böyük Kürdüstan, böyük Ermənistan, böyük İzrail, böyük Yunanıstan yaradılacağı projesi gündəmdədir. Aydındır ki, əgər XX əsrdə Türk sivilizasiya hinterlandında siyasi xəritələr İngilltərə-Rusiya arasında gedən "Böyük Oyun" adlı siyasi rəqabət əsasında İngilis, Rus, Fransız, Çin nüfuz dairələrinə uygun cızılmışdısa, XXI əsrdə isə bu cografiya ABŞ –İzrail və Avropa birliyinin maraqları əsasında yenidən bölünərək paylaşılmaqdadır.

[175] https://kanal32.az/turk-dunyasinin-xxi-yuzil-strategiyasi/
[176] https://mediaxeberleri.az/index.php?newsid=10117

Türk Sivilizasiya Hinterlandında bütün ortodoksları birləşdirməyi hədəf alan Çarqrad mərkəzli III Roma doktrini,

Böyük Panslavyanist Avrasiya Projesi, Suriya, İraq, Türkiyə, İran və Azərbaycanı bölməklə yaradılması nəzərdə tutulan Böyük Kürdüstan Projesi,

Xəzər, Qaradəniz, Ağ dəniz arası bölgələrdə qurulması xəyal edilən Böyük Ermənistan Projesi, İran, Əfqanıstan-Tacikistan, Pakistan, Şimali Qafqaz, Bəsrə Körfəzinə qədərki torpaqları birləşdirməklə yaradılacaq böyük Aryan-Fars projesi,

Böyük Yunanıstan Projesi, Doğu Türküstanla bərabər, batı Türküstanı da işğal edərək Çinə qatmaq istəyən "Çinin Batı Bölgə Teorisi", Türkiyənin Dəclə və Fərat çayları bölgəsini Vəd edilmiş Torpaqlara qatmaq istəyən Böyük İzrail Projesi, Avropanın Min İlin İntiqamı-Bizansın Bərpası kimi bölücü, qanlı projelər həyata keçirilməkdə, çox saylı kürd-erməni-fars ideoloji-siyasi terror təşkilatları aktiv şəkildə Türk dövlətlərinə qarşı savaş aparmaqdadırlar.

Əgər 1571-ci ildən 1918-ci ilə qədərki birinci Orta Doğu Projesi nəticəsində Türk dövlətləri və mədəniyyətləri çöktürüldüsə (Qızıl Orda, Babur dövlətləri), günümüzdə həyata keçirilən Amerika mərkəzli ikinci Böyük Orta Doğu projesində Türklərin bu coğrafiyadan tamamilə silinməsi planlaştırılmaqdadır. Bu gün Çin, İran, Rusiya öndərliyində-Moskva, Pekin, Tehran üçkənində sıxışıb qalmış Türk Sivilizasiya Hinterlandında 150 milyon türk müstəmləkə altında Ruslaşma, Farslaşma, Çinliləşmə kimi assimilyasiya siyasətlərinin, projelərinin qurbanına çevrilmişlər.[177]

XX əsr boyu Çindən, Adriatikə qədərki cografiyada Türk etnik-milli Hinterlandı parçalanmışdır. Beləki bir tərəfdən Rusiya və İngiltərə, Fransa, Çin, İran-Fars gücləri Türk İmperatorluqlarını çöktürərək ərazilərini işğal etmişlərsə, o biri tərəfdən Türk milləti həm Avropa modernizm ideyalarının təsiri ilə, həm də Çar Rusiyasının, sonra isə Sovet Rusiyasının çökməsi ilə başlanan cografiyalar üzərindən dövlətləşmə, millətləşmə prosesinə qədəm qoymuşlar. Coğrafiyalar üzərindən dövlətləşmə, millətləşmə prosesi türk millətini fərqli kimliklər formalaşdırmaq məcburiyyətində buraxmışdır. XX əsr boyu qurulan hər türk dövləti özünəməxsus bölgəsəl, coğrafiya mərkəzli millət, dil, əlifba, tarix, kimlik yaratmışdır. Nəticədə Türk millətinin tarix hafizəsindəki vahid türk milləti təsəvvürü dağılmış, Türk mədəniyyətinin, millətinin bir bütün olaraq dərk edilməsi, vahid orqanizm kimi, sosio-kültürəl sistem kimi təsəvvür edilməsi prosesi dayanmışdır. Məhz buna görə də biz XX əsri vahid Türk Millətinin, Türk Dünyasının, türk Tarixinin, dilinin, əlifbasının parçalandığı dövr, Türk Tarixinin diferensasiya çağı adlandırırıq.

Diferensasiyadan İnteqrasiya prosesinə keçid

Türk İnteqrasiya Çağında Türk Diasporunun inşası prosesi və vəzifələri.

Günümüzdə Türk Dövlətlər Təşkilatının (TDT) yaradılması ilə, Türk-İslam sosio-kültürəl super sistem kimi min il kürəsəl güc olaraq Asiya, Afrika və Avropa qitələrindəki siyasi və mədəni proseslərə dərindən nüfuz edən, yön verən Türk Loqosunun XXI yüzil tarixi proseslərinə yenidən daxil olması çağı başlanmışdır.

XXI əsr Kürəsəl güc olan Qərb dünyasının (Avropa və Amerika) Avropa sərhədlərinə çəkilməsi, lokalizə edilməsi çağıdır. Türk-Turan dünyasının güc mərkəzi kimi yenidən şəkillənməsi çağıdır.

SSRİ-nin 1991-ci ildə dağılmasından sonra, Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Türkmənistan müstəqilliklərini elan etdilər və Türkiyə də daxil olmaqla, bu dövlət və cəmiyyətlər arasında minlərcə illik tarixi, kültürəl birlik Türk Dövlətləri Birliyinin təməlini təşkil etmişdir. Türk kimliyinin inşası prosesi Türk diasporunun fəaliyyətinin yenidən qurulması və yüksəlməsi zərurətini doğurmuşdur. Türk dövlətlərində tarix boyu ulus üstü və ulus altı kimliklərlə yoğrulmuş milli kimlik çox qatlı sosial əlaqələr və sintezlərdən keçərək formalaşmışdır. SSRİ-nin çöküşündən sonra ortaya çıxan ideoloji və kültürəl boşluğu dolduran tək görüş Türkçülük olsa da, xeyli müddət "Sovet təsirindən arındırılmış" millət dövlət kimlikləri Azərbaycanlı, Qazax, Qırğız,Özbək, Türkmən təsəvvürləri və onun da yanında İslam, Türklük, Avrasiyaçılıq, Asiyaçılıq kimi ulus üstü kimliklər qabardılmışdır. Lakin 1991-

[177] https://azpolitika.info/?p=765267

ci illdən etibarən, müstəqil Türk dövlətləri arasındakı bölgəsəl təşkilatların qurulması, iqtisadi-siyasi inteqrasiya prosesinin qarşısıalınmaz şəkildə inkişafı Türk Dövlətlərində Türk kimliyinin inşası prosesini sürətləndirmişdir. Türk Kimliyinin inşasında və Türk Birliyinin formalaşmasında Türk Diaspor təşkilatlarının ortaq fəaliyyətləri və iş birlikləri də önəmli rol oynamışdır. Türk Birliyinin qurulması prosesi diaspor fəaliyyətləri sahəsində də özünü göstərmişdir.

Orta Asiyadan Balkanlara, Orta Şərqdən Qafqaza qədər geniş bir coğrafiyaya səpələnmiş böyük bir əhaliyə və minlərlə illik köç və miqrasiya təcrübələrinə malik olan Türk Milləti və Türk Dövlətləri diaspor quruculuğuna və ortaq diaspor fəaliyyətlərinə son illərdə diqqət yetirməyə başlamışlar. Bu istiqamətdə 2009-cu ildə Türkiyə, Azərbaycan, Qırğızıstan və Qazaxıstan tərəfindən qurulan, 2019-cu ildə Özbəkistanın da üzv olması ilə güclənən Türk Dövlətləri Təşkilatı (TDT) çərçivəsində "Türk Dili Danışan Diasporlar" başlığı ilə fəaliyyət göstərilməkdədir.[178]

Üzv dövlətlərin mövqelərinin beynəlxalq səviyyədə gücləndirilməsi və Türk xalqlarının-yaşadıqları xarici ölkələrin ictimai rəyi üzərində təsiredici gücə sahib olması Türk Dövlətləri Təşkilatının diaspora fəaliyyətində əsas prioritetdir. 2012-ci ildə Nyu-Yorkda TDT Xarici İşlər Nazirlərinin görüşmələrində Türk diasporasının bərabər şəkildə hərəkət etmələri qərara alınmışdır. Bu qərara uyğun olaraq Türk diaspor təşkilatları Bakı-2013, Ankara-2013, Ankara-2-18, Türkmənistan-2019, Bursa-2022-ci illərdə birlikdə konfranslar keçirərək ortaq qərarlar almışlar. Eyni zamanda Türk Diasporları arasında sıx işbirliyini artırmaq məqsədilə bu günə qədər beş təmas qrupu iclasları keçirilmişdir. Həmçinin də, 2013-cü ildə Türk Diaspora Ortaq Fəaliyyət Stratejisi qəbul edilmişdir. 2013-cü ildə Bakıda keçirilən TDT Diaspora forumunda 50 ölkədən 600-dən çox Türk diaspor təmsilçiləri iştirak etmiş, TDT-nın siyasi, iqtisadi, kültürəl əlaqələrinin və iş birliyinin həyata keçirilməsində diasporun aktiv iştirak etməsi qərara alınmışdır. [179]

Türk Dövlətləri arasında iş birliyinin qurulmasında diaspor fəaliyyətinin gərəkliliyi 2009-cu ildəki Naxçıvan Müqaviləsində əks olunmuş "Məqsədlər və Vəzifələr" bölümündə əks olunmuş- Ortaq mənfəətlərin olduğu xarici siyasət məsələlərində ortaq mövqe qoymaq, beynəlxalq hüquq tərəfindən tanınan prinsip və normalara uyğun olaraq hüququn üstünlüyü, insan haqları və təməl azadlıqların qorunması, Türk xalqlarının sahib olduqları zəngin kültür və tarixi mirasın dəyərləndirilməsi, kütlələrə tanıdılması zərurəti diaspor fəaliyyətinin hüquqi və siyasi zəminini təşkil edir. Türk Dövlətlərinin qeyri Türk dövlətlərində yaşayan diasporlarının güc birliyinin qurulması da xüsusi qeyd edilmişdir.

TDT-nın Diaspor Fəaliyyətində -Siyasi, iqtisadi, Gömrük, Nəqliyyat, Turizm, İnformasiya və Media, Gənclik və Spor, İnformasiya texnologiyaları, Enerji, Köç və Miqrasiya, Səhiyyə, Əkinçilik, Məhkəmə, İnsan qaynaqları və İnkişafı, Müsəlman dini qurumları arasında birlik, beynəlxalq təşkilatlar sahəsində iş birliyinin qurulması, Ortaq stratejinin yeridilməsi qərara alınmışdır. [180] Türk Diaspora işbirliyini gücləndirmək məqsədi ilə, 2013-cü ildə "Türk Diaspora Ortaq Fəaliyyət stratejisi" qəbul edilmişdir. [181]

Ortaq stratejinin əsas məqsədləri aşağıdakılardır. Diasporların ana vətənlərinə bağlı və ana vətənləri ilə dayanışma içində olmalarının təmin edilməsi, kültürləri və mənəvi dəyərlərini qoruyaraq olduqları ölkələrdə vətəndaşlıq alınmasına nail olunması, olduqları ölkənin sosial-siyasi həyatına qatılma səviyyəsinin yüksəldilməsi, iqtisadi baxımdan rəqabət güclərinin artırılması və türk iş insanları arasında iş birliyinin qurulması, İnsan haq və azadlıqlarının öz içlərindəki həmrəyliklə qorunmasının təmin edilməsi, Türk dünyası əleyhinə yeridilən təbliğatların qarşısının alınması, Türk dövlət və xalqlarının kültür və dəyərlərinin dünya ictimai rəyində tanıdılması və təbliğ edilməsi, yaşadıqları ölkələrdə təhsil

[178] https://www.cagdasdusunce.net/yazi/turk-dunyasi-diasporasi-ve-turk-kimliginin-insasi

[179]https://azertag.az/xeber/bakida_turkdilli_dovletlerin_emekdasliq_surasina_uzv_olkelerin_diaspor_teskilatlari_rehberlerinin_birinci_forumu_kechirilmisdir_video-217858

[180] https://www.turkicstates.org/tr/haber/turk-dunyasi-2040-vizyonu

[181] https://azertag.az/xeber/turkdilli_olkelerin_diaspor_teskilatlari_arasinda_ortaq_fealiyyet__strategiyasi_imzalanmisdir-22467

səviyyələrinin yüksəldilməsi, xarici ölkələrdə güclü Türk lobbisinin yaradılması, Türk diasporlarının ortaq təcrübələrindən Türk Milli maraqlarının qorunmasında istifadə etmək, Türk dövlət və xalqlarının mənfəətlərinin qorunması, Türk dövlət və Xalqları arasında ayrılıqları ortadan qaldırmaq, Birlikdən qüvvət doğar anlayışı ilə hərəkət etmək, Türk Dövlətlərinin uğurlarının və kültürəl dəyərlərinin dünyaya tanıdılması, iqtisadi potensiallarının diasporlar tərəfindən olduqları ölkələrdə tanıdılması, Türk Dünyasına yönəlik təhdid və təhlükələrin qarşısını almaq.[182]

Qeyd etmeliyik ki, ortaq türk diaspor fəaliyyətləri, ortaq hədəflər 2021 İstanbul Zirvəsində və 2022 Səmərqənd Zirvəsində qəbul edilən "2040 Türk dünyası Vizyon Bəlgəsi"ndə daha da təkmilləşdirilmiş, Akademik diasporanı fəallaşdıraraq Türk Dünyasındakı təhsil və elm qurumlarına dəstək vermələrinə nail olmaq, TDT-nın proje və proqramlarında aktiv iştirakının təmin edilməsi, Dünyanın Türk xalqları arasındakı kültürəl, dil və sosyal bağların gücləndirilməsi qərara alınmışdır. [183] Türk dünyası diasporası ABŞ, Rusiya, Kanada, Almaniya, Fransa, və.b. dövlətlərdə yaşayan Türkiyə, Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan, Macarıstan və KKTC toplumlarını, eyni zamanda Doğu Türkistan, Batı Trakya, Krım kimi coğrafiyalardan üçüncü dövlətlərə köç etmiş diaspor güclərini də içinə qataraq birləşdirə biləcək genişliyə sahibdir.

Burada xatırlatmalıyıq ki, Türk Dövlətləri Təşkilatının və diaspor fəaliyyətinin Türk kimliyi üzərindən inşası, TDT üzvləri olan Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkiyə və Türkmənistan dövlətlərinin ayırıcı coğrafiya mərkəzli etnik-tayfa kimliyini arxa plana atmış, bütünləşdirici, üstün, aparıcı aktor olan Türk milli kimliyi Türk dövlətlərini birləşdirən gücə çevrilmişdir. Artıq günümüzdə TDT içində inteqrasiya prosesi, kültürəl iş birliyi Türk dili və Türk kimliyi üzərindən aparılmaqdadır. Artıq SSRİ-dən qopmuş müstəqil Türk dövlətləri əski Sovet kimliklərini tərk etmişlər və TDT çərçivəsində öz Türk kimliklərini təsbit etmişlər.[184]

Son 30 ildə Türk kimliyinin inşası və Türk Dünyası İnteqrasiya prosesinin sürətləndirilməsi, ortaq diaspora fəaliyyətlərinin yeridilməsi məqsədilə bir çox Türk dünyası dövlətlərarası təşkilatlar qurulmuşdur. Bu təşkilatlardan biri TÜRKSOY-dur.

Uluslararası Türk Kültürü Təşkilatı (TÜRKSOY), 1993-cü ildə Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan və Türkiyə Mədəniyyət Nazirlərinin birlikdə yaratdıqları bölgəsəl təşkilatdır. Şimali Kipr Türk Cümhuriyəti, Rusiyaya bağlı Tatarıstan, Başqırdıstan,Altay, Saxa, Tuva, Xakas Cümhuriyyəti və Moldaviyaya bağlı Gaqauz Yeri TÜRKSOY-un müşahidəçi üzvləridir. TÜRKSOY-un fəaliyyəti üzv dövlətlərin mədəniyyət nazirlərindən təşkil olunmuş Daimi Konsey tərəfindən müəyyənləşir və baş katibliyi tərəfindən icra edilir. Türk xalqlarının könül birliyini və qardaşlığını gücləndirmək, ortaq Türk kültürünü gələcək nəsillərə ötürmək və dünyaya tanıtdırmaq məqsədilə fəaliyyət göstərən TÜRKSOY-un "Türk Kültür Paytaxtları" projesi Türk kimliyi acısından çox önəmlidir. 2012-ci ildə Astana (Qazaxıstan), 2013-cü ildə Əskişəhər (Türkiyə), 2014-cü ildə Kazan (Tatarıstan), 2015-ci ildə Merv (Türkmənistan), 2016-cı ildə Şəki (Azərbaycan), 2017-ci ildə Türkistan (Qazaxıstan), 2018-ci ildə Kastamonu (Türkiyə), 2019-cu ildə Oş (Qırğızıstan),2020-ci ildə Hivə (Özbəkistan), 2022-ci ildə Bursa (Türkiyə) və 2023-cü ildə Şuşa (Azərbaycan) Türk Dünyasının kültür mərkəzləri elan edilmişlər.[185]

Türk Dövlətləri Parlament Assambleyası (TÜRKPA), 21 noyabr 2008 –ci ildə Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyə Cümhuriyyəti Parlament Sədrlərinin imzası ilə qurulmuşdur və katibliyi Bakıda fəaliyyət göstərir. Türk Dövlətlərinin parlamentləri arasında əməktaşlığı və iş birliyini artırmaq, parlament diplomatiyasını gücləndirmək məqsədilə qurulan TÜRKPA, Türk Dünyası İnteqrasiya prosesində aktiv iştirak edən bir qurumdur. [186] *Türk Dövlətləri Təşkilatı (TDT)*, Türk Dünyası

[182] https://www.cagdasdusunce.net/yazi/turk-dunyasi-diasporasi-ve-turk-kimliginin-insasi
[183] https://www.turkicstates.org/tr/haber/turk-dunyasi-2040-vizyonu
[184] https://www.cagdasdusunce.net/yazi/turk-dunyasi-diasporasi-ve-turk-kimliginin-insasi
[185] https://www.turksoy.org/tarihce
[186] https://turkpa.org/az/about

ilə bağlı fəaliyyət göstərən ən önəmli təşkilatdır. Türk dünyasının inteqrasiyası ilə bağlı bütün təşkilatları öz çatısı altında birləşdirən və əlaqələndirən TDT-nın təməli Türkiyə Cümhuriyyətinin Prezidenti Süleyman Dəmirəl tərəfindən 30-31 oktyabr 1992-ci ildə Ankarada kecirilən "Türk Dili Danışan Dövlətlərin Dövlət Başçıları Zirvəsi"ndə atılmışdır. Zirvə görüşündə Azərbaycan, Qırğızıstan, Özbəkistan, Türkmənistan, Qazaxıstan və Türkiyə Cümhuriyyətlərinin iştirakı ilə "Ankara Bildirişi" yayınlanmışdır. Avqust 1995-ci ildə Bişkəkdə keçirilən Zirvə görüşündə Türk xalqlarının böyük kültür və tarixi mirasının qorunması və bu məqsədlə ortaq iş birliyi qurmaq zərurəti qeyd edildi. 1998-ci ildə Astanada keçirilən zirvə görüşündə TDT-nın Katibliyi yaradıldı və 3 oktyabr "009-cu ildə Naxçıvan Müqaviləsi ilə Türkiyə-İstanbulda qurulan TDT –na Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Türkiyə üzv, Türkmənistan və Macarıstan isə müşahidəçi üzvlər kimi qatıldılar. 2009-cu ildə qurulan "Türk Dili Danışan Dövlətlər İşbirliyi Konseyi" təşkilatı 2021-ci ildə Dövlət Başçıları Zirvəsində adını dəyişdirərək "Türk Dövlətləri Təşkilatı" (TDT) adlandırılmışdır.

Türk İş Konseyi. TDT-nın 16 sentyabr 2010-cu il tarixində İstanbulda keçirilən Zirvəsində Dövlət Başçılarının qərarı ilə yaradılmış, 20 oktyabr 2011-ci ildə Almatı şəhərində keçirilən iclasda Türk İş Konseyi quruluş andlaşması imzalanmışdır. Bu qurumun yaradılmasında əsas məqsəd Türk Dövlətlərinin İş dünyasının Türk İş Konseyi çatısı altında birləşdirilməsidir. [187]

Uluslararası Türk Akademiyası (TWESCO), 2009-cu ildə Naxçıvanda keçirilən TDT toplantısında prezident Nursultan Nazarbayevin təklifi ilə 25 may 2010-cu il tarixində Astanada qurulmuş, 2014-cü ildən etibarən beynəlxalq təşkilata çevrilmişdir.[188]

Türk Kültür və Mirası Vəqfi 2012-cu ildə Qırğızıstanın Bişkək şəhərində TDT iclasında qurulmuşdur. Mərkəzi Bakıda yerləşən Vəqvin vəzifəsi Türk kültürünü və mirasını qorumaq, araşdırmaq və dəstəkləməkdir. [189]

Türk Yatırım Fondu 11 noyabr 2022-ci ildə Səmərqənddə TDT-nın 9 zirvəsində TDT prezidentlərinin qərarı ilə yaradılmışdır. Türk Yatırım Fondu TDT üzv olan dövlətlərin iqtisadi potensiallarını hərəkətə keçirərək aralarındakı ticari və iqtisadi iş birliyini gücləndirməsi, kiçik və orta ölçülü işlətmələri maliyyələştirməsi, üzv dövlətlərdə təşəbbüskarlıq, böyümə, innovasiyaları tətbiq etmək, sosial-iqtisadi yüksəlişi təşviq etmək məqsədilə yaradılmışdır. [190] Göründüyü kimi, SSRİ-nin çöküşündən sonra, 1991-ci ildən etibarən, Türk Dövlətləri arasındakı əlaqələr inteqrasiya prosesinə qədəm qoymuşdur və 1993-cü ildə Türksoyun qurulmasından 2022-ci ildə Türk Yatırım Fondunun qurulmasına qədərki dövrdə TDT, TÜRKSOY,TÜRKPA, Türk Akademiyası, Türk Kültür və Miras Vakfı kimi təşkilatlar qurulmuş, Türk dünyasının birliyi istiqamətində böyük işlər görülmüşdür ki, bu da Türk Dünyası çalışmalarının önəmli bir qolu olan Türk Diasporunun inkişafı üçün bir təməl yaratmışdır.

Nəticə

The phenomenological principles developed by Edmund Husserl provide a methodological foundation for understanding consciousness as the locus of meaning-making. Within Islamic philosophy, a parallel notion exists in the works of Al-Farabi and Ibn Sina, who regarded knowledge as the self-reflective act of the intellect attaining union with the universal forms. This process is phenomenologically similar to Husserl's concept of intentionality — the directedness of consciousness toward an object. In Islamic thought, however, this directedness transcends pure cognition, integrating ethical and divine dimensions.

For instance, Ibn Sina's theory of the Active Intellect conceptualizes knowledge as illumination that connects the human soul with metaphysical truth, mirroring Husserl's eidetic reduction — the move from empirical observation to the essence of phenomena. Similarly, Al-Farabi's metaphysical hierarchy of intellects situates human reasoning within a teleological order that aims at moral perfection. This synthesis of rationality and virtue exemplifies how phenomenology in Islamic context operates not as abstract speculation but as a lived ethical experience. Thus, Islamic philosophy anticipated core elements of modern phenomenology — particularly the unity of epistemic, ethical, and ontological dimensions of being.

Practical Implications for Modern Education and Spiritual Development

The phenomenological and ethical principles of Islamic philosophy can serve as powerful pedagogical tools in contemporary higher education. Integrating classical Islamic epistemology into modern curricula enhances critical thinking, ethical reasoning, and spiritual awareness among students. In philosophy and humanities education, the study of thinkers like Al-Farabi, Ibn Sina, and Husserl encourages learners to see knowledge as not merely instrumental, but transformative. Such integration supports the objectives of competence-based learning and value-oriented education promoted by UNESCO and national educational reforms. Moreover, applying phenomenological reflection in teaching helps students understand the moral and cultural roots of scientific inquiry. It fosters intellectual humility, intercultural dialogue, and tolerance — qualities essential for global citizenship. Therefore, modern pedagogical practice inspired by Islamic phenomenology should aim to unite rational inquiry with ethical purpose, forming a holistic model of education where scientific understanding is inseparable from moral responsibility.

Modern Scientific Perspective and the Relevance of Islamic Intellectual Heritage

In the context of modern scientific and technological progress, the philosophical and ethical foundations of Islamic intellectual heritage retain their exceptional relevance. The contemporary world, characterized by rapid digitalization, artificial intelligence, and global interdependence, requires a balanced approach that integrates science, ethics, and spirituality. Islamic philosophy offers a framework for this integration by emphasizing the moral responsibility of knowledge and the unity of reason and faith. Modern epistemology often focuses on instrumental rationality — the efficiency and applicability of knowledge — while neglecting its ethical and spiritual dimensions. The Islamic intellectual tradition, however, presents a holistic approach where the acquisition of knowledge is inseparable from the cultivation of virtue) and the pursuit of justice. This synthesis is reflected in the works of Ibn Sina, Al-Ghazali, and Mulla Sadra, who argued that scientific inquiry should ultimately lead to self-purification and social harmony. Today, as global scientific paradigms increasingly address sustainability, bioethics, and artificial intelligence, the insights of Islamic philosophy offer valuable contributions. Concepts such as the unity of existence and divine order encourage a worldview in which technological development aligns with moral consciousness. Integrating these perspectives can enrich contemporary discourses in philosophy of science, education, and ethics, fostering a model of progress that is both innovative and humane. Therefore, the Islamic philosophical legacy serves not as a relic of the past, but as a living intellectual source that continues to inspire dialogue between tradition and modernity, science and spirituality, reason and revelation. Its phenomenological essence provides a bridge between historical wisdom and the scientific aspirations of the twenty-first century.

References

1. Aminrazavi, M., & Nasr, S. H. (1996). The Islamic intellectual tradition in Persia. Richmond, Surrey: Curzon Press.
2. Hill, D. R. (1992). Science and technology in ninth-century Baghdad. Basel: Birkhäuser Verlag.
3. Metz, A. (1973). Mycintmankskii Renessans [Muslim Renaissance]. Moscow: Nauka.
4. Nasr, S. H. (1968). Science and civilization in Islam. Harvard University Press.
5. Nasr, S. H. (2006). Islamic philosophy from its origin to the present. Albany: SUNY Press.
6. Qadir, C. A. (1988). Philosophy and science in the Islamic world. New York: Routledge.
7. Rushdi, R. (Ed.). (1996). Encyclopedia of the history of Arabic science. London.
8. Sarton, G. (1927). Introduction to the history of science (Vols. I–III). Baltimore.
9. Meyerhof, M. (1931). Science and medicine: The legacy of Islam. In T. Arnold A. Guillaume (Eds.), Science and medicine (pp. 311–356). Oxford.

Рахмонов Жамшид Абдукамолович
Чирчикский педагогический университет,
старщий преподаватель истории, Узбекистан.
feruzailmuradova@26gmail.com

Модернизация как социальный процесс в Центральной Азии: теория и практика

Аннотаци: В статье проведён социально-философский анализ экономических, социально-политических и духовно-идеологических связей Узбекистана с государствами Центральной Азии. Благодаря открытой и прагматичной политике Узбекистана были восстановлены региональные связи, открыты границы, возобновлены воздушные, автобусные и железнодорожные

маршруты, расширены новые направления. Это способствовало активизации контактов между гражданами и оказало положительное влияние на развитие экономических и торговых отношений. Интеграционные процессы в Центральной Азии подвергнуты социально-философскому анализу как целостное явление, основанное на взаимосвязанности, сотрудничестве и поступательном развитии.

Ключевые слова: модернизация, социальные процессы, Центральная Азия, реформы, глобализация, институциональные изменения, традиция и инновация.

Rakhmonov Jamshid Abdukhamolovich
Chirchik Pedagogical University,
Senior Lecturer in History, Uzbekistan

Modernization as a Social Process in Central Asia: Theory and Practice

Annotation:
The article presents a socio-philosophical analysis of the economic, socio-political, and spiritual-ideological relations of Uzbekistan with the Central Asian states. Thanks to Uzbekistan's open and pragmatic policy, regional ties have been restored, borders have been opened, and air, bus, and railway routes have been renewed and expanded with new directions. This has contributed to increased contacts between citizens and has had a positive impact on the development of economic and trade relations. The integration processes in Central Asia are examined from a socio-philosophical perspective as a holistic phenomenon based on interconnectedness, cooperation, and progressive development.

Keywords: modernization, social processes, Central Asia, reforms, globalization, institutional changes, tradition and innovation.

Укрепление межрегионального сотрудничества Узбекистана с государствами Центральной Азии является сегодня одним из важнейших направлений внешней политики страны. В настоящее время в Узбекистане уделяется большое внимание развитию взаимовыгодных отношений с государствами Центральноазиатского региона.

Основными приоритетами внешней политики Узбекистана являются: укрепление государственной независимости и суверенитета, повышение роли и авторитета страны как равноправного субъекта международных отношений, вхождение в число развитых демократических государств, а также формирование в ближнем окружении атмосферы безопасности, стабильности и добрососедства.

Наряду с этим, актуальными задачами являются укрепление международного авторитета Республики Узбекистан, доведение до мирового сообщества объективной информации о проводимых в стране реформах, совершенствование нормативно-правовой базы внешнеполитической и внешнеэкономической деятельности, а также договорно-правовых основ международного сотрудничества. Важное место занимают и вопросы делимитации и демаркации государственной границы.

Во внутренней и внешней политике Узбекистана приоритетное внимание уделяется построению стабильного, справедливого и демократического государства, продвижению принципов открытости и транспарентности страны на международной арене.

В настоящее время разработан и принят ряд соответствующих программных документов, направленных на дальнейшее развитие многостороннего сотрудничества Узбекистана с государствами Центральной Азии, утверждены так называемые «дорожные карты». Во время визитов Президента Узбекистана Шавката Мирзиёева и руководителей центральноазиатских государств на высшем и высочайшем уровнях усиливается внимание к проведению активной,

открытой, прагматичной и продуманной внешней политики, отвечающей национальным интересам стран региона.

По глубокому убеждению Президента Шавката Мирзиёева, *готовность к практическому сотрудничеству, искреннее стремление к нему, а также осознание всеми странами Центральной Азии общей ответственности за будущее региона являются прочным фундаментом и гарантией его устойчивого развития и процветания.* Он отмечает: «Узбекистан выступает за скорейшее решение спорных вопросов и дальнейшее укрепление взаимного доверия. Наши государства, опираясь на принципы добрососедства и взаимовыгодного сотрудничества, могут с большей эффективностью реализовать свой потенциал в торгово-экономической, транспортно-коммуникационной, культурно-гуманитарной сферах, а также в вопросах обеспечения безопасности и стабильности».

Внешнеполитические инициативы Узбекистана создают новые возможности для всего региона Центральной Азии. Страна продвигает идею совместного решения существующих проблем, стоящих перед государствами региона. На сегодняшний день Узбекистан выступает как государство, стабилизирующее экономические, социально-политические, духовно-культурные и идеологические процессы в Центральной Азии.

В настоящее время в регионе формируется новая система межгосударственных отношений, в рамках которой Узбекистан демонстрирует высокую активность по различным направлениям. В результате наблюдаются явные признаки оздоровления и укрепления отношений между странами региона.

Узбекистан значительно расширил двусторонние отношения с Афганистаном и активно участвует в многосторонних усилиях по урегулированию афганской проблемы. Страна принимает активное участие в реализации крупных проектов, таких как строительство линии электропередачи **«Сурхон – Пули-Хумри»** и железной дороги **«Термез – Мазари-Шариф – Пешавар»**.

В Термезе открыт о**бразовательный центр для граждан Афганистана**, выпускники которого сегодня работают в парламенте, министерствах и ведомствах Афганистана, преподают в высших учебных заведениях страны и занимаются частным бизнесом.

Объём товарооборота между Узбекистаном и странами Центральной Азии за последние годы увеличился в **два раза**, а количество совместных предприятий возросло в **четыре раза**. Наши страны подписали ряд международных документов, таких как соглашения по обеспечению радиационной безопасности в Центральной Азии, движение **«Вода для устойчивого развития»**, а также **Ашхабадская декларация по Энергетической хартии**. «Наше дальнейшее сближение и расширение сотрудничества в регионе — это требование времени и необратимый процесс», — отметил Президент Шавкат Мирзиёев. — «Он основан на твёрдом политическом выборе, имеет глубокие исторические корни и никоим образом не направлен против чьих-либо интересов. Укрепляя единство и сплочённость, мы вносим свой вклад в формирование устойчиво и последовательно развивающегося региона, а значит — надёжного и перспективного международного партнёра». Наряду с активизацией политического взаимодействия Узбекистана с государствами Центральной Азии, значительно усилилось сотрудничество в торгово-экономической, транспортно-коммуникационной, энергетической и культурно-гуманитарной сферах.

Улучшение торгово-экономических отношений между странами Центральной Азии способствует повышению инвестиционной привлекательности региона. С начала 2017 года между Узбекистаном и странами Центральной Азии было подписано более **300 соглашений**, а общая сумма заключённых договоров и контрактов составила около **75 миллиардов долларов США**.

Наблюдается продвижение и в решении экологических, в частности водно-энергетических вопросов. Узбекистан выразил готовность рассмотреть возможности участия в проектах строительства **Камбар-Атинской** и **Рогунской ГЭС**. Был дан старт реализации важного участка транспортного коридора **«Узбекистан – Туркменистан – Иран – Оман»**, открыты железнодорожный и автомобильный мосты через Амударью **«Туркменабад – Фараб»**. Их ввод в эксплуатацию позволил приступить к созданию промежуточного транспортно-коммуникационного маршрута по направлению **«Узбекистан – Туркменистан – Каспийское море – Южный Кавказ»**, обеспечивающего выход к портам **Баку – Тбилиси – Карс**, а также к портам Чёрного моря в Грузии, Турции, Румынии и других странах.

После 1991 года страны региона (Узбекистан, Казахстан, Кыргызстан, Таджикистан, Туркменистан) встали на путь **национальной модернизации**, которая включала:

• формирование независимых государственных институтов;

• переход к рыночной экономике;

• реформу системы образования и здравоохранения;

• возрождение национальной идентичности и культурных ценностей.

Модернизационные стратегии государств Центральной Азии различаются по приоритетам и темпам.

Казахстан реализует модель «экономики знаний» и цифровой трансформации (программа *Цифровой Казахстан*), стремясь к интеграции в мировое экономическое пространство.

Узбекистан проводит последовательные реформы в рамках «Стратегии действий по пяти приоритетным направлениям» (2017–2021) и «Стратегии развития нового Узбекистана» (2022–2026). Центральное место занимают демократизация, либерализация и социальная открытость.

Кыргызстан акцентирует внимание на развитии гражданского общества и демократических институтов, однако сталкивается с проблемами политической стабильности.

Таджикистан и **Туркменистан** сохраняют элементы централизованного управления, где модернизация проводится преимущественно сверху.

Таким образом, модернизация в регионе имеет **асимметричный и неоднородный характер**, что объясняется различиями в политических системах, экономических ресурсах и культурных традициях.

Модернизация неизбежно затрагивает социальную структуру общества, ценностные ориентации и образ жизни населения.В Центральной Азии наблюдается:

рост уровня образования и профессиональной мобильности;

• усиление роли женщин в общественной жизни;

• развитие новых форм коммуникации (цифровизация, социальные сети);

• трансформация традиционных семейных и общинных связей.

Однако сохраняются и противоречия — социальное неравенство, региональные диспропорции, миграционные потоки, которые создают новые вызовы для устойчивого развития.Важнейшим приоритетом во внешнеполитической сфере Республики Узбекистан является укрепление целостности и суверенитета государства, повышение авторитета и роли страны как равноправного субъекта международных отношений, вхождение в число развитых демократических государств, обеспечение безопасности, солидарности и толерантности в обществе.

Одновременно в стране решаются такие задачи, как укрепление международного престижа Республики Узбекистан, предоставление мировому сообществу объективной информации о проводимых реформах и изменениях, совершенствование договорно-правовой базы и нормативно-правовых основ внешнеполитической и внешнеэкономической деятельности, а также развитие международного сотрудничества и завершение процесса делимитации государственной границы.

Во внутренней и внешней политике Узбекистана поощряется построение стабильного, справедливого и демократического государства, содействие открытости и прозрачности страны на международной арене.

Специфика модернизации в Центральной Азии заключается в необходимости **гармонизации традиционных ценностей с современными институтами**.Именно синтез исламской культуры, национальной идентичности и принципов современного государства позволяет региону выстраивать собственную модель модернизации, отличную от западной или восточноазиатской.

Модернизация в Центральной Азии представляет собой сложный и многоуровневый процесс, включающий экономические, политические, культурные и социальные преобразования. Для успешного продолжения модернизации необходимо:

- укрепление институтов гражданского общества;
- развитие человеческого капитала;
- повышение эффективности государственного управления;
- сохранение культурной самобытности при открытости миру.

Таким образом, модернизация — это не просто обновление институтов, а глубокая трансформация социального сознания**,** отражающая стремление народов Центральной Азии к устойчивому развитию и интеграции в глобальное сообщество.

Список литературы

1. Мирзиёев Ш.М. Янги Узбекистон тараккиёт стратегияси Тошкент, Узбекистон, 2022 йил 430 бет
2. Мирзиёев Ш.М. Миллий тикланишдан-миллий юксалиш сари. 4-жилд, Тошкент, Узбекистон, 2020 йил, 271 бет.
3. Кучаров Ч.Ш. Марказий Осиёнинг минтакавий интеграцион жараёни муаммолари. - Тошкент, Фан, 2008 йил.
4. Махмудова, А. Н. (2020). Правовая со0иализа0ия молодого поколения в правовом государстве. дистан0ионные возможности и достижения науки, 97.
5. Махмудова, А. Н. (2020). Шахс хукукий ижтимоийлашувида ижтимоий назорат тушунчаси ва тизими. международный журнал Консенсус, 1(1).
6. Умриллоев, Л. F. У., Махмудова, А. Н. (2022). Глобаллашув шароитида ёшларимизнинг маънавиятига таъсир этувчи омиллар, уларни миллий FOя рухида тарбиялашнинг зарурийлиги. Science and Education, 3(7), 270279.
7. Ростоу У. *Стадии экономического роста: Некоммунистический манифест.* — М.: Прогресс, 1990.
8. Хантингтон С. *Политический порядок в меняющихся обществах.* — М.: Аспект Пресс, 2004.
9. Shakirovna, F. (2022). Developing Students Socio-Cultural Competence By Reading English Fictional Literature. *Eğitim ve Yeni Yaklaşımlar Dergisi*, *5*(2), 213-220.
10. Назарбаев Н. *Стратегия трансформации общества и государства.* — Астана, 2015.
11. Илмуродова, Ф. (2025). Bo‘lajak tarix fani o‘qituvçilarini kasbiy faoliyatga tayyorlaşda klaster tiziminiñ ahamiyati. tamaddun nuri jurnali, 1(64), 259–261.
12. Laruelle M. *Central Asia’s Political Regimes: Between Stability and Transformation.* — London: Routledge, 2018

Vəliyeva Sədagət İsgəndər qızı
"Memarlıq layihələndirilməsi və şəhərsalma"
kafedrasının dosenti, memarlıq üzrə fəlsəfə doktoru
Email: sadagat1950@gmail.com
https://orchid.org/0000-0002-7389-2332

Türk–Müsəlman memarlığında ənənəvilik prinsipi: arxitektonik genealogiya, ontoloji simvolizm və metafizik davamlılıq

Xülasə
Bu məqalədə türk–müsəlman memarlığında ənənəvilik prinsipi arxitektonik, ontoloji və metafizik aspektlərdən kompleks şəkildə təhlil edilir. Tədqiqatın əsas məqsədi memarlığın yalnız texniki və estetik fəaliyyət sahəsi deyil, insanın varlıqla, kosmosla və İlahi başlanğıcla münasibətinin maddi ifadəsi olduğunu elmi əsaslarla ortaya qoymaqdır. Araşdırmada ibtidai insan sığınacaqlarından başlayaraq neolit, eneolit və tunc dövrləri üzrə formalaşmış yaşayış məskənlərinin plan-struktur xüsusiyyətləri, xüsusilə dairəvi plan və günbəzvari örtüklərin genezisi təhlil edilir. Azərbaycan və Yaxın Şərq ərazilərində aparılmış arxeoloji tədqiqatlar əsasında ilkin memarlıq formalarının təkamül mərhələləri müqayisəli şəkildə araşdırılır.
Məqalədə göstərilir ki, dairəvi forma memarlıqda təsadüfi konstruktiv həll deyil, bütövlük, vəhdət və kosmik nizam ideyasını ifadə edən universal simvoldur. Bu forma türk–islam fəlsəfəsində Əl-Fərabi, İbn Sina və Molla Sədranın ontoloji konsepsiyaları ilə səsləşərək İlahi başlanğıcdan gələn və Ona qayıdan varlıq yolunun məkan üzərində qurulmuş modelini yaradır. Nəticə olaraq sübut edilir ki, türk–müsəlman memarlığında ənənəvilik prinsipi nəsildən-nəsilə ötürülən texniki vərdişlər toplusu deyil, varlığın metafizik şərhini daşıyan arxitektonik yaddaşdır. Bu prinsip ibtidai insan sığınacaqlarından orta əsr İslam memarlığına qədər fasiləsiz davam edərək memarlığı maddi həyatla əbədiyyət arasında körpüyə çevirir.
Açar sözlər: türk–müsəlman memarlığı, ənənəvilik prinsipi, dairəvi plan, günbəz, paleoarxitektonika, ontoloji memarlıq, metafizik simvolizm, şəhərsalma tarixi, İlahi vəhdət, arxitektonik yaddaş

Valiyeva Sadagat İsgander kizi
Associate Professor, Department of Architectural
Design and Urban Planning, PhD in Architecture

The Principle of Tradition in Turkic–Muslim Architecture: Architectural Genealogy, Ontological Symbolism, and Metaphysical Continuity

Abstract
This article provides a comprehensive analysis of the principle of tradition in Turkic–Muslim architecture from architectural, ontological, and metaphysical perspectives. The main objective of the study is to demonstrate, on scholarly grounds, that architecture is not merely a technical or aesthetic field of activity, but rather a material expression of the human relationship with being, the cosmos, and the Divine origin. The research examines the planning and structural characteristics of settlements formed from primitive human shelters through the Neolithic, Eneolithic, and Bronze Age periods, with particular attention to the genesis of circular plans and domed forms. Based on archaeological research conducted in Azerbaijan and the regions of the Near East, the evolutionary stages of early architectural forms are analyzed comparatively.
The article argues that the circular form in architecture is not a coincidental constructive solution, but a universal symbol expressing the ideas of wholeness, unity, and cosmic order. In Turkic–Islamic philosophy, this form resonates with the ontological concepts of al-Fārābī, Ibn Sīnā, and Mullā Ṣadrā, creating a spatial model of the path of being that originates from the Divine and ultimately returns to it. As a result, the study demonstrates that the principle of tradition in Turkic–Muslim architecture is not a

mere set of technical skills transmitted from generation to generation, but rather an architectural memory that embodies the metaphysical interpretation of existence. This principle persists uninterrupted from primitive human shelters to medieval Islamic architecture, transforming architecture into a bridge between material life and eternity.

Keywords: Turkic–Muslim architecture, principle of tradition, circular plan, dome, paleo-architectonics, ontological architecture, metaphysical symbolism, history of urban planning, divine unity, architectural memory

Giriş

Memarlıq bəşər mədəniyyətinin ən erkən və ən davamlı ifadə formalarından biridir. İnsan öz varlığını məkan vasitəsilə dərk etmiş, məskunlaşma aktı isə yalnız bioloji ehtiyacların ödənilməsi deyil, həm də kosmik nizamla münasibətin maddi ifadəsi olmuşdur. Bu baxımdan memarlıq tarixi, xüsusilə də ənənəvi memarlıq, sırf texniki və estetik hadisə kimi deyil, ontoloji, kosmoloji və metafizik təfəkkürün maddiləşmiş forması kimi öyrənilməlidir.

Türk–müsəlman memarlığı bu baxımdan xüsusi elmi əhəmiyyət kəsb edir. Onun formalaşma prosesi ibtidai insan sığınacaqlarından başlayaraq İslam sivilizasiyasının şəhərsalma modellərinə qədər uzanan uzunmüddətli bir təkamül xəttini əhatə edir. Bu xəttin əsas daşıyıcı elementi isə ənənəvilik prinsipidir. Ənənə burada statik keçmişçilik deyil, metafizik mənşəli arxitektonik yaddaşın zaman daxilində qorunaraq transformasiyası deməkdir.

Köçəri həyat tərzindən oturaq məskunlaşmaya keçid memarlıqda əsaslı dəyişikliklər yaratmışdır. İlk daimi yaşayış məntəqələri konusvari, dairəvi planlı daxmalar şəklində formalaşmışdır. Bu tikililər adətən yerə bərkidilmiş payalardan ibarət olub üzəri heyvan dərisi, qamış və ya gil ilə örtülürdü (Grushka 35–36; Kərimov 11).

Azərbaycanın Kültəpə, Şomutəpə, Qarğalartəpə kimi neolit və eneolit məskənləri bu təkamülün konkret nümunələridir. Burada dairəvi planlı tikililərin zamanla düzbucaqlı formalarla yanaşı mövcudluğu müşahidə olunur. Lakin bu keçid kəskin deyil, ənənəvi kontinuitet əsasında baş vermişdir: düzbucaqlı planlar çox zaman dairəvi əsas üzərində oturdulmuşdur.

Meqalitik memarlıq ibtidai arxitektonikanın yüksək inkişaf mərhələsini əks etdirir. D.A. Axundovun tədqiqatlarında Abşeron, Füzuli və Dağıstan ərazilərində tapılan meqalitik tikililər plan və konstruktiv xüsusiyyətlərinə görə dörd əsas tipə bölünür:

1. dairəvi və oval planlı günbəzli tikililər;
2. dairəvi planlı, lakin vertikal divarlı strukturlar;
3. küncləri yumrulaşdırılmış düzbucaqlı binalar;
4. qarışıq plan həlləri (Axundov 16).

Alimin “paleoarxitektonika” anlayışı bu tikililəri intuisiya əsaslı, lakin sistemli arxitektonik düşüncənin məhsulu kimi qiymətləndirir.

Dairə memarlıqda ən universal formadır. O, həm konstruktiv sabitlik, həm də simvolik bütövlük yaradır. Fəlsəfi baxımdan çevrə vəhdətin, kamilliyin və kosmik harmoniyanın rəmzidir. Erdalan və Bəxtiyarın qeyd etdiyi kimi, çevrə daxilində yerləşdirilmiş həndəsi fiqurlar bütün ənənəvi proporsiya qanunlarının əsasını təşkil edir (Erdalan və Bəxtiyar 37).

Türk–İslam fəlsəfəsində Əl-Fərabi, İbn Sina və Molla Sədra varlığın zəruri və mümkün mərtəbələrini ayıraraq İlahi başlanğıcın mərkəzi rolunu vurğulamışlar. Bu ontoloji struktur memarlıqda mərkəzə yönəlmiş planlaşdırma ilə paralellik təşkil edir.

1. Ənənə anlayışının memarlıq kontekstində təhlili

Memarlıq tarixində “ənənə” anlayışı çox zaman yanlış şəkildə statik forma təkrarı, keçmişə kor-koranə bağlılıq və ya texniki vərdişlərin mexaniki ötürülməsi kimi şərh edilmişdir. Halbuki klassik və müasir memarlıq nəzəriyyəsində ənənə anlayışı dinamik, semantik və ontoloji məzmun daşıyan

kompleks fenomen kimi qəbul edilir. Xüsusilə türk–müsəlman memarlıq düşüncəsində ənənə, formanın zahiri təkrarı deyil, mənanın və ideyanın zaman daxilində davamlılığıdır.

Bu baxımdan dairəvi planlı ibtidai sığınacaqlardan başlayaraq günbəzli məscidlərə, karvansaralara və şəhər mərkəzlərinə qədər uzanan forma xətti texniki inkişafın nəticəsi olmaqdan daha çox, insanın varlıq haqqında ilkin metafizik biliklərinin memarlıqda qorunaraq yaşadılmasıdır. Ənənə burada yaddaşdır; lakin bu yaddaş mədəni və sosial refleksdən daha dərin – ontoloji yaddaş səviyyəsində fəaliyyət göstərir.

Türk–müsəlman memarlığında dairəvi planlı formaların davamlılığı empirik və arxeoloji materiallarla aydın şəkildə təsdiqlənir. İbtidai insan sığınacaqlarında müşahidə olunan dairəvi plan konstruktiv baxımdan ən optimal həll olmaqla yanaşı, kosmik bütövlüyün və təhlükəsizlik hissinin məkan üzərində ifadəsi idi. Lakin bu formanın minilliklər boyu müxtəlif funksional tikililərdə – yaşayış evlərində, ibadət məkanlarında, ictimai və ticarət strukturlarında – qorunması artıq sırf texniki izahla kifayətlənmir.

Bu ardıcıllıq göstərir ki, dairəvi forma türk–müsəlman memarlığında arxitektonik arxetip statusu qazanmışdır. Arxetip kimi o, müxtəlif tarixi dövrlərdə yeni materiallar, yeni texnologiyalar və fərqli funksiyalarla zənginləşsə də, öz semantik nüvəsini itirməmişdir. Beləliklə, forma dəyişir, lakin mənanı daşıyan struktur dəyişməz qalır.

Türk–müsəlman memarlığında dairəvi planın ən kamil ifadəsi günbəzdir. Günbəz sadəcə konstruktiv örtük elementi deyil, dairənin şaquli istiqamətdə kosmoloji təcəssümüdür. O, yer ilə göy arasında vasitəçi rolunu oynayaraq məkanı sakrallaşdırır və insan şüurunda İlahi başlanğıcla əlaqə yaradır.

İbtidai konusvari sığınacaqlardan başlayaraq günbəzli məscidlərə qədər uzanan bu xətt, memarlıq tarixində nadir rast gəlinən dərin semantik ardıcıllıqdır. Günbəz burada İlahi vəhdətin, kosmik nizamın və varlığın mərkəzə yönəlmiş strukturunun rəmzi kimi çıxış edir. Bu səbəbdən türk–müsəlman memarlığında günbəz heç vaxt yalnız estetik element kimi qəbul olunmamış, mənəvi məkan yaradan əsas struktur olmuşdur.

Türk–müsəlman şəhərsalma ənənəsində ilkin mərhələdə şəhərlərin dairəvi formada təşkili təsadüfi urbanistik seçim deyildir. Şəhərin mərkəzində yerləşən sakral nüvə – məscid, meydan və ya sitadel – İlahi mərkəzi təmsil edir, periferik zonalar isə, bu mərkəzə tabe şəkildə təşkil olunur. Belə planlaşdırma məkan üzərində ontoloji iyerarxiya yaradır.

Bu modeldə şəhər təsadüfi tikililər toplusu deyil, kosmosun miniatür modeli kimi çıxış edir. Mərkəz – vahidlik və sabitlik nöqtəsi, çevrə isə hərəkət və dəyişkənlik sahəsidir. Bu struktur insanın İlahi başlanğıcdan çıxıb yenidən Ona qayıdış yolunu məkan üzərində simvolizə edir.

Türk–müsəlman memarlığında ənənənin davamlılığını təmin edən əsas amil texniki biliklərin ötürülməsi deyil, metafizik yaddaşın qorunmasıdır. Bu yaddaş yazılı qaydalarla deyil, memarlıq praktikasının özündə, forma seçiminin şüuraltı səviyyəsində ötürülür. Memar çox zaman bu formaların mənşəyini rasional şəkildə izah etməsə belə, ənənəvi formaya müraciət edərək kollektiv ontoloji biliyi davam etdirir. Bu baxımdan, türk–müsəlman memarlıq ənənəsi yalnız tarixi irs deyil, yaşayan metafizik sistem kimi dəyərləndirilməlidir. O, dəyişən zaman və məkan şərtlərinə uyğunlaşır, lakin öz ontoloji əsasını – dairə, mərkəz, günbəz və vəhdət ideyasını – qoruyur.

Beləliklə, türk–müsəlman memarlığında dairəvi planlı sığınacaqlardan günbəzli monumental strukturlara qədər uzanan forma ardıcıllığı texniki təkamülün deyil, metafizik yaddaşın arxitektonik ifadəsidir. Şəhərlərin dairəvi təşkili, mərkəzin sakrallaşdırılması və periferiyanın ona tabe edilməsi İlahi vəhdət ideyasının məkan üzərində qurulmuş modelini formalaşdırır. Bu model memarlığı maddi fəaliyyət sahəsindən çıxararaq, varlığın mənasının oxunduğu simvolik dilə çevirir.

2. Memarlıq formasının ontoloji mənşəyi

Türk–müsəlman memarlığında formanın davamlılığı məsələsinə ontoloji prizma ilə yanaşmaq zəruridir. Çünki bu memarlıq ənənəsində forma heç vaxt yalnız funksional və ya estetik kateqoriya kimi

mövcud olmamışdır. Forma burada varlığın mahiyyətinin məkan üzərində görünən ifadəsidir. Bu baxımdan dairəvi plan və günbəz forması ontoloji strukturların memarlıq dilinə çevrilmiş formalarıdır.

Ontologiyada varlıq anlayışı bütövlük, davamlılıq və səbəb–nəticə əlaqəsi ilə xarakterizə olunur. Dairə isə bu xüsusiyyətləri özündə cəmləyən ən kamil həndəsi formadır: başlanğıcı və sonu olmayan, bütün nöqtələri mərkəzə bərabər məsafədə yerləşən qapalı çevrə. Məhz bu səbəbdən dairə türk–müsəlman memarlığında zəruri varlığın simvolik modeli kimi çıxış edir.

Türk–islam fəlsəfi ənənəsində məkan və forma məsələsini ilk sistemli şəkildə izah edən mütəfəkkirlərdən biri Əl-Fərabidir. O, varlığı yalnız maddi reallıq kimi deyil, ağıl vasitəsilə dərk edilən nizamlı sistem kimi izah edirdi. Əl-Fərabiyə görə, bütün varlıq mərtəbələri ali başlanğıcdan – İlk Səbəbdən – qaynaqlanır və Ona doğru yönəlir. Bu fəlsəfi baxış memarlıqda mərkəz anlayışını legitimləşdirir. Mərkəzə yönəlmiş plan – istər dairəvi məkan, istərsə də günbəzlə tamamlanan struktur – İlahi başlanğıcın məkan üzərində rasional və simvolik ifadəsidir. Beləliklə, türk–müsəlman memarlığında mərkəz təsadüfi plan elementi deyil, ontoloji iyerarxiyanın memarlıq ekvivalentidir (Al-Farabi 247).

İbn Sina ontologiyasında əsas anlayışlar "zəruri varlıq" və "mümkün varlıq" kateqoriyalarıdır. Zəruri varlıq – Allah – mütləq, dəyişməz və kamildir; mümkün varlıqlar isə dəyişkən, zaman daxilində hərəkətdə olan mövcudatlardır. Bu ikili struktur memarlıqda yer–göy münasibəti şəklində simvolikləşir. Günbəz bu münasibətin ən kamil memarlıq ifadəsidir. O, aşağıda yerləşən maddi məkanı (yer) yuxarıda yerləşən İlahi səmanı (göy) birləşdirir. Günbəz altında formalaşan məkan artıq sırf fiziki sahə deyil, sakral məkan statusu qazanır. Bu səbəbdən məscid memarlığında günbəz təkcə örtük deyil, ontoloji keçid nöqtəsidir (Ibn Sina 231).

Şərq fəlsəfəsində ontoloji düşüncədə əsas dönüş nöqtəsi Molla Sədranın "substansial hərəkət" (əl-hərəkə əl-cövhariyyə) nəzəriyyəsi ilə bağlıdır. Bu nəzəriyyəyə görə varlıq yalnız zahiri dəyişmələrə məruz qalmır, onun mahiyyəti də daimi hərəkət və təkamül içərisindədir. Bu baxış memarlıq formalarının statik deyil, dinamik məna daşıyıcısı olduğunu göstərir. Dairəvi plan üzərində hərəkət edən insan – istər ibtidai sığınacaqda, istərsə də monumental məscid məkanında – əslində təkamül yolunu simvolik şəkildə təkrar edir (Mulla Sadra 50). Beləliklə, dairə memarlıqda yalnız tamamlanmış forma deyil, hərəkətin və qayıdışın geometrik modeli kimi çıxış edir.

Türk–müsəlman memarlığında günbəz altı məkan insan şüurunda xüsusi psixoloji və mənəvi təsir yaradır. Bu məkanlarda insan özünü mərkəzdə hiss edir, lakin eyni zamanda sonsuzluğa açılan səmanın altında olduğunu dərk edir. Bu paradoksal hiss – həm mərkəzilik, həm də fanilik – islam ontologiyasının əsas ideyalarından biridir. Memarlıq burada passiv mühit deyil, mənəvi təcrübəni formalaşdıran aktiv vasitədir. Günbəz insanı səssiz şəkildə İlahi vəhdət ideyasına yönəldir, onu maddi dünyanın pərakəndəliyindən çıxarıb kosmik nizama daxil edir (Eliade 98).

Türk–müsəlman memarlığında forma dəyişə, ölçülər böyüyə, materiallar təkmilləşə bilər, lakin ideya dəyişməz qalır. İbtidai konusvari daxma ilə monumental günbəzli məscid arasında miqyas fərqi olsa da, onların arxasında duran ontoloji məntiq eynidir. Bu isə, ənənənin əsas xüsusiyyətini – ideya səviyyəsində davamlılığı təsdiqləyir. Bu kontekstdə ənənə memarlıq tarixinin keçmiş mərhələsi deyil, davam edən metafizik proses kimi anlaşılmalıdır.

Aparılan fəlsəfi–ontoloji təhlil göstərir ki, türk–müsəlman memarlığında dairə və günbəz formaları yalnız tarixi və ya konstruktiv elementlər deyil, varlıq fəlsəfəsinin məkan üzərində təcəssümüdür. Əl-Fərabi, İbn Sina və Molla Sədra kimi mütəfəkkirlərin ontoloji konsepsiyaları bu formaların semantik dərinliyini izah etməyə imkan verir. Beləliklə, memarlıq ənənəsi metafizik biliyin nəsillərarası ötürülməsinin ən davamlı və təsirli vasitələrindən biri kimi çıxış edir.

3. Şəhər, kosmos və ilahi nizam – urbanistik məkanın metafizik strukturu

Türk–müsəlman memarlıq ənənəsində şəhərsalma yalnız sosial–iqtisadi və ya inzibati zərurətlərin nəticəsi kimi formalaşmamışdır. Şəhər burada kosmosun yerdəki modeli, insan həyatının İlahi nizamla

uzlaşdırıldığı məkan kimi dərk edilir. Bu baxımdan şəhərsalma memarlığın ən yüksək mərhələsi olmaqla yanaşı, metafizik düşüncənin məkan üzərində ən mürəkkəb ifadə formasıdır.

İbtidai dövrlərdən başlayaraq şəhərlərin dairəvi və ya mərkəzə yönəlmiş plan quruluşuna malik olması bu kosmik modelin davamlılığını göstərir. Şəhər artıq tək-tək tikililərin cəmi deyil, ontoloji bütövlüyü ifadə edən sistem kimi formalaşır. Bu sistemdə hər bir struktur – məscid, bazar, yaşayış məhəlləsi, müdafiə qurğusu – ümumi İlahi nizamın bir elementi kimi fəaliyyət göstərir.

Türk–müsəlman şəhərsalmasında əsas struktur elementi mərkəz anlayışıdır. Mərkəz şəhərin yalnız coğrafi nöqtəsi deyil, sakral nüvəsidir. Burada yerləşən əsas məscid, meydan və ya sitadel İlahi başlanğıcı simvolizə edir. Periferiya isə, bu mərkəzə tabe olan və onunla mənəvi əlaqədə olan zonalar kimi təşkil olunur (Grabar 112).

Bu planlaşdırma modeli ontoloji iyerarxiyanı məkan üzərində qurur:

- mərkəz – sabitlik, vəhdət və İlahi başlanğıc;
- çevrə – hərəkət, dəyişmə və insan fəaliyyətinin müxtəlif formaları.

Beləliklə, şəhər planı insanın İlahi başlanğıcdan uzaqlaşmadan maddi dünyada fəaliyyət göstərməsinin memarlıq modelinə çevrilir. Bu struktur təsadüfi urbanistik həll deyil, şüuraltı metafizik biliyin planlaşdırmaya yansımasıdır.

Türk–müsəlman şəhəri insanı yalnız yaşadan deyil, tərbiyə edən və formalaşdıran məkandır. Şəhər mühiti insanı İlahi nizamı dərk etməyə, mərkəzə doğru yönəlməyə təşviq edir. Küçələrin, meydanların, məhəllələrin məkan ardıcıllığı insanın gündəlik həyatında belə metafizik istiqamət yaradır. Bu baxımdan, şəhər insanın mənəvi təcrübəsinin davamlı fonudur. Məkan burada neytral deyil; o, insan şüurunu istiqamətləndirən aktiv elementdir. Türk–müsəlman şəhərsalmasında məkanın bu funksiyası xüsusilə güclüdür, çünki bütün planlaşdırma vahid İlahi prinsipə əsaslanır.

Zaman keçdikcə türk–müsəlman memarlığı yeni siyasi, iqtisadi və texnoloji şəraitə uyğunlaşmışdır. Materiallar dəyişmiş, ölçülər böyümüş, bədii ifadə zənginləşmişdir. Lakin bu dəyişikliklər ənənənin mahiyyətini deyil, formasını transformasiya etmişdir.

Ənənənin dəyişməz nüvəsi dairə, mərkəz, günbəz və vəhdət ideyasıdır. Bu nüvə ibtidai sığınacaqlardan monumental şəhərlərə qədər bütün mərhələlərdə qorunmuşdur. Bu fakt türk–müsəlman memarlığını yalnız tarixi üslub deyil, zamanlarüstü arxitektonik sistem kimi xarakterizə etməyə imkan verir.

Müasir dövrdə şəhərsalma və memarlıq praktikasında ənənə ilə əlaqənin zəifləməsi ciddi nəzəri və praktiki problemlər yaratmışdır. Funksionalizm və texnokratik yanaşmalar məkanı ontoloji və metafizik məzmundan ayırmış, şəhərləri mənəvi mərkəzdən məhrum strukturlara çevirmişdir. Bu kontekstdə türk–müsəlman memarlıq ənənəsinin öyrənilməsi yalnız tarixi maraq doğurmur, həm də müasir memarlıq böhranının fəlsəfi həlli üçün alternativ model təqdim edir. Ənənəyə qayıdış keçmişin mexaniki təkrarı deyil, məkanın yenidən mənalandırılmasıdır.

Ənənə ilə müasirlik arasında ziddiyyət deyil, dialektik münasibət mövcuddur. Türk–müsəlman memarlığında ənənənin davamlılığı bu dialektikanın uğurlu nümunəsidir. Ənənə burada yaradıcılığı məhdudlaşdırmır, əksinə, ona istiqamət verir. Müasir memarlıq ənənənin ontoloji əsaslarını dərk etməklə yeni formalar yarada bilər. Dairə, mərkəz və günbəz artıq konkret formalardan çox, prinsip və ideya kimi yenidən interpretasiya oluna bilər. Bu yanaşma memarlığı yenidən mənəvi və fəlsəfi dərinliyə qovuşdura bilər.

Nəticə

Aparılmış çoxsəviyyəli təhlillər göstərir ki, türk–müsəlman memarlığında ənənənin davamlılığı sırf tarixi, etnoqrafik və ya texniki hadisə deyil, ontoloji və metafizik zərurətdən qaynaqlanan sivilizasion fenomendir. İbtidai insan sığınacaqlarından başlayaraq neolit, eneolit və tunc dövrlərinin yaşayış məskənləri, daha sonra isə, İslam dövrünün monumental memarlıq və şəhərsalma nümunələrinə qədər uzanan arxitektonik xətt formanın deyil, mənanın davamlılığını əks etdirir. Bu baxımdan, ənənə türk–

müsəlman memarlığında statik keçmiş deyil, varlıq haqqında ilkin biliyin zaman daxilində qorunaraq təzahürü kimi çıxış edir.

Tədqiqat sübut edir ki, dairəvi plan, mərkəz ideyası və günbəz forması türk–müsəlman memarlığının əsas struktur kodlarını təşkil edir. Bu kodlar konstruktiv rahatlıq və ya estetik seçimlə məhdudlaşmır; onlar insanın kosmosu, varlığı və İlahi başlanğıcı dərk etmə formasının məkan üzərində qurulmuş simvolik modelidir. Dairə başlanğıcı və sonu olmayan bütövlüyü, mərkəz İlahi vahidliyi, günbəz isə yer ilə göy arasında metafizik əlaqəni ifadə edir. Beləliklə, memarlıq burada maddi fəaliyyət sahəsi olmaqdan çıxaraq ontoloji dilə çevrilir.

Araşdırma göstərir ki, türk–müsəlman memarlığında forma davamlılığı texniki vərdişlərin mexaniki ötürülməsi ilə deyil, metafizik yaddaşın nəsillərarası transmissiyası ilə təmin olunur. Bu yaddaş yazılı qaydalar və normativ traktatlardan daha çox, memarlıq praktikasının özündə – plan seçimində, mərkəzləşmədə, məkanın sakrallaşdırılmasında – yaşadılır. Memar çox zaman bu formaların fəlsəfi mənşəyini rasional şəkildə izah etməsə belə, ənənəvi formaya müraciət etməklə kollektiv ontoloji biliyin daşıyıcısına çevrilir.

Fəlsəfi müstəvidə aparılan təhlil sübut edir ki, türk–islam ontologiyasında Əl-Fərabi, İbn Sina və Molla Sədranın varlıq haqqında irəli sürdüyü konsepsiyalar memarlıqda birbaşa məkan modeli kimi təcəssüm edir. Zəruri və mümkün varlıq anlayışları, mərkəzə yönəlmiş kosmik struktur, substansial hərəkət ideyası memarlıq formalarında – xüsusilə günbəzli məkanlarda və mərkəzləşmiş şəhər planlarında – vizual və hissi səviyyədə dərk edilə bilən hala gəlir. Bu fakt memarlığın fəlsəfənin passiv tətbiqi deyil, fəlsəfi bilginin maddi təcəssümü olduğunu təsdiqləyir.

Şəhərsalma müstəvisində aparılan analizlər göstərir ki, türk–müsəlman şəhəri kosmosun miniatür modeli kimi formalaşmışdır. Şəhərin mərkəzində yerləşən sakral nüvə İlahi başlanğıcı təmsil edir, periferik zonalar isə bu mərkəzə tabe iyerarxik strukturu təşkil edir. Bu urbanistik model insanın maddi dünyada fəaliyyət göstərərkən İlahi mərkəzdən qopmamasını təmin edən məkan üzərində qurulmuş ontoloji nizamdır. Şəhər bu mənada yalnız yaşayış və istehsal mühiti deyil, insanın mənəvi təkamülünü istiqamətləndirən fəal strukturdur.

Müasir dövrdə ənənə ilə əlaqənin qırılması, memarlığın metafizik və ontoloji məzmundan uzaqlaşdırılması şəhərlərin mənəvi boşluqla üz-üzə qalmasına səbəb olmuşdur. Funksionalizm və texnokratik yanaşmalar məkanı yalnız utilitar obyektə çevirmiş, onu kosmik və İlahi nizamdan ayırmışdır. Bu kontekstdə türk–müsəlman memarlıq ənənəsinin öyrənilməsi təkcə tarixi və nəzəri əhəmiyyət daşımır, eyni zamanda müasir memarlıq böhranının fəlsəfi alternativini təqdim edir.

Tədqiqatın əsas nəticələrindən biri ondan ibarətdir ki, ənənəyə qayıdış keçmişin mexaniki təkrarı kimi başa düşülməməlidir. Əksinə, bu qayıdış ənənənin ontoloji mahiyyətinin dərk edilməsi və onun müasir kontekstdə yaradıcı şəkildə reinterpretasiyasıdır. Dairə, mərkəz və günbəz artıq konkret formalardan çox, prinsip və ideya kimi müasir memarlıqda yenidən düşünülə bilər. Bu yanaşma memarlığı yenidən mənəvi dərinliyə, fəlsəfi məsuliyyətə və kosmik harmoniyaya bağlaya bilər.

Nəticə etibarilə demək olar ki, türk–müsəlman memarlığında ənənənin davamlılığı bəşər mədəniyyətində nadir rast gəlinən zamanlarüstü ontoloji sistem formalaşdırmışdır. Bu sistem insanın İlahi başlanğıcdan gəlib Ona qayıdış yolunu memarlıq vasitəsilə oxunaqlı hala gətirir. Memarlıq burada daş və məkan dili ilə danışan fəlsəfədir; şəhər isə kosmik nizamın yer üzərində qurulmuş modelidir. Məhz bu səbəbdən türk–müsəlman memarlıq ənənəsi yalnız keçmişin irsi deyil, gələcəyin mənəvi memarlığı üçün açar konsepsiyadır.

Ədəbiyyat

1. Eliade, Mircea. *The Sacred and the Profane*. Harcourt Brace, 1959.
2. Kərimov V. Azərbaycanın qədim məskənləri. Bakı 2013.
3. İsgəndərov V. Molla Sədra və mütəaliyə fəlsəfəsi. Bakı, 2012. s.208.
4. Grabar, Oleg. *The Formation of Islamic Art*. Yale University Press, 1987.

5. Sədra, Molla. *Əsfar əl-ərbəə*. Tehran: Dar al-Kutub, 2001.
6. Ахундов Д.А. Архитектура древнего и раннее средневекового Азербайджана. Аз.Гос. Изд. Баку, 1986.
7. Ахундов Д.А. Автореферат докторской диссертации «Особенности развития архитектуры древнего Азербайджана. Москва, 1980.
8. Большая Российская Энциклопедия, 2004. К.Н.Гаврилов.
9. Ветхий-Завет Берешит.
10. Грушка Э. Развитие градостроительства Братислава: Словацкой Академии Наук, 1963.
11. Джафарзаде И.М. Гобустан, Баку Елм, 1972 №167.
12. Ибн-Сина. Избранные философские произведения. М. 1980.
13. Эрдалан Л. Бахтияр «Традиции суфизма». 1972. Лондон-Чикаго
14. Фараби. Естественно-научные трактаты. Алма-Ата. 1987

AZƏRBAYCAN MEMARLIQ VƏ İNŞAAT UNİVERSİTETİ

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FƏLSƏFƏ VƏ SOSİOLOGİYA İNSTİTUTU

Tərtibçilər:

Rauf Məmmədov (Azərbaycan Memarlıq və İnşaat Universiteti)

Qabil Camalov (AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutu)

Kompüter dizaynı:

Lalə Əliyeva (AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutu)

Mirzəxanova Sona (Azərbaycan Memarlıq və İnşaat Universiteti)